Yekun variant
Dekabr 2023-cü il

Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı

AMM-lər üçün BAS

və

AMM-lər üçün BAS-dan irəli gələn digər beynəlxalq standartlara edilən müvafiq düzəlişlər

IAASB International Auditing and Assurance Standards Board

İctimai marağın artırılması

IAASB-nin "Az **mürəkkəb müəssisələrin maliyyə hesabatlarının** auditi **üzrə Beynəlxalq** Audit **Standartı" (AMM-lər** üçün BAS) üçün POIB-nin **sertifikatı**

İctimai maraqlara nəzarət şurası (PIOB) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) "*AMM-lər üçün BAS"*-ın tam işlənib hazırlanması dövrü ərzində standartların müəyyən edilməsi prosesinə nəzarət etmişdir.

Tövsiyələr və PIOB tərəfindən qaldırılan və standartların müəyyən edilməsi prosesində IAASB-yə təqdim edilən ictimai maraqla bağlı məsələlər PIOB-un internet saytından əldə edilə bilər.

IAASB Standartın razılaşdırılmış prosedura uyğun olaraq işlənib hazırlanması və Standartda tətbiq olunan və PIOB-nin internet saytından əldə edilə bilən ictimai maraq strukturunun (PIF) konsepsiya və prinsiplərinə əsaslanan ictimai maraqlara uyğun olmasına dair yazılı bəyanat təqdim etmişdir[1].

PIOB hesab edir ki, Standart razılaşdırılmış prosedura uyğun olaraq işlənib hazırlanmışdır. PIOB həmçinin hesab edir ki, Standart PIF-in konsepsiya və prinsiplərinə əsaslanan ictimai maraqlara cavab verir.

Dekabr 2023-cü il

[1] İctimai maraq strukturu

IAASB haqqında

Bu sənəd Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası (IAASB) tərəfindən hazırlanmış və təsdiq edilmişdir.

IAASB-nin məqsədi yüksək keyfiyyətli audit, təsdiqləmə və digər əlaqəli xidmətlər üzrə standartlar hazırlayıb tətbiq etməklə, habelə beynəlxalq və milli audit və təsdiqləmə standartlarının uyğunlaşmasını asanlaşdırmaqla, bununla da bütün dünyada bu fəaliyyətin keyfiyyətini və ardıcıllığını artırmaqla qlobal audit fəaliyyətinə və auditor peşəsinə ictimai inamı gücləndirməklə ictimai maraqlara xidmət etməkdir.

IAASB, IAASB-nin fəaliyyətinə nəzarət edən İctimai maraqlara nəzarət şurasının, habelə standartların və təlimatların hazırlanmasında ictimai maraqların nəzərə alınmasını təmin edən IAASB-nin konsultativ-məsləhətçi qrupunun iştirakı ilə ümumi standartların müəyyən edilməsi prosesi çərçivəsində bütün peşəkar mühasiblər tərəfindən istifadə üçün audit və təsdiqləmə standartlarını və təlimatlarını hazırlayır.

Müəlliflik hüququ, əmtəə nişanı və icazələr ilə bağlı məlumat üçün bax: səhifə 155.

MÜNDƏRİCAT

Səh.

Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı 5

AMM üçün BAS-dan irəli gələn müvafiq düzəlişlər.....146

AZ MÜRƏKKƏB MÜƏSSİSƏLƏRİN MALİYYƏ HESABATLARININ AUDİTİ ÜZRƏ BEYNƏLXALQ AUDİT STANDARTI

(Az mürəkkəb müəssisələrin 15 dekabr 2025-ci il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır)

MÜNDƏRİCAT

Səh.

"AMM üçün BAS"-a ön söz 7
Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə BAS-ın əhatə dairəsi 11
1. Təməl anlayışlar, ümumi prinsiplər və ümumi tələblər 17
1.1. Qüvvəyə minmə tarixi 17
1.2. Müvafiq etik normalar və şirkət səviyyəsində keyfiyyətin idarə edilməsi 17
1.3. Auditorun ümumi məqsədləri 18
1.4. Auditin aparılması üçün əsas anlayışlar və ümumi prinsiplər 19
1.5. Dələduzluq 20
1.6. Qanun və qaydalar 21
1.7. Əlaqəli tərəflər 23
1.8. Rəhbərlik və idarəetməyə məsul şəxslər ilə məlumat mübadiləsi 23
1.9. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər 25
2. Audit sübutları və sənədləşdirilmə 26
2.1. Məqsədlər 26
2.2. Yetərli müvafiq audit sübutları 26
2.3. Audit sübutu kimi istifadə ediləcək məlumatlar 26
2.4. Sənədləşdirilmə ilə bağlı ümumi tələblər 28
3. Tapşırığın keyfiyyətinin idarə edilməsi 31
3.1. Məqsəd 31
3.2. Tapşırıq üzrə tərəfdaşın məsuliyyətləri 31
3.3. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər 35
4. Audit tapşırığının və ilkin audit tapşırıqlarının qəbulu və ya davam etdirilməsi 36
4.1. Məqsədlər 36
4.2. Audit üçün ilkin şərtlər 37
4.3. Audit tapşırığının qəbul edilməsi və ya davam etdirilməsi ilə bağlı mülahizələr 37
4.4. Audit tapşırığının şərtləri 38
4.5. İlkin audit tapşırıqları 39
4.6. Məlumatvermə ilə bağlı xüsusi tələblər 40
4.7. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər 40
5. Planlaşdırma 42
5.1. Məqsədlər 42
5.2. Planlaşdırma tədbirləri 42
5.3. Əhəmiyyətlilik 45
5.4. Məlumatvermə ilə bağlı xüsusi tələblər 47
5.5. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər 47
6. Risklərin aşkar edilməsi və qiymətləndirilməsi 49
6.1. Məqsədlər 49
6.2. Risklərin və əlaqəli fəaliyyətlərin aşkar edilməsi və qiymətləndirilməsi prosedurları 49
6.3. Müəssisənin müvafiq aspektləri barədə təsəvvürün əldə edilməsi 52
6.4. Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi 61
6.5. "AMM üçün BAS"-dan istifadənin uyğunluğunun dəyərləndirilməsi 65
6.6. Məlumatvermə ilə bağlı xüsusi tələblər 65
6.7. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər 65
7. Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri 67
7.1. Məqsədlər 67
7.2. Maliyyə hesabatları səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək üçün nəzərdə tutulan audit prosedurları 67

7.3. Təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək üçün nəzərdə tutulan audit prosedurları 69
7.4. Xüsusi diqqət tələb edən sahələr....76
7.5. Təhriflərin toplanması 86
7.6. Məlumatvermə ilə bağlı xüsusi tələblər 87
7.7. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər....88
8. Nəticələrin hazırlanması....90
8.1. Məqsədlər....90
8.2. Audit zamanı aşkar edilən təhriflərin dəyərləndirilməsi....90
8.3. Ümumi nəticənin formalaşdırılmasına kömək edən analitik prosedurlar 90
8.4. Sonrakı hadisələr 91
8.5. Auditorun dəyərləndirmələri və auditorun nəticəsini əsaslandırmaq üçün görülən digər tədbirlər....93
8.6. Yazılı təqdimatlar....95
8.7. Keyfiyyətin idarə edilməsi və təmin olunması üzrə ümumi məsuliyyət 97
8.8. Məlumatvermə ilə bağlı xüsusi tələblər 97
8.9. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər....98
9. Rəyin formalaşdırılması və hesabatvermə 100
9.1. Məqsədlər....100
9.2. Maliyyə hesabatları üzrə rəyin formalaşdırılması....100
9.3. Auditor rəyinin forması....101
9.4. Auditor hesabatı 102
9.5. Fərqli rəyin təqdim edilməsi....105
9.6. Auditor hesabatında digər paraqraflar 111
9.7. Müqayisəli məlumatlar – müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları....113
9.8. Digər məlumatlar....114
9.9. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər....116
10. Qrup maliyyə hesabatlarının auditi....117
10.1. Məqsəd....117
10.2. Planlaşdırma tədbirləri 117
10.3. Əhəmiyyətlilik....118
10.4. Qrup və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və qrupun daxili nəzarət sistemi barədə təsəvvürün əldə edilməsi 119
10.5. Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi 119
10.6. Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirlərinin görülməsi....120
10.7. Məlumatvermə ilə bağlı xüsusi tələblər 121
10.8. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər....121
ƏLAVƏ 1....122
ƏLAVƏ 2....134
ƏLAVƏ 3....137
ƏLAVƏ 4....138
ƏLAVƏ 5....141
ƏLAVƏ 6....143
ƏLAVƏ 7....144

“AMM üçün BAS”-a ön söz

P.1. Bu standart (yəni, “AMM üçün BAS”) özəl və dövlət sektorlarında fəaliyyət göstərən az mürəkkəb müəssisələrin (AMM-lər) maliyyə hesabatlarının auditi zamanı, maliyyə hesabatlarının bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olub-olmaması barədə ağlabatan əminlik əldə etmək üçün nəzərdə tutulmuşdur. Bu standart AMM-in maliyyə hesabatlarının auditinin xüsusiyyətini və şəraitlərini əks etdirmək və keyfiyyətli audit tapşırığının ardıcıl icrasını təmin etmək üçün hazırlanmışdır. Bu standart 1 saylı Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartının (BKİS)[2] və ya ən azı onu qədər sərt olan milli tələblərə tabe olması şərtinə əsaslanır. Keyfiyyətli audit tapşırığı üçün tapşırıq peşəkar standartlara və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun olaraq planlaşdırılır, yerinə yetirilir və tapşırıq barədə hesabat verilir. Bu standartın məqsədinə nail olmaq üçün peşəkar mühakimə yürüdülməli və peşəkar inamsızlıq tətbiq edilməlidir.

P.2. Bu standart A Hissəsində nəzərdə tutulduğu kimi AMM-in ümumi təyinatlı maliyyə hesabatlarının tam dəstinin auditinə aid edilir. O, həmçinin, yalnız A Hissəsində qeyd edildiyi kimi müəssisə AMM olduğu halda, tapşırığın şəraitlərinə uyğun olaraq, xüsusi təyinatlı maliyyə hesabatlarının tam dəstinin auditinə, yaxud tək maliyyə hesabatının və ya maliyyə hesabatının müəyyən elementinin, hesabının və ya maddəsinin auditinə uyğunlaşdırıla bilər.

P.3. Bu standartdan istifadə edilərək audit tapşırığı yerinə yetirildikdə, həmin tapşırığa Beynəlxalq Audit Standartları şamil olunmur.

P.4. A Hissəsində “AMM üçün BAS”-ın müvafiq istifadəsini müəyyən edən səlahiyyətli orqan qeyd edilir. Bu standartdan istifadə olunması ilə bağlı tələb və ya icazə verilməsi barədə qərarlar, o cümlədən bu standarta uyğun olaraq auditin istifadə oluna biləcəyi müəssisə növlərinin təsviri qanunverici və tənzimləyici orqanlar və ya standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar tərəfindən verilir.

P.5. Bu standart A Hissəsində nəzərdə tutulmayan audit tapşırıqları üçün istifadə edildiyi halda, auditora hesabatında “AMM üçün BAS”-a uyğunluğu bildirməyə icazə verilmir.

P.6. Bu standart müəyyən bir yurisdiksiyada maliyyə hesabatlarının auditini tənzimləyən yerli qanun və ya qaydaları əvəz etmir. “AMM üçün BAS” qanun və ya qaydalarda ola bilən auditorun öhdəliklərini əhatə etmir. Bu cür məsuliyyətlər bu standartda müəyyən edilmiş öhdəliklərdən fərqli ola bilər və bütün müvafiq qanun, qayda və ya peşəkar öhdəliklərə riayət olunmasını təmin etmək auditorun məsuliyyətidir.

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri

P.7. Auditi aparılmalı olan maliyyə hesabatları müəssisənin rəhbərliyi tərəfindən idarəetməyə məsul şəxslərin nəzarəti ilə hazırlanmış müəssisənin maliyyə hesabatlarıdır. Maliyyə hesabatlılığı ilə bağlı rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyətləri qanun və ya qaydalarda müəyyən edilə bilər. Bu standart nə rəhbərliyin, nə də idarəetməyə məsul şəxslərin üzərinə məsuliyyət qoymur və onların məsuliyyətlərini tənzimləyən qanun və ya qaydaları əvəz etmir. Bununla belə, bu standarta uyğun audit o şərtlə aparılır ki, rəhbərlik və lazım gəldikdə, idarəetməyə məsul şəxslər auditin aparılması üçün əsas olan müəyyən məsuliyyətləri qəbul etsinlər. Maliyyə hesabatlarının auditi rəhbərliyi və ya idarəetməyə məsul şəxsləri öz məsuliyyətlərindən azad etmir.

[2] 1 saylı Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartı (BKİS) 1, *“Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlər üçün keyfiyyətin idarə edilməsi”*

Rəhbərliyin və idarəetməyə məsul şəxslərin maliyyə hesabatlarının hazırlanması üzrə məsuliyyətləri

Rəhbərliyin məsuliyyətlərinin həcmi və ya onların təsvir olunma tərzi yurisdiksiyalar üzrə fərqli ola bilər. Bu məsuliyyətlərin həcmi və ya onların təsvir olunma tərzi fərqli olsa da, bu standarta uyğun audit o şərtlə aparılır ki, rəhbərlik və lazım gəldikdə, idarəetməyə məsul şəxslər aşağıdakı məsuliyyətlərini qəbul edib və başa düşüblər:

- *Maliyyə hesabatlarının tətbiq olunan maliyyə hesabatları çərçivələrinə uyğun hazırlanması, o cümlədən müvafiq hallarda onların ədalətli təqdim edilməsi üçün;*
- *Dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin və ya müvafiq hallarda idarəetməyə məsul şəxslərin zəruri hesab etdiyi daxili nəzarət üçün; habelə*
- *Auditora maliyyə hesabatlarının hazırlanması ilə əlaqəli olduqlarını bildiyi bütün məlumatlara maneəsiz çıxış imkanının təmin edilməsi, auditorun tələb edə biləcəyi əlavə məlumatların təqdim edilməsi və auditorun audit sübutları əldə etmək üçün zəruri hesab etdiyi müəssisədəki şəxslərə məhdudiyyətsiz çıxışın təmin edilməsi üçün.*

P.8. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri çox vaxt səlahiyyətli və ya tanınmış standartlaşdırma təşkilatı tərəfindən müəyyən edilmiş maliyyə hesabatları standartlarını, yaxud qanun və ya qaydaların tələblərini əhatə edir.

P.9. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri maliyyə hesabatlarının forma və məzmununu müəyyən edir. Bu çərçivələr bütün əməliyyatların və ya hadisələrin necə uçota alınacağını və ya açıqlanacağını müəyyən etməsə də, onlar adətən tələblərinin əsasını təşkil edən konsepsiyalarına uyğun uçot siyasətinin işlənib hazırlanması və tətbiqi üçün zəmin ola biləcək kifayət qədər geniş prinsipləri özündə cəmləşdirir.

P.10. Maliyyə hesabatları çərçivələrinin bəziləri ədalətli təqdimat çərçivələri, digərləri isə uyğunluq çərçivələridir. Hazırki standartda hər iki çərçivə əhatə edilir. “Ədalətli təqdimat çərçivələri” termini bu çərçivələrin tələblərinə uyğunluğu tələb edən və aşağıdakı şərtlərə cavab verən maliyyə hesabatları çərçivələrinə aiddir:

(a) Açıq şəkildə və ya dolayısı ilə etiraf edir ki, maliyyə hesabatlarının ədalətli təqdimatına nail olmaq üçün rəhbərliyin çərçivələrdə xüsusi olaraq tələb olunanlardan kənar açıqlamalar təqdim etməsi lazım ola bilər; yaxud

(b) Açıq şəkildə etiraf edir ki, maliyyə hesabatlarının ədalətli təqdimatına nail olmaq üçün rəhbərliyin çərçivələrin tələblərindən kənara çıxması zəruri ola bilər. Bu cür gedişlərin yalnız son dərəcə nadir hallarda zəruri olacağı ehtimal edilir.

“Uyğunluq çərçivələri” termini bu çərçivələrin tələblərinə riayət olunmasını tələb edən, lakin yuxarıda (a) və ya (b) bəndlərində qeyd edilən təsdiqləmələri özündə əks etdirməyən maliyyə hesabatları çərçivələrinə istinad etmək üçün istifadə olunur.

Maliyyə hesabatlarının auditi

P.11. Auditin məqsədi nəzərdə tutulan istifadəçilərin maliyyə hesabatlarına olan inam dərəcəsini artırmaqdır. Bu, auditorun maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun tərtib edilib-edilməməsinə dair rəy bildirməsi ilə nail olunur. Auditor rəyinin əsasını təşkil etmək üçün bu standart auditorun maliyyə hesabatlarında bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmaması barədə ağlabatan əminlik əldə etməsini tələb edir.

P.12. Ağlabatan əminlik əminliyin yüksək səviyyəsidir. O, audit riskini (yəni, maliyyə hesabatları əhəmiyyətli dərəcədə təhrif olunduqda auditorun qeyri-müvafiq rəy verməsi ilə bağlı riski) məqbul dərəcədə aşağı səviyyəyə azaltmaq üçün auditorun yetərli müvafiq audit sübutu əldə etməsi nəticəsində əldə edilir. Bununla belə, ağlabatan əminlik əminliyin mütləq səviyyəsi deyil, çünki auditin tərkib məhdudiyyətləri var ki, bu da auditorun onlara əsaslanaraq nəticə çıxardığı və rəyini əsaslandırdığı audit sübutlarının əksəriyyəti qəti deyil, inandırıcı olması ilə nəticələnir.

Auditin tərkib məhdudiyyətləri

Audit riski əhəmiyyətli təhrif risklərinin və aşkarlamama riskinin funksiyasıdır. Əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsi bu məqsəd üçün zəruri olan məlumatları əldə edilməsi üzrə audit prosedurlarına və audit zamanı əldə edilmiş sübutlara əsaslanır. Əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsi dəqiq ölçülə bilən məsələ deyil, peşəkar mühakiməyə əsaslanan prosesdir.

Auditin tərkib məhdudiyyətləri səbəbindən, auditin bu standarta uyğun olaraq düzgün planlaşdırılmasına və aparılmasına baxmayaraq, maliyyə hesabatlarında bəzi əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski qaçılmazdır. Müvafiq olaraq, dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhrifin sonradan aşkar edilməsi özlüyündə auditin bu standarta uyğun olaraq aparılmadığını bildirmir. Bununla belə, auditin tərkib məhdudiyyətləri auditorun o qədər də inandırıcı olmayan audit sübutları ilə kifayətlənməsi üçün bəhanə ola bilməz.

“AMM üçün BAS”-ın formatı

P.13. “AMM üçün BAS” aşağıdakılardan ibarətdir:

(a) Hissə A - “AMM üçün BAS”-ın uyğun şəkildə istifadəsini müəyyən etmək səlahiyyəti müəyyən edilir.

(b) 1-ci hissə - Audit zamanı tətbiq olunacaq əsas anlayışlar, ümumi prinsiplər və ümumi tələblər müəyyən edilir.

(c) 2-ci hissə - Audit sübutları və auditin sənədləşdirilməsi ilə bağlı ümumi tələblər, həmçinin auditin ümumi məqsədi müəyyən edilir.

(d) 3-cü hissə - AMM-in auditində keyfiyyətin idarə edilməsi üzrə auditorun və tapşırıq üzrə tərəfdaşın öhdəlikləri və məsuliyyətləri müəyyən edilir.

(e) 4-9-cu hissələr - Audit tapşırığının gedişatı izlənilir və auditə dair təfərrüatlı tələblər müəyyən edilir. Bu hissələrin hər biri, lazım olduqda, məlumatvermə və sənədləşdirilmə ilə bağlı xüsusi tələbləri də ehtiva edir.

(f) 10-cu hissə - Qrup maliyyə hesabatlarının auditinə aid olan xüsusi mülahizələr əks etdirilir.

(g) Əlavələr - Bu standartda istifadə olunan terminlərin lüğəti, təsdiqləmələr, məktub-saziş nümunəsi və təqdimat məktubunun nümunəsi, habelə bu standartın tələblərinin yerinə yetirilməsi üçün digər müvafiq əsaslandırıcı materiallar ehtiva edilir.

P.14. 1-10-cu hissələrin məzmununa daxildir: 1–10-cu hissələr

(a) Hər bir hissənin əvvəlində ayrıca xana daxilində təqdim olunan giriş materialı, həmin hissənin məzmununu və əhatə dairəsini izah edir (lakin auditor üçün əlavə öhdəliklər yaratmır).

(b) Məqsəd(lər) – həmin hissədəki tələblərlə auditin ümumi məqsədini əlaqələndirir.

(c) Yerinə yetirilməli olan tələblər – yalnız tələbin şərti xarakter daşıdığı və həmin şərtin mövcud olmadığı hallar istisnadır. Tələblər “-malı, -məli” şəkilçisi ilə ifadə edilir.

(d) Əsas izahedici material (ƏİM) - alt bölməyə və ya konkret tələbə aid əlavə izahat vermək üçün nəzərdə tutulmuşdur. Bütün ƏİM-lər ayrıca mavi xanalarda kursivlə təqdim olunur. İki növ ƏİM olur: ümumi giriş ƏİM-i - sonrakı bölmənin kontekstini izah edən və konkret tələbə aid ƏİM - birbaşa yuxarıdakı tələbi izah edir.

Konkret tələblər və ƏİM yalnız tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduqda tətbiq edilir. Bu cür tələblər və ƏİM "Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr" başlığı ilə xanada təqdim olunur.

P.15. Bu standartın məqsədi üçün müəyyən terminlərə aid edilən mənaları təsvir edən anlayışlar Əlavə 1-də "Terminlər lüğətində" verilir. Bu anlayışlar tələblərin ardıcıl tətbiq və şərh edilməsində kömək edir və qanun və ya qaydalarda başqa məqsədlər üçün müəyyən edilən anlayışları əvəz etmək məqsədi daşımır.

P.16. Bu standartın məqsədləri üçün "AMM" və ya "müəssisə" terminləri qrupa da aiddir (yəni, audit qrup maliyyə hesabatlarının auditi olduqda).

Qeyri-rəsmi köməkçi materiallar

P.17. IAASB (Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası), "AMM üçün BAS"-ın tətbiq edilməsini təmin etmək üçün öz əməkdaşlarının nəşrlərini və ya digər qeyri-rəsmi materiallar nəşr edə bilər.

Dövlət sektorundakı müəssisələr

P.18. Bu standart, yalnız A hissəsindəki "Səlahiyyət" bölməsində qeyd olunan mülahizələrin tətbiq edildiyi halda dövlət sektorunda həyata keçirilən tapşırıqlara aiddir. Bununla belə, dövlət sektorunda çalışan auditorun məsuliyyətlərinə audit mandatı və ya qanun, qayda və ya digər rəhbər sənəddən (məsələn, nazirliyin direktivləri, hökumət siyasətinin tələbləri və ya qanunverici orqanın qərarları kimi) irəli gələn dövlət sektorundakı müəssisələrin üzərindəki öhdəliklər təsir edə bilər ki, bu da hazırki standarta uyğun olaraq maliyyə hesabatlarının auditindən daha geniş əhatə dairəsini ehtiva edə bilər. Bu əlavə məsuliyyətlər hazırki standartda nəzərdə tutulmur. Onlar Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının və ya milli standartlaşdırma qurumlarının sənədlərində və ya dövlət sektorundakı audit qurumları tərəfindən hazırlanmış təlimatlarda əks etdirilə bilər.

P.19. Dövlət sektorunda fəaliyyət göstərən müəssisəsi tərəfindən istifadə edilən maliyyə hesabatlarının tətbiq olunan çərçivələri hər bir yurisdiksiyaya və ya hər bir coğrafi əraziyə aid olan normativ-hüquqi çərçivələr əsasında müəyyən edilir. Müəssisə tərəfindən maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri tətbiq edilərkən nəzərə alına biləcək, eləcə də onun müəssisənin və mühitinin xüsusiyyəti və şəraiti kontekstində necə tətbiq olunduğuna dair müəssisənin nəzərə ala biləcək məsələlərə müəssisənin "İctimai sektor üçün Beynəlxalq Mühasibat Uçotu Standartları"na uyğun olaraq mühasibat uçotunun tam hesablama metodunu və ya mühasibat uçotunun kassa metodunu, yoxsa hibrid metodu tətbiq edib-etməməsinin nəzərdən keçirilməsi daxildir.

P.20. Dövlət sektorunda fəaliyyət göstərən müəssisənin mülkiyyət anlayışı özəl sektordakından fərqli ola bilər, çünki müəssisə ilə bağlı qərarlar siyasi proseslər nəticəsində müəssisədən kənarda verilə bilər. Buna görə də rəhbərlik verilən müəyyən qərarlara nəzarət edə bilmir. Müvafiq ola biləcək məsələlərə müəssisənin birtərəfli qərarlar vermək qabiliyyəti və dövlət sektorunda fəaliyyət göstərən digər müəssisələrin həmin müəssisənin mandatına və strateji istiqamətinə nəzarət etmək və ya təsir göstərmək imkanı barədə təsəvvürün əldə edilməsi daxildir.

P.21. Müvafiq olduqda, dövlət sektorunda fəaliyyət göstərən müəssisələrə xas olan əlavə mülahizələr ƏİM-ə daxil edilmişdir.

Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə BAS-ın əhatə dairəsi

Bu hissənin məzmunu

Hissə A - “AMM üçün BAS”-ın uyğun şəkildə istifadəsini müəyyən etmək səlahiyyəti müəyyən edilir.

“AMM üçün BAS” bu hissədə təsvir olunan AMM-in səciyyəvi xüsusiyyəti və şəraitlərini nəzərə alaraq, auditorun ümumi məqsədlərinə nail olmaq üçün nəzərdə tutulmuşdur. “AMM üçün BAS”-ın istifadəsi ilə bağlı üç kateqoriyaya bölünən məhdudiyyətlər tətbiq edilir: xüsusi qadağalar, keyfiyyət xüsusiyyətləri və kəmiyyət hədləri. A hissəsində həmçinin qanunverici və ya tənzimləyici orqanların, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumların bu standartdan müvafiq istifadənin təmin edilməsi üzrə məsuliyyətləri təsvir edilir. “AMM” və ya “müəssisə” terminləri həmçinin qrupa (yəni, audit qrup maliyyə hesabatlarının auditi olduqda) şamil olunur.[3]

Bu “AMM üçün BAS”-da əks etdirilən tələblər AMM-in auditinin səciyyəvi xüsusiyyəti və şəraitlərinə mütənasib şəkildə hazırlanmışdır (yəni, onlar mürəkkəb məsələlərə və ya şəraitlərə aid deyil). “AMM üçün BAS” bu standartın nəzərdə tutulan əhatə dairəsindən kənar audit üçün istifadə olunduqda, “AMM üçün BAS”-ın tələblərinə riayət etmə ağlabatan əminlik rəyini əsaslandırmaq üçün auditorun yetərli müvafiq audit sübutu əldə etməsi üçün kifayət etməyəcək.

“Standartın əhatə dairəsi üzrə əlavə təlimat”da (“Əhatə dairəsi üzrə əlavə təlimat”) bu hissədə təsvir edilən müvafiq məsuliyyətlərini əks etdirərkən qanunverici və ya tənzimləyici orqanlar, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar üçün əlavə tövsiyələr təqdim edilir. Bundan əlavə, “Əhatə dairəsi üzrə əlavə təlimat” “AMM üçün BAS”-ın istifadəsinin məqsədəuyğun olub-olmadığını müəyyən etmək üçün şirkətlər və auditorların nəzərə ala biləcəkləri məsələləri daha ətraflı izah edir.

“AMM üçün BAS”-ın istifadəsinə dair məhdudiyyətlər

“AMM üçün BAS”-ın istifadəsinə dair məhdudiyyətlər üç kateqoriyaya bölünür:

- *“AMM üçün BAS”-ın istifadəsinin qadağan olunduğu xüsusi müəssisə növləri (yəni, xüsusi qadağalar);*
- *AMM-i təsvir edən və müəssisədə müşahidə olunmadığı təqdirdə, həmin müəssisənin maliyyə hesabatlarının auditində “AMM üçün BAS”-ın tətbiq edilməsini istisna edən keyfiyyət xüsusiyyətləri; habelə*
- *Hər bir yurisdiksiyada qanunverici və ya tənzimləyici orqanlar, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar tərəfindən müəyyən edilən kəmiyyət hədləri.*

“AMM üçün BAS”-ın uyğun istifadəsinin müəyyən edilməsində hər üç kateqoriya nəzərə alınmalıdır.

[3] “Qrup” - qrup maliyyə hesabatların onun üçün tərtib edildiyi hesabat verən müəssisədir, “qrup maliyyə hesabatları” isə konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatlarını özündə əks etdirən maliyyə hesabatlarıdır. “AMM üçün BAS”-da istifadə edilən “konsolidasiya prosesi” termini maliyyə hesabatları çərçivələrində müəyyən edilmiş və ya təsvir edilən “konsolidasiya” və ya “konsolidə edilmiş maliyyə hesabatları” anlayışları ilə eyni məna daşımır. Əvəzində, “konsolidasiya prosesi” termini daha geniş mənada qrup maliyyə hesabatlarının hazırlanması üçün istifadə olunan prosesə aiddir. “Terminlər lüğəti”ndə (Əlavə 1) “AMM üçün BAS”-ın məqsədləri üçün müəyyən terminlərə aid edilən mənalar, o cümlədən “qrup” və “qrup maliyyə hesabatları” terminlərinin mənası təsvir edilir.

Xüsusi qadağalar

A.1. paraqrafında bu standartdan istifadənin xüsusi olaraq qadağan olunduğu müəssisələrin növləri müəyyən edilir.

A.1. Aşağıdakı hallarda “AMM üçün BAS”-dan istifadə edilməməlidir:

(a) Qanun və ya qaydalarla “AMM üçün BAS”-ın istifadəsi qadağan edilir və ya həmin yurisdiksiyada maliyyə hesabatlarının auditində “AMM üçün BAS”-dan fərqli audit standartlarının istifadəsi müəyyən edilir.

(b) Müəssisə listinq subyektidir.

(c) Müəssisə aşağıdakı növlərdən birinə aiddir:

(i) Əsas funksiyalarından biri əhalidən əmanət götürmək olan müəssisə;

(ii) Əsas funksiyalarından biri əhalini sığorta ilə təmin etmək olan müəssisə; yaxud

(iii) Yurisdiksiyadakı qanunverici və ya tənzimləyici orqan, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurum tərəfindən “AMM üçün BAS”-dan istifadəsinin qadağan edildiyi müəssisə növü.

(d) Audit qrup maliyyə hesabatlarının auditidir (qrup auditi) və:

(i) Qrupdakı hər hansı bir müəssisə və ya struktur vahidi A.1.(b) və ya A.1.(c) paraqraflarında təsvir olunan meyarlara cavab verir; yaxud

(ii) Bölmə auditorunun iştirakı qrup auditində konkret audit proseduru üçün bölmə auditorunun fiziki iştirakı tələb olunduğu şəraitlərlə məhdudlaşdığı hallar (məs., inventarlaşdırmada iştirak, yaxud aktivlərə və ya sənədlərə baxış) istisna olmaqla, bölmə auditorları cəlb edilmişdir.

Vahid hüquqi şəxs birdən çox struktur vahidindən təşkil oluna bilər, məsələn, bir neçə filialı olan mağaza kimi bir neçə yerdə fəaliyyət göstərən şirkət. Bu struktur vahidlərinin məkanları, rəhbərliyi, baş kitabı kimi xüsusiyyətləri ayrı olduqda və maliyyə məlumatları vahid hüquqi şəxsin maliyyə hesabatları hazırlanarkən birləşdirildikdə, bu cür maliyyə hesabatları qrup maliyyə hesabatlarının tərifinə uyğun gəlir, çünki onlar konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatlarını əhatə edir.

Bəzi hallarda, vahid hüquqi şəxs öz məlumat sistemini elə konfiqurasiya edə bilər ki, qanunverici və ya tənzimləyici orqanlara hesabatvermə və ya digər idarəetmə məqsədləri üçün birdən çox məhsul və ya xidmət xətti üzrə maliyyə məlumatlarını toplasın. Bu şəraitdə müəssisənin maliyyə hesabatları qrup maliyyə hesabatları deyil, çünki konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatları aqreqasiya edilmir. Bundan əlavə, qanunverici və ya tənzimləyici orqanlara hesabatvermə və ya digər idarəetmə məqsədləri üçün ayrıca məlumatların (məs., köməkçi mühasibat jurnalında) əldə edilməsi bu “AMM üçün BAS”-ın məqsədləri üçün ayrıca müəssisələr və ya struktur vahidləri (məs., bölmələr) yaratmır.

Bölmə auditorları

Bölmə auditoru qrup auditinin məqsədləri üçün bölməyə[4] aid audit işini yerinə yetirən auditordur. Bölmə auditoru qrup auditi üzrə tapşırıq qrupunun üzvüdür. Bölmə auditorları şəbəkə şirkətindən, şəbəkəyə daxil olmayan şirkətdən və ya qrup auditorunun çalışdığı şirkətdən (məs., qrup auditorunun çalışdığı şirkətin başqa ofisindən) ola bilər.

Bəzi şəraitlərdə qrup auditoru əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üzrə mərkəzləşdirilmiş testlər keçirə və ya bölmə ilə bağlı audit prosedurlarını tətbiq edə bilər. Bu şəraitdə

qrup auditoru bölmə auditoru hesab edilmir.

3-cü hissə müvafiq etik normalar də daxil olmaqla tapşırığın keyfiyyəti ilə bağlı tələbləri, tapşırıq qrupunun üzvlərinə rəhbərlik və nəzarət edilməsini və onların işinin təhlilini əhatə edir.

A.2. A.1.(a), (b) və (d) paraqraflarında qeyd edilən növləri birbaşa qadağalardır və onlara dəyişiklik edilə bilməz. Qanunverici və ya tənzimləyici orqanlar, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar A.1.(c) paraqrafında təsvir olunan hər bir növə dəyişiklik edə bilər, lakin növ tamamilə ləğv edilə bilməz.

A.1.(c) paraqrafında ictimai maraq doğuran xüsusiyyətlər nümayiş etdirən bəzi müəssisə növləri müəyyən edilir. İctimai maraq doğuran xüsusiyyətlərə malik olan müəssisələr faktiki və ya zahiri mürəkkəblik səviyyəsini təcəssüm etdirə bilər və onlara "AMM üçün BAS"-dan istifadə etmək konkret olaraq qadağandır. Dəyişiklik etmək üçün qadağan edilmiş müəssisələr siyahısına müəssisə növü əlavə edilə, növ daxilindəki xüsusi alt qruplara bu standartdan istifadə etmək imkanı verilə və ya bu standartdan istifadəni qadağan etmək üçün kəmiyyət hədlərindən istifadə edilə bilər. Qanunverici və ya tənzimləyici orqanlar, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar sonradan etdikləri dəyişiklikləri ləğv edə və ya onlara düzəliş edə bilər.

Kəmiyyət xüsusiyyətləri

Bu "AMM üçün BAS"-da qeyd edilən tələblər, AMM-in auditinin səciyyəvi xüsusiyyəti və şəraitinə mütənasib şəkildə hazırlanmışdır.

Bu "AMM üçün BAS"-da aşağıdakıların əks etdirilməsi nəzərdə tutulmur:

- *Müəssisənin biznes fəaliyyətinin, əməliyyatlarının və əlaqəli sövdələşmələrin və hadisələrin xüsusiyyəti və həcmi ilə bağlı maliyyə hesabatlarının hazırlanmasına aid mürəkkəb məsələlər və ya vəziyyətlər.*
- *Müəssisənin mülkiyyət hüququ, müəssisənin korporativ idarəetmə razılaşmaları və ya təşkilat tərəfindən müəyyən edilmiş siyasət, prosedur və ya proseslər kimi mürəkkəbliyi artıran və ya mürəkkəbliyin mövcudluğunu bildirən mövzular və məsələlər.*

Həmçinin, "AMM üçün BAS"-da aşağıdakıları əhatə edən tələblər yoxdur:

- *Adətən listinq subyektlərinə aid olan prosedurlar və məsələlər, o cümlədən seqmentlər üzrə məlumatlar və ya əsas audit məsələləri barədə hesabatvermə.*
- *Auditor daxili auditorların işindən istifadə etmək niyyətində olduqda, çünki bu, adətən AMM-in auditinə şamil olunmur.*
- *Auditor xidmət təşkilatının auditoru tərəfindən təqdim edilmiş hesabatdan ya xidmət təşkilatında nəzarət vasitələrinin tərtib edilməsi və həyata keçirilməsinə dair audit sübutu (məs., 1-ci və ya 2-ci növ hesabat) və ya xidmət təşkilatında nəzarətin effektivliyinə dair audit sübutu (yəni, 2-ci növ hesabat) kimi istifadə etmək niyyətində olduqda, çünki bu, adətən, AMM-in auditinə şamil olunmur.*

A.3. Aşağıdakı siyahıda "AMM üçün BAS"-ın müvafiq istifadəsini müəyyən etmək məqsədilə AMM-in xüsusiyyətləri təsvir edilir. Siyahı tam deyil və şərtsiz (rəqəm göstəriciləri daxil olmaqla) olması nəzərdə tutulmayıb və digər müvafiq məsələlər də nəzərə alınmalıdır. Keyfiyyət xüsusiyyətlərinin hər biri öz-özlüyündə "AMM üçün BAS"-ın hazırki şəraitdə uyğun olub-olmadığını müəyyən etmək üçün yetərli olmaya bilər. Buna görə də, siyahıda təsvir olunan məsələlər həm fərdi, həm də birlikdə nəzərdən keçirilməlidir. Qrup auditi üçün bu mülahizələr həm qrupa, həm də qrupdaki hər bir fərdi müəssisəyə və struktur vahidinə şamil edilməlidir.

Biznes fəaliyyəti, biznes modeli və sənaye sahəsi	Müəssisənin biznes fəaliyyəti, biznes modeli və ya müəssisənin fəaliyyət göstərdiyi sahə geniş yayılmış əhəmiyyətli biznes risklərini yaratmır. Biznes fəaliyyətini mürəkkəbləşdirən xüsusi tənzimləyici qanunlar və ya qaydalar (məs., prudensial tələblər) yoxdur. Müəssisənin əməliyyatları bir neçə biznes istiqaməti və ya gəlir axınından irəli gəlir.
Təşkilati struktur və ölçü	Təşkilati struktur nisbətən sadədir, bir neçə hesabatvermə xətti və ya səviyyəsi və kiçik əsas idarəetmə komandası (məs., 5 və ya daha az şəxs).
Mülkiyyət strukturu	Müəssisənin mülkiyyət strukturu sadədir, mülkiyyət hüququ və nəzarətdə aydın şəffaflıq mövcuddur ki, bütün fərdi mülkiyyətçilər və benefisiar sahiblər məlumdur.
Maliyyə şöbəsinin xüsusiyyəti	Müəssisənin maliyyə şöbəsi, o cümlədən maliyyə hesabatları ilə bağlı fəaliyyətlər mərkəzləşdirilmişdir. Maliyyə hesabatlarının hazırlanması ilə məşğul olan işçilərin sayı azdır (məs., 5 və ya daha az şəxs).
İnformasiya Texnologiyaları (IT)	Müəssisənin İT mühiti, o cümlədən onun İT tətbiqləri və İT prosesləri sadədir. Müəssisə satışda olan proqram təminatından istifadə edir və proqram təminatını konfiqurasiya etməkdən başqa hər hansı proqramda dəyişiklik edə bilmir (məs., hesablar planı, hesabat parametrləri və ya hədlər). Proqram təminatına çıxış imkanı, bir qayda olaraq, konfiqurasiya məqsədilə dəyişikliklər etmək üçün təyin edilmiş bir və ya iki nəfərlə məhdudlaşdırılır. Müəssisənin mövcud şəraitdə az sayda rəsmiləşdirilmiş ümumi İT nəzarət vasitəsinə ehtiyac var.
Maliyyə hesabatları çərçivələrinin və uçot qiymətləndirmələrinin tətbiq edilməsi	Müəssisənin maliyyə hesabatlarında az sayda hesab və ya açıqlamalar maliyyə hesabatları çərçivələrinin tələblərini tətbiq edərkən rəhbərliyin əhəmiyyətli mühakimələrin yürüdülməsini tələb edir. Müəssisənin maliyyə hesabatlarına adətən mürəkkəb metodların, modellərin, fərziyyələrin və ya verilənlərin istifadəsini nəzərdə tutan uçot qiymətləndirmələri daxil edilmir.

Qrup auditi üçün müvafiq əlavə xüsusiyyətlər Qrup auditləri üçün yuxarıda göstərilənlərdən əlavə aşağıdakı keyfiyyət xüsusiyyətləri nəzərə alınmalıdır:	
Qrupun strukturu və fəaliyyəti	Qrupda az sayda (məs., 5 və ya daha az) müəssisə və ya struktur vahidi var. Qrupdakı müəssisələr və ya struktur vahidləri oxşar xüsusiyyətlərə (məs., qanunlar və ya qaydalar və biznes təcrübələri) malik yurisdiksiyalarda fəaliyyət göstərir.
Məlumatlara və əməkdaşlara çıxış	Qrupun rəhbərliyi tapşırıq qrupunu qrup auditoru tərəfindən zəruri hesab olunan məlumatlara çıxış və qrupdakı şəxslərə məhdudiyyətsiz çıxış imkanı ilə təmin edə biləcək.
Konsolidasiya prosesi	Qrupun konsolidasiya prosesi sadədir. Məsələn: • Şirkətlərarası və ya digər konsolidasiya düzəlişləri mürəkkəb deyil; • Bütün müəssisə və ya struktur vahidlərinin maliyyə məlumatları qrup maliyyə hesabatlarına tətbiq edilənlərə oxşar uçot siyasətlərinə uyğun olaraq hazırlanmışdır; habelə

	• Bütün müəssisə və ya struktur vahidlərinin maliyyə hesabatlarının dövrünün sonu qrup maliyyə hesabatları üçün istifadə olunan ilə eynidir.

Bu standartın istifadə edilməsinin məqsədəuyğun olub-olmadığını müəyyən edərkən peşəkar mühakimənin yürüdülməsinə baxmayaraq, auditin bu rəhbər sənəddə müəyyən edilmiş meyarlara uyğun olub-olmaması ilə bağlı qeyri-müəyyənlik olduğu halda, "AMM üçün BAS"-ın istifadə edilməsi məqsədəuyğun deyil.

Kəmiyyət hədləri

A.4. Kəmiyyət hədlərinin müəyyən edilməsi yurisdiksiyada "AMM üçün BAS"-ın ardıcıl və məqsədəuyğun istifadəsinə kömək edir. Bu bölmədə nəzərdə tutulur ki, qanunvericilik və ya tənzimləyici orqanlar, yaxud müvafiq milli standartlaşdırma qurumları öz yurisdiksiyalarında "AMM üçün BAS"-ın istifadəsi üçün kəmiyyət həddini (hədlərini) müəyyən edəcəklər.

Kəmiyyət hədlərinin müəyyən edilməsinə dair təlimat "Əhatə dairəsi üzrə əlavə təlimat"da daha ətraflı izah olunur. Kəmiyyət hədləri, məsələn, ümumilikdə yurisdiksiyada olan bütün müvafiq müəssisələr üçün müəyyən edilə bilər, yaxud konkret və ya müəyyən sahələrdəki müəssisələr və ya müəyyən müəssisə növləri üçün fərqli hədlər müəyyən edilə bilər. Bunu edərkən, "AMM üçün BAS"-ın istifadəsi ilə bağlı xüsusi qadağalar və bu hissədə qeyd olunan AMM-in keyfiyyət xüsusiyyətləri, eləcə də həmin yurisdiksiyada müvafiq ola biləcək digər konkret şəraitlər və ya ehtiyaclar nəzərə alınmalıdır. Mürəkkəblik həmişə müəssisənin ölçüsü və ya onun fəaliyyəti ilə birbaşa bağlı olmasa da, əsas kəmiyyət ölçüləri (məs., gəlir, ümumi aktivlər, işçilərin sayı və s.) artdıqda mürəkkəblik çox vaxt artır.

"AMM üçün BAS"-ın istifadəsi ilə bağlı kəmiyyət hədləri müəyyən edilərkən, yurisdiksiyada müxtəlif məqsədlər üçün hazırlanmış mövcud anlayışlar və ya hədlər nəzərə alına bilər, məsələn:

- *Avropa Komissiyasının "kiçik müəssisə" anlayışı[5]: Kiçik müəssisə - 50-dən az işçisi olan və illik dövriyyəsi və ya illik balansı cəmi 10 milyon avrodan çox olmayan müəssisədir.*
- *Cənubi Afrika Kiçik Biznesin İnkişafı Departamentinin "kiçik müəssisə" anlayışı[6]: Bu anlayışa görə "kiçik" kateqoriyasına aid müəssisə - tam ştat vahidinə ekvivalent maaş alan 50 və ya daha az işçisi olan və müəssisənin fəaliyyət göstərdiyi iqtisadiyyatın sektorundan və ya alt sektorundan asılı olaraq ümumi illik dövriyyəsi müəyyən həddi keçməyən müəssisədir.*

IAASB hesab edir ki, kəmiyyət hədləri müəyyən edilərkən, bu anlayışlar və ya hədlər müvafiq yurisdiksiyada nəzərə alınan, həmin yurisdiksiyanın iqtisadi və digər şəraitlərinə uyğunlaşdırılmış məqsədəuyğun nümunələr ola bilər.

Auditor "AMM üçün BAS"-ın istifadə edilməsinin məqsədəuyğun olub-olmadığını müəyyən edərkən, A.1 paraqrafında qeyd edilən xüsusi qadağalar və A.3 paraqrafında qeyd edilən keyfiyyət xüsusiyyətləri ilə yanaşı, yurisdiksiyada müəyyən edilmiş kəmiyyət hədlərini də nəzərə almalıdır.

Qanunverici və ya tənzimləyici orqanların, yaxud müvafiq milli qurumların məsuliyyətləri

IAASB-nin Beynəlxalq Standartlarının (Beynəlxalq Audit Standartları və "AMM üçün BAS" daxil

[5] Bu anlayış, "AMM üçün BAS" sənədi yekunlaşdırılan zaman (sentyabr 2023-cü il) Avropa Komissiyasının veb saytından (https://single-market-economy.ec.europa.eu/smes/sme-definition_en) götürülmüşdür. Bu rəhbər sənədə sonradan həmin anlayışda ediləcək dəyişikliklərə uyğun olaraq düzəliş edilməyəcək.

[6] Bu anlayış, "AMM üçün BAS" sənədi yekunlaşdırılan zaman (sentyabr 2023-cü il) Cənubi Afrika Kiçik Biznesin İnkişafı Departamentinin veb saytından (https://www.gov.za/sites/default/files/gcis_document/201903/423041gon399.pdf) götürülmüşdür. Bu rəhbər sənədə sonradan həmin anlayışda ediləcək dəyişikliklərə uyğun olaraq düzəliş edilməyəcək.

olmaqla) tələb olunan və ya icazə verilən istifadəsi ilə bağlı qərarlar, müvafiq yurisdiksiyalarda qanunverici və ya tənzimləyici orqanlar, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar (məsələn, tənzimləyici və ya nəzarət orqanları, audit sahəsində yurisdiksiyada/milli standartlaşdırma qurumları, müvafiq hallarda peşəkar mühasibat uçotu təşkilatları və ya digər şəxslər) tərəfindən verilir.

Yerli qəbul və tətbiq prosesinin bir hissəsi kimi, qanunvericilik və ya tənzimləyici orqanlar, yaxud standartları müəyyən etmək səlahiyyəti olan müvafiq yerli qurumlar:

- *A.2 paraqrafında göstərildiyi kimi, A.1(c) paraqrafındakı müəssisə növlərini əlavə edə və ya dəyişdirə bilər.*
- *A.4 paraqrafında təsvir olunan kəmiyyət hədlərini müəyyən edə bilər.*

Bunu edərkən, xüsusi qadağalar və keyfiyyət xüsusiyyətləri, həmçinin yurisdiksiyada müvafiq ola biləcək digər xüsusi ehtiyaclar nəzərə alınmalıdır.

1. Təməl anlayışlar, ümumi prinsiplər və ümumi tələblər

Bu hissənin məzmunu

1-ci hissədə aşağıdakılar müəyyən edilir:

- Bu standartın qüvvəyə minmə tarixi.
- Şirkət səviyyəsində keyfiyyətin idarə edilməsi üzrə müvafiq etik normalar və öhdəliklər.
- Auditorun ümumi məqsədləri. Bu standartın hər bir hissəsi auditin planlaşdırılması və həyata keçirilməsi üçün bir məqsəd ehtiva edir və həmin hissədəki tələblər ilə auditorun ümumi məqsədləri arasında əlaqəni təmin edir. Hər hissədə verilən məqsədlər auditora həmin hissədə olan prosedurların nəzərdə tutulan nəticələri haqqında təsəvvür yaratmağa kömək edir.
- Peşəkar mühakimə və peşəkar inamsızlıq daxil olmaqla, tapşırığa aid olan təməl anlayışlar, ümumi prinsiplər və ümumi tələblər.
- Dələduzluq, qanun və ya qaydalar, əlaqəli tərəflər, rəhbərlik və lazım olduqda idarəetməyə məsul şəxslərlə məlumat mübadiləsi ilə bağlı ümumi tələblər.
- Bütün hissələrə şamil olunan ümumi məlumatvermə tələbləri. Ayrı-ayrı hissələrdə əlavə konkret məlumatvermə tələbləri ola bilər.

Bu hissənin əhatə dairəsi

Bu hissədəki anlayışlar, prinsiplər və ümumi tələblər audit tapşırığının bütün mərhələlərinə şamil olunur.

1.1. Qüvvəyə minmə tarixi

1.1.1 Bu standart AMM-lərin 15 dekabr 2025-ci il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün etibarlıdır.

1.2. Müvafiq etik normalar və şirkət səviyyəsində keyfiyyətin idarə edilməsi

Maliyyə hesabatlarının auditinə dair müvafiq etik normalar

1.2.1 Auditor maliyyə hesabatlarının audit tapşırıqları üzrə müvafiq etik normalara, o cümlədən müstəqilliklə bağlı tələblərə riayət etməlidir.

Müvafiq etik normalar adətən Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının maliyyə hesabatlarının auditinə dair "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) (IESBA Məcəlləsi) müddəalarını və daha sərt olan milli tələbləri əhatə edir.

IESBA Məcəlləsi aşağıdakılardan ibarət olan etikanın əsas prinsiplərini müəyyən edir:

- *Tamlıq;*
- *Obyektivlik;*
- *Peşəkar səriştə və lazımi ehtiyatlılıq;*
- *Məxfilik; habelə*
- *Peşəkar davranış.*

Etikanın təməl prinsipləri peşəkar mühasibdən gözlənilən davranış standartını müəyyən edir. IESBA Məcəlləsi, peşəkar mühasibin təməl prinsiplərinə riayət etməmə ilə bağlı təhlükələri

müəyyən edən, qiymətləndirən və aradan qaldırılması üçün tədbir görən zaman tətbiq etməli olduğu yanaşmanı müəyyən edən konseptual çərçivə təqdim edir.

Şirkət səviyyəsində keyfiyyətin idarə edilməsi

1.2.2. Tapşırıq üzrə tərəfdaş BKİS-ləri və ya ən azı BKİS-lər qədər sərt olan milli tələbləri tətbiq edən şirkətin üzvü olmalıdır.

Siyasətlər və ya prosedurlar da daxil olmaqla keyfiyyət idarəetmə sistemləri şirkətin məsuliyyətinə aiddir. 1 saylı BKİS, audit aparan bütün şirkətlərə aiddir. 1 saylı BKİS-ə uyğun olaraq müəyyən edilmiş şirkətin siyasət və ya prosedurlarına əsasən tapşırığın keyfiyyətinin təhlili tələb olunduğu halda, 2 saylı BKİS[7] tətbiq edilir. 2 saylı BKİS tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin edilməsi və uyğunluğu, tapşırığın keyfiyyətinin təhlilinin icrası və sənədləşdirilməsi ilə bağlı məsələləri əhatə edir.

1.3. Auditorun ümumi məqsədləri

1.3.1. "AMM üçün BAS"-dan istifadə etməklə maliyyə hesabatlarının auditini apararkən auditorun ümumi məqsədləri bunlardır:

(a) auditorun maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun hazırlanıb-hazırlanmamasına dair rəy bildirməsi üçün maliyyə hesabatlarının bütövlükdə dələduzluq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərdən azad olub-olmaması barədə ağlabatan əminlik əldə etmək; habelə

(b) Maliyyə hesabatları haqqında hesabat vermək və auditorun nəticələrinə uyğun olaraq bu standartın tələb etdiyi şəkildə məlumat vermək.

1.3.2. Auditor bu standartın məqsədlərini başa düşmək və tələblərini düzgün tətbiq etmək üçün onun bütün mətnini başa düşməlidir.

1.3.3. Ümumi məqsədlərə nail olmaq üçün auditor auditi planlaşdıran və həyata keçirən zaman müvafiq hissələrdə qeyd olunan məqsədlərdən istifadə etməlidir:

(a) Bu standartda göstərilən məqsədlərə nail olmaq üçün müvafiq hissədə tələb olunanlarla yanaşı hər hansı audit prosedurlarının zəruri olub-olmadığını müəyyən etmək; habelə

(b) Yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini müəyyən etmək.

Auditordan, auditorun ümumi məqsədləri kontekstində yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini müəyyən etmək üçün məqsədlərdən istifadə etmək tələb olunur. Əgər nəticədə auditor audit sübutlarının yetərli və müvafiq olmadığı qənaətinə gələrsə, o zaman auditor aşağıdakı yanaşmalardan birini və ya bir neçəsini tətbiq edə bilər:

- *Digər hissələrdə qeyd edilən tələblərə riayət etmə nəticəsində əlavə müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini müəyyən etmək;*
- *Bir və ya bir neçə tələbin tətbiqində yerinə yetirilən işi genişləndirmək; yaxud*
- *Həmin şəraitdə auditorun zəruri hesab etdiyi digər prosedurları yerinə yetirmək.*

1.3.4. Hissədə qeyd olunan məqsədə nail olmaq mümkün olmadıqda, auditor bu vəziyyətin auditorun ümumi məqsədlərinə nail olmasına mane olub-olmadığını və bununla da auditordan aşağıdakıların tələb edilib-edilmədiyini müəyyən etməlidir:

[7] 2 saylı BKİS *"Tapşırığın keyfiyyətinin təhlili"*

(a) Tapşırığın şərtlərini dəyişib auditin aparılması və hesabatın verilməsini Beynəlxalq Audit Standartlarına uyğun olaraq yerinə yetirmək; yaxud

(b) Auditorun rəyini dəyişmək və ya tapşırıqdan imtina etmək (müvafiq qanun və ya qaydalara əsasən imtina etmək mümkün olduqda).

Məqsədə nail olmama sənədləşdirilməsi tələb olunan əhəmiyyətli məsələ hesab edilir.

1.4. Auditin aparılması üçün əsas anlayışlar və ümumi prinsiplər

1.4.1. Müstəsna hallarda auditor müvafiq tələbdən kənara çıxmağı zəruri hesab etdiyi hallar istisna olmaqla, auditor bütün müvafiq tələblərə riayət etməlidir. Belə hallarda auditor həmin tələbin məqsədinə nail olmaq üçün alternativ prosedurlar həyata keçirməlidir. Auditorun müvafiq tələbdən kənara çıxması zərurəti yalnız o halda yarana bilər ki, tələb müəyyən prosedurun həyata keçirilməsini nəzərdə tutur və auditin xüsusi şəraitində həmin prosedur tələbin məqsədinə nail olmaq üçün effektiv olmayacaq.

Tələb yalnız hissənin bütövlükdə uyğun olmadığı hallarda müvafiq deyil (məsələn, audit qrup auditi deyilsə və ya tələb şərtidirsə və bu şərt mövcud deyilsə (məsələn, yetərli müvafiq audit sübutu əldə etmək mümkün olmadığı halda auditor rəyini dəyişdirmək tələbi, lakin belə bir vəziyyətin olmaması).

1.4.2. Auditor, bu standartdakı bütün müvafiq tələblər yerinə yetirilmədiyi və ya 1.4.1-ci paraqrafda qeyd olunan hallar tətbiq edilmədiyi halda, auditor hesabatında “AMM üçün BAS”-a uyğunluqla bağlı heç bir iddia irəli sürməməlidir.

Peşəkar mühakimə

1.4.3. Auditor, auditin planlaşdırılmasında və həyata keçirilməsində peşəkar mühakimə yürütməlidir.

Peşəkar mühakimə auditin düzgün aparılması üçün vacibdir. Bunun səbəbi odur ki, müvafiq etik normalar və bu standartı şərh etmək, həmçinin audit zamanı tələb olunan əsaslandırılmış qərarlar vermək müvafiq bilik və təcrübəni faktlara və şəraitə tətbiq etmədən mümkün deyil.

Auditordan gözlənilən peşəkar mühakimənin fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, o, müvafiq təlim keçmiş, biliyi və təcrübəsi ağlabatan mühakimələrin yürüdülməsində lazımi səriştələrə nail olmaq üçün kifayət qədər inkişaf etmiş auditor tərəfindən yürüdülür.

İstənilən konkret iş ilə bağlı peşəkar mühakimə auditora məlum olan faktlar və şərait əsasında yürüdülür.

Audit zamanı ortaya çıxan mühüm məsələlər üzrə nəticəyə gəlmək üçün yürüdülən əhəmiyyətli peşəkar mühakimələr bu standartın 2-ci hissəsində verilən tələblərə uyğun olaraq sənədləşdirilməlidir.

Peşəkar inamsızlıq

1.4.4. Auditor, maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsinə səbəb olan halların mövcud ola biləcəyini nəzərə alaraq, auditin planlaşdırılmasında və aparılmasında peşəkar inamsızlıq tətbiq etməlidir.

1.4.5. Auditor, audit prosedurlarını elə hazırlamalı və həyata keçirməlidir ki, bu prosedurlar yalnız təsdiqləyici audit sübutlarının əldə edilməsinə yönəlmiş və ya ziddiyyətli audit sübutlarının istisna edilməsinə meylli olmasın.

Peşəkar inamsızlıq aşağıdakı hallara diqqət yetirilməsini əhatə edir:

- *Əldə edilmiş digər audit sübutları ilə ziddiyyət təşkil edən audit sübutları.*
- *Audit sübutu kimi istifadə ediləcək sənədlərin və sorğulara cavabların etibarlılığını şübhə altına alan məlumatlar.*
- *Dələduzluğun baş vermə ehtimalını bildirən şəraitlər.*
- *Bu standartda tələb olunanlardan əlavə audit prosedurlarına ehtiyac olduğunu göstərən şəraitlər.*

Audit sübutlarının tənqidi qiymətləndirilməsi üçün peşəkar inamsızlıq zəruridir. Bu, ziddiyyətli audit sübutlarının, sənədlərin və sorğulara cavabların, eləcə də rəhbərlikdən və müvafiq hallarda, idarəetməyə məsul şəxslərdən əldə edilmiş digər məlumatların etibarlılığının şübhə altına alınmasını əhatə edir. Eyni zamanda əldə edilmiş audit sübutlarının yetərliliyi və müvafiqliyi mövcud şərait nəzərə alınmaqla qiymətləndirilməlidir.

Auditor, müəssisə rəhbərliyinin və müvafiq hallarda idarəetməyə məsul şəxslərin keçmişdə nümayiş etdirdikləri vicdan və dürüstlüyü nəzərə almaya bilməz. Buna baxmayaraq, rəhbərliyin və idarəetməyə məsul şəxslərin vicdanlı və dürüst olmasına inam auditoru peşəkar inamsızlıq tətbiq etməyə davam etmək zərurətindən azad etmir və ya ağlabatan əminlik əldə edərkən auditoru çox da inandırıcı olmayan audit sübutları ilə kifayətlənməsinə yol vermir.

Tapşırığın şərtləri audit prosedurlarını hazırlayan və həyata keçirən zaman, həmçinin audit sübutlarını qiymətləndirərkən tapşırıq qrupuna peşəkar inamsızlığı tətbiq etməyə mane olan təzyiqlər yarada bilər.

1.5. Dələduzluq

Dələduzluğun qarşısının alınması və aşkar edilməsi üzrə əsas məsuliyyət həm müəssisənin rəhbərliyinin, həm də müvafiq hallarda, idarəetməyə məsul şəxslərin üzərinə düşür. Dələduzluğun geniş hüquqi anlayış olmasına baxmayaraq, bu standartın məqsədləri baxımından auditor yalnız maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb olan dələduzluqla məşğul olur.

Maliyyə hesabatlarındakı təhriflər ya dələduzluq, ya da səhv nəticəsində baş verə bilər. Dələduzluq ilə səhvi fərqləndirən amil maliyyə hesabatlarının təhrif edilməsində niyyətin olub-olmamasıdır. Qəsdən edilmiş təhriflərin iki növü auditora aiddir - saxta maliyyə hesabatları nəticəsində baş verən təhriflər və aktivlərin qeyri-qanuni mənimsənilməsi nəticəsində baş verən təhriflər. Auditor dələduzluğun baş verməsindən şübhələnə və ya nadir hallarda onu aşkar edə bilər, lakin dələduzluğun faktiki baş verib-vermədiyi barədə hüquqi baxımdan qərar verə bilməz.

Bu standarta uyğun audit aparan auditor maliyyə hesabatlarının bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olması barədə ağlabatan əminlik əldə etməyə görə məsuliyyət daşıyır. Auditin bu standarta uyğun olaraq düzgün planlaşdırılmasına və aparılmasına baxmayaraq, dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrifi aşkar etməmə riski, səhv nəticəsində baş vermiş təhrifi aşkar etməmə riskindən daha yüksəkdir. Bu onunla izah olunur ki, dələduzluq, onu gizlətmək üçün hazırlanmış xüsusi incəlik və diqqətlə təşkil olunmuş sxemlərdən (məsələn, sənədlərin saxtalaşdırılması, əməliyyatların qəsdən qeydə alınmaması və ya auditorla qəsdən yanlış məlumatların paylaşılması) ibarət olur.

Ağlabatan əminlik əldə edərkən auditor aşağıdakı məsuliyyətləri daşıyır:

- *Audit zamanı peşəkar inamsızlıq nümayiş etdirir;*
- *Rəhbərliyin nəzarət vasitələrinə məhəl qoymama ehtimalını nəzərə alır; habelə*
- *Səhvi aşkar etmək üçün effektiv olan audit prosedurlarının dələduzluğun aşkar edilməsində effektiv olmaya biləcəyi faktını qəbul edir.*

1.5.1. Auditor dələduzluq riskini aşağıdakı hallarda nəzərə almalıdır:

(a) Dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini aşkar edən və qiymətləndirən zaman. Bunu edərkən, auditor riskləri aşkar etmək və qiymətləndirmək üçün həyata keçirilən prosedurlardan və əlaqəli fəaliyyətdən əldə edilən məlumatların bir və ya bir neçə dələduzluq riski amilinin mövcud olduğunu bildirib-bildirmədiyini müəyyən etməlidir;[8]

(b) Dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif riskləri də daxil olmaqla, qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı müvafiq cavab tədbirlərini layihələndirib həyata keçirməklə yetərli müvafiq audit sübutlarını əldə edən zaman; habelə

(c) Audit zamanı aşkar edilmiş faktiki və ya ehtimal edilən dələduzluğa qarşı müvafiq cavab tədbirləri görən zaman.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektorda çalışan auditorun dələduzluqla bağlı məsuliyyətləri qanun, qaydalar və ya ictimai sektor müəssisələrinə şamil olunan və ya ayrıca auditorun mandatı ilə əhatə olunan digər rəhbər sənədlə müəyyən edilir. Nəticə etibarilə, ictimai sektorda çalışan auditorun məsuliyyətləri maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin nəzərdən keçirilməsi ilə nəinki məhdudlaşa bilməz, həm də dələduzluq risklərinin nəzərdən keçirilməsi ilə bağlı daha geniş məsuliyyətləri əhatə etməlidir.

Auditorun tapşırığı davam etdirə bilməməsi

1.5.2. Əgər faktiki və ya ehtimal edilən dələduzluq nəticəsində baş vermiş təhrifə görə auditor, onun auditi davam etdirmək qabiliyyətini şübhə altına alan müstəsna hallarla qarşılaşarsa, auditor bu vəziyyətdə müvafiqi hüquqi və peşəkar məsuliyyətləri müəyyən etməli və ya qanun və ya qaydalara əsasən tapşırıqdan imtina etmək mümkün olduğu hallarda, tapşırıqdan imtina etmənin məqsədəuyğun olub-olmadığını nəzərdən keçirməlidir.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektorda bir çox hallarda mandatın xarakterinə və ya ictimai maraq mülahizələrinə görə tapşırıqdan imtina etmək seçimi auditor üçün mümkün olmaya bilər.

1.6. Qanun və qaydalar

Müəssisənin fəaliyyətinin qanun və qaydaların müddəalarına, o cümlədən müəssisənin maliyyə hesabatlarında əks etdirilən məbləğləri və məlumatların açıqlanmasını müəyyən edən qanun və qaydaların müddəalarına riayət edilməni təmin etmək, müvafiq olduqda idarəetməyə məsul şəxslərin nəzarəti altında rəhbərliyin məsuliyyətidir.

Bu standartın tələbləri qanun və qaydalara riayət etməmə nəticəsində maliyyə hesabatlarında baş vermiş əhəmiyyətli təhrifləri aşkar etməkdə auditora kömək etmək üçün nəzərdə tutulmuşdur. Bununla belə, auditor qanun və qaydalara riayət etməmənin qarşısını almaq üçün məsuliyyət daşımır və bütün qanun və qaydalara riayətetməmə ilə bağlı bütün halları aşkar

[8] Əlavə 1 də ictimai müəssisələrə xas olan dələduzluq riski amilləri müəyyən edilir.

etməyə bilər. Maliyyə hesabatlarının auditində auditorun diqqəti qanun və ya qaydalara riayət edilməməsinin maliyyə hesabatlarında əhəmiyyətli təhriflərlə nəticələndiyi hallara yönəldilir. Bu baxımdan, auditorun məsuliyyətləri iki müxtəlif kateqoriyaya aid qanun və qaydaların tələblərinə riayətetmə ilə bağlıdır və aşağıdakı kimi fərqləndirilir:

- *Müddəalarının maliyyə hesabatlarında əks etdirilmiş əhəmiyyətli məbləğlərin müəyyən edilməsinə və məlumatların açıqlanmasına birbaşa təsir göstərməsi hamılıqla qəbul edilmiş qanun və qaydalar (məsələn, vergi və pensiya qanun və qaydaları); habelə*
- *Maliyyə hesabatlarında əks etdirilmiş məbləğlərin müəyyən edilməsinə və məlumatların açıqlanmasına birbaşa təsir göstərməyən, lakin tələblərinə riayətetmə (məs., fəaliyyət üçün lisenziyanın şərtlərinə riayətetmə, ödəmə qabiliyyəti ilə bağlı tələblərə riayət etmə, ətraf mühitin mühafizəsi ilə bağlı tələblərə riayət etmə) biznesin əməliyyat aspektləri, müəssisənin kommersiya fəaliyyətini davam etdirə bilməsi və ya əhəmiyyətli cərimələrdən yayınmaq üçün vacib olan digər qanun və qaydalar, yəni, belə qanun və qaydaların tələblərinə riayət etməmə maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilər.*

1.6.1. Audit zamanı auditor hazır olmalıdır ki, audit prosedurlarının həyata keçirilməsi prosesində qanun və qaydaların tələblərinə faktiki və ehtimal edilən riayət etməmə halları aşkar edilə bilər.

Faktiki və ya ehtimal edilən riayətetməmə halları olmadıqda, auditordan müəssisənin qanun və qaydalara riayətetmə ilə bağlı bu standartla tələb olunanlardan başqa audit prosedurlarını yerinə yetirməsi tələb olunmur.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektorda, maliyyə hesabatlarının auditinə aid ola bilən və ya müəssisənin fəaliyyətinin digər aspektlərini əhatə edə bilən qanun və qaydaların nəzərə alınması ilə bağlı əlavə audit məsuliyyətləri ola bilər.

Müəssisədən kənar müvafiq səlahiyyətli orqana hesabatvermə

1.6.2. Auditor qanun və qaydalara faktiki və ya ehtimal edilən riayətetməmə, o cümlədən dələduzluq hallarını aşkar etdikdə, auditor qanun, qayda və ya müvafiq etik normalarda aşağıdakıların mövcudluğunu müəyyən etməlidir:

(a) Auditordan müəssisədən kənar müvafiq səlahiyyətli orqana hesabat vermənin tələb edilib-edilmədiyini.

(b) Müəssisədən kənar müvafiq səlahiyyətli orqana hesabat vermənin yaranmış vəziyyətdə məqsədəuyğun olan məsuliyyətlərin müəyyən edib-edilmədiyini.

Qanun və qaydaların tələblərinə faktiki və ya ehtimal edilən riayətetməmə, o cümlədən dələduzluq halları barədə müəssisədən kənar müvafiq səlahiyyətli orqana hesabatvermə aşağıdakı səbəblərdən yaranmış vəziyyətdə tələb oluna və ya məqsədəuyğun ola bilər:

- *Auditor müəyyən etmişdir ki, hesabatvermə müvafiq etik normalara uyğun olaraq faktiki və ya ehtimal edilən riayətetməmə halına müvafiq cavab tədbiridir; yaxud*
- *Qanun, qaydalar və ya müvafiq etik normalar ilə auditora bunu etmək hüququ verilir.*

1.7. Əlaqəli tərəflər

1.7.1. Audit zamanı auditor aşağıdakılara diqqət yetirməlidir:

(a) Müəssisənin əlaqəli tərəfləri haqqında məlumatlar, o cümlədən üstün təsirə malik əlaqəli tərəflə bağlı şəraitlər;
(b) Rəhbərliyin daha əvvəl aşkar etmədiyi və ya auditora açıqlamadığı əlaqəli tərəflərlə münasibətlərin və ya əməliyyatların mövcudluğunu bildirən razılaşmalar və ya digər məlumatlar;
(c) Müəssisənin adi fəaliyyətindən kənar əhəmiyyətli əməliyyatlar.

Əlaqəli tərəflərlə bir çox əməliyyatlar adi iş prosesində aparılır. Belə şəraitdə onların maliyyə hesabatlarındakı əhəmiyyətli təhriflər riski əlaqəli olmayan tərəflərlə oxşar əməliyyatlardakı risklərdən daha yüksək ola bilməz. Bununla belə, əlaqəli tərəflərlə münasibətlərin və əməliyyatların xüsusiyyəti bəzi şəraitlərdə onların maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərinin əlaqəli olmayan tərəflərlə aparılan əməliyyatlara nisbətən daha yüksək olmasına səbəb ola bilər. Əlaqəli tərəflər nəzarət və ya əhəmiyyətli təsir göstərmək imkanına malik olduqlarına görə, müəssisə və ya onun rəhbərliyinə üstün təsir göstərə bilər. Dələduzluqla bağlı əhəmiyyətli təhrif risklərini aşkar edən və qiymətləndirən zaman bu cür davranışı nəzərə almaq məqsədəuyğundur.

Maliyyə hesabatlarının istifadəçilərinə onların xüsusiyyətini və maliyyə hesabatlarına faktiki və ya potensial təsirlərini başa düşməsi üçün bir çox maliyyə hesabatları çərçivələri əlaqəli tərəflərlə münasibətlər, əməliyyatlar və qalıqlar üçün xüsusi uçot və açıqlama tələblərini müəyyən edir. Maliyyə hesabatları çərçivələrində bu cür tələblər müəyyən edildiyi hallarda, müəssisənin əlaqəli tərəflərlə münasibətləri, əməliyyatları və ya qalıqlarını bu çərçivənin tələblərinə uyğun olaraq lazımi şəkildə uçota almaması və ya açıqlamaması nəticəsində yaranan əhəmiyyətli təhrif risklərini müəyyən etmək, qiymətləndirmək və onlarla bağlı cavab tədbiri görmək üçün audit prosedurlarının yerinə yetirilməsi auditorun məsuliyyətidir. Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində bu cür tələblər müəyyən edilmədikdə belə, auditor maliyyə hesabatlarının ədalətli təqdimat çərçivələri üçün ədalətli təqdimata nail olduğu və ya uyğunluq çərçivələri üçün aldadıcı olmadığı qənaətinə gəlmək üçün müəssisənin əlaqəli tərəflərlə münasibətləri və əməliyyatları barədə təsəvvür əldə etməlidir.

1.8. Rəhbərlik və idarəetməyə məsul şəxslər ilə məlumat mübadiləsi

1.8.1. Auditor müəssisənin idarəetmə strukturu daxilində ünsiyyət qurmalı olduğu müvafiq şəxsi (şəxsləri) müəyyən etməlidir.

1.8.2. Auditor audit tapşırığı üçün tətbiq etdiyi müvafiq etik normalar, o cümlədən müstəqilliklə bağlı tələbləri idarəetməyə məsul şəxslərlə müzakirə etməlidir.

1.8.3. Auditor rəhbərliklə və lazım gəldikdə idarəetməyə məsul şəxslərlə vaxtında əlaqə saxlamalıdır.

Müxtəlif mədəni və hüquqi mühitlər, ölçü və mülkiyyət hüququ kimi xüsusiyyətlərin təsirini əks etdirərək, idarəetmə strukturları yurisdiksiya və müəssisəyə görə fərqlənir. İdarəetmə - idarə heyəti, müşahidə şurası, tərəfdaşlar, mülkiyyətçilər, idarəetmə komitəsi, sahibkarlar şurası, etibar edilənlər və ya onların ekvivalenti kimi idarəetmə orqanının kollektiv məsuliyyətidir.

Məsələn, bəzi ailə bizneslərində, bəzi qeyri-kommersiya təşkilatlarında və bəzi dövlət müəssisələrində (məs., idarəetmə strukturu müəyyən edilməmiş ola bilər) kiminlə əlaqə saxlamağın aydın olmadığı başqa hallar da ola bilər. Belə hallarda auditor rəhbərlik və ya tapşırıq verən tərəflə müzakirə edib, kimlərlə ünsiyyət qurulmalı olduğunu razılaşdırmalıdır.

1.8.4. Bu standartda bildiriləcək xüsusi məsələlər müəyyən edilir. Auditor rəhbərliklə və müvafiq hallarda idarəetməyə məsul şəxslərlə məlumatvermənin müvafiq formasını, vaxtını və ümumi məzmununu müəyyən edərkən peşəkar mühakimə yürütməlidir. Məlumatvermənin formasını və vaxtını müəyyən edərkən auditor aşağıdakıları nəzərə almalıdır:

(a) Məlumatvermə üçün hüquqi tələblər; habelə
(b) Məlumat veriləcək məsələlərin əhəmiyyəti.

Məlumatvermənin müvafiq forması və vaxtı auditin şəraitindən asılı olaraq dəyişir və ona məsələnin əhəmiyyəti və xüsusiyyəti, həmçinin rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslər tərəfindən görülməsi gözlənilən tədbirlər təsir edə bilər.

Rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslərlə məlumat mübadiləsi çox vaxt o qədər də strukturlaşdırılmış olmaya bilər və məsələlər şifahi şəkildə çatdırıla bilər. Bu standarta uyğun olaraq tələb edilir ki, auditor məsələnin şifahi çatdırılmasının nə vaxt müvafiq olmayacağını və yazılı məlumatvermənin məqsədəuyğun olduğunu müəyyən etmək üçün peşəkar mühakimə yürütməlidir. Bundan əlavə, bu standartda qeyd olunduğu kimi, müəyyən məsələlərin yazılı şəkildə çatdırılması tələb olunur.

1.8.5. Bəzi hallarda idarəetməyə məsul şəxslərin hamısı müəssisənin idarə edilməsində iştirak edirlər, məsələn, yeganə sahibi tərəfindən idarə edilən və başqa heç kimin idarəetmə məsuliyyətinə malik olmadığı AMM. Belə hallarda, bu standart üzrə tələb edilən məsələlər rəhbər vəzifə tutan şəxsə (şəxslərə) bildirilsə və həmin şəxsin (şəxslərin) idarəetmə məsuliyyətləri də varsa, məsələlərin idarəetmə rolunda olan həmin şəxsə (şəxslərə) yenidən bildirilməsinə ehtiyac yoxdur. Bununla belə, auditor əmin olmalıdır ki, rəhbər vəzifə tutan şəxs (şəxslər) ilə məlumat mübadiləsi nəticəsində idarəetmə məsuliyyəti olan bütün şəxslər müvafiq qaydada məlumatlandırılır.

1.8.6. Müəyyən bir məsələ ilə bağlı rəhbərliyin və müvafiq hallarda, idarəetməyə məsul şəxslərin sorğularına cavablar uyğun gəlmədikdə, auditor bu uyğunsuzluğu araşdırmalıdır.

Dələduzluqla bağlı xüsusi məlumatvermə

1.8.7. Auditor dələduzluq faktını aşkar etdiyi və ya dələduzluğun mövcud ola biləcəyinə dair məlumat əldə etdiyi halda, qanun və ya qaydalarla qadağan edilmədiyi təqdirdə, auditor öz məsuliyyətlərinə aid olan məsələlər üzrə dələduzluğun qarşısının alınması və aşkar edilməsi üçün əsas məsuliyyət daşıyan şəxsləri məlumatlandırmaq üçün bu məsələləri vaxtında müvafiq rəhbərlik səviyyəsinə çatdırmalıdır.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektorda, audit prosesi vasitəsilə aşkar edilib-edilməməsindən asılı olmayaraq, dələduzluq barədə hesabatvermə tələbləri audit mandatının və ya müvafiq qanun, qaydaların və ya digər rəhbər sənədin müəyyən müddəaları ilə müəyyən edilə bilər.

1.8.8. Qanun və ya qaydalarla qadağan edilmədiyi təqdirdə, auditor aşağıdakı şəxslərin iştirakı ilə faktiki və ya ehtimal edilən dələduzluq halları barədə idarəetməyə məsul şəxslərə vaxtında məlumat verməlidir:

(a) Rəhbərlik (idarəetməyə məsul şəxslər müəssisənin idarə edilməsində iştirak etmədiyi təqdirdə);

(b) Müəssisənin daxili nəzarət sistemində əhəmiyyətli rolu olan işçilər; yaxud

(c) Dələduzluq nəticəsində maliyyə hesabatlarında əhəmiyyətli təhriflər baş verdiyi hallarda digər şəxslər.

1.8.9. Auditor dələduzluqda rəhbərliyin iştirak etməsindən şübhələndikdə, o, auditi başa çatdırmaq üçün zəruri olan audit prosedurlarının xüsusiyyəti, müddəti və həcmini idarəetməyə məsul şəxslərlə müzakirə etməlidir.

1.9. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən tətbiq edilən 2.4-cü hissədə qeyd olunan sənədləşdirilmə ilə bağlı ümumi tələblərlə yanaşı, bu hissəyə aid olan sənədləşdirilmə ilə bağlı xüsusi məsələlər aşağıda təsvir olunur.

1.9.1. Auditor dələduzluq haqqında rəhbərlik, idarəetməyə məsul şəxslər, tənzimləyici orqanlar və digər şəxslər ilə aparılan məlumat mübadiləsini audit sənədlərinə daxil etməlidir.

2. Audit sübutları və sənədləşdirilmə

Bu hissənin məzmunu

2-ci hissədə audit zamanı aşağıdakılar üçün tətbiq olunacaq tələblər müəyyən edilir:

- Audit sübutları.
- Sənədləşdirilmə. Ayrı-ayrı hissələrdə sənədləşdirilmə ilə bağlı əlavə xüsusi tələblər də ola bilər.

Bu hissənin əhatə dairəsi

Bu hissədəki tələblər bütün audit tapşırığına şamil edilir.

2.1. Məqsədlər

2.1.1. Auditorun məqsədləri:

(a) Audit prosedurlarını elə hazırlamaq və həyata keçirmək lazımdır ki, auditor öz rəyini əsaslandırmaq üçün ağlabatan nəticələr çıxara bilsin və yetərli müvafiq audit sübutları əldə edə bilsin; habelə

(b) Auditor hesabatı üçün əsasların yetərli və müvafiq uçotunu təmin edən və auditin "AMM üçün BAS"-a və müvafiq qanun və ya qaydalara uyğun olaraq planlaşdırılıb aparıldığını sübut edən sənədləri hazırlamaq.

2.2. Yetərli müvafiq audit sübutları

2.2.1. Auditor, audit riskini məqbul səviyyədə aşağı salmaq üçün yetərli müvafiq audit sübutu əldə etməlidir ki, düzgün nəticələr çıxararaq öz rəyini əsaslandıra bilsin.

2.2.2. Auditor yetərli müvafiq audit sübutlarını əldə etmək məqsədilə yaranmış şəraitə uyğun olan audit prosedurlarını hazırlamalı və həyata keçirməlidir.

Yetərlilik audit sübutlarının kəmiyyət ölçüsüdür. Ona auditorun əhəmiyyətli təhrif risklərinin qiymətləndirməsi (qiymətləndirilən risklər nə qədər yüksək olarsa, daha çox audit sübutu tələb oluna bilər) və həmçinin audit sübutlarının keyfiyyəti (keyfiyyət nə qədər yüksək olarsa, bir o qədər az tələb oluna bilər) təsir göstərir. Bununla belə, keyfiyyətsiz audit sübutlarının miqdarının artırılması onların keyfiyyətini əvəz etmir.

Müvafiqlik isə auditor sübutlarının keyfiyyət ölçüsüdür, yəni auditor rəyinin əsaslandığı nəticələrə dəstək verməkdə onların uyğunluğu və etibarlılığıdır.

Auditorun işinin çox hissəsi auditor rəyini formalaşdırmaq üçün audit sübutlarının əldə edilməsi və qiymətləndirilməsindən ibarətdir. Aşağıdakıları müəyyən etmək üçün peşəkar mühakimə yürüdülməlidir: audit riskini məqbul dərəcədə aşağı səviyyəyə endirmək və bununla da auditora rəyini əsaslandırmaq üçün ağlabatan nəticələr çıxarmaq imkanı vermək üçün yetərli müvafiq audit sübutlarının əldə edilib-edilməməsi.

2.3. Audit sübutu kimi istifadə ediləcək məlumatlar

Auditor rəyini əsaslandıran ağlabatan nəticələr çıxarmaq məqsədilə audit sübutları əldə etmək üçün əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üzrə prosedurlar hazırlanır və həyata keçirilir (bax: Hissə 6) və qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görülür

(bax: Hissə 7), eləcə də "AMM üçün BAS"-ın tələblərinə riayət etmək üçün digər hissələrdəki prosedurlar həyata keçirilir.

Audit sübutlarının əldə edilməsi üçün audit prosedurlarına sorğu ilə yanaşı yoxlama, müşahidə, təsdiqləmə, yenidən hesablama, təkrar icra və analitik prosedurları (çox vaxt bir neçəsi birlikdə) daxil ola bilər. Sorğu vacib audit sübutu təmin edə və hətta təhrif sübutu yarada bilsə də, tək sorğu, bir qayda olaraq, nə təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrifin olmasına, nə də nəzarət vasitələrinin effektivliyinə dair yetərli audit sübutu təmin etmir.

Audit sübutları kumulyativ xarakter daşıyır və ilk növbədə audit zamanı həyata keçirilən audit prosedurlarından əldə edilir, lakin digər mənbələrdən alınan məlumatları da əhatə edə bilər, məsələn:

- *Əvvəlki auditlər (auditorun heç bir dəyişikliyin olmadığını təsdiq etməsi şərti ilə);*
- *Müştəri üçün yerinə yetirilən digər tapşırıqlar; habelə*
- *Şirkətin qəbul və davamlılıq üzrə keyfiyyətin idarə edilməsi prosedurları.*

Audit sübutları şirkət daxilində və ya kənardan (müəssisənin mühasibat sənədləri audit sübutlarının vacib mənbəyidir), rəhbərliyin təyin etdiyi ekspertin işindən əldə edilə bilər və rəhbərliyin təsdiqləmələrini həm əsaslandıran və təsdiq edən, həm də bu cür təsdiqləmələrə ziddiyyət təşkil edən məlumatları ehtiva edə bilər.

Avtomatlaşdırılmış alətlər və üsullar (AAÜ)

Bu standartın məqsədləri üçün AAÜ - üsul və prosedurların avtomatlaşdırılmasını, məsələn, modelləşdirmə və vizuallaşdırmadan istifadə edərək məlumatların təhlilini və ya aktivləri müşahidə etmək və ya yoxlamaq üçün dron texnologiyasını əhatə edən İT əsaslı proseslərdir.

Bu standartı tətbiq edərkən auditor audit prosedurlarını əl ilə və ya AAÜ-dən istifadə etməklə hazırlaya və həyata keçirə bilər və hər iki üsul effektiv ola bilər. Hansı alət və üsullardan istifadə edilməsindən asılı olmayaraq, auditor bu standartın tələblərinə riayət etməlidir.

AAÜ-dən istifadə əl ilə yerinə yetirilən və ya təkrarlanan tapşırıqları tamamlaya və ya əvəz edə bilər. Müəyyən şəraitlərdə, audit sübutları əldə edərkən, auditor müəyyən edə bilər ki, müəyyən audit prosedurlarını yerinə yetirmək üçün AAÜ-dən istifadə edilərsə, yoxlanılan təsdiqləmə ilə müqayisədə daha inandırıcı audit sübutları əldə edilə bilər. Digər şəraitdə, audit prosedurlarının həyata keçirilməsi AAÜ-dən istifadə etmədən effektiv ola bilər.

AAÜ-dən istifadə qeyri-obyektivlik və ya həyata keçirilən audit prosedurunun məlumat və ya nəticələrinə həddən artıq etibar etmə riski yarada bilər. Bu alətlər nə qədər güclü olsa da, onlar auditorun biliyini və peşəkar mühakiməsini əvəz etmir. Bundan əlavə, auditor çox müxtəlif verilənlərə, o cümlədən müxtəlif mənbələrdən olan verilənlərə (yəni, miqdarın çox olması) çıxış əldə edə bilsə də, verilənlərin istifadəsindən və AAÜ-nün istifadəsindən əldə edilən nəticələrdən irəli gələn audit sübutlarını tənqidi qiymətləndirmək üçün peşəkar inamsızlığın tətbiq edilməsi zəruri olaraq qalır.

2.3.1. Audit prosedurlarını hazırlayıb həyata keçirərkən auditor audit sübutu kimi istifadə ediləcək məlumatların, o cümlədən kənar məlumat mənbələrindən əldə edilən məlumatların müvafiqliyini və etibarlılığını nəzərə almalıdır.

Müvafiqlik audit prosedurunun məqsədi və müvafiq hallarda, nəzərdən keçirilən təsdiqləmə ilə məntiqi əlaqəni nəzərdə tutur. Məlumatların münasibliyi testin istiqaməti ilə təyin edilir.

Audit sübutları kimi istifadə olunacaq məlumatların etibarlılığı onun mənbəyi və xüsusiyyətindən, eləcə də onların əldə edildiyi şərait, o cümlədən müvafiq hallarda hazırlanması və saxlanmasına nəzarət vasitələrindən asılıdır. Ümumiyyətlə, məlumatlar müəssisədən kənar müstəqil mənbələrdən, birbaşa auditor tərəfindən əldə edildikdə; sənədin surəti deyil, əsli olduqda və məlumatlar şifahi deyil, yazılı formada olduqda, onların etibarlılığı artır. Bununla belə, bu ümumiləşdirmələrə təsir edə biləcək şəraitlər mövcud ola bilər.

2.3.2. Müəssisənin hazırladığı məlumatlardan istifadə edərkən, auditor həmin məlumatların auditorun məqsədləri üçün o cümlədən şəraitlərdən asılı olaraq, aşağıdakı məqsədlər üçün kifayət qədər etibarlı olduğunu qiymətləndirməlidir:

(a) Məlumatların dəqiqliyi və tamlığına dair sübutların əldə edilməsi; habelə
(b) Məlumatların auditorun məqsədləri üçün kifayət qədər aydın və təfərrüatlı olmasının qiymətləndirilməsi.

Bu cür məlumatların dəqiqliyi və tamlığına dair audit sübutlarının əldə edilməsi, belə audit sübutlarının əldə edilməsi özlüyündə audit prosedurunun ayrılmaz hissəsi olduqda, məlumatlara aid faktiki audit proseduru ilə eyni vaxtda həyata keçirilə bilər. Digər hallarda, auditor belə məlumatların dəqiqliyi və tamlığına dair audit sübutlarını həmin məlumatların hazırlanması və saxlanmasını təmin edən nəzarət vasitələrini test etməklə əldə edilə bilər. Bununla belə, bəzi hallarda auditor əlavə audit prosedurlarına ehtiyac olduğunu müəyyən edə bilər.

2.3.3. Auditorun əksini düşünmək üçün əsası olmadıqda, o, qeydləri və sənədləri əsli kimi qəbul edə bilər. Audit zamanı müəyyən edilmiş şərtlər auditorun sənədin əsli olmadığını və ya sənəddəki müddəaların dəyişdirilmiş olmasını, lakin auditorun bu barədə məlumatlandırılmamasını ehtimal etməyə səbəb olarsa, auditor əlavə araşdırma aparmalı və əldə edilmiş audit sübutlarının qalan hissəsinə təsirini müəyyən etməlidir.

2.3.4. Auditor aşağıdakı hallarda audit prosedurlarına hansı dəyişikliklərin və ya əlavələrin zəruri olduğunu müəyyən etməlidir:

(a) bir mənbədən əldə edilmiş audit sübutları digər mənbədən əldə edilənlərlə uyğun gəlmir; yaxud
(b) auditorun audit sübutu kimi istifadə olunacaq məlumatların etibarlılığına şübhəsi var.

2.4. Sənədləşdirilmə ilə bağlı ümumi tələblər

"AMM üçün BAS"-ın bu hissəsində sənədləşdirilmə ilə bağlı ümumi tələblər və müvafiq olaraq digər hissələrdə sənədləşdirilmə ilə bağlı xüsusi tələblər müəyyən edilir. Sənədləşdirilmə tələbi yalnız mövcud şəraitə uyğun olan tələblərə şamil edilir.

2.4.1. Auditor auditlə daha əvvəl əlaqəsi olmayan təcrübəli auditorun aşağıdakılar barədə təsəvvür əldə etməsinə imkan verən audit sənədlərini vaxtında hazırlamalıdır:

(a) Bu standarta və qüvvədə olan qanun və qaydaların tələblərinə uyğun olaraq həyata keçirilmiş audit prosedurlarının xüsusiyyəti, müddəti və həcmi, o cümlədən aşağıdakıların qeydə alınması:

(i) sınaqdan keçirilmiş xüsusi maddə və ya məsələlərin müəyyənedici xüsusiyyətləri;

(ii) işi yerinə yetirən şəxs və bu işin tamamlanma tarixi;

(iii) yerinə yetirilmiş audit işini təhlil edən şəxs və bu cür təhlilin tarixi və həcmi.

(b) Həyata keçirilən audit prosedurlarının nəticələri və əldə edilmiş audit sübutları; və

(c) Auditin gedişində ortaya çıxan mühüm məsələlər, onlarla bağlı əldə edilmiş nəticələr və həmin nəticələrin əldə edilməsində yürüdülmüş əhəmiyyətli peşəkar mühakimələr.

Auditin sənədləşdirilməsi auditin "AMM üçün BAS"-a uyğun aparıldığını sübut edir. Audit sənədləşdirilməsinin forması, məzmunu və həcmi müəssisənin xüsusiyyətindən və şəraitindən, habelə həyata keçirilən prosedurlardan asılıdır.

Auditin sənədləşdirilməsi kağız və ya elektron formatda ola bilər. Auditorun verdiyi şifahi izahatlar özlüyündə auditorun yerinə yetirdiyi işi və ya əldə edilmiş nəticələri müvafiq qaydada əsaslandırmır, lakin auditin sənədləşdirilməsində olan məlumatları izah etmək və ya aydınlaşdırmaq üçün istifadə edilə bilər.

Auditin sənədləşdirilməsinə işçi sənədlərin və ya maliyyə hesabatlarının əvəz edilmiş qaralamalarını daxil etmək lazım deyil.

Auditorun audit zamanı nəzərdən keçirilən hər bir məsələni və ya yürüdülən peşəkar mühakiməni sənədləşdirməsi zəruri və ya praktiki cəhətdən mümkün deyil. Bununla belə, auditordan auditor hesabatı üçün əsasların yetərli və müvafiq uçotunu təmin edən və auditin "AMM üçün BAS"-a və qüvvədə olan qanun və ya qaydalara uyğun olaraq planlaşdırılıb həyata keçirildiyini sübut edən audit sənədləşdirilməsinin hazırlaması tələb olunur. Bundan əlavə, auditorun audit faylına daxil edilmiş sənədlərlə uyğunluğu sübut edilən məsələlərə uyğunluğu ayrıca sənədləşdirməsi (məsələn, yoxlama vərəqəsində olduğu kimi) vacib deyil.

Əhəmiyyətli məsələlər

Məsələnin əhəmiyyətini mühakimə etmək üçün peşəkar mühakimə yürütmək, fakt və şəraiti təhlil etmək tələb edilir. Əhəmiyyətli məsələlərə misal olaraq əhəmiyyətli risklərə səbəb olan məsələləri, maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif oluna biləcəyi sahələri, auditorun zəruri audit prosedurlarını tətbiq etməkdə çətinlik çəkdiyi şəraitləri və ya fərqli rəyin verilməsi ilə nəticələnə biləcək hər hansı nəticələri göstərmək olar.

Bütün audit işini tapşırıq üzrə tərəfdaş yerinə yetirdikdə

Tapşırıq üzrə tərəfdaşın bütün audit işini yerinə yetirdiyi auditdə, yalnız tapşırıq qrupunun üzvlərini məlumatlandırmaq və ya təlimatlandırmaq, yaxud qrupun digər üzvləri tərəfindən təhlilin yerinə yetirilməsinə dair sübut təqdim etmək üçün sənədləşdirilməli olan məsələlər sənədləşdirilməyə daxil edilməməlidir (məs., qrupun müzakirələri və ya nəzarəti ilə bağlı sənədləşdiriləcək heç bir məsələ

yoxdur). Buna baxmayaraq, tapşırıq üzrə tərəfdaş təcrübəli auditor tərəfindən başa düşülə bilən auditin sənədləşdirilməsinin hazırlanması ilə bağlı əsas tələbə riayət etməlidir, çünki auditin sənədləşdirilməsi qaydaların məqsədləri və ya digər məqsədlər üçün kənar şəxslər tərəfindən yoxlanıla bilər.

Avtomatlaşdırılmış alətlər və üsullar

Bu standart, auditorun audit prosedurlarını hazırlamaq və yerinə yetirmək üçün istifadə edə biləcəyi müxtəlif alətlər və üsullar (məsələn, sənədləşdirilməsi tələb olunanlarla bağlı əl ilə yerinə yetirilən və ya avtomatlaşdırılmış üsullardan istifadə etmə) arasında fərq qoymur. İstifadə olunan alətlər və üsullardan asılı olmayaraq, auditordan müvafiq sənədləşdirilmə tələblərinə riayət etmək tələb olunur.

2.4.2. Auditor əhəmiyyətli məsələ ilə bağlı auditorun əldə etdiyi nəticəyə uyğun olmayan məlumat aşkar etdiyi halda, auditor uyğunsuzluqla bağlı məsələni necə həll etdiyini sənədləşdirməlidir.

2.4.3. Müstəsna hallarda, auditor bu standartın müvafiq tələbindən kənara çıxmağın zəruri olduğunu hesab edərsə, auditor həyata keçirilən alternativ audit prosedurlarının həmin tələbin məqsədinə necə çatdığını və kənara çıxmanın səbəblərini sənədləşdirməlidir.

2.4.4. Auditor əhəmiyyətli məsələlərin rəhbərlik, lazım gəldikdə, idarəetməyə məsul şəxslər və digər şəxslər ilə müzakirəsini, o cümlədən müzakirə edilən əhəmiyyətli məsələlərin xüsusiyyətini, müzakirələrin nə vaxt və kiminlə aparıldığını sənədləşdirməlidir.

Məlumatvermənin sənədləşdirilməsi

2.4.5. Bu standart uyğun olaraq bildirilməsi tələb olunan məsələlər haqqında məlumat şifahi şəkildə verildiyi hallarda, auditor onları, həmçinin nə vaxt və kimə bildirildiyini auditin sənədləşdirilməsinə daxil etməlidir.

2.4.6. Məsələlər haqqında məlumat yazılı şəkildə verildiyi hallarda, auditor məlumatın surətini auditin sənədləşdirilməsinin bir hissəsi kimi özündə saxlamalıdır. Yazılı məlumatverməyə audit zamanı ortaya çıxan bütün məsələlər daxil edilməməlidir.

3. Tapşırığın keyfiyyətinin idarə edilməsi

Bu hissənin məzmunu

3-cü hissədə audit tapşırığının idarə edilməsi və keyfiyyətə nail olunması üzrə məsuliyyətlər müəyyən edilir.

Bu hissənin əhatə dairəsi

1 saylı BKİS-ə uyğun olaraq, şirkətə aşağıdakılara dair ağlabatan əminlik təmin edən, maliyyə hesabatlarının auditi üçün keyfiyyət idarəetmə sisteminin layihələndirilməsi, tətbiqi və işlədilməsi şirkətin məsuliyyətidir:

- Şirkət və onun işçi heyəti öz məsuliyyətlərini peşə standartlarına və müvafiq qanun və qaydaların tələblərinə uyğun yerinə yetirir və tapşırıqları belə standartlara və tələblərə uyğun yerinə yetirir; habelə
- Tapşırıqlar üzrə təqdim edilmiş hesabatlar şəraitə uyğundur.

Tapşırıq üzrə tərəfdaşın rəhbərlik etdiyi tapşırıq qrupu şirkətin keyfiyyət idarəetmə sistemi kontekstində aşağıdakılara görə məsuliyyət daşıyır:

- Şirkətin bildirdiyi və ya şirkətdən əldə edilən məlumatlardan istifadə etməklə audit tapşırığına aid olan keyfiyyət riskləri ilə bağlı şirkətin cavab tədbirlərinin görülməsi;
- Tapşırığın xüsusiyyəti və şəraitləri nəzərə alınmaqla, şirkətin siyasət və ya prosedurlarında qeyd olunan cavab tədbirlərindən əlavə tapşırıq səviyyəsində əlavə cavab tədbirlərinə ehtiyac olub-olmadığının müəyyən edilməsi; habelə
- Şirkətin keyfiyyət idarəetmə sisteminin layihələndirilməsi, həyata keçirilməsi və şirkətin fəaliyyətini əsaslandıran siyasət və ya prosedurları ilə bildirilməsi tələb olunan audit tapşırığından şirkətə məlumatın verilməsi.

Bu hissədəki tələblər bütün audit tapşırığına şamil edilir.

3.1. Məqsəd

3.1.1. Auditorun məqsədi keyfiyyətin aşağıdakı kimi təmin edildiyinə dair ağlabatan əminlik əldə etmək üçün tapşırıq səviyyəsində keyfiyyəti idarə etməkdir:

(a) Auditor öz məsuliyyətlərinin yerinə yetirilməsində və auditin aparılmasında bu standarta, habelə qüvvədə olan qanun və qaydaların tələblərinə riayət edib; habelə
(b) Təqdim edilmiş auditor hesabatı yaranmış şəraitə uyğundur.

3.2. Tapşırıq üzrə tərəfdaşın məsuliyyətləri

Keyfiyyətin idarə edilməsi və təmin edilməsi üçün rəhbərliyin məsuliyyətləri

3.2.1. Tapşırıq üzrə tərəfdaş aşağıdakıları öz üzərinə götürməlidir:

(a) Audit tapşırığının idarə edilməsi və keyfiyyətin idarə edilməsi üçün ümumi məsuliyyət, o cümlədən audit tapşırığı yerinə yetirilərkən yetərli və müvafiq iştirak edilməsi, belə ki, tapşırıq üzrə tərəfdaşın yürüdülmüş əhəmiyyətli mühakimələrin və əldə edilmiş nəticələrin şəraitə uyğun olub-olmadığını müəyyən etmək üçün əsası olsun; habelə

(b) Şirkətin keyfiyyətə sadiqliyini əks etdirən aydın, ardıcıl və effektiv tədbirlərin həyata keçirilməsinə görə məsuliyyət.

Tapşırıq üzrə tərəfdaşın keyfiyyətin idarə edilməsi və təmin edilməsi üzrə məsuliyyəti keyfiyyətə sadiqliyini nümayiş etdirən korporativ mədəniyyət ilə dəstəklənir.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

3.2.2. Audit tapşırığında keyfiyyətin idarə edilməsi və təmin edilməsi üçün ümumi məsuliyyəti öz üzərinə götürdükdə, tapşırıq üzrə tərəfdaş müəyyən etməlidir ki, istiqamətləndirmə, nəzarət və təhlilin xüsusiyyəti, müddəti və həcmi:

(a) Tapşırıqın xüsusiyyətinə və şəraitlərinə, eləcə də ayrılmış resurslara uyğundur; habelə
(b) Şirkətin siyasət və ya prosedurlarına, bu standarta, müvafiq etik normalara və normativ tələblərə uyğun olaraq planlaşdırılmış və icra edilmişdir.

Yetərli və müvafiq iştirak

Prosedurlar, tapşırıqlar və ya tədbirlər tapşırıq qrupunun digər üzvlərinə həvalə edildikdə, audit tapşırığında yetərli və müvafiq iştirakı tapşırıq üzrə tərəfdaş müxtəlif yollarla nümayiş etdirə bilər, o cümlədən:

- *Təyin edilmiş şəxslərin məsuliyyət və səlahiyyətlərinin xüsusiyyəti, tapşırılan işin həcmi və məqsədləri barədə məlumatlandırılması; habelə hər hansı digər zəruri təlimat və müvafiq məlumatların təqdim edilməsi.*
- *Təyin edilmiş şəxslərin idarə edilməsi və onlara nəzarət.*
- *Əldə edilmiş nəticələri qiymətləndirmək üçün təyin edilmiş şəxslərin işinin təhlil edilməsi.*

İdarəetmə, nəzarət və təhlil

İdarəetmə, nəzarət və təhlilə yanaşma aşağıdakılardan asılı olaraq uyğunlaşdırıla bilər, məsələn:

- *Tapşırıq qrupu üzvünün müəssisə və audit olunacaq sahə ilə əvvəlki təcrübəsi.*
- *Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri. Daha yüksək qiymətləndirilmiş əhəmiyyətli təhriflər riski üçün tapşırıq qrupu üzvlərinin idarə edilməsi və nəzarət edilməsinin həcminin və tezliyinin müvafiq olaraq artırılmasını və onların işinin daha ətraflı təhlil edilməsi tələb oluna bilər.*
- *Audit işini yerinə yetirən fərdi tapşırıq qrupu üzvlərinin səriştəsi və imkanları.*

3.2.3. Tapşırıq üzrə tərəfdaş, tapşırıq qrupu üzvlərindən gözlənilən davranışın müəyyən edilməsi və tapşırıq qrupunun üzvlərinə bildirilməsi üçün məsuliyyət daşımalıdır. Bunu edən zaman aşağıdakılar vurğulanmalıdır:

(a) Tapşırıq səviyyəsində idarəetməyə və keyfiyyətin təmin edilməsi nə kömək etmək tapşırıq qrupunun bütün üzvlərinin məsuliyyətidir;
(b) Peşə etikası, dəyərlər və münasibətlərin əhəmiyyəti;
(c) Tapşırıq qrupu daxilində açıq və sağlam məlumat mübadiləsinin və tapşırıq qrupu üzvlərinin qisas qorxusu olmadan narahatlıqlarını bildirmək imkanının təmin edilməsinin vacibliyi; habelə
(d) Audit tapşırığı yerinə yetirilərkən peşəkar inamsızlıq nümayiş etdirməyin vacibliyi.

3.2.2 və 3.2.3-cü paraqraflarda qeyd olunan tələbləri yerinə yetirərkən, tapşırıq üzrə tərəfdaş

birbaşa tapşırıq qrupunun digər üzvləri ilə əlaqə saxlaya bilər və davranış və hərəkətlərlə (məs., nümunə göstərməklə) bu əlaqəni gücləndirə bilər.

Müvafiq etik normalar

3.2.4. Tapşırıq üzrə tərəfdaş, audit tapşırığının xüsusiyyəti və şəraiti nəzərə alınmaqla, tətbiq olunan müvafiq etik normalar, o cümlədən müstəqilliklə bağlı tələblər haqqında anlayışa malik olmalıdır.

3.2.5. Tapşırıq üzrə tərəfdaşın diqqətini müvafiq etik normalara riayət etməmə təhlükəsinin mövcud olduğunu və ya müvafiq etik normaların pozulduğuna dəlalət edən məsələlər cəlb etdiyi halda, tapşırıq üzrə tərəfdaş tədbir görməlidir, o cümlədən:

(a) Təhlükəni qiymətləndirmək üçün şirkətin siyasət və ya prosedurlarına uyğun hərəkət etmək; habelə

(b) Şirkətdə digər şəxslər ilə məsləhətləşmək.

Şirkətdə məsləhətləşmək üçün başqa şəxslər olmadıqda, tapşırıq üzrə tərəfdaş şirkətdən kənar digər şəxslər, məsələn, digər şirkətlərdəki və ya tapşırıq üzrə tərəfdaşın üzvü olduğu peşəkar mühasibat orqanındakı təcrübəli mütəxəssis-praktiklər ilə məsləhətləşə bilər.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

3.2.6. Audit tapşırığı yerinə yetirilərkən tapşırıq üzrə tərəfdaş aşağıdakıları təmin etməlidir:

(a) Tapşırıq qrupunun digər üzvlərinin müvafiq etik normalar və bu tələblərə uyğunluqla bağlı təhlükələrin müəyyən edilməsi, qiymətləndirilməsi və aradan qaldırılması üzrə şirkətin müvafiq siyasət və ya prosedurları barədə məlumatlandırılmasına görə məsuliyyəti öz üzərinə götürmək; habelə

(b) Müşahidə etməklə və zəruri hallarda sorğular aparmaqla, tapşırıq qrupunun üzvləri tərəfindən müvafiq etik normaların pozulması hallarına görə ayıq olmaq.

Tapşırıq resursları

3.2.7. Auditin xüsusiyyətini və şəraitini, eləcə də şirkətin müvafiq siyasət və ya prosedurlarını nəzərə alaraq, tapşırıq üzrə tərəfdaş aşağıdakıları təmin etməlidir:

(a) Aşağıdakıları müəyyən etməlidir

(i) tapşırıq qrupuna vaxtında yetərli və müvafiq resursların təyin və ya təqdim edilib-edilməməsi; habelə

(ii) tapşırıq qrupunun üzvlərinin və auditorun kənar ekspertlərinin ümumilikdə audit tapşırığını yerinə yetirmək üçün yetərli vaxt da daxil olmaqla, müvafiq sərişdə və bacarıqlara malik olub-olmaması.

(b) Əgər (a) paraqrafında qeyd olunan şərtlər yerinə yetirilmirsə, tapşırıq üzrə tərəfdaş müvafiq tədbirlər görməlidir.

Tapşırıq üzrə tərəfdaşın digər məsuliyyətləri

3.2.8. Tapşırıq üzrə tərəfdaş ağıdakıları təmin etməlidir:

(a) Şirkət tərəfindən həyata keçirilən monitorinq və düzəldici tədbirlər nəticəsində əldə edilən məlumatlar, o cümlədən, müvafiq hallarda, şəbəkə və şəbəkə şirkətləri tərəfindən həyata

keçirilən monitorinq və düzəldici tədbirlər nəticəsində əldə edilən məlumatlar barədə təsəvvür əldə etmək və:

(i) həmin məlumatların audit tapşırığına uyğunluğunu və təsirini müəyyən etmək; habelə
(ii) müvafiq tədbirlər görmək; habelə

(b) Şirkət tərəfindən həyata keçirilən monitorinq və düzəldici tədbirlər ilə əlaqəli ola biləcək məsələlərə qarşı ayıq olmaq və bu məsələlər barədə prosesə cavabdeh olan şəxslərə məlumat vermək.

3.2.9. Tapşırıq üzrə tərəfdaş aşağıdakıları təmin etməlidir:

(a) Fikir ayrılıqları ilə bağlı şirkətin siyasət və ya prosedurlarına uyğun şəkildə tədbir görülməsinə və onların həll edilməsinə görə məsuliyyəti öz üzərinə götürmək;
(b) Şirkətin müvafiq siyasət və ya prosedurlarına uyğun olaraq və ya zəruri hesab edildiyi hallarda çətin və ya mübahisəli məsələlər üzrə məsləhətləşmələrə görə məsuliyyəti öz üzərinə götürmək;
(c) Fikir ayrılıqları və çətin və ya mübahisəli məsələlərlə bağlı əldə edilmiş nəticələrin sənədləşdirildiyini, məsləhətləşmə aparılan tərəflə razılaşdırıldığını və həyata keçirildiyini müəyyən etmək; habelə
(d) Hər hansı fikir ayrılığı həll olunana qədər auditor hesabatının tarixini təyin etməmək.

Audit aparılarkən yürüdülmüş mühakimələrin məqsədəuyğunluğu barədə obyektiv fikir formalaşdırmaq, xüsusilə də eyni şəxsin bütün audit prosesini özü həyata keçirdiyi hallarda, praktiki baxımdan çətinliklər yarada bilər. Qeyri-adi məsələlər mövcud olduqda, müvafiq təcrübəyə malik digər auditorlarla və ya peşəkar mühasibat orqanı ilə məsləhətləşmək məqsədəuyğun ola bilər.

Məsləhətləşmələrin aparılması aşağıdakı hallarda məqsədəuyğun və ya şirkətin siyasət və ya prosedurlarına əsasən zəruri ola bilər:

- *Məsələlər mürəkkəb olduqda və ya tanış olmadıqda;*
- *Əhəmiyyətli risklər mövcud olduqda;*
- *Şirkətin adi fəaliyyətindən kənar və ya qeyri-adi görünən əhəmiyyətli əməliyyatlar olduqda;*
- *Rəhbərlik tərəfindən məhdudiyyətlər qoyulduqda; yaxud*
- *Qanun və ya qaydalara riayət edilmədikdə.*

Fikir ayrılıqları tapşırıq qrupunun daxilində, tapşırıq qrupu ilə tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspert arasında və ya hətta şirkətin keyfiyyət idarəetmə sistemi daxilində fəaliyyət göstərən şəxslərlə (məsələn, konsultasiyanın təmin edilməsinə cavabdeh olan şəxslər) yarana bilər.

Fikir ayrılıqları və ya çətin və ya mübahisəli məsələlərlə bağlı məsələləri nəzərdən keçirərkən, tapşırıq üzrə tərəfdaş həmçinin "AMM üçün BAS"-ın istifadəsinin hələ də məqsədəuyğun olub-olmamasını da nəzərdən keçirə bilər.

3.2.10. Tapşırığın keyfiyyətinin təhlili tələb olunan audit tapşırıqlarında tapşırıq üzrə tərəfdaş tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin edildiyini müəyyən etməli və aşağıdakıları təmin etməlidir:

(a) Tapşırığın keyfiyyəti üzrə müşahidəçi ekspertlə əməkdaşlıq etmək;
(b) Audit zamanı ortaya çıxan mühüm məsələləri və əhəmiyyətli mühakimələri tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə müzakirə etmək; habelə
(c) Tapşırığın keyfiyyətinin təhlili tamamlanmayanadək auditor hesabatının tarixini təyin etməməlidir.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

3.2.11. Tapşırıq üzrə tərəfdaş audit zamanı müvafiq mərhələlərdə auditin sənədləşdirilməsini, o cümlədən, aşağıdakıların sənədləşdirilməsini yoxlamalıdır:

(a) Əhəmiyyətli məsələlər;
(b) Əhəmiyyətli mühakimələr və əldə edilən nəticələr; habelə
(c) Tapşırıq üzrə tərəfdaşın yürütdüyü peşəkar mühakiməyə əsasən, tapşırıq üzrə tərəfdaşın məsuliyyətləri ilə əlaqəli olan digər məsələlər.

Tapşırıq üzrə tərəfdaş, məsələn, aşağıdakılara əsaslanaraq təhlil edilməsi tələb olunan məsələləri müəyyən edərkən peşəkar mühakimə yürüdür:

- *Audit tapşırığının xüsusiyyəti və şəraiti.*
- *İşin tapşırıq qrupunun hansı üzvü tərəfindən yerinə yetirildiyi.*
- *Son yoxlamaların nəticəsində ortaya çıxan məsələlər.*
- *Şirkətin siyasət və ya prosedurlarının tələbləri.*

3.2.12. Tapşırıq üzrə tərəfdaş, rəhbərliyə, idarəetməyə məsul şəxslərə və ya tənzimləyici orqanlara göndərilən rəsmi yazılı məlumatları təqdim edilməzdən əvvəl nəzərdən keçirməlidir.

3.3. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən tətbiq edilən 2.4-cü hissədə qeyd olunan sənədləşdirilmə ilə bağlı ümumi tələblərlə yanaşı bu hissəyə aid olan sənədləşdirilmə ilə bağlı xüsusi məsələlər aşağıda təsvir olunur.

3.3.1. Auditor auditin sənədləşdirilməsinə aşağıdakıları daxil etməlidir:

(a) Müvafiq etik normalar, o cümlədən müvafiq müstəqillik tələbləri üzrə məsuliyyətlərin yerinə yetirilməsi ilə bağlı müəyyən edilmiş məsələlər, aparılmış müvafiq müzakirələr və əldə edilmiş nəticələr.
(b) Audit tapşırığının keyfiyyətinin təhlili yerinə yetirildiyi halda, həmin təhlilin auditor hesabatının tarixindən gec olmayaraq tamamlanması.

4. Audit tapşırığının və ilkin audit tapşırıqlarının qəbulu və ya davam etdirilməsi

Bu hissənin məzmunu

4-cü hissədə auditorun aşağıdakı məsələlər üzrə məsuliyyətləri müəyyən edilir:

- Audit tapşırığının şərtlərinin rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslərlə razılaşdırılması. Bu prosesə, həmçinin, audit üçün müəyyən ilkin şərtlərin mövcudluğunun müəyyən edilməsi daxildir.
- "AMM üçün BAS"-ın istifadəsinin audit tapşırığı üçün uyğunluğunun müəyyən edilməsi.

4-cü hissə, həmçinin ilkin audit tapşırıqları ilə bağlı fəaliyyəti əhatə edir.

Bu hissənin əhatə dairəsi

Bu standartın A hissəsində "AMM üçün BAS"-ın uyğun şəkildə istifadəsi üçün səlahiyyətlər müəyyən edilir. Bu hissədə, AMM-in audit tapşırığının qəbulu və ya davam etdirilməsi prosedurlarının bir hissəsi kimi tapşırıq üzrə tərəfdaşın bu standartdan istifadəsi üzrə öhdəlikləri müəyyən edilir.

Müştəri qəbulu və davamlılığı prosedurları həyata keçirilərkən toplanan məlumat və audit sübutları "AMM üçün BAS"-ın audit tapşırığına uyğun olduğunu müəyyən etmək üçün istifadə olunur və auditin planlaşdırılma mərhələsində, həmçinin riskin müəyyən edilməsi və qiymətləndirilməsi prosesində auditorun prosedurları haqqında məlumat verir.

"Ön söz"-də qeyd olunur ki, bu standart 1 saylı BKİS-in və ya ən azı onun qədər sərt olan milli tələblərin şamil olunduğu şirkətlər üçün nəzərdə tutulmuşdur. 1 saylı BKİS-ə uyğun olaraq, şirkət müştərilərin və konkret tapşırıqların qəbulu və davam etdirilməsinə yönəlmiş keyfiyyət məqsədlərini müəyyən etməlidir. Bundan əlavə, 1 saylı BKİS-in tələblərinə riayət etmək üçün şirkətlərdən bu hissəyə aid olan digər məsələləri həll etmək üçün siyasət və ya prosedurlara malik olması tələb edilə bilər.

Audit tapşırığı yalnız o zaman qəbul edilə bilər ki, auditor müstəqillik, peşəkar sərişdə və lazımi ehtiyatlılıq kimi müvafiq etik normalara riayət ediləcəyindən və audit üçün ilkin şərtlərin mövcud olduğundan əmin olsun. Bundan əlavə, auditor audit müştərisi üçün qeyri-təminat xidmətlərinin yerinə yetirilməsini və bu xidmətlərin icazəli olub-olmadığını nəzərə alır.

Audit ilkin tapşırıq olduğu halda, bu hissədə həmçinin auditorun ilkin qalıqlar ilə bağlı məsuliyyətləri də müəyyən edilir.

4.1. Məqsədlər

4.1.1. Auditorun məqsədləri aşağıdakılardır:

(a) Audit tapşırığını yalnız onun yerinə yetirilməli olduğu əsaslar razılaşdırıldıqdan sonra qəbul etmək və ya davam etdirmək. Bu, aşağıdakılar vasitəsilə təmin edilir:

(i) Audit üçün ilkin şərtlərin olub-olmadığını müəyyən etmək; habelə
(ii) Auditorla rəhbərlik və, müvafiq hallarda, idarəetməyə məsul şəxslər arasında audit tapşırığının şərtləri ilə bağlı ümumi anlaşmanın olduğunu təsdiq etmək.

(b) İlkin audit tapşırıqları üçün isə aşağıdakılara dair yetərli və müvafiq audit sübutları əldə etmək:

(i) İlkin qalıqlarda, cari dövrün maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərən təhriflərin olması; habelə

(ii) İlkin qalıqlarda əks etdirilən müvafiq uçot siyasətlərinin cari dövrün maliyyə hesabatlarında ardıcıl olaraq tətbiq edilməsi və ya onlara edilən dəyişikliklərin müvafiq qaydada nəzərə alınması və maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq təqdim edilməsi və açıqlanması.

4.2. Audit üçün ilkin şərtlər

4.2.1. Audit üçün ilkin şərtlərin olub-olmadığını müəyyən etmək məqsədilə, auditor aşağıdakıları yerinə yetirməlidir:

(a) Maliyyə hesabatlarının hazırlanması zamanı tətbiq ediləcək maliyyə hesabatları çərçivələrinin məqbul olub-olmadığını müəyyən etmək;
(b) Rəhbərliyin aşağıdakılar üzrə öz məsuliyyətini qəbul etdiyini və başa düşdüyünü təsdiqləyən razılığını əldə etmək:

(i) Maliyyə hesabatlarının tətbiq olunan maliyyə hesabatları çərçivələrinə uyğun hazırlanması, o cümlədən müvafiq hallarda onların ədalətli təqdim edilməsi;
(ii) Dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri hesab etdiyi nəzarət vasitələrinin tətbiq edilməsi; habelə
(iii) Auditorun aşağıdakılarla təmin edilməsi:

a. Maliyyə hesabatlarının hazırlanması ilə bağlı rəhbərliyə məlum olan bütün məlumatlara (mühasibat uçotu sənədləri, sənədləşdirilmə və digər məsələlər) çıxış imkanı;

b. Auditor tərəfindən audit məqsədləri üçün rəhbərlikdən tələb edilə biləcək əlavə məlumatlar; habelə

c. Auditorun zəruri hesab etdiyi şəxslərdən audit sübutu əldə edə bilməsi üçün bu cür şəxslərə məhdudiyyətsiz çıxış imkanı.

4.2.2. Audit üçün ilkin şərtlər mövcud olmadığı halda, auditor bu məsələni rəhbərliklə müzakirə etməlidir. Qanun və ya qaydalarla tələb olunmadığı təqdirdə, auditor təklif olunan audit tapşırığını aşağıdakı hallarda qəbul etməməlidir:

(a) Auditor maliyyə hesabatlarının hazırlanması zamanı tətbiq ediləcək maliyyə hesabatları çərçivələrinin qəbuledilməz olduğunu müəyyən etdikdə; yaxud
(b) Rəhbərliyin öz məsuliyyətini başa düşməsi və qəbul etməsi razılığı əldə edilmədikdə.

4.2.3. Əgər rəhbərlik və ya idarəetməyə məsul şəxslər auditorun işinin həcminə elə bir məhdudiyyət qoyursa ki, auditor bu məhdudiyyətin maliyyə hesabatlarına dair rəy verməkdən imtina etməsinə səbəb olacağı qənaətinə gəlir, qanun və ya qaydalarla tələb olunmadığı təqdirdə, auditor belə məhdudlaşdırılmış tapşırığı audit tapşırığı kimi qəbul etməməlidir.

4.3. Audit tapşırığının qəbul edilməsi və ya davam etdirilməsi ilə bağlı mülahizələr

Planlaşdırma mərhələsinə başlamazdan əvvəl qəbul və ya davamlılıq prosedurlarının yerinə yetirilməsi auditora cari tapşırığı planlaşdırmaq və yerinə yetirmək qabiliyyətinə mənfi təsir göstərə biləcək hadisələri və ya halları müəyyən etmək və qiymətləndirməkdə kömək edir.

4.3.1. Tapşırıq üzrə tərəfdaş aşağıdakıları müəyyən etməlidir:

(a) Audit tapşırığının qəbulu və davam etdirilməsi ilə bağlı şirkətin siyasət və ya prosedurlarına riayət edilmişdir;[9] habelə

(b) Audit tapşırığının qəbul edilməsi və davam etdirilməsi ilə bağlı əldə edilən nəticələr, o cümlədən audit tapşırığının bu standartın A Hissəsinə uyğun olaraq "AMM üçün BAS"-dan istifadə etməklə həyata keçirilə biləcəyinə dair nəticələr uyğundur.

A Hissəsində tapşırıq üzrə tərəfdaşın "AMM üçün BAS"-ın müvafiq istifadəsini müəyyən etməsi ilə əlaqəli məsələlər, xüsusən də bu standartdan istifadəsinə dair məhdudiyyətlərlə bağlı məsələlər müəyyən edilir.

Müştəri qəbulu və davamlılığı prosedurları həyata keçirilərkən toplanan məlumat və audit sübutları "AMM üçün BAS"-ın istifadəsi ilə bağlı qərar vermək üçün istifadə edilə bilər. Bununla yanaşı, risklərin aşkar edilməsi və qiymətləndirilməsi prosedurları həyata keçirilərkən əlavə məlumatlar əldə edilə bilər ki, bu da tapşırıq üzrə tərəfdaşın bu hissəyə uyğun olaraq "AMM üçün BAS"-ın istifadəsinə dair ilkin qərarını dəyişdirə bilər. 6-cı hissəyə (bax: 6.5.1-ci paraqraf) uyğun olaraq, tapşırıq üzrə tərəfdaş risklər müəyyən edilən və qiymətləndirilən zaman "AMM üçün BAS"-ın auditi aparılan müəssisənin xüsusiyyətinə və şəraitinə uyğun olub-olmadığını müəyyən etməlidir. Audit ərzində əldə edilən yeni məlumatlar tapşırıq üzrə tərəfdaşın "AMM üçün BAS"-ın istifadəsinin məqsədəuyğunluğu barədə qərarını dəyişə bilər.

4.3.2. Bəzi hallarda müvafiq yurisdiksiyanın qanun və ya qaydaları auditorun hesabatının tərtibatını və ya mətnini bu standartın tələblərindən əhəmiyyətli dərəcədə fərqli formada və ya terminlərlə müəyyən edir. Bu şəraitdə auditor aşağıdakıları müəyyən etməlidir:

(a) İstifadəçilər maliyyə hesabatlarının auditindən əldə edilmiş əminliyi səhv başa düşə bilərmi və əgər belədirsə,
(b) Auditorun hesabatında əlavə izahat mümkün anlaşılmazlığı azalda bilərmi.

4.3.3. Auditor, əlavə izahatın auditor hesabatındakı mümkün anlaşılmazlığı azalda bilməyəcəyi qənaətinə gəldiyi halda, qanun və ya qaydalarla tələb olunmadığı təqdirdə, auditor bu cür audit tapşırığını qəbul etməməlidir. Belə qanun və ya qaydalara uyğun olaraq aparılan audit "AMM üçün BAS"-ın tələblərinə uyğun deyil. Müvafiq olaraq, auditor öz hesabatına auditin "AMM üçün bu BAS"-a uyğun olaraq aparıldığını qeyd etməməlidir.

4.4. Audit tapşırığının şərtləri

4.4.1. Auditor, audit tapşırığının şərtlərini rəhbərlik və ya lazım olduqda idarəetməyə məsul şəxslərlə razılaşdırmalıdır.

Qanun və ya qaydalarda nəzərdə tutulan rəhbərliyin məsuliyyətləri bu standart üzrə tələb edilənlərlə eyni qüvvəyə malik olduğu halda, auditor onları yazılı razılaşmada təsvir etmək üçün qanun və ya qaydanın mətnindən istifadə edə bilər.

Əlavə 2-də məktub-sazişin nümunəsi təqdim edilir.

[9] 1 saylı "Maliyyə hesabatlarının auditini və ya təhlilini, yaxud digər təsdiqləmə və ya əlaqəli xidmətlər üzrə tapşırıqları yerinə yetirən şirkətlərdə keyfiyyətin idarə edilməsi" BKİS-in 30-cu paraqrafında konkret tapşırıqların qəbul edilməsi və ya davam etdirilməsinə dair qərar verdikdə şirkətin maliyyə və əməliyyat prioritetləri ilə bağlı mülahizələr də daxil olmaqla, konkret tapşırıqların qəbulu üçün keyfiyyət məqsədlərinin müəyyən edilməsi üzrə şirkətin məsuliyyətləri müəyyən edilir.

4.4.2. Təkrar auditdə auditor şəraitin audit tapşırığının şərtlərinə yenidən baxılmasını tələb edib-etməməsini və audit tapşırığının mövcud şərtlərini müəssisəyə xatırlatmağa ehtiyac olub-olmadığını qiymətləndirməlidir.

4.4.3. Audit tapşırığının şərtlərinin dəyişdirilməsi üçün ağlabatan əsas olmadıqda, auditor bunu etməyə razılaşmamalıdır.

4.4.4. Audit tapşırığını tamamlamazdan əvvəl auditordan audit tapşırığını daha aşağı əminlik səviyyəsi verən tapşırığa dəyişmək tələb olunduğu halda, auditor bunu etmək üçün ağlabatan əsasın olub-olmadığını müəyyən etməlidir.

Audit tapşırığını təhlil və ya əlaqəli xidmətə dəyişdirilməsinə razılıq verməzdən əvvəl, auditor dəyişikliyin hər hansı hüquqi və ya müqavilə üzrə mümkün nəticələrini qiymətləndirməli ola bilər.

4.4.5. Audit tapşırığının şərtləri dəyişdirildiyi halda, auditor və rəhbərlik tapşırığın yeni şərtlərini razılaşdırıb məktub-sazişdə və ya digər uyğun yazılı razılaşma formasında qeyd etməlidirlər.

4.4.6. Əgər auditor audit tapşırığının şərtlərinin dəyişdirilməsi ilə razılaşa bilmirsə və rəhbərlik tərəfindən ilkin audit tapşırığını davam etdirməyə icazə verilmirsə, auditor:

(a) Mövcud qanun və ya qaydalara əsasən mümkün olduqda, audit tapşırığından imtina etməlidir; habelə
(b) Müqavilə üzrə və ya başqa şəkildə bu şəraitlər barədə idarəetməyə məsul şəxslər, mülkiyyətçilər və ya tənzimləyici orqanlar kimi digər tərəflərə məruzə etmək öhdəliyinin olub-olmadığını müəyyən etməlidir.

4.5. İlkin audit tapşırıqları

4.5.1. Tapşırıq ilkin audit olduğu və auditorda dəyişiklik baş verdiyi halda, müvafiq etik normalara uyğun olaraq auditor əvvəlki auditor ilə əlaqə saxlamalıdır.

4.5.2. Auditor, ilkin qalıqlar, o cümlədən açıqlamalar ilə bağlı məlumatları əldə etmək məqsədilə, ən son maliyyə hesabatları (əgər varsa) və onlara dair auditor hesabatı (əgər varsa) ilə tanış olmalıdır.

4.5.3. Əvvəlki auditor tərəfindən əvvəlki dövrün maliyyə hesabatlarının auditi aparıldığı və fərqli rəy verildiyi halda, cari auditor cari dövrün maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsində dəyişikliyə əsas verən məsələnin təsirini müəyyən etməlidir.[10]

4.5.4. İlkin qalıqların cari dövrün maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərən təhriflərin olub-olmaması barədə yetərli müvafiq audit sübutları[11] əldə etmək üçün auditor:

(a) İlkin qalıqların cari dövrə düzgün keçirildiyini və ya müvafiq hallarda, yenidən tərtib olunduğunu müəyyən etməlidir;
(b) İlkin qalıqların müvafiq uçot siyasətinin tətbiqini əks etdirdiyini müəyyən etməlidir; habelə
(c) Aşağıdakılardan birini və ya bir neçəsini yerinə yetirməlidir:

(i) Əvvəlki ilin maliyyə hesabatlarının auditi aparıldıqda, ilkin qalıqlarla bağlı sübut əldə etmək üçün əvvəlki auditorun işçi sənədlərini yoxlamaq;
(ii) Cari dövrdə həyata keçirilən audit prosedurlarının, ilkin qalıqlar ilə bağlı sübut təmin edib-etmədiyini qiymətləndirmək; yaxud

[10] Auditorun hesabatına təsiri ilə bağlı məlumat üçün, bax: 9-cü hissə, 9.5.9-cu paraqraf

[11] Auditorun hesabatına təsiri ilə bağlı məlumat üçün, bax: 9-cü hissə, 9.5.6-cı paraqraf

(iii) İlkin qalıqlar ilə bağlı sübut əldə etmək üçün xüsusi audit prosedurlarını həyata keçirmək.

İlkin qalıqlar ilə bağlı yetərli müvafiq audit sübutlarının əldə edilməsi üçün zəruri olan audit prosedurlarının xüsusiyyəti və həcmi aşağıdakı məsələlərdən asılıdır:

- *Müəssisənin tətbiq etdiyi uçot siyasəti.*
- *Hesab qalıqlarının xüsusiyyəti, əməliyyatların növləri və açıqlamalar, habelə cari dövrün maliyyə hesabatlarında əhəmiyyətli təhrif riskləri.*
- *Cari dövrün maliyyə hesabatlarına nisbətən ilkin qalıqların əhəmiyyəti.*
- *Əvvəlki dövrün maliyyə hesabatlarının auditinin aparılıb-aparılmaması və audit aparıldıqda, əvvəlki auditor tərəfindən fərqli rəy verilib-verilməməsi.*

4.5.5. Əgər auditor ilkin qalıqlarda cari dövrün maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək təhriflərin olması barədə audit sübutu əldə edərsə, auditor, cari dövrün maliyyə hesabatlarına təsirini müəyyən etmək üçün şəraitə uyğun olan əlavə audit prosedurlarını yerinə yetirməlidir.[12]

4.5.6 Auditor ilkin qalıqlarda əks etdirilən uçot siyasətlərinin cari dövrün maliyyə hesabatlarında ardıcıl şəkildə tətbiq edilib-edilməməsinə və uçot siyasətində hər hansı dəyişikliyin müvafiq maliyyə hesabatı çərçivəsinə uyğun olaraq müvafiq qaydada nəzərə alınıb-alınmamasına və müvafiq qaydada təqdim edilib-edilməməsinə dair yetərli müvafiq audit sübutları əldə etməlidir.[13]

4.6. Məlumatvermə ilə bağlı xüsusi tələblər

4.6.1. Auditor idarəetməyə məsul şəxslərlə məlumat mübadiləsi aparmalıdır:

(a) Rəhbərlik tərəfindən hazırlanmış maliyyə hesabatlarına dair rəyin formalaşdırılması və bildirilməsi üzrə auditorun məsuliyyətləri; habelə
(b) Auditorun məsuliyyətlərinin rəhbərliyi və ya idarəetməyə məsul olan şəxsləri maliyyə hesabatlarının hazırlanmasına nəzarət üzrə məsuliyyətlərindən azad etmir.

4.7. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən tətbiq edilən 2.4-cü hissədə qeyd olunan sənədləşdirilmə ilə bağlı ümumi tələblərdən əlavə, bu hissəyə aid sənədləşdirilməli olan xüsusi məsələlər aşağıda təsvir edilmişdir.

4.7.1. Auditor müştəri ilə münasibətlərin və audit tapşırığının qəbulu və davam etdirilməsi ilə bağlı müəyyən edilmiş məsələləri, işçi heyəti ilə aparılmış müvafiq müzakirələri və əldə edilmiş nəticələri audit sənədləşdirilməsinə daxil etməlidir.

4.7.2. Auditor “AMM üçün BAS”-dan istifadə edilməsi üçün verilmiş qərarın əsaslandırılmasını sənədləşdirməlidir.

4.7.3. Əgər audit zamanı auditora bu məsələ ilə bağlı yürüdülmüş peşəkar mühakiməni dəyişə biləcək əlavə məlumatlar məlum olarsa, “AMM üçün BAS”-dan istifadə edilməsi ilə bağlı qərarda edilən dəyişiklikləri (əgər varsa) sənədləşdirməlidir.

4.7.4. Auditor auditə dair məktub-sazişdə və ya digər uyğun yazılı razılaşma formasında aşağıdakıları qeyd etməlidir:

(a) Auditin aparılmasında “AMM üçün BAS”-dan istifadə ediləcəyini;
(b) Maliyyə hesabatlarının auditinin məqsədi və həcmini;

[12] Auditorun hesabatına təsiri ilə bağlı məlumat üçün, bax: 9-cü hissə, 9.5.7-ci paraqraf

[13] Auditorun hesabatına təsiri ilə bağlı məlumat üçün, bax: 9-cü hissə, 9.5.8-ci paraqraf

(c) Auditorun və rəhbərliyin müvafiq məsuliyyətlərini;
(d) Maliyyə hesabatlarının hazırlanması üçün maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin müəyyən edilməsini;
(e) Auditor tərəfindən təqdim olunacaq hesabatların gözlənilən forma və məzmununa istinadı; habelə
(f) Bəzi hallarda hesabatın gözlənilən formasından və məzmunundan fərqli ola biləcəyi barədə bəyanatı.

4.7.5. Qanun və ya qaydalar bu standartda istinad edilən audit tapşırığının şərtlərini kifayət qədər təfərrüatlı şəkildə müəyyən etdiyi halda, bu cür qanun və ya qaydaların tətbiq olunduğunu və rəhbərliyin öz məsuliyyətlərini qəbul etdiyini və başa düşdüyünü qeyd etməsi istisna olmaqla, auditor bunları yazılı razılaşmada qeyd etməməlidir.

5. Planlaşdırma

Bu hissənin məzmunu

5-ci hissədə auditorun auditin planlaşdırılması (o cümlədən tapşırıq qrupunun müzakirəsinin aparılması) üzrə məsuliyyəti, habelə auditin planlaşdırılması və həyata keçirilməsi zamanı əhəmiyyətlilik anlayışı müəyyən edilir.

Bu hissənin əhatə dairəsi

Planlaşdırma auditin ayrıca bir mərhələsi deyil, daha çox audit aparılarkən lazım gəldikdə yenilənən və dəyişdirilən davamlı və təkrarlanan bir prosesdir. 6-cı hissə ("Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi") və 7-ci hissə ("Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirlərinin görülməsi") də bu hissə ilə əlaqəlidir.

Bu hissədə qeyd olunan bəzi tələblər digər hissələrdəki prosedurlarla əlaqəlidir və bu hissədə qeyd olunan tələblərə riayət etmək üçün auditorun həmin prosedurları yerinə yetirməsi zəruri ola bilər.

5.1. Məqsədlər

5.1.1. Auditorun məqsədləri aşağıdakılardır:

(a) Auditin effektiv şəkildə aparılmasını təmin edəcək şəkildə onu planlaşdırmaq; habelə
(b) Auditin planlaşdırılmasında və həyata keçirilməsində əhəmiyyətlilik anlayışını müvafiq qaydada tətbiq etmək.

5.2. Planlaşdırma tədbirləri

Planlaşdırma tədbirlərinin xüsusiyyəti, müddəti və həcmi müəssisənin xüsusiyyəti və şəraiti, tapşırıq qrupunun ölçüsü və xüsusiyyəti, tapşırıq qrupu üzvlərinin müəssisə ilə əvvəlki təcrübəsi və audit tapşırığı yerinə yetirilərkən şəraitdə baş verən dəyişikliklərdən asılı olaraq dəyişir.

Auditin planlaşdırılmasının məqsədi və hədəfi, auditin ilkin və ya təkrar tapşırıq olmasından asılı olmayaraq eynidir. Bununla belə, ilkin audit üçün auditor planlaşdırma tədbirlərini genişləndirməli ola bilər, çünki auditorun adətən təkrar tapşırıqları planlaşdırarkən nəzərə alınan müəssisə ilə əvvəlki təcrübəsi yoxdur.

5.2.1. Auditor auditin həcmini, müddətini və istiqamətini müəyyən etməli, eləcə də aşağıdakıları təmin etməlidir:

(a) Tapşırığın əhatə dairəsini müəyyən edən xüsusiyyətlərinin müəyyən edilməsi;
(b) Auditin müddətini və tələb olunan məlumatvermənin xüsusiyyətini planlaşdırmaq üçün tapşırığın hesabatvermə məqsədlərinin müəyyən edilməsi;
(c) Auditorun peşəkar mühakiməsinə əsasən, tapşırıq qrupunun səylərini istiqamətləndirmək üçün əhəmiyyətli olan amillərin nəzərə alınması;
(d) Tapşırıq üzrə ilkin tədbirlərin nəticələrini və müvafiq hallarda tapşırıq üzrə tərəfdaşın yerinə yetirdiyi digər tapşırıqlardan əldə etdiyi biliklərin bu müəssisə üçün müvafiqliyinin nəzərdən keçirilməsi; habelə
(e) Həyata keçiriləcək prosedurların xüsusiyyəti, müddəti və həcminin, həmçinin auditi həyata keçirmək üçün lazım olan resursların, o cümlədən ekspertlərə ehtiyac olub-olmadığının müəyyən edilməsi.

Auditin həcminin, vaxtının və istiqamətinin müəyyən edilməsi mürəkkəb və ya vaxt aparan bir proses olmamalıdır. Məsələn, əvvəlki auditdən sonra işçi sənədlərinin təhlili əsasında hazırlanmış və yenicə tamamlanmış auditdə müəyyən edilmiş məsələləri işıqlandıran qısa memorandum, cari dövrdə sahibkar-menecerlə aparılan müzakirələr əsasında yenilənərək, cari audit tapşırığının sənədləşdirilmiş həcmi, müddəti və istiqaməti kimi xidmət edə bilər. Az mürəkkəb müəssisədə olduğu kimi, bir neçə müəyyən edilmiş nəzarət vasitəsinin olması ehtimalı əsasında hazırlanmış standart audit proqramları və ya yoxlama vərəqələrindən, istifadə edilə bilər, o şərtlər ki, onlar auditorun risk qiymətləndirmələri də daxil olmaqla, tapşırığın şəraitinə uyğunlaşdırılsın.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

5.2.2. Tapşırıq üzrə tərəfdaş və tapşırıq qrupunun digər əsas üzvləri auditin planlaşdırılmasında iştirak etməlidirlər.

5.2.3. Auditor tapşırıq qrupu üzvlərinin istiqamətləndirilməsi və nəzarətin xüsusiyyətini, müddətini və həcmini, habelə onların işinin təhlilini planlaşdırmalıdır.

5.2.4. Tapşırıq üzrə tərəfdaş auditin planlaşdırılması və icrası zamanı qəbul və davamlılıq prosesində əldə edilmiş məlumatları nəzərə almalıdır.

5.2.5. Auditi planlaşdırmaq və həyata keçirmək üçün istifadə edilən məlumatlar müəssisə ilə əvvəlki təcrübədən və ya əvvəlki auditlərdən əldə edildikdə, auditor bu məlumatların cari dövrdə audit sübutu kimi müvafiq və yetərli qalıb-qalmamasını qiymətləndirməlidir.

5.2.6. Auditor audit zamanı zərurət yarandıqda həcmi, müddəti və istiqaməti yeniləməli və dəyişdirməlidir.

Tapşırıq qrupunun müzakirəsi

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

5.2.7. Tapşırıq üzrə tərəfdaş və tapşırıq qrupunun digər əsas üzvləri müəssisənin maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin baş vermə ehtimalını, o cümlədən aşağıdakıları müzakirə etməlidir:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin müəssisənin fakt və şəraitlərinə şamil olunması.

(b) Müəssisənin maliyyə hesabatlarında dələduzluq nəticəsində əhəmiyyətli təhriflərin baş vermə ehtimalının necə və harada ola biləcəyi, o cümlədən dələduzluğun necə baş verə biləcəyi, habelə dələduzluğun və ya səhvin əlaqəli tərəflərlə münasibətlər və ya əməliyyatlar nəticəsində necə yarana biləcəyi.

Tapşırıq qrupunun üzvlər arasında müzakirələr aparılarkən, tapşırığın qrupunun həmin rəhbərlik və müvafiq hallarda, idarəetməyə məsul şəxslərin vicdanlı və dürüst olması ilə bağlı inancları nəzərə alınmamalıdır.

Tapşırıq qrupunun müzakirəsi, həmçinin, logistika, əməliyyatlar ilə bağlı və ya digər məsələləri (məsələn, əhəmiyyətli təhrif risklərinin əvvəlki illərlə müqayisədə dəyişə biləcəyi hallar və ya müstəqillik də daxil olmaqla müvafiq etik normalara aid məsələlər), habelə auditin müddət və tələb olunan məlumatvermə kimi digər məsələləri əhatə edə bilər.

5.2.8. Müzakirədə iştirak etməyən tapşırıq qrupu üzvləri olduqda, tapşırıq üzrə tərəfdaş həmin üzvlərə

hansı məsələlərin çatdırılacağını müəyyən etməlidir.

Rəhbərliyin təyin etdiyi ekspertin işindən istifadə

5.2.9. Audit sübutu kimi istifadə olunacaq məlumatların hazırlanmasında rəhbərliyin təyin etdiyi ekspertin işindən istifadə edilmədiyi halda, auditor həmin ekspertin işinin auditorun məqsədləri üçün əhəmiyyətini nəzərə alaraq:

(a) Həmin ekspertin səriştəsini, imkanlarını və obyektivliyini qiymətləndirməlidir; habelə
(b) Həmin ekspertin işi haqqında təsəvvür əldə etməlidir.

Rəhbərliyin təyin etdiyi ekspertin səriştəsinin, imkanlarının və obyektivliyinin qiymətləndirilməsi

Səriştə, rəhbərliyin təyin etdiyi ekspertin ixtisaslaşmasının xüsusiyyətinə və səviyyəsinə aiddir. İmkan, rəhbərliyin təyin etdiyi ekspertin bu səriştəni mövcud şəraitdə tətbiq etmək bacarığına aiddir. Obyektivlik, qərəzlilik, maraqların toqquşması və ya üçüncü tərəflərin təsiri kimi halların rəhbərliyin təyin etdiyi ekspertin peşəkar və ya biznes mühakimələrinə göstərə biləcəyi mümkün təsirlərə aiddir. Rəhbərliyin təyin etdiyi ekspertin səriştəsinin, imkanlarının və obyektivliyinin qiymətləndirilməsi ilə bağlı məsələlərə, həmin ekspertin işinə texniki perfomans standartlarının və ya digər peşə və ya sahə tələblərinin şamil olunub-olunmaması da daxil ola bilər.

Rəhbərliyin təyin etdiyi ekspertin işi barədə təsəvvürün əldə edilməsi

Rəhbərliyin təyin etdiyi ekspertin işi barədə təsəvvür əldə edərkən, müəssisə ilə həmin ekspert arasında razılaşmanın qiymətləndirilməsi auditorun məqsədləri üçün aşağıdakıların məqsədəuyğunluğunu müəyyən etməkdə auditora kömək edə bilər:

- *Həmin ekspertin işinin xüsusiyyəti, həcmi və məqsədləri;*
- *Rəhbərliyin və həmin ekspertin müvafiq vəzifələri və məsuliyyətləri; habelə*
- *Rəhbərliklə həmin ekspert arasında məlumat mübadiləsinin xüsusiyyəti, müddəti və həcmi, o cümlədən həmin ekspert tərəfindən təqdim ediləcək hər hansı hesabatın forması.*

Auditorun ekspertinin işindən istifadə edib-etməməyin müəyyən edilməsi

5.2.10. Yetərli müvafiq audit sübutlarının əldə edilməsi üçün mühasibat uçotu və ya auditdən başqa bir sahədə ixtisaslaşma lazım olduğu halda, auditor öz ekspertinin işindən istifadə edib-etməməli olduğunu müəyyən etməlidir.

Əgər maliyyə hesabatlarının hazırlanmasında mühasibat uçotundan başqa bir sahə üzrə ekspertin ixtisaslaşmasından istifadə edilirsə, mühasibat uçotu və audit sahəsində bacarıqları olan auditorun həmin maliyyə hesabatlarının auditini aparmaq üçün lazımi ixtisaslaşması olmaya bilər. Auditorun ekspertinin işindən istifadə edib-etməmək barədə qərar verməsi və əgər istifadə edilərsə, bunu nə vaxt və hansı dərəcədə etməli olduğunu auditora 3.2.7 və 5.2.1.(e) paraqraflarında qeyd olunan tələblərə riayət etmək kömək edir. Audit prosesi irəlilədikcə və ya şərait dəyişdikdə auditorun ekspertinin işindən istifadə ilə bağlı əvvəlki qərarlarını yenidən nəzərdən keçirməli ola bilər.

İfadə edilmiş auditor rəyinə görə yalnız auditor məsuliyyət daşıyır və bu məsuliyyət auditorun ekspertin işindən istifadə etməklə azalmır. Bununla belə, əgər auditorun ekspertinin işindən istifadə edən auditor, həyata keçirilən audit prosedurlarına və əldə edilmiş sübutlara əsaslanaraq, işindən istifadə edilən ekspertin işinin auditorun məqsədləri üçün uyğun olduğu qənaətinə gələrsə, auditor həmin ekspertin öz ixtisaslaşma sahəsində əldə etdiyi nəticələri və ya qənaətləri müvafiq audit sübutu kimi qəbul edə bilər.

5.2.11. Auditor, ekspertinə aid prosedurların xüsusiyyətini, müddətini və həcmini müəyyən edərkən aşağıdakıları nəzərə almalıdır:

(a) Həmin ekspertin işinin aid olduğu məsələnin xüsusiyyəti;

(b) Həmin ekspertin işinin aid olduğu məsələdə əhəmiyyətli təhrif riskləri;

(c) Həmin ekspertin işinin audit kontekstində əhəmiyyəti;

(d) Auditorun həmin ekspert tərəfindən əvvəllər görülmüş işlərlə bağlı biliyi və təcrübəsi; habelə

(e) Auditorun şirkətinin keyfiyyətin idarə edilməsi siyasətlərinin və ya prosedurlarının həmin ekspertə şamil olunub-olunmaması.

5.2.12. Auditorun ekspertinin işindən istifadə etdikdə, auditor aşağıdakıları etməlidir:

(a) Auditorun məqsədləri üçün auditorun ekspertinin lazımi səriştəyə, imkanlara və obyektivliyə malik olub-olmadığını qiymətləndirməlidir. Auditorun kənar eksperti olduğu halda, obyektivliyin qiymətləndirilməsi həmin ekspertin obyektivliyinə təhlükə yarada biləcək maraq və münasibətlərlə bağlı sorğunu da əhatə etməlidir;

(b) Auditorun məqsədləri üçün ekspertin işinin xüsusiyyəti, həcmi və məqsədlərini müəyyən edə bilməsi və bu işin uyğunluğunu qiymətləndirməsi üçün ekspertin ixtisaslaşma sahəsi barədə yetərli təsəvvür əldə etməlidir; habelə

(c) Müvafiq hallarda yazılı şəkildə ekspertin işinin xüsusiyyəti, həcmi və məqsədləri, auditor və həmin ekspertin müvafiq vəzifələri və məsuliyyətlərini, məlumatvermənin xüsusiyyəti, müddəti və həcmi, eləcə də ekspertin məxfilik tələblərinə riayət etməsi zərurətini razılaşdırmalıdır.

5.3. Əhəmiyyətlilik

5.3.1. Auditor bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətliliyi müəyyən etməlidir.

Audit kontekstində əhəmiyyətlilik

Əhəmiyyətlilik anlayışı auditor tərəfindən həm auditin planlaşdırılmasında, həm də həyata keçirilməsində, aşkar edilmiş təhriflərin auditə təsirinin qiymətləndirilməsində və əgər varsa, düzəliş edilməmiş təhriflərin maliyyə hesabatlarına təsirinin qiymətləndirilməsində və auditor hesabatında rəyin formalaşdırılmasında tətbiq edilir.

Auditor əhəmiyyətliliyi müəyyən edərkən peşəkar mühakimə yürütməlidir, həmçinin əhəmiyyətliliyin müəyyən edilməsinə auditorun maliyyə hesabatları istifadəçilərinin maliyyə məlumatlarına olan ehtiyaclarına dair təsəvvüründən asılıdır.

Əhəmiyyətli hesab ediləcək təhriflərə dair auditorun peşəkar mühakiməsi aşağıdakılar üçün əsas yaradır:

- *Əhəmiyyətli təhrif risklərini müəyyən etmək və qiymətləndirmək üçün prosedurların xüsusiyyəti, müddəti və həcminin müəyyən edilməsi;*
- *Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi; habelə*
- *Növbəti audit prosedurlarının xüsusiyyəti, müddəti və həcminin müəyyən edilməsi.*

Bütövlükdə maliyyə hesabatları üzrə əhəmiyyətliliyin müəyyən edilməsində etalonların istifadə edilməsi

Bütövlükdə maliyyə hesabatları üzrə əhəmiyyətliliyin müəyyən edilməsində başlanğıc nöqtəsi kimi seçilmiş etalona çox vaxt faiz nisbəti tətbiq edilir. Müvafiq etalonun müəyyən edilməsinə təsir edə biləcək amillərə aşağıdakılar daxildir:

- *Maliyyə hesabatlarının elementləri (məsələn, aktivlər, öhdəliklər, kapital, gəlirlər, xərclər)*
- *İstifadəçilərin diqqət yetirməyə meyilli olduğu elementlərin olub-olmaması;*

- *Fəaliyyət dövründə olduğu müəssisənin xüsusiyyəti və fəaliyyət göstərdiyi sahə və iqtisadi mühit;*
- *Müəssisənin mülkiyyət strukturu və onun maliyyələşmə üsulu. Məsələn, müəssisə kapital deyil, yalnız borc hesabına maliyyələşirsə, istifadəçilər müəssisənin mənfəətindən daha çox aktivlərə və onlara dair iddialara diqqət yetirə bilər; habelə*
- *Etalonun nisbi dəyişkənliyi.*

Müəssisənin şəraitindən asılı olaraq uyğun olan etalonlarına aşağıdakı kimi hesabata daxil edilən gəlir kateqoriyaları daxil ola bilər: vergidən əvvəlki mənfəət, ümumi gəlir, ümumi mənfəət və məcmu xərclər, ümumi kapital və ya xalis aktiv dəyəri. Davamlı fəaliyyət üzrə vergidən əvvəlki mənfəət çox vaxt mənfəət yönümlü müəssisələr üçün istifadə olunur. Davamlı fəaliyyətdən vergidən əvvəlki mənfəət dəyişkən olduqda, ümumi mənfəət və ya ümumi gəlir kimi digər etalonlar daha uyğun ola bilər. Qeyri-kommersiya təşkilatları üçün gəlir, xərclər, aktivlər və ya kapital kimi etalon daha uyğun ola bilər.

Müəssisənin davamlı fəaliyyəti üzrə vergidən əvvəlki mənfəəti ardıcıl olaraq nominal olduqda, sahibkarın vergidən əvvəlki mənfəətin böyük hissəsini əməkhaqqı şəklində götürdüyü sahibkar tərəfindən idarə olunan müəssisədə olduğu kimi, əmək haqqı və vergidən əvvəlki mənfəət kimi etalon daha uyğun ola bilər.

Faiz nisbəti ilə seçilmiş etalon arasında elə bir əlaqə var ki, davamlı fəaliyyət üzrə vergidən əvvəlki mənfəətə tətbiq edilən faiz nisbəti adətən ümumi gəlirə tətbiq edilən faiz nisbətindən daha yüksək olur.

İctimai sektor müəssisələri üçün xüsusi mülahizələr

İctimai sektor müəssisəsinin maliyyə hesabatlarının əsas istifadəçiləri çox vaxt qanunverici və tənzimləyici orqanlar olur. Bundan əlavə, maliyyə hesabatları iqtisadi qərarlardan başqa qərarlar qəbul etmək üçün istifadə edilə bilər. Buna görə də, ictimai sektor müəssisələrinin maliyyə hesabatlarının auditi aparılan zaman bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətliliyin müəyyən edilməsinə qanun, qaydalar və ya digər rəhbər sənəd, habelə ictimai sektor proqramları ilə bağlı qanunverici orqanların və ictimaiyyətin maliyyə məlumatlarına olan ehtiyacları təsir göstərir.

İctimai sektor müəssisəsinin auditində ümumi məsrəf və ya xalis məsrəf (gəlirlər çıxılmaqla məsrəflər və ya mədaxillər çıxılmaqla məxaric) proqram fəaliyyətləri üçün müvafiq etalon hesab oluna bilər. İctimai sektor müəssisəsi dövlət aktivlərinin saxlanmasına cavabdeh olduğu halda, aktivlər müvafiq etalon hesab oluna bilər.

5.3.2. Auditor, həmçinin, müəssisənin xüsusi şəraitində, bir və ya bir neçə əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün bütövlükdə maliyyə hesabatları üzrə əhəmiyyətlilik səviyyəsindən daha az məbləğlərdə olan təhriflərin istifadəçilərin maliyyə hesabatları əsasında verdiyi iqtisadi qərarlara təsir göstərməsi məntiqli hesab edildiyi halda, bu cür əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün əhəmiyyətlilik səviyyəsini və ya səviyyələrini müəyyən etməlidir.

5.3.3. Auditor, əhəmiyyətli təhrif risklərini qiymətləndirmək və sonrakı audit prosedurlarının xüsusiyyətini, müddətini və həcmini müəyyən etmək məqsədilə fəaliyyət göstəricilərinin əhəmiyyətliliyini müəyyən etməlidir.

Auditin yalnız ayrı-ayrılıqda əhəmiyyətli təhrifləri aşkar etmək üçün planlaşdırılması, ayrı-ayrılıqda əhəmiyyətsiz olan təhriflərin məcmusunun maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola biləcəyini nəzərdən qaçırır və aşkar edilməmiş təhriflərin qalmasını nəzərdə tutmur. Fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi (müəyyən edildiyi kimi, bir və ya bir neçə

məbləğdir) elə müəyyən edilir ki, düzəliş edilməmiş və aşkar edilməmiş təhriflər məcmusunun əhəmiyyətlilikdən artıq olması ehtimalını müvafiq dərəcədə aşağı səviyyəyə endirsin.

Fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinin müəyyən edilməsi sadə, mexaniki hesablama deyil və peşəkar mühakimə yürütməyi nəzərdə tutur. Bu prosesə, riskin müəyyən edilməsi və qiymətləndirilməsi zamanı yenilənən auditorun müəssisə haqqında təsəvvürü; habelə əvvəlki auditlərdə aşkar edilmiş təhriflərin xüsusiyyəti və həcmi, eləcə də auditorun cari dövrdəki təhriflərlə bağlı gözləntiləri təsir göstərir.

Açıq şəkildə trivial (əhəmiyyətsiz) təhriflər

7-ci hissəyə uyğun olaraq, auditordan açıq şəkildə əhəmiyyətsiz olanlardan başqa, audit zamanı aşkar edilmiş təhrifləri toplaması tələb edilir. Planlaşdırma mərhələsində auditor elə bir məbləğ müəyyən edə bilər ki, həmin məbləğdən aşağı olduqda, ayrı-ayrı hesabatlarda əks etdirilən məbləğlərin təhrifləri açıq şəkildə əhəmiyyətsiz hesab edilsin və toplanmasına ehtiyac olmasın, çünki auditor bu cür məbləğlərin toplanmasının maliyyə hesabatlarına açıq şəkildə əhəmiyyətli təsir göstərməyəcəyini ehtimal edir.

5.3.4. Audit zamanı auditor, daha əvvəl məlum olduğu təqdirdə fərqli məbləğ (və ya məbləğlər) müəyyən etməsinə səbəb ola biləcək məlumatlar əldə etdiyi halda, o, bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətlilik səviyyəsini (və müvafiq hallarda, əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün əhəmiyyətlilik səviyyəsinə və ya səviyyələrinə) düzəliş etməlidir.

5.3.5. Əgər auditor bütövlükdə maliyyə hesabatları üçün ilkin olaraq müəyyən ediləndən daha aşağı əhəmiyyətlilik səviyyəsinin (və müvafiq hallarda, əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün əhəmiyyətlilik səviyyəsinin və ya səviyyələrinin) uyğun olduğu qənaətinə gələrsə, auditor fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinə düzəliş edilməsinin zəruri olub-olmadığını və əlavə audit prosedurlarının xüsusiyyəti, müddəti və həcminin hələ də uyğun olub-olmadığını müəyyən etməlidir.

5.4. Məlumatvermə ilə bağlı xüsusi tələblər

5.4.1. Auditor auditin planlaşdırılan həcmi, müddəti və istiqaməti haqqında rəhbərliyə və lazım gəldikdə idarəetməyə məsul şəxslərə ümumi məlumat verməlidir.

5.5. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən tətbiq edilən, 2.4-cü hissədə qeyd olunan sənədləşdirilmə ilə bağlı ümumi tələblərdən əlavə, bu hissə ilə əlaqəli sənədləşdirilməli olan xüsusi məsələlər aşağıda təsvir edilmişdir.

5.5.1. Auditor auditin sənədləşdirilməsinə auditin həcminin, müddətinin və istiqamətinin, o cümlədən həyata keçiriləcək prosedurların xüsusiyyəti, müddəti və həcminin, audit zamanı edilən əhəmiyyətli dəyişikliklərin təsvirini və bu dəyişikliklərin səbəblərini daxil etməlidir.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr
5.5.2. Auditor auditin sənədləşdirilməsinə tapşırıq qrupunda müzakirə edilən məsələləri və əldə edilmiş mühüm qərarları, o cümlədən dələduzluq nəticəsində müəssisənin maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin baş verməsi ilə bağlı əhəmiyyətli qərarları daxil etməlidir.

5.5.3. Auditor auditin sənədləşdirilməsinə aşağıdakıları daxil etməlidir:

(a) Aşağıdakı məbləğlər və onların müəyyən edilməsində nəzərə alınan amillər (o cümlədən mümkün olan hər hansı düzəlişlər):

(i) Bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətlilik;
(ii) Müvafiq hallarda, əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün əhəmiyyətlilik səviyyəsi və ya səviyyələri; habelə
(iii) Fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi.

(b) Ondan aşağı olduqda təhriflərin açıq şəkildə əhəmiyyətsiz hesab edildiyi məbləğ.

6. Risklərin aşkar edilməsi və qiymətləndirilməsi

Bu hissənin məzmunu

6-cı hissədə auditorun aşağıdakılara dair prosedurların və əlaqəli fəaliyyətlərin yerinə yetirilməsi üzrə məsuliyyətinə aid olan tələblər verilir:

- Müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi haqqında təsəvvür əldə etmək;
- Dələduzluq və ya səhv nəticəsində maliyyə hesabatlarında və təsdiqləmələrdə əhəmiyyətli təhrif risklərini aşkar etmək; habelə
- Tərkib riski qiymətləndirmək və riskə nəzarət etmək.

Əlavə 3-də auditor tərəfindən riskin aşkar edilməsi və qiymətləndirilməsinin təkrarlanan xüsusiyyəti təsvir edilir.

Bu hissənin əhatə dairəsi

Bu hissə, 7-ci hissədə qiymətləndirilmiş risklərlə bağlı cavab tədbirləri görmək üçün həyata keçirilən audit prosedurlarına əsas verən maliyyə hesabatları səviyyəsində əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üzrə auditorun məsuliyyətindən bəhs edir. 5-ci hissədə auditorun planlaşdırma tədbirləri üzrə öhdəlikləri, o cümlədən tapşırıq qrupunda müzakirə aparması üçün tələblər müəyyən edilir.

6.1. Məqsədlər

6.1.1. Auditorun məqsədləri maliyyə hesabatları və təsdiqləmələr səviyyəsində istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək, bununla da qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri (qiymətləndirilmiş risklər) ilə bağlı cavab tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi üçün zəmin yaratmaqdır.

Müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi barədə təsəvvürün əldə edilməsi auditora əhəmiyyətli təhrif risklərini aşkar etməyə və qiymətləndirməyə imkan verir. Auditor tərəfindən risklərin aşkar edilməsi və qiymətləndirilməsi prosesi təkrarlanan və dinamik prosesdir.

6.2. Risklərin və əlaqəli fəaliyyətlərin aşkar edilməsi və qiymətləndirilməsi prosedurları

6.2.1. Auditor aşağıdakılar üçün müvafiq əsas yaradan audit sübutlarını əldə etmək üçün prosedurları hazırlamalı və həyata keçirməlidir:

(a) maliyyə hesabatı və təsdiqləmə səviyyələrində dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi; habelə
(b) əlavə audit prosedurlarının hazırlanması.

Auditor, müəssisənin siyasət və ya prosedurlarının rəsmilik səviyyəsindən asılı olaraq dəyişə bilən həyata keçiriləcək prosedurların xüsusiyyətini və həcmini müəyyən etmək üçün peşəkar mühakimə yürüdür.

Az mürəkkəb, xüsusən də sahibkar tərəfindən idarə olunan bəzi müəssisələrdə strukturlaşdırılmış proseslər və sistemlər müəyyən edilməyə bilər və ya sənədləşdirilməsi məhdud olan və ya həyata keçirilməsində ardıcıllıq olmayan proseslər və ya sistemlər müəyyən edilə bilər. Bu cür sistemlər və proseslər rəsmi olmadıqda belə, 6.2.3-cü paraqrafda təsvir olunan prosedurlar həyata keçirilməlidir.

Audit sübutlarını əldə etmək məqsədilə prosedurların hazırlanması və həyata keçirilməsi zamanı auditorun sübutların yalnız təsdiqləyici olmasına və ya ziddiyyətli ola biləcək sübutların istisna edilməsinə yönəlmiş yanaşmadan yayınması vacibdir. Bu proses, müəssisənin daxilində və xaricində olan bir neçə mənbədən sübutların əldə olunmasını əhatə edə bilər. Bununla belə, auditordan bütün mümkün sübut mənbələrini müəyyən etmək üçün hərtərəfli axtarış aparması tələb olunmur.

6.2.2. Əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək, habelə əlavə audit prosedurlarını tərtib etmək üçün audit sübutları əldə edərkən auditor aşağıdakı mənbələrdən əldə edilən məlumatları nəzərə almalıdır:

(a) Qəbul və ya davamlılıq prosedurları; habelə
(b) Müvafiq olduqda, tapşırıq üzrə tərəfdaşın müəssisə üçün yerinə yetirdiyi digər tapşırıqlar.

6.2.3. Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üzrə prosedurlara aşağıdakılar daxildir:

(a) Rəhbərlik və müəssisə daxilində digər müvafiq şəxslər ilə sorğuların aparılması;
(b) Analitik prosedurlar; habelə
(c) Müşahidə və yoxlama.

Auditordan bu hissəyə uyğun olaraq əldə edilməsi tələb olunan təsəvvürün hər bir aspekti üçün bu prosedurların hamısını yerinə yetirməsi tələb olunmur.

Əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün prosedur kimi həyata keçirilən analitik prosedurlar uyğunsuzluqları, qeyri-adi əməliyyatları və ya hadisələri, habelə auditin nəticələrinə səbəb ola biləcək məsələlərə işarə edən məbləğləri, nisbətləri və meylləri aşkar etməyə kömək edir. Aşkar edilmiş qeyri-adi və ya gözlənilməz münasibətlər auditora əhəmiyyətli təhrif risklərini, xüsusən də dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini, o cümlədən gəlir hesabları ilə bağlı olanları müəyyən etməyə kömək edə bilər.

Risklərin aşkar edilməsi və qiymətləndirilməsi çərçivəsində həyata keçirilən analitik prosedurlar həm maliyyə (məs., satış qiyməti), həm də qeyri-maliyyə (məs., satılan malların həcmi) məlumatlarının, habelə yüksək səviyyədə toplanmış məlumatların istifadəsini əhatə edə bilər. Auditor əvvəlki dövrlərlə müqayisədə hesab qalıqlarındakı dəyişiklik kimi sadə müqayisələr apararaq, risklərin mövcud olma ehtimalı daha yüksək olan sahələri müəyyən edə bilər.

Müşahidə və yoxlama rəhbərliyin və üçüncü tərəflərin sorğularını dəstəkləyə, təsdiqləyə və ya təkzib edə bilər, həmçinin müəssisə və onun mühiti haqqında məlumat verə bilər. Siyasət və ya prosedurlar sənədləşdirilmədikdə və ya müəssisənin nəzarəti qeyri-rəsmi olduqda belə, auditor nəzarətin fəaliyyət göstəricilərini müşahidə etməklə və ya yoxlamaqla, əhəmiyyətli təhrif risklərinin aşkar edilməsini və qiymətləndirilməsini əsaslandıran audit sübutlarını əldə edə bilər.

İctimai sektor müəssisələrinə xas mülahizələr

Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsinə kömək edə biləcək məlumatlara malik ola biləcək şəxslərlə sorğular apararkən, ictimai sektor müəssisələrində çalışan auditorlar məlumatları əlavə mənbələrdən, məsələn, müəssisə ilə bağlı fəaliyyətdə və ya digər auditlərdə iştirak edən auditorlardan əldə edə bilərlər. Əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün dövlət sektoru müəssisələrində çalışan auditorlar tərəfindən həyata keçirilən prosedurlar həmçinin rəhbərlik tərəfindən qanunverici orqan üçün hazırlanmış sənədlərin, məsələn, fəaliyyət göstəricələrinə dair məcburi hesabatverməyə aid sənədlərin müşahidəsi və yoxlanılmasını da əhatə edə bilər.

Avtomatlaşdırılmış alətlər və üsullar

Auditor AAÜ-dən istifadə etdiyi halda, o, əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün audit prosedurlarını, o cümlədən təhlil, müşahidə və ya yoxlama məqsədilə nisbətən böyük həcmli verilənlər (baş kitabdan, köməkçi mühasibat jurnalından və ya digər operativ verilənlər) üzərində tərtib edə və həyata keçirə bilər.

6.2.4. Əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün prosedurları tərtib edərkən və həyata keçirərkən auditor aşağıdakılardan irəli gələn mümkün əhəmiyyətli təhrif risklərini nəzərə almalıdır:

(a) dələduzluq və ya səhv;
(b) əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlar; habelə
(c) müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə atına ala biləcək hadisələr və ya şəraitlər.

Dələduzluq

Maliyyə hesabatlarının saxtalaşdırılması, maliyyə hesabatlarının istifadəçilərini aldatmaq məqsədilə maliyyə hesabatlarının qəsdən təhrif edilməsi, o cümlədən məbləğlərin əks etdirilməməsi və ya məlumatların açıqlanmaması ilə bağlıdır. Maliyyə hesabatlarının saxtalaşdırılması çox vaxt rəhbərliyin başqa hallarda səmərəli fəaliyyət göstərə bilən nəzarət vasitələrinə əhəmiyyət verməməsi, məsələn maliyyə hesabatlarının dövrünün sonuna yaxın uydurma jurnal yazılışlarının aparılmasını ehtiva edir.

Aktivlərin qeyri-qanuni mənimsənilməsi müəssisənin aktivlərinin oğurlanmasından ibarət olub, çox vaxt əməkdaşlar tərəfindən nisbətən kiçik və əhəmiyyətsiz məbləğlərdə həyata keçirilir. Bununla belə, qeyri-qanuni mənimsəmə hallarını aşkar edilməsi çətin olan yollarla ört-basdır etmək və ya gizlətmək bacarığı olan rəhbərlik də bu işdə iştirak edə bilər.

Aktivlərin əskik olması və ya müvafiq icazə olmadan girov qoyulması faktını gizlətmək üçün aktivlərin qeyri-qanuni mənimsənilməsi çox vaxt saxta və ya çaşdırıcı qeydlər və ya sənədlərlə müşayiət olunur.

AMM-də olan saxtakarlıq riski amilləri daha mürəkkəb müəssisələrdə olduğundan fərqli ola bilər. Bir tərəfdən, rəhbərlik və ya sahibkar-rəhbər daha mürəkkəb müəssisələrdə olduğundan daha effektiv nəzarət həyata keçirə bilər ki, bu da vəzifə bölgüsü üçün imkanların məhdud olmasını

kompensasiya edə bilər. Digər tərəfdən, vəzifə bölgüsünün daha az olması və rəhbərliyin və ya sahibkar-rəhbərin daha çox birbaşa iştirakı rəhbərliyə və ya sahibkar-rəhbərə nəzarətə əhəmiyyət verməmək və dələduzluq etmək üçün daha çox imkan verə bilər. AMM-lər, o cümlədən sahibkar-rəhbərlər daha mürəkkəb müəssisələrdəki rəhbərlikdən fərqli olaraq saxtakarlıq etmək üçün müxtəlif təzyiqlərə məruz qala və ya həvəsləndirilə bilərlər. Əlavə 4-də az mürəkkəb müəssisələrə aid olan dələduzluq riski amilləri müəyyən edilir.

Əlaqəli tərəflər

Bəzi AMM-lərda, xüsusən də məhdud sayda səhmdarı olan müəssisələrdə, sahibkar-rəhbər ilə yaxın ailə üzvləri arasında əlaqəli tərəflərlə əməliyyatlar ümumi ola bilər. Bu əməliyyatlar adi bazar şərtlərinə uyğun aparıla bilməz; məsələn, əlaqəli tərəflərlə bəzi əməliyyatlar heç bir qarşılıqlı hesablaşma olmadan və ya ədalətli dəyərdən əhəmiyyətli dərəcədə fərqli olan hesablaşma ilə həyata keçirilə bilər.

Fəaliyyətin fasiləsizliyi

Fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisə və ya şərtlər arasında aşağıdakılar AMM üçün xüsusilə əhəmiyyət kəsb edir: banklar və digər kreditorlar, yaxın ailə üzvlərinin və ya sahibkar-rəhbərin müəssisəyə dəstək göstərməsini dayandırma riski, həmçinin əsas təchizatçının, böyük bir müştərinin, əsas işçinin, yaxud lisenziya, françayzinq və ya digər hüquqi razılaşma əsasında fəaliyyət göstərmək hüququnun itirilməsi ehtimalı.

6.2.5. Əgər əvvəlki dövrün maliyyə hesabatlarına dair fərqli auditor rəyi təqdim edilmişdirsə, auditor əhəmiyyətli təhrif risklərini müəyyən edərkən və qiymətləndirərkən bu fərqli rəyin cari ilin maliyyə hesabatlarına təsirini qiymətləndirməlidir.

6.3. Müəssisənin müvafiq aspektləri barədə təsəvvürün əldə edilməsi

Auditorun müəssisənin müvafiq aspektləri, o cümlədən müəssisə və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və müəssisənin daxili nəzarət sistemi barədə təsəvvürü, auditorun əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün istinad çərçivəsini təmin edir, həmçinin auditorun əlavə audit prosedurlarını necə planlaşdırması və həyata keçirməsi barədə məlumat verir.

Müəssisədə rəhbərlik və digər şəxslərlə sorğuların keçirilməsi

6.3.1. Auditor rəhbərlik və lazım gəldikdə idarəetməyə məsul şəxslər ilə aşağıdakılarla bağlı sorğu keçirməlidir:

(a) Müəssisə maliyyə hesabatlarının hazırlanması ilə bağlı biznes risklərini necə aşkar edir və onlarla bağlı hansı tədbirlər görür;
(b) Müəssisədə dələduzluq riskləri və bu riskləri azaltmaq üçün rəhbərliyin müəyyən etdiyi nəzarət vasitələri;
(c) Rəhbərliyin mühasibat uçotu məlumatlarında təhriflərin qarşısını almağa və ya aşkar etməyə və ya nəzərdə tutulduğu kimi fəaliyyət göstərməyən nəzarət vasitələrini müəyyən etməyə kömək edə biləcək əməliyyatlarda və ya digər fəaliyyətlərdə birbaşa iştirakının xüsusiyyəti və həcmi.
(d) Müəssisənin əlaqəli tərəflərinin siyahısı, o cümlədən:

(i) Əvvəlki dövrdən sonra edilən dəyişikliklər;

(ii) Müəssisə ilə bu əlaqəli tərəflər arasında münasibətlərin xüsusiyyəti; habelə

(iii) Müəssisənin həmin dövr ərzində bu əlaqəli tərəflərlə hər hansı əməliyyatlar aparıb-aparmaması, və apardığı halda, əməliyyatların növü və məqsədi; habelə

(e) Müəssisənin maliyyə hesabatlarına təsir göstərə biləcək qanun və ya qaydalara riayət edib-etməməsi və maliyyə hesabatlarına aid ola biləcək müvafiq lisenziyalaşdırma və ya tənzimləyici orqanlarla hər hansı yazışmaların olub-olmaması.

(f) Mühasibat uçotunun fasiləsizliyi prinsipindən məqsədyönlü istifadə üçün zəmin, ayrılıqda və ya məcmu halında müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələr və ya şərtlərin mövcud olub-olmaması və mövcud olduqda, rəhbərliyin onlarla bağlı tədbir görmək planları.

Rəhbərliyin və müvafiq hallarda idarəetməyə məsul şəxslərlə sorğuların aparılması auditora əhəmiyyətli təhrif risklərini aşkar etməyə və qiymətləndirməyə, eləcə də bu risklərlə bağlı cavab tədbirləri görməyə kömək edir.

Müəssisənin maliyyə hesabatlarının hazırlanması ilə bağlı biznes risklərini necə aşkar etmək və qiymətləndirmək ilə bağlı sorğular auditora aşağıdakılar barədə təsəvvür əldə etməyə kömək edə bilər:

- *Biznes riskləri harada aşkar edilmişdir;*
- *Müəssisə bu risklərlə bağlı cavab tədbiri görmüşdürmü, əgər görmüşdürsə, bunu necə etmişdir;*
- *Müəssisənin üzləşdiyi risklər aşkar edilmişdirmi, qiymətləndirilmişdirmi və müəssisənin xüsusiyyətinə və şəraitinə uyğun tədbir görülmüşdürmü.*

Müəssisədə dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif riskləri ilə bağlı aparılan sorğular auditora aşağıdakılar barədə təsəvvür əldə etməyə kömək edə bilər:

- *Maliyyə hesabatlarının dələduzluq nəticəsində əhəmiyyətli dərəcədə təhrif oluna biləcəyi riskinin rəhbərlik tərəfindən qiymətləndirilməsi, o cümlədən belə qiymətləndirmələrin xüsusiyyəti, həcmi və tezliyi;*
- *Müəssisədə dələduzluq risklərini, o cümlədən rəhbərliyin aşkar etdiyi və ya onun diqqətinə çatdırıldığı hər hansı xüsusi dələduzluq risklərini, yaxud dələduzluq riskinin mövcud ola biləcəyi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamaları aşkar etmək və onlarla bağlı cavab tədbirləri görmək üçün rəhbərliyin həyata keçirdiyi proses;*
- *Müəssisədə dələduzluq risklərini aşkar etmək və onlarla bağlı cavab tədbiri görmək üçün rəhbərliyin həyata keçirdiyi proseslərinə dair idarəetməyə məsul şəxslərə rəhbərliyin məlumat mübadiləsi (əgər varsa).*

Rəhbərliyin mühasibat uçotu məlumatlarında təhriflərin qarşısını almaq və ya aşkar etmək üçün fəaliyyətləri necə yerinə yetirməsi və nəzərdə tutulduğu kimi fəaliyyət göstərməyən nəzarət vasitələrinin müəyyən edilməsi ilə bağlı sorğuya rəhbərliyin hansı məlumatlardan istifadə etdiyi və rəhbərliyin məlumatın kifayət qədər etibarlı olduğunu nəyə əsasən müəyyən etdiyi, habelə çatışmazlıqların necə aradan qaldırıldığı barədə suallar daxil ola bilər. Bu suallar auditora müəssisənin daxili nəzarət sisteminin digər aspektlərinin mövcud olub-olmadığını və müəssisənin xüsusiyyətini və mürəkkəbliyini nəzərə alaraq, müəssisənin şərtlərinə uyğun olaraq fəaliyyət göstərib-göstərmədiyi barədə təsəvvür əldə etməyə kömək edir.

Mühasibat uçotunun fasiləsizliyi prinsipinə əsasən, maliyyə hesabatları müəssisənin hal-hazırda fasiləsizliyi və yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyi ehtimalı əsasında hazırlanır. Rəhbərliyin müəssisəni ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı və ya bundan başqa real alternativi olmadığı hallar istisna olmaqla, ümumi təyinatlı maliyyə hesabatları mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadə etməklə hazırlanır. Mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadə məqsədəuyğun olduqda, aktiv və öhdəliklər müəssisənin öz aktivlərini realizə edə və öhdəliklərini adi iş prosesində yerinə yetirə bilməsi əsasında uçota alınır.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

6.3.2. Auditor müəssisənin əlaqəli tərəfləri haqqında əldə etdiyi müvafiq məlumatları tapşırıq qrupunun digər üzvləri ilə bölüşməlidir.

6.3.3. Auditor müəssisəyə təsir edən hər hansı faktiki, şübhəli və ya ehtimal edilən dələduzluq haqqında məlumatların olub-olmadığını müəyyən etmək üçün rəhbərlik, idarəetməyə məsul şəxslər və zəruri hallarda müəssisə daxilindəki digər şəxslər ilə sorğular aparmalıdır.

Müəssisə və onun mühiti barədə təsəvvürün əldə edilməsi

6.3.4. Auditor aşağıdakılar barədə təsəvvür əldə etməlidir:

(a) Müəssisənin təşkilati strukturu, mülkiyyət və idarəetməsi, habelə biznes modeli.
(b) Sahə və müəssisəyə təsir edən digər kənar amillər.
(c) Müəssisənin maliyyə fəaliyyətinin göstəricilərinin necə ölçülməsi.
(d) Müəssisəyə şamil olunan normativ-hüquqi baza və müəssisənin bu bazanın tələblərinə necə riayət etməsi.
(e) Uçot qiymətləndirmələrinin tanınması və ya açıqlanması zərurətini yarada və ya uçot qiymətləndirmələrdə dəyişikliklərə səbəb ola biləcək müəssisənin əməliyyatları, habelə digər hadisələr və şəraitlər.
(f) Tanınmamış öhdəliklər və ya gələcəkdə öhdəçiliklərin yaranmasına səbəb ola bilən razılaşmalar və ya münasibətlər.

Müəssisənin biznes modeli barədə təsəvvür əldə etmək auditora müəssisənin məqsəd və strategiyası barədə təsəvvür əldə etməyə, habelə müəssisənin qəbul etdiyi və üzləşdiyi biznes riskləri barədə təsəvvür əldə etməyə kömək edir. Müəssisənin biznes riskləri barədə təsəvvürün əldə edilməsi auditora əhəmiyyətli təhrif risklərini müəyyən etməkdə kömək edir, çünki biznes risklərinin əksəriyyəti sonda maliyyə nəticələrinə və buna görə də maliyyə hesabatlarına təsir göstərəcəkdir. Müəssisənin biznes modeli barədə təsəvvür əldə edərkən auditor, müəssisənin İT-dən necə istifadə etdiyini nəzərdən keçirə bilər.

Müvafiq sahə amillərinə rəqabət mühiti, təchizatçı və müştərilərlə münasibətlər, habelə yeni texnologiyalar kimi sahə şərtləri daxildir. Auditorun nəzərə ala biləcəyi müəssisəyə təsir göstərən digər kənar amillərə iqlimlə bağlı risklər, ümumi iqtisadi şərait, faiz dərəcələri və maliyyələşmənin mövcudluğu, inflyasiya və ya valyutanın yenidən qiymətləndirilməsi daxildir.

Tanınmamış öhdəliklər və ya gələcəkdə öhdəçiliklərin yaranmasına səbəb ola bilən razılaşma

və ya münasibətlər barədə təsəvvür əldə edərkən auditor iclas protokollarını və hüquq məsləhətçisi ilə yazışmaları yoxlamağı və hüquqi xərclər hesablarını yoxlamağı nəzərdən keçirə bilər.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektorda fəaliyyət göstərən müəssisələr sahibkarları üçün sərvət yaradanlardan fərqli yollarla dəyər yarada və çatdıra bilər, lakin yenə də xüsusi məqsədi olan "biznes modelinə" malikdirlər. İctimai sektorda çalışan auditorlar müəssisənin biznes modeli ilə bağlı aşağıdakı məsələlər barədə təsəvvür əldə edə bilər:

- *İctimai sektorunda müvafiq fəaliyyət növləri, o cümlədən müvafiq proqramlar haqqında biliklər.*
- *Proqramların məqsədləri və strategiyaları, o cümlədən dövlət siyasətinin elementləri.*

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri barədə təsəvvürün əldə edilməsi

6.3.5. Auditor aşağıdakılar barədə təsəvvür əldə etməlidir:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri, o cümlədən uçot qiymətləndirmələri üçün, tanınma meyarları, ölçmə əsasları, müvafiq təqdimat və açıqlama tələbləri, habelə onların müəssisənin və onun mühitinin xüsusiyyəti və şəraitləri kontekstində necə tətbiq olunduğu.
(b) Müəssisənin uçot siyasəti və bu siyasətə edilən hər hansı dəyişikliklərin səbəbləri.

6.3.6. Auditor müəssisənin uçot siyasətinin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə müvafiq və uyğun olub-olmadığını qiymətləndirməlidir.

Müəssisənin daxili nəzarət sistemi barədə təsəvvürün əldə edilməsi

AMM-lərda və xüsusən də sahibkarın rəhbərlik etdiyi müəssisələrdə daxili nəzarət sisteminin necə tərtib olunduğu, tətbiq edildiyi və saxlanılması üsulu müəssisənin ölçüsü və mürəkkəbliyindən asılı olaraq dəyişir. Rəsmi proseslər və ya sənədləşdirilmiş siyasət və ya prosedurlar olmadıqda belə, auditordan rəhbərliyin və ya müvafiq hallarda idarəetməyə məsul şəxslərin dələduzluq və səhvlərin qarşısını necə alması və aşkar etməsi barədə təsəvvür əldə etməsi və tələb olunan təsəvvürün əldə edilməsi üçün prosedurların xüsusiyyətini və həcmini müəyyən etmək üçün peşəkar mühakimə yürütməsi tələb olunur.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektor müəssisələrində çalışan auditorların çox vaxt daxili nəzarətlə bağlı əlavə (məsələn, müəyyən edilmiş davranış kodeksinə riayət edilməsi və ya büdcədən kənar xərclər barədə hesabat vermək) məsuliyyətləri olur. İctimai sektor müəssisələrində çalışan auditorların qanun, qayda və ya digər rəhbər sənədlərin tələblərinə riayət etmə barədə hesabat vermək məsuliyyətləri də ola bilər. Bu səbəbdən, onların daxili nəzarət sisteminə dair mülahizələri daha geniş və təfərrüatlı ola bilər.

Müəssisənin nəzarət mühiti barədə təsəvvürün əldə edilməsi

6.3.7. Auditor aşağıdakıları etməlidir:

(a) Maliyyə hesabatlarının hazırlanmasına aid olan nəzarət mühiti barədə təsəvvür əldə etmək; habelə

(b) Müəssisənin xüsusiyyətini və mürəkkəbliyini nəzərə alaraq, onun müəssisənin daxili nəzarət sistemini qurmaq üçün müvafiq zəmin təmin edib-etmədiyini qiymətləndirmək.

Auditorun əldə etdiyi təsəvvürü aşağıdakıları ehtiva edə bilər:

- *Rəhbərliyin və müvafiq hallarda, idarəetməyə məsul şəxslərin müəssisəyə necə nəzarət etməsi, tamlıq və etik dəyərləri nümayiş etdirməsi (məsələn, iş təcrübələri və etik davranışla bağlı gözləntilər barədə işçilərə məlumat verməklə);*

- *Müəssisənin mədəniyyəti, o cümlədən rəhbərliyin tamlıq və etik davranışı təmin edib-etmədiyi;*
- *Müəssisədə səlahiyyət və məsuliyyət bölgüsü necə aparılır;*
- *Müəssisə sərişteli şəxsləri necə cəlb edir, inkişaf etdirir və saxlayır; habelə*
- *Müvafiq hallarda, sahibkar-rəhbərin biznesdə nə dərəcədə fəal iştirak etməsi və bunun vəzifə bölgüsünün olmaması səbəbindən rəhbərliyin nəzarətə əhəmiyyət verməməsi nəticəsində yaranan risklərə necə təsir göstərə biləcəyi.*

Nəzarət mühiti müəssisənin daxili nəzarət sisteminin digər aspektlərinin səmərəliyi üçün ümumi zəmin yaradır və çatışmazlıqlar müəssisənin daxili nəzarət sisteminin qalan hissəsini zəiflədə bilər. Bu, birbaşa təhriflərin qarşısını almır, onları aşkar etmir, nə də düzəltmir, lakin daxili nəzarət sistemindəki digər nəzarət vasitələrinin effektivliyinə təsir göstərə bilər. Nəzarət mühitinə idarəetmə və rəhbərlik funksiyalarını, idarəetməyə məsul şəxslərin və rəhbərliyin müəssisənin daxili nəzarət sistemi və onun müəssisədəki əhəmiyyətinə dair münasibətini, məlumatlılığını və hərəkətlərini ehtiva edir.

Nəzarət mühitinin müəssisənin daxili nəzarət sisteminin təməli olduğuna görə, hər hansı çatışmazlıq maliyyə hesabatlarının hazırlanmasına nüfuzedici təsir göstərə bilər. Buna görə də, auditorun nəzarət mühiti barədə anlayışı və qiymətləndirməsi auditor tərəfindən maliyyə hesabatı səviyyəsində əhəmiyyətli təhrif risklərinin aşkar edilməsinə və qiymətləndirilməsinə təsir göstərir, həmçinin təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərinin aşkar edilməsinə və qiymətləndirilməsinə, habelə qiymətləndirilmiş risklərlə bağlı auditorun gördüyü tədbirlərə təsir göstərə bilər.

Nəzarət mühitinin aspektlərinin bəziləri və ya hamısı AMM-ə şamil olunmaya bilər və ya çox rəsmi olmaya bilər. Məsələn, AMM-in yazılı davranış kodeksi olmaya bilər, lakin rəhbərlik şifahi ünsiyyət və şəxsi nümunə ilə tamlıq və etik davranışa önəm verilən bir mədəniyyət formalaşdıra bilər.

Bəzi müəssisələr tam nəzarəti olan tək bir şəxs tərəfindən idarə oluna bilər. Həmin şəxsin hərəkətləri və münasibətləri müəssisənin mədəniyyətinə, bu da öz növbəsində nəzarət mühitinə nüfuzedici təsir göstərə bilər. AMM-də tək bir şəxsin hökmranlığı, bir qayda olaraq, özlüyündə rəhbərliyin daxili nəzarət və maliyyə hesabatlılığı prosesinə düzgün münasibət sərgiləmədiyini göstərmir. Bəzi müəssisələrdə rəhbərliyin icazəsi olmadan əməliyyatların həyata keçirilə bilməməsi digər nəzarət vasitələrindəki çatışmazlıqları qismən kompensasiya edə bilər və işçilərlə bağlı dələduzluq riskini azalda bilər. Bununla belə, rəhbərlikdə tək bir şəxsin hökmranlığı nəzarətdə çatışmazlıq ola bilər, çünki rəhbərlik nəzarətə əhəmiyyət verməyə bilər.

Müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesi barədə təsəvvürün əldə edilməsi

6.3.8. Əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və açıqlamalar üçün auditor müəssisənin maliyyə hesabatlarının hazırlanma prosesi barədə təsəvvür əldə etməlidir, o cümlədən:

(a) Maliyyə hesabatlarında əks etdirilən əməliyyat kateqoriyalarını, hesab qalıqlarını və açıqlamaları əsaslandıran mühasibat uçot sənədləri və digər qeydlər;
(b) Əməliyyatların necə başlandığı və bu əməliyyatlara dair məlumatların necə uçota alındığı, emal edildiyi, zərurət yarandıqda düzəlişlərin aparıldığı, baş kitaba köçürüldüyü və maliyyə hesabatlarında əks etdirildiyi;
(c) Əməliyyatlar istisna olmaqla, hadisələr və şəraitlər haqqında məlumatların necə müəyyən edildiyi, emal edildiyi və açıqlandığı; habelə
(d) Yuxarıda qeyd edilən (a) - (c) bəndlərinə uyğun olaraq müəssisənin resursları, o cümlədən İT mühiti.

Əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və açıqlamalar ilə bağlı müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesi barədə təsəvvür əldə edərkən auditorun nəzərə ala biləcəyi məsələlərə aşağıdakılar daxildir:

- *Əməliyyatlar, digər hadisələr və şəraitlərlə bağlı verilənlər və ya məlumatlar necə emal edilir;*
- *Həmin verilənlərin və ya məlumatların tamlığı necə qorunur; habelə*
- *Məlumat prosesləri, işçi heyəti və digər resurslardan necə istifadə olunur.*

Auditor təsəvvürü müxtəlif yollarla əldə edə bilər və bunlara aşağıdakılar daxil ola bilər:

- *Əməliyyatların başladılması, qeydə alınması, emal edilməsi və hesabatın verilməsi üçün istifadə olunan prosedurlar və ya müəssisənin maliyyə hesabatlarının verilməsi prosesi haqqında müvafiq işçilərlə sorğuların aparılması;*
- *Maliyyə hesabatlarının hazırlanması ilə bağlı müəssisənin istifadə etdiyi siyasət və ya prosesə dair təlimatlarının və ya digər sənədlərinin yoxlanılması;*
- *Müəssisənin işçiləri tərəfindən siyasət və ya prosedurların həyata keçirilməsinin müşahidə edilməsi; yaxud*
- *Maliyyə hesabatlarını hazırlamaq üçün əməliyyatların seçilməsi və onların müvafiq proses vasitəsilə izlənilməsi (yəni, təhlil edilməsi).*

Rəhbərliyin bilavasitə iştirak etdiyi AMM-lərə mühasibat uçotu prosedurlarının geniş təsvirlərinə, mürəkkəb mühasibat uçotu sənədlərinə və ya yazılı siyasətlərə ehtiyac olmaya bilər.

Avtomatlaşdırılmış alətlər və üsullar

Auditor, həmçinin, əməliyyatların mühasibat uçotu sənədlərini saxlayan müəssisənin informasiya sistemindəki verilənlər bazalarına birbaşa çıxış əldə etmək və ya onlardan rəqəmsal yükləmə imkanı əldə etmək üçün AAÜ-dən istifadə edə bilər. Bu məlumatlara AAÜ tətbiq etməklə, auditor əməliyyatların informasiya sistemindən necə keçdiyi barədə əldə edilmiş təsəvvürü təsdiqləmək üçün jurnal yazılışlarını və ya müəyyən bir əməliyyata aid digər rəqəmsal qeydləri, yaxud əməliyyatların bütün bir məcmusunu başlanğıcdan baş kitabda qeyd olunmasına qədər izləyə bilər. Tam və ya böyük əməliyyat dəstlərinin təhlili həmçinin bu əməliyyatlar üçün normal və ya gözlənilən emal prosedurlarından fərqlərin müəyyən edilməsi ilə nəticələnə bilər ki, bu da əhəmiyyətli təhrif risklərinin aşkar edilməsinə səbəb ola bilər.

6.3.9. Əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalara dair uçot qiymətləndirmələri və əlaqəli açıqlamalar üçün auditor aşağıdakılar barədə təsəvvür əldə etməlidir:

(a) Rəhbərlik, əhəmiyyətli ehtimalların müəyyən edilməsi də daxil olmaqla, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində uyğun olan müvafiq metodları, ehtimalları və verilənləri necə müəyyən edir, seçir və tətbiq edir;
(b) Rəhbərlik uçot qiymətləndirməsinin qeyri-müəyyənlik dərəcəsini necə başa düşür və bu cür qeyri-müəyyənliklə bağlı necə tədbir görür, o cümlədən maliyyə hesabatlarına daxil edilmək üçün müşahidə əsaslı qiymətləndirməni və əlaqəli açıqlamaları necə seçir; habelə
(c) Əvvəlki uçot qiymətlələndirmələrinin nəticəsini (nəticələrini) necə təhlil edir və həmin təhlilin nəticələri ilə bağlı necə tədbir görür.

6.3.10. Auditor, müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesinin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq maliyyə hesabatlarının, o cümlədən uçot qiymətləndirmələrinin hazırlanmasına lazımi şəkildə kömək edib-etməməsini qiymətləndirməlidir.

Xidmət göstərən təşkilatının təqdim etdiyi xidmətlər barədə təsəvvürün əldə edilməsi

6.3.11. Müəssisə xidmət göstərən təşkilatının xidmətlərindən istifadə edirsə və bu xidmətlər müəssisənin maliyyə hesabatlarını hazırlanması prosesinə uyğundursa, 6.3.8-ci paraqrafa uyğun olaraq auditorun əldə etdiyi təsəvvürə aşağıdakılar daxildir:

(a) Xidmət göstərən təşkilatın təqdim etdiyi xidmətlərin xüsusiyyəti və həmin xidmətlərin müəssisə üçün əhəmiyyəti, o cümlədən istifadəçi müəssisəsinin daxili nəzarət sisteminə təsiri;
(b) Xidmət göstərən təşkilatın emal etdiyi əməliyyatların və ya təsir etdiyi hesabların və ya maliyyə hesabatlarının təqdim edilməsi proseslərinin xüsusiyyəti və əhəmiyyətliliyi;
(c) Xidmət göstərən təşkilatının fəaliyyəti ilə istifadəçi müəssisəsinin fəaliyyəti arasında qarşılıqlı əlaqənin dərəcəsi; habelə
(d) Xidmət göstərən təşkilat tərəfindən həyata keçirilən fəaliyyət üzrə müvafiq müqavilə şərtləri.

Auditorun əldə etdiyi təsəvvürü əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üçün müvafiq əsas təmin etmək üçün yetərli olmalıdır.

AMM-lər çox vaxt müəyyən əməliyyatların emal edilməsindən (məsələn, əmək haqlarının işlənməsi və əmək haqqı vergilərinin ödənilməsi) və onların uçotunun aparılmasından tutmuş onların maliyyə hesabatlarının hazırlanmasına qədər kənar hesabdarlıq xidmətlərindən istifadə edə bilərlər. Belə bir xidmət göstərən təşkilatın maliyyə hesabatlarının hazırlanması üçün istifadəsi az mürəkkəb müəssisələrin rəhbərliyini və lazım gəldikdə, idarəetməyə məsul şəxsləri maliyyə hesabatları üzrə məsuliyyətlərindən azad etmir.

Xidmət göstərən təşkilatın xidmətləri və onların üzərindəki nəzarət vasitələri 6.3.8-ci paraqrafda təsvir edilən prosesin bir hissəsi olduqda və ona təsir etdikdə, müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesinə uyğundur.

Auditorun əldə etdiyi təsəvvürü auditoru xidmət göstərən təşkilat tərəfindən təqdim edilən xidmətlərin xüsusiyyəti və əhəmiyyəti, habelə onların istifadəçi müəssisənin daxili nəzarət sisteminə təsiri haqqında məlumatlandırmağa kömək edir ki, bu da xidmət göstərən təşkilat tərəfindən təqdim edilən xidmətlərlə bağlı auditorun yerinə yetirəcəyi işin xüsusiyyətinə və həcminə təsir edir. Xidmət göstərən təşkilatının nəzarət vasitələrinin müəssisənin nəzarət vasitələri ilə müqayisədə əhəmiyyəti xidmət göstərən təşkilatın fəaliyyəti ilə müəssisənin fəaliyyəti arasında qarşılıqlı əlaqənin dərəcəsindən asılıdır. Məsələn, xidmət göstərən təşkilat müəssisə tərəfindən icazə verilməsi tələb olunan əməliyyatları emal edə və uçota ala bilər,

alternativ olaraq, müəssisə xidmət göstərən təşkilatında təsirə məruz qalan bu cür nəzarət vasitələrinə etibar edə bilər.

Xidmət göstərən təşkilat öz nəzarət vasitələrinin təsviri və tərtib edilməsi (1-ci növ hesabat) və ya təsviri, tərtib edilməsi və əməliyyat effektivliyi (2-ci hesabat) haqqında hesabat təqdim etmək üçün xidmət təşkilatının auditorunu cəlb edə bilər. Bu cür hesabatlar istifadəçi müəssisənin daxili nəzarət sistemi haqqında anlayış əldə etmək üçün auditora məlumat verə bilər. Bununla belə, bu standart xidmət göstərən təşkilatda nəzarət vasitələrinin tərtib edilməsi, həyata keçirilməsi və ya səmərəliliyi ilə bağlı audit sübutu kimi auditorun bu cür hesabatlardan istifadə etməsi üçün nəzərdə tutulmamışdır və buna görə də bu tələbləri əhatə etmir.

Müəssisənin nəzarət fəaliyyəti barədə təsəvvürün əldə edilməsi

6.3.12. Auditor aşağıda göstərildiyi kimi təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərini aradan qaldıran nəzarət vasitələrini müəyyən etməklə müəssisənin nəzarət fəaliyyəti barədə təsəvvür əldə etməlidir. Aşağıda (a)-(e) bəndlərində müəyyən edilmiş hər bir nəzarət vasitəsi üçün auditor nəzarətin effektiv şəkildə tərtib edilib-edilmədiyini və həyata keçirildiyini dəyərləndirmək üçün sorğudan kənar prosedurlar yerinə yetirməlidir:

(a) Əhəmiyyətli olduğu müəyyən edilmiş risklərlə bağlı tədbir görən nəzarət vasitələri;
(b) Jurnal yazılışlarına, o cümlədən təkrarlanmayan qeyri-adi əməliyyatları və ya düzəlişləri uçota almaq üçün nəzərə tutulan jurnal yazılışlarına nəzarət vasitələri;
(c) Auditorun mahiyyəti üzrə testin xüsusiyyəti, müddəti və həcminin müəyyən edilməsində nəzarət vasitələrinin operativ səmərəliyini yoxlamağı planlaşdırdığı nəzarət vasitələrinin (əgər varsa, o cümlədən yetərli müvafiq audit sübutu əldə etmək üçün yalnız mahiyyəti üzrə prosedurların yetərli olmama riskləri ilə bağlı tədbir göstərən nəzarət vasitələri; habelə
(d) Əlaqəli tərəflərlə aparılan əhəmiyyətli əməliyyatlar və razılaşmalar, habelə işin normal gedişatından kənara çıxan əhəmiyyətli əməliyyatlara və razılaşmalara nəzarət vasitələri (əgər varsa).
(e) Xidmət göstərən təşkilat tərəfindən təqdim edilən xidmətlərə aid olan, (a) - (d) bəndlərində qeyd edilən nəzarət vasitələri (əgər varsa), o cümlədən xidmət təşkilatı tərəfindən həyata keçirilən əməliyyatlara tətbiq edilənlər.

Auditorun müəssisənin nəzarət fəaliyyəti barədə tələb olunan təsəvvürü müəssisənin şəraitinə uyğun olaraq xüsusi nəzarət vasitələrinin müəyyən edilməsi, onların tərtibatının qiymətləndirilməsi və nəzarət vasitələrinin həyata keçirilib-keçirilmədiyinin müəyyən edilməsini əhatə edir. Nəzarət vasitələrinin tərtibatı və həyata keçirilməsinin qiymətləndirilməsi nəzarətin təsdiqləmə səviyyəsində əhəmiyyətli təhriflər riskini aradan qaldırmaq üçün effektiv şəkildə tərtib edilib-edilməməsinin və ya digər nəzarət vasitələrinin işləməsini təmin etmək üçün effektiv şəkildə tərtib edilib-edilməməsinin qiymətləndirilməsini və nəzarətin həyata keçirilib-keçirilməməsinin müəyyən edilməsini əhatə edir.

Bu, auditorun müəyyən risklərin aradan qaldırılmasına rəhbərliyin yanaşmasını başa düşməsinə kömək edir və beləliklə, hətta auditor müəyyən edilmiş nəzarət vasitələrinin effektivliyini yoxlamağı planlaşdırmadıqda belə, bu risklərlə bağlı cavab tədbiri görmək üçün əlavə audit prosedurlarının tərtib edilməsi və həyata keçirilməsi üçün zəmin yaradır.

Jurnal yazılışları

Jurnal yazılışlarına nəzarət hər bir audit üçün müəyyən edilməlidir, çünki müəssisənin əməliyyatlarının emalı nəticəsində əldə edilən məlumatlar baş kitaba daxil etmə üsulu adətən

standart və ya qeyri-standart, yaxud avtomatlaşdırılmış və ya əl ilə jurnal yazılışlarının istifadəsini nəzərdə tutur. Digər nəzarət vasitələrinin müəyyən edilmə dərəcəsi müəssisənin xüsusiyyətindən və auditorun əlavə audit prosedurlarına planlaşdırdığı yanaşmadan asılı olaraq dəyişə bilər. Məsələn, müəssisənin informasiya sistemi mürəkkəb olmaya bilər və auditor nəzarət vasitələrinin effektivliyini yoxlamaq niyyətində olmaya bilər. Bundan əlavə, auditor nəzarət vasitələrinin tərtibatını qiymətləndirmək və onların həyata keçirildiyini müəyyən etmək üçün zəruri olan əhəmiyyətli riskləri və ya hər hansı digər əhəmiyyətli təhrif risklərini aşkar etməmiş ola bilər. Belə audit zamanı auditor müəssisənin jurnal yazılışlarına nəzarətdən başqa müəyyən edilmiş nəzarət vasitələrinin olmadığını müəyyən edə bilər.

Əlaqəli tərəflər

AMM-lərda nəzarət vasitələri yəqin ki, çox rəsmi xarakter daşımır və bu cür müəssisələrin əlaqəli tərəflərlə münasibətləri və əməliyyatları ilə bağlı heç bir sənədləşdirilmiş prosesləri olmaya bilər. Sahibkar-rəhbər əməliyyatların bütün əsas aspektlərində fəal iştirak etməklə əlaqəli tərəflərlə əməliyyatlar nəticəsində yaranan bəzi riskləri azalda və ya ehtimal ki, bu riskləri artıra bilər. Bu cür müəssisələr üçün auditor rəhbərliyin nəzarət və təhlil fəaliyyətlərini müşahidə etmək və mövcud müvafiq sənədləri yoxlamaq kimi digər prosedurlarla birlikdə rəhbərliklə sorğu aparmaqla əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlar, eləcə də bunların üzərində mövcud ola biləcək hər hansı nəzarət barədə təsəvvür əldə edə bilər.

6.3.13. 6.3.12-ci paraqrafda müəyyən edilmiş nəzarət vasitələri üçün auditor aşağıdakıları etməlidir:

(a) İT-dən istifadə nəticəsində yaranan risklərə məruz qalan İT tətbiqlərini və İT mühitinin digər aspektlərini, habelə bu əlaqəli risklərin nədən ibarət olduğunu müəyyən etmək;

(b) aşkar edilmiş risklərlə bağlı cavab tədbiri görən müəssisənin ümumi İT nəzarət vasitələrini müəyyən etmək; habelə

(c) sorğulara əlavə prosedurlar yerinə yetirməklə, müəyyən edilmiş ümumi İT nəzarət vasitələrinin effektiv şəkildə tərtib edilib-edilmədiyini və həyata keçirilib-keçirilmədiyini qiymətləndirmək.

Auditorun müəssisənin maliyyə hesabatlarının hazırlanması prosesi barədə təsəvvür əldə etməsi (bunun üçün hərtərəfli prosedurlar həyata keçirilə bilər) əməliyyatların axınlarına və məlumatların emalına aid olan İT mühitini əhatə edir. Bunun səbəbi odur ki, təşkilatın İT proqramlarından və ya İT mühitinin digər aspektlərindən istifadə etməsi nəticəsində İT-dən istifadə riskləri (yəni, məlumatların emalına nəzarət vasitələrinə xas olan səmərəsiz tərtibat və ya fəaliyyət, yaxud məlumatların tamlığı üçün risklər) yaranır.

Auditorun İT proseslərini başa düşmə dərəcəsi, o cümlədən müəssisənin ümumi İT nəzarətinə nə dərəcədə malik olması, müəssisənin xüsusiyyəti və şəraiti, onun İT mühiti, eləcə də auditor tərəfindən müəyyən edilmiş nəzarət vasitələrinin xüsusiyyəti və həcmindən asılı olaraq dəyişir. İT-dən istifadə nəticəsində yaranan risklərə məruz qalan İT tətbiqlərinin sayı da bu amillərdən asılı olaraq dəyişir. Ümumi İT nəzarət vasitələri İT mühitinin davamlı yaxşı işləməsini, o cümlədən məlumatların emalına nəzarət vasitələrinin davamlı effektiv işləməsini və məlumatların tamlığını təmin edir.

Müəssisənin daxili nəzarət sistemində çatışmazlıqlar

6.3.14. Auditor müəssisənin daxili nəzarət sistemində bir və ya bir neçə çatışmazlığın aşkar edilib-edilmədiyini və əgər aşkar edilərsə, onların ayrı-ayrılıqda və ya birlikdə əhəmiyyətli çatışmazlıqlar təşkil edib-etmədiyini müəyyən etməlidir.

Müəssisənin daxili nəzarət sistemi barədə təsəvvür əldə edərkən auditor müəyyən edə bilər ki, müəssisənin bəzi siyasət və ya prosedurları müəssisənin xüsusiyyətinə və şəraitinə uyğun deyil. Belə bir qərar daxili nəzarətdə olan çatışmazlıqları aşkar etməkdə auditora kömək edən göstərici ola bilər. Auditor tərəfindən bir və ya bir neçə çatışmazlıq müəyyən edildiyi halda, auditor həmin çatışmazlıqların əhəmiyyətli təhrif risklərinin aşkar edilməsinə və qiymətləndirilməsinə, habelə əlavə audit prosedurlarının tərtib edilməsinə təsirini nəzərə ala bilər.

Auditor çatışmazlığın daxili nəzarətdə əhəmiyyətli çatışmazlıq olub-olmadığını müəyyən etmək üçün peşəkar mühakimə yürüdür.

6.4. Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi

Əhəmiyyətli təhrif riskləri yetərli müvafiq audit sübutlarının əldə edilməsi üçün zəruri olan əlavə audit prosedurlarının xüsusiyyətini, müddətini və həcmini müəyyən etmək üçün auditor tərəfindən aşkar edilir və qiymətləndirilir. Bu sübutlar auditora, audit riski məqbul dərəcədə aşağı səviyyədə olduqda maliyyə hesabatları haqqında rəy bildirməyə imkan verir.

6.4.1. Auditor dələduzluq və ya səhv nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini aşkar etməli və qiymətləndirməlidir:

(a) Maliyyə hesabatları səviyyəsində. Bu zaman auditor onların təsdiqləmə səviyyəsində risklərə təsir edib-etmədiyini müəyyən etməli və aşkar edilmiş risklərin maliyyə hesabatlarına nüfuzedici təsirinin xüsusiyyətini və dərəcəsini nəzərə almalıdır; habelə
(b) Əməliyyat kateqoriyaları, hesab qalıqları və açıqlamalar üçün təsdiqləmə səviyyəsində. Bunu edərkən auditor:

(i) Müvafiq təsdiqləmələri və əlaqəli əhəmiyyətli əməliyyat kateqoriyalarını, hesab qalıqlarını və açıqlamaları müəyyən etməlidir; habelə

(ii) Təhriflərin baş vermə ehtimalını və miqyasını qiymətləndirərək təsdiqləmə səviyyəsində aşkar edilmiş əhəmiyyətli təhrif risklərinə xas riski qiymətləndirin.

(a)

Maliyyə hesabatları səviyyəsində risklər

Maliyyə hesabatları səviyyəsində əhəmiyyətli təhrif riskləri bütövlükdə maliyyə hesabatlarına nüfuzedici şəkildə aid olan və bir çox təsdiqləmələrə təsir göstərmə ehtimalı olan risklərə aiddir. Bu xüsusiyyətli risklər mütləq əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar səviyyəsində xüsusi təsdiqləmələrlə bağlı risklər (məs, rəhbərlik tərəfindən nəzarət vasitələrinə əhəmiyyət verməmə riski) deyil.

Təsdiqləmələr səviyyəsində risklər

Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi zamanı auditor baş verə biləcək müxtəlif növ potensial təhrifləri nəzərə almaq üçün təsdiqləmələrdən istifadə edir. Əlavə 5-də təsdiqləmələr səviyyəsində müxtəlif növ təhrifləri nəzərə almaqda auditor tərəfindən istifadə edilə bilən təsdiqləmələr verilmişdir.

Əməliyyat kateqoriyası, hesab qalığı və ya açıqlamaya dair təsdiqləmə, əgər onunla bağlı əhəmiyyətli təhriflər riski aşkar edilmişdirsə, müvafiq təsdiqləmə sayılır. Təsdiqləmənin müvafiq təsdiqləmə olub-olmamasının müəyyən edilməsi hər hansı əlaqəli nəzarət vasitələri (yəni, tərkib riski) nəzərə alınmadan həyata keçirilir və auditor tərəfindən təhriflərin həm baş vermə (yəni, baş vermə ehtimalı), həm də baş verəcəyi təqdirdə əhəmiyyətli (yəni, miqyas) olma ehtimalı

nəzərə almasına əsaslanır. Əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və açıqlamalar üçün bir və ya bir neçə müvafiq təsdiqləmə mövcuddur. Müvafiq təsdiqləmələrin və əhəmiyyətli əməliyyat kateqoriyalarının, hesab qalıqlarının və açıqlamaların müəyyən edilməsi əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üçün zəmin yaradır.

Tərkib riskinin qiymətləndirilməsi

Təsdiqləmələr səviyyəsində müəyyən bir əhəmiyyətli təhriflər riski üzrə qiymətləndirilmiş tərkib riski, daha aşağıdan daha yüksək dərəcəyə qədər dəyişən tərkib riski diapazonunda olan mühakiməni əks etdirir.

Tərkib riskini qiymətləndirərkən auditor tərkib riski diapazonunda təhrifin baş vermə ehtimalı ilə miqyasının birləşməsinin əhəmiyyətini müəyyən etmək üçün peşəkar mühakimə yürüdür. Tərkib riskinin diapazonun harasında yerləşəcəyinin qiymətləndirilməsi ilə bağlı mühakimə müəssisənin xüsusiyyəti, ölçüsü və ya şəraitindən asılı olaraq dəyişə bilər və təhrifin qiymətləndirilmiş baş vermə ehtimalını və miqyasını nəzərə alır.

Təhrifin baş vermə ehtimalını nəzərə alarkən, auditor təhrifin baş vermə ehtimalını nəzərə alır. Təhrifin miqyasını nəzərə alarkən, auditor mümkün təhrifin keyfiyyət və kəmiyyət aspektlərini nəzərə alır (yəni, əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalara dair təsdiqləmələrdəki təhriflər xüsusiyyəti, ölçüsü və ya şəraitə görə əhəmiyyətli hesab edilə bilər).

Tərkib riskini qiymətləndirərkən, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq tələb olunan məlumatların hazırlanmasına aid olan və təsdiqləmələrin təhrifə meylliyini artıran amillərə aşağıdakılar daxil ola bilər:

- *Mürəkkəblik;*
- *Subyektivlik;*
- *Dəyişiklik;*
- *Qeyri-müəyyənlik (uçot qiymətləndirmələri üçün bu, uçot qiymətləndirmələrinin qeyri-müəyyənliyidir); yaxud*
- *Rəhbərliyin qərəzliliyi və ya digər dələduzluq riski amillərinə görə təhriflərə meyllilik.*

Bu amillərin mövcudluğu tərkib riskini artıraraq bu "AMM üçün BAS"-ın audit üçün uyğun olmadığına dəlalət edə bilər.

Əhəmiyyətli təhrif riskləri bütövlükdə maliyyə hesabatları üçün daha çox nüfuzedici olub bir çox təsdiqləmələrə təsir etmə ehtimalı olduğu halda, bu risklər maliyyə hesabatları səviyyəsində qiymətləndirilir. Təsdiqləmələr səviyyəsində riski qiymətləndirərkən, auditor, maliyyə hesabatları səviyyəsindəki əhəmiyyətli təhrif risklərinin nə dərəcədə tərkib risklərində təsdiqləmələr səviyyəsindəki əhəmiyyətli təhrif risklərinin olub-olmamasının qiymətləndirilməsinə təsir etməsini nəzərə alır.

Əhəmiyyətli təhrif risklərini aşkar edərkən və qiymətləndirərkən tapşırıq qrupunda aparılan müzakirənin nəticələri, eləcə də dələduzluq və fəaliyyətin fasiləsizliyi ilə bağlı hər hansı sorğular da məqsədəuyğun sayılır.

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

Əhəmiyyətli təhriflər riskinin qiymətləndirilməsi ilə bağlı peşəkar mühakimə yürüdərkən, ictimai sektorda çalışan auditorlar qaydaların və direktivlərin mürəkkəbliyini, eləcə də rəhbər sənədlərin tələblərinə riayət etməmə risklərini nəzərə ala bilərlər.

6.4.2. Dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini aşkar edərkən və qiymətləndirərkən, auditor gəlirin tanınmasında dələduzluq risklərinin mövcud olması ehtimalına əsaslanaraq, hansı gəlir növlərinin, gəlir əməliyyatlarının və ya təsdiqləmələrin belə risklərə səbəb olduğunu qiymətləndirməlidir.

Dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini aşkar edərkən və qiymətləndirərkən, auditor analitik prosedurlar, o cümlədən gəlir hesablarına aid olan prosedurlar həyata keçirilərkən qeyri-adi və ya gözlənilməz münasibətlərin aşkar edilib-edilmədiyini nəzərə ala bilər.

Gəlirlərin tanınmasında dələduzluq risklərinin mövcud olması ehtimalı təkzib edilə bilər. Məsələn, auditor əldə edilmiş audit sübutlarına əsaslanaraq belə qənaətə gələ bilər ki, sadə gəlir əməliyyatının bir növü, məsələn, icarəyə verilən yeganə əmlakdan icarə haqqı əldə edildikdə, gəlirin tanınması ilə bağlı dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riski yoxdur.

6.4.3. Təsdiqləmələr səviyyəsində uçot qiymətləndirmələri və müvafiq açıqlamalar ilə bağlı əhəmiyyətli təhrif risklərini aşkar edərkən və qiymətləndirərkən, auditor uçot qiymətləndirmələrinin nə dərəcədə qiymətləndirmədə qeyri-müəyyənliyinə məruz qaldığını və aşağıdakılara nə dərəcədə mürəkkəblik, subyektivlik, dəyişiklik və ya rəhbərliyin qərəzliliyinin təsir göstərdiyini nəzərə almalıdır:

(a) Metodun, istifadə olunan ehtimalların və verilənlərin seçilməsi və tətbiq edilməsi; habelə
(b) Rəhbərliyin müşahidə əsaslı qiymətləndirmələrinin və əlaqəli açıqlamaların seçilməsi.

Əhəmiyyətli risklər

6.4.4. Auditor qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərindən hər hansı birinin, auditorun peşəkar mühakiməsinə əsasən, əhəmiyyətli risk olub-olmadığını müəyyən etməlidir.

6.4.6-cı paraqrafda qeyd olunan əhəmiyyətli risk kimi nəzərə alınmalı olan risk növü istisna olmaqla, qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərindən hansının tərkib riski diapazonunun yuxarı həddinə yaxın olmasını və buna görə də əhəmiyyətli risk kimi qəbul edilməsini müəyyən etmək üçün peşəkar mühakimə yürüdülməlidir. Tərkib riski diapazonunun yuxarı həddinə yaxın olmaq müəssisədən müəssisəyə fərqli ola bilər və bir müəssisənin bütün dövrləri üçün eyni olmaya bilər. Bu, riskin qiymətləndirildiyi müəssisənin xüsusiyyətindən və şəraitindən asılı ola bilər.

6.4.5. Auditordan tələb olunur ki, əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlarla bağlı qiymətləndirilmiş risklərin, eləcə də mühasibat uçotu qiymətləndirmələri ilə bağlı qiymətləndirilmiş risklərin əhəmiyyətli risklər olub-olmadığını müəyyən etsin.

6.4.6. Auditordan aşağıdakıları əhəmiyyətli risklər kimi nəzərə alması tələb olunur:

(a) Rəhbərliyin nəzarət vasitələrinə əhəmiyyət verməməsi nəticəsində aş vermiş əhəmiyyətli təhriflər riski;
(b) Dələduzluq nəticəsində baş vermiş digər əhəmiyyətli təhrif riskləri, o cümlədən 6.4.2-ci paraqrafa uyğun olaraq auditorun müəyyən etdiyi risklər; yaxud
(c) Müəssisənin adi fəaliyyətindən kənar əlaqəli tərəflərlə aparılan əhəmiyyətli əməliyyatların aşkar edilməsi.

Rəhbərliyin nəzarət vasitələrinə əhəmiyyət verməməsi riskinin səviyyəsi müəssisədən müəssisəyə fərqli olsa da, risk bütün müəssisələrdə mövcuddur. Bu cür əhəmiyyət verməmənin gözlənilmədən baş verə biləcəyinə görə, bu, dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riskidir və buna görə də əhəmiyyətli risk sayılır.

Nəzarət riskinin qiymətləndirilməsi

6.4.7. Auditor aşağıdakı hallarda nəzarəti qiymətləndirməlidir:

(a) Auditor müəyyən etmişdir ki, yalnız mahiyyəti üzrə prosedurlar təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhrif risklərinin hər hansı biri üçün yetərli müvafiq audit sübutu təmin edə bilməz; yaxud

(b) Auditor əks halda nəzarət vasitələrinin effektivliyini yoxlamağı planlaşdırır.

Əks halda, qiymətləndirilmiş əhəmiyyətli təhriflər riski ilə tərkib riskinin qiymətləndirilməsi eynidir.

Auditorun nəzarət vasitələrinin effektivliyini yoxlamaq planları, nəzarət vasitələrinin effektiv işləməsi gözləntilərinə əsaslanır və bu, auditor tərəfindən nəzarət riskinin qiymətləndirilməsinin əsasını təşkil edəcəkdir.

Nəzarət vasitələrinin effektivliyinə dair ilkin gözləntilər 6.3.12-ci və 6.3.13. (b) paraqraflarında müəyyən edilmiş nəzarət vasitələrinin tərtibatının auditor tərəfindən qiymətləndirilməsinə və həyata keçirilməsinə dair qərarın verilməsinə əsaslanır. Auditor 7-ci hissəyə uyğun olaraq nəzarət vasitələrinin effektivliyini testdən keçirdikdən sonra auditor nəzarət vasitələrinin effektivliyinə dair ilkin gözləntiləri təsdiq edə bilər. Nəzarət vasitələri gözlənildiyi kimi effektiv işləmədikdə, o zaman auditor nəzarət riskinin qiymətləndirilməsini yenidən nəzərdən keçirməlidir.

Auditorun nəzarət riskini qiymətləndirməsi üstünlük verilən audit üsullarından və ya metodologiyalarından asılı olaraq müxtəlif üsullarla həyata keçirilə bilər və müxtəlif şəkildə ifadə oluna bilər. Nəzarət riskinin qiymətləndirilməsi keyfiyyət kateqoriyalarından istifadə etməklə (məsələn, maksimum, orta, minimum kimi qiymətləndirilən nəzarət riski) və ya aşkar edilmiş riskin aradan qaldırılmasında nəzarətin (nəzarət vasitələrinin) nə dərəcədə effektiv olduğuna dair auditorun gözləntiləri, yəni nəzarət vasitələrinin effektiv işinə planlaşdırılmış etibarla ifadə edilə bilər. Məsələn, əgər nəzarət riski maksimum olaraq qiymətləndirilirsə, auditor nəzarət vasitələrinin effektiv işləməsinə etibar etməyi düşünmür. Əgər nəzarət riski maksimumdan az qiymətləndirilirsə, auditor nəzarət vasitələrinin effektiv işləməsinə etibar etməyi düşünür.

Gündəlik biznes əməliyyatları çox az və ya heç bir əl müdaxiləsi olmadan yüksək səviyyədə avtomatlaşdırılmış şəkildə emal edildiyi hallarda, risklə bağlı yalnız mahiyyəti üzrə prosedurları yerinə yetirmək mümkün olmaya bilər. Bu, müəssisənin məlumatlarının əhəmiyyətli bir hissəsinin yalnız elektron formatda başladıldığı, qeydə alındığı, emal edildiyi və ya təqdim edildiyi hallarda baş verə bilər. Belə hallarda:

- *Audit sübutlarının yetərliliyi və müvafiqliyi adətən onun düzgünlüyünə və tamlığına nəzarətin effektivliyindən asılıdır.*
- *Müvafiq nəzarət vasitələri effektiv işləmədikdə, məlumatların düzgün başladılmaması və ya dəyişdirilməməsi, eləcə də aşkar edilməməsi ehtimalı daha çox ola bilər.*

Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi prosedurlarının müəyyən edilməsi və risklərin qiymətləndirilməsinə yenidən baxılması

6.4.8. Auditor əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üçün həyata keçirilən prosedurlardan əldə edilmiş audit sübutlarının əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üçün müvafiq zəmin təşkil edib-etmədiyini qiymətləndirməlidir. Əks halda, auditor bu zəmini təmin etmək üçün audit sübutları əldə edilənə qədər əlavə prosedurları həyata keçirməlidir. Əhəmiyyətli təhrif riskləri aşkar edilən və qiymətləndirilən zaman auditor rəhbərlik tərəfindən təsdiqlənən və ya ziddiyyət təşkil edən əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün prosedurlardan əldə edilmiş bütün audit sübutlarını nəzərə almalıdır.

6.4.9. Auditorun təsdiqləmə səviyyəsində əhəmiyyətli təhrif risklərini qiymətləndirməsi əlavə audit sübutları əldə edildikdən sonra auditin gedişində dəyişə bilər. Auditorun növbəti audit prosedurlarının yerinə yetirilməsi nəticəsində audit sübutları əldə etdiyi hallarda və ya yeni məlumatlar əldə edildikdə, onlardan hər hansı biri auditorun ilkin olaraq qiymətləndirməyə əsas verdiyi audit sübutlarına uyğun gəlmirsə, auditor qiymətləndirməyə yenidən baxmalı və növbəti planlaşdırılmış audit prosedurlarını müvafiq qaydada dəyişdirməlidir.

6.4.10. Auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələr və ya şəraitlərə dair audit sübutlarını əldə etmək üçün audit ərzində ayıq olmalıdır.

Əgər auditorun risk qiymətləndirmələri aparıldıqdan sonra müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə atına ala biləcək hadisələr və ya şəraitlər aşkar edilərsə, auditorun əhəmiyyətli təhrif risklərini qiymətləndirməsinə yenidən baxılmalıdır.

6.5. "AMM üçün BAS"-dan istifadənin uyğunluğunun dəyərləndirilməsi

6.5.1. Əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün həyata keçirilən prosedurlara əsaslanaraq, tapşırıq üzrə tərəfdaş "AMM üçün BAS"-ın auditi aparılan müəssisənin xüsusiyyətinə və şəraitinə uyğun qalıb-qalmamasını qiymətləndirməlidir.

Əhəmiyyətli təhrif risklərini müəyyən etmək və qiymətləndimək üçün prosedurları həyata keçirərkən yeni məlumat və ya əlavə audit sübutları əldə edildikdə, auditorun "AMM üçün BAS"-dan istifadə etmək barədə ilkin qərarı dəyişə bilər. Auditorun "AMM üçün BAS"-dan istifadə etmək barədə ilkin qərarına uyğun olmayan audit sübutları və ya yeni məlumatlar əldə edildiyi hallarda, auditor "AMM üçün BAS"-dan istifadə etmək barədə ilkin qərarını dəyişdirməli və müvafiq olaraq BAS-lardan və ya digər müvafiq standartlardan istifadəyə keçməlidir.

6.6. Məlumatvermə ilə bağlı xüsusi tələblər

6.6.1. Auditor aşkar etdiyi əhəmiyyətli risklər barədə rəhbərliyə və müvafiq hallarda idarəetməyə məsul şəxslərə məlumat verməlidir.

6.7. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən tətbiq edilən 2.4-cü hissədə qeyd olunan sənədləşdirilmə ilə bağlı ümumi tələblərlə yanaşı bu hissəyə aid olan sənədləşdirilmə ilə bağlı xüsusi məsələlər aşağıda təsvir olunur.

Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi üçün sənədlərin forması və həcmi sadə və nisbətən qısa ola bilər və aşağıdakılardan asılıdır:

- *Müəssisənin xüsusiyyəti, ölçüsü və mürəkkəbliyi və onun daxili nəzarət sistemi.*
- *Müəssisədən məlumatı almaq imkanının olması.*
- *Audit zamanı istifadə olunan audit metodologiyası və texnologiyası.*

Auditorun müəssisə və onunla bağlı məsələlər barədə tam təsəvvürünü sənədləşdirmək tələb olunmur, əksinə 2.4-cü hissədə qeyd olunan prinsiplər və aşağıda qeyd olunan məsələlər tətbiq edilməlidir.

6.7.1. Auditor auditin sənədləşdirilməsinə aşağıdakıları daxil etməlidir:

(a) Müəssisənin və onun mühitinin hər bir aspekti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri, müəssisənin daxili nəzarət sistemi və əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək üçün həyata keçirilən prosedurlar barədə əldə edilmiş təsəvvürün əsas elementləri;

(b) Müəyyən edilmiş əlaqəli tərəflərin adları (o cümlədən əvvəlki dövrdən sonra edilən dəyişikliklər) və əlaqəli tərəflərlə münasibətlərin xüsusiyyəti;

(c) Dələduzluq nəticəsində baş vermiş risklər də daxil olmaqla, maliyyə hesabatları səviyyəsində və təsdiqləmələr səviyyəsində aşkar edilmiş və qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri, o cümlədən yalnız mahiyyəti üzrə prosedurların yetərli müvafiq audit sübutları təmin edə bilmədiyi əhəmiyyətli risklər və risklər, eləcə də yürüdülmüş əhəmiyyətli mühakimələrin əsaslandırılması;

(d) Müvafiq hallarda, gəlirin tanınması ilə bağlı dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riskinin olmadığı barədə qənaətin səbəbləri;

(e) 6.3.12-ci və 6.3.13-cü paraqraflarda qeyd olunan nəzarət vasitələri və nəzarətin effektiv şəkildə tərtib edilib-edilməməsinin qiymətləndirilməsi və nəzarətin həyata keçirilib-keçirilmədiyinə dair qərarın verilməsi; habelə

(f) Uçot qiymətləndirmələri üçün auditorun uçot qiymətləndirmələri barədə əldə etdiyi təsəvvürünün əsas elementləri, o cümlədən müvafiq hallarda, nəzarət vasitələri, qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə auditorun əlavə prosedurları arasındakı əlaqə və rəhbərliyin qərəzliliyinin əlamətləri və bununla bağlı görülən tədbir.

6.7.2. Auditor “AMM üçün BAS”-ın auditi aparılan müəssisənin xüsusiyyətinə və şəraitinə uyğun qalıb-qalmaması ilə bağlı qiymətləndirmənin əsaslandırılmasını sənədləşdirməlidir.

7. Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri

Bu hissənin məzmunu

7-ci hissə aşağıdakılarla bağlı məzmunu əhatə edir:

- Maliyyə hesabatları səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı ümumi cavab tədbirlərinin hazırlanması və həyata keçirilməsi;
- Təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirlərinin hazırlanması və həyata keçirilməsi (yəni, əlavə audit prosedurlarının tərtib edilməsi və həyata keçirilməsi). Əlavə prosedurlara mahiyyəti üzrə prosedurlar (təfərrüatlı testlər və mahiyyəti üzrə analitik prosedurlar) və nəzarət testləri (lazım olduqda) daxildir və bunlar bu hissədə ətraflı izah olunur; habelə
- Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbiri görərkən xüsusi mövzular üzrə prosedurlar.

Bu hissənin əhatə dairəsi

Bu hissədə qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görməklə audit sübutlarının əldə edilməsi üçün xüsusi tələblər müəyyən edilir. 2-ci hissədə də audit sübutlarına dair geniş tələblər müəyyən edilir. Bu hissədəki qeyd olunan tələblərə riayət etməklə, auditor müvafiq məsələləri əks etdirən aşağıdakı hissələrə istinad etməyi faydalı hesab edə bilər:

- Dələduzluq – bax: Hissə 1.5.
- Qanunlar və qaydalar – bax: Hissə 1.6.
- Əlaqəli tərəflər – bax: Hissə 1.7.
- Audit sübutu kimi istifadə ediləcək məlumatlar – bax: Hissə 2.3.

7.1. Məqsədlər

7.1.1. Auditorun məqsədləri bunlardır:

(a) Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri tərtib etmək və həyata keçirməklə həmin risklərlə bağlı yetərli müvafiq audit sübutu əldə etmək;
(b) Faktiki və ya ehtimal edilən dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif riskləri ilə bağlı müvafiq cavab tədbirləri görmək;
(c) Rəhbərliyin fəaliyyətinin fasiləsizliyi ehtimalından və əlaqəli açıqlamalardan istifadə etməsi ilə bağlı yetərli müvafiq audit sübutu əldə etmək; habelə
(d) Audit aparılarkən aşkar edilmiş qanun və ya qaydalara riayət etməmə halları ilə bağlı müvafiq cavab tədbirləri görmək.

7.2. Maliyyə hesabatları səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək üçün nəzərdə tutulan audit prosedurları

7.2.1. Auditor maliyyə hesabatları səviyyəsində dələduzluq və ya səhv nəticəsində baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək üçün ümumi cavab tədbirləri tərtib etməli və həyata keçirməlidir.

Auditorun maliyyə hesabatları səviyyəsində ümumi cavab tədbirləri (məsələn, audit prosedurlarının xüsusiyyətində, müddətində və ya həcmində ümumi dəyişikliklər etmək və ya ayrılmış resurslara düzəlişlər etmək və ya ekspertlərdən istifadə etmək) bütövlükdə maliyyə hesabatlarına aid olan risklərə əsaslanır. Bu risklərə, məsələn, sahə, tənzimləyici və digər xarici

amillərdən irəli gələn risklər və ya müəssisənin mühasibat uçotunun əsasları və ya uçot siyasəti ilə geniş şəkildə əlaqəli məsələlər daxil ola bilər.

Xüsusən, auditorun ümumi cavab tədbirlərinə nəzarət mühiti barədə auditorun təsəvvürü da təsir göstərir. Nəzarət mühiti müəssisənin daxili nəzarət sisteminin digər aspektlərinin işləməsi üçün ümumi zəmin yaradır. Nəzarət mühiti təhriflərin birbaşa qarşısını almasa, onları aşkar etməsə və düzəltməsə də, daxili nəzarət sistemindəki digər nəzarət vasitələrinin effektivliyinə təsir göstərə bilər. Beləliklə, effektiv nəzarət mühiti auditora daxili nəzarətə və müəssisə daxilində yaradılan audit sübutlarının etibarlılığına daha çox inam yaratmağa imkan verə bilər.

Müəssisənin daxili nəzarət sistemi barədə təsəvvür əldə edərkən nəzarət mühitində aşkar edilmiş çatışmazlıqlar əks təsir yaradır və mahiyyəti üzrə prosedurlardan daha geniş audit sübutlarının əldə edilməsinə ehtiyacın yaranması ilə nəticələnə bilər. Zəif nəzarət mühiti həmçinin aralıq dövrdə görülə biləcək işə də təsir edir.

7.2.2. Maliyyə hesabatları səviyyəsində dələduzluq nəticəsində baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərini aradan qaldırmaq üçün ümumi cavab tədbirlərini müəyyən edərkən auditor aşağıdakıları etməlidir:

(a) Müəssisə tərəfindən seçilmiş və tətbiq olunan uçot siyasətinin, xüsusən də subyektiv ölçmələrlə bağlı olanların, rəhbərliyin mənfəəti idarə etmək səylərindən nəticəsində maliyyə hesabatlarının saxtalaşdırılmasına dəlalət edib-etməməsini dəyərləndirmək; habelə

(b) Audit prosedurlarının xüsusiyyəti, müddəti və həcminin seçilməsinə gözlənilməzlik elementini daxil etmək.

Gözlənilməzlik elementini daxil etmək üçün aşağıdakılar təmin edilə bilər, məsələn:

- *Əhəmiyyətliliyin və ya riskə görə başqa cür test edilməmiş seçilmiş hesab qalıqları və təsdiqləmələr üçün mahiyyəti üzrə prosedurların həyata keçirilməsi.*
- *Audit prosedurlarının müddətini gözləniləndən fərqli tənzimlənməsi.*
- *Müxtəlif seçmə üsullarından istifadə edilməsi.*
- *Audit prosedurlarının müxtəlif yerlərdə və ya xəbər verilmədən seçilmiş yerlərdə həyata keçirilməsi.*

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvləri olduğu hallar üçün mülahizələr

7.2.3. Maliyyə hesabatları səviyyəsində dələduzluq nəticəsində baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərini aradan qaldırmaq üçün ümumi cavab tədbirlərini müəyyən edərkən, auditor tapşırıqda mühüm məsuliyyətlər veriləcək şəxslərin bilik, bacarıq və qabiliyyətlərini, həmçinin auditor tərəfindən tapşırıq üçün dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini qiymətləndirməsini nəzərə alaraq işçi heyətini təyin etməli və onlara nəzarət etməlidir.

7.3. Təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək üçün nəzərdə tutulan audit prosedurları

7.3.1. Auditor, xüsusiyyəti, müddəti və həcmi təsdiqləmələr səviyyəsində istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə əsaslanan və onlarla bağlı cavab tədbirlərini nəzərdə tutan əlavə audit prosedurlarını hazırlamalı və həyata keçirməlidir.

Əlavə audit prosedurları nəzarət testlərindən və mahiyyəti üzrə prosedurlardan ibarətdir. Auditor nəzarət testlərini həyata keçirməyi seçə bilər və ya müəyyən xüsusi hallarda bu testlər tələb oluna bilər (bax: 7.3.2.(d) paraqrafı). Mahiyyəti üzrə prosedurlara təfərrüatlı testlər və mahiyyəti üzrə analitik prosedurlar daxildir.

Əlavə audit prosedurları təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləridir və auditorun əlavə prosedurları ilə riskin qiymətləndirilməsi arasında aydın əlaqə təmin edir. Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri təsdiqləmələr səviyyəsində dələduzluq riskləri nəticəsində baş verdiyi halda, daha uyğun və etibarlı olan audit sübutlarını əldə etmək və ya əlavə təsdiqedici məlumat əldə etmək üçün audit prosedurlarının xüsusiyyəti, müddəti və həcminin dəyişdirilməsinə ehtiyac duyula bilər.

Əhəmiyyətli təhriflər riskinin qiymətləndirilməsi məqbul olan aşağı səviyyədən aşağı olduqda auditor əlavə audit prosedurlarını hazırlamalı və həyata keçirməlidir. Bununla belə, 7.3.14-cü paraqrafın tələbinə əsasən, qiymətləndirilmiş riskdən asılı olmayaraq, auditor əməliyyatların hər bir əhəmiyyətli kateqoriyası, hesab qalığı və açıqlamalar üçün mahiyyəti üzrə prosedurlar həyata keçirməlidir.

7.3.2. Növbəti audit prosedurlarını hazırlayarkən auditor aşağıdakıları etməlidir:

(a) Hər bir əhəmiyyətli əməliyyat kateqoriyası, hesab qalığı və ya açıqlama üçün təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhriflər riskinə verilən qiymətləndirmənin səbəblərini nəzərdən keçirmək, o cümlədən:

(i) Əhəmiyyətli əməliyyatlar kateqoriyasının, hesab qalığının və ya açıqlamanın xüsusiyyəti nəticəsində baş vermiş təhrifin baş vermə ehtimalı və miqyası (yəni tərkib riski); habelə
(ii) Riskin qiymətləndirilməsi zamanı əhəmiyyətli təhriflər riski (yəni nəzarət riski) ilə bağlı tədbir görən nəzarət vasitələrinin nəzərə alınıb-alınmaması (yəni nəzarət riski), bununla da auditordan nəzarət vasitələrinin effektiv işlədiyini müəyyən etmək üçün audit sübutlarının əldə edilməsinin tələb edilib-edilməməsi (auditor mahiyyəti üzrə prosedurların xüsusiyyətini, müddətini və həcmini müəyyən edərkən nəzarət vasitələrinin effektivliyini yoxlamağı planlaşdırdığı hallarda);

(b) Auditorun risk qiymətləndirməsi nə qədər yüksək olarsa, daha inandırıcı audit sübutları əldə etmək;
(c) Auditor nəzarət vasitələrinin effektivliyinə nə qədər çox güvənərsə, nəzarət testlərini tərtib edərkən və həyata keçirərkən daha inandırıcı audit sübutları əldə etmək; habelə
(d) Əgər auditor nəzarət vasitələrinin effektivliyini yoxlamaq niyyətindədirsə və ya mahiyyəti üzrə prosedurlar təkbaşına təsdiqləmələr səviyyəsində yetərli müvafiq audit sübutu təqdim edə

bilmirsə, bu cür nəzarət vasitələrinin effektivliyinə dair yetərli müvafiq audit sübutu əldə etmək üçün nəzarət testlərini hazırlamaq və həyata keçirmək.

Bəzi auditlərdə auditor bir çox nəzarət vasitələrini müəyyən etməyə bilər və ya onların mövcud olduğu və ya işlədiyi müəssisə tərəfindən hazırlanmış sənədləşdirilmənin həcmi məhdud ola bilər. Belə hallarda, auditorun ilk növbədə mahiyyəti üzrə prosedurlar olan əlavə audit prosedurlarını həyata keçirməsi daha effektiv ola bilər.

Riskin daha yüksək qiymətləndirilməsi səbəbindən daha inandırıcı audit sübutları əldə edərkən, auditor sübutların sayını artıra və ya daha uyğun və ya etibarlı sübut əldə edə bilər (məsələn, üçüncü tərəf sübutlarının əldə edilməsinə daha çox diqqət yetirməklə və ya bir sıra müstəqil mənbələrdən təsdiqedici sübutlar əldə etməklə).

İctimai sektor müəssisələrinə xas olan mülahizələr

İctimai sektor müəssisələrin auditi üçün audit mandatı və auditin aparılmasına dair digər xüsusi tələblər auditorun əlavə audit prosedurlarının xüsusiyyəti, müddəti və həcmini nəzərə almasına təsir göstərə bilər.

7.3.3. Nəzarət testlərini və təfərrüatlı testləri hazırlayarkən, auditor audit prosedurunun məqsədinə çatmaq üçün effektiv olan test olunacaq elementlərin seçilməsi üsullarını müəyyən etməlidir.

Test olunacaq elementləri seçərkən, 2.3.1-ci paraqrafa əsasən, auditordan audit sübutu kimi istifadə ediləcək məlumatların uyğunluğunu və etibarlılığını müəyyən etmək tələb olunur; effektivliyin digər aspekti (yetərlilik) test olunacaq elementlərin seçilməsi zamanı vacib mülahizədir. Test olunacaq maddələrin seçilməsi üçün auditorun istifadə edə biləcəyi üsullar bunlardır: bütün elementlərin seçilməsi (100% yoxlama), müəyyən elementlərin seçilməsi və audit seçməsi.

Nəzarət testləri

7.3.4. Nəzarət testlərini hazırlayarkən və həyata keçirərkən auditor nəzarət vasitələrinin effektivliyi haqqında audit sübutlarını əldə etmək üçün sorğu ilə birlikdə audit prosedurlarını yerinə yetirməlidir, o cümlədən:

(a) Dövr ərzində müvafiq vaxtlarda nəzarət vasitələrinin necə tətbiq edildiyi;
(b) Onların tətbiq olunduğu ardıcıllıq; habelə
(c) Onların kim tərəfindən və ya hansı vasitələrlə tətbiq edildiyi.

7.3.5. Auditor test olunacaq nəzarət vasitələrinin digər nəzarət vasitələrindən (dolayı nəzarət vasitələri) asılı olub-olmadığını müəyyən etməlidir və əgər belədirsə, dolayı nəzarət vasitələrinin effektiv işləməsi barədə sübut əldə etməyin zəruri olub-olmadığını nəzərdən keçirməlidir.

7.3.6. Auditor, həmin nəzarət vasitələrinə etibar etməyi planlaşdırdığı dövr ərzində və ya bütün dövr ərzində etibar üçün müvafiq zəmin yaratmaq məqsədilə onları test etməlidir.

7.3.7. Əgər auditor aralıq dövrdə nəzarət vasitələrinin işləmə effektivliyinə dair audit sübutları əldə edərsə, o zaman sonrakı əhəmiyyətli dəyişikliklərlə bağlı əlavə audit sübutları əldə etməli və qalan dövr üçün əldə ediləcək əlavə audit sübutlarını müəyyən etməlidir.

7.3.8. Əgər auditor əvvəlki dövrlərdə əldə edilmiş nəzarət vasitələrinin işləmə effektivliyi ilə bağlı audit sübutlarından istifadə etməyi planlaşdırırsa, auditor:

(a) Aşağıdakıları nəzərə almalıdır:

(i) Daxili nəzarət sisteminin effektivliyini;
(ii) Nəzarətin xüsusiyyətlərindən (məsələn, əl ilə və ya avtomatlaşdırılmış olması) irəli gələn riskləri;
(iii) Ümumi İT nəzarət vasitələrinin effektivliyini;
(iv) Nəzarətin və onun müəssisə tərəfindən tətbiq edilməsinin effektivliyini;
(v) Müəyyən nəzarətin dəyişməz qalmasının dəyişən şəraitə görə risk yaradıb-yaratmamasını; habelə
(vi) Əhəmiyyətli təhriflər riski və planlaşdırılan nəzarətə etibar dərəcəsini; habelə

(b) Əvvəlki auditdən sonra həmin nəzarət vasitələrində əhəmiyyətli dəyişikliklərin olub-olmaması ilə bağlı audit sübutları əldə etməklə həmin sübutların aktual olaraq qalıb-qalmamasını müəyyən etməlidir. Əhəmiyyətli dəyişikliklər baş verdiyi halda, auditor həmin nəzarəti cari dövrdə, əks halda isə ən azı hər üç auditdən bir test etməlidir.

7.3.9. Auditor əhəmiyyətli risk üzərində nəzarət olan nəzarətə etibar etməyi planlaşdırdığı halda, həmin nəzarəti cari dövrdə test etməlidir.

7.3.10. Auditor etibar etməyi planlaşdırdığı nəzarət vasitələrinin işləmə effektivliyini qiymətləndirərkən, mahiyyəti üzrə prosedurlarla aşkar edilmiş təhriflərin nəzarət vasitələrinin effektiv işləmədiyini bildirib-bildirmədiyini qiymətləndirməlidir. Bununla belə, mahiyyəti üzrə prosedurlarla hər hansı təhrif aşkar edilməməməsi, test edilən təsdiqləmə ilə bağlı nəzarət vasitələrinin effektiv olmasına dair audit sübutu hesab edilə bilməz.

7.3.11. Əgər auditorun etibar etməyi planlaşdırdığı nəzarət vasitələrində kənarlaşmalar aşkar edilərsə, auditor bu məsələləri və onların mümkün nəticələri barədə təsəvvür əldə etmək üçün xüsusi sorğular aparmalı və aşağıdakıları müəyyən etməlidir:

(a) Nəzarət testləri həmin nəzarət vasitələrinə etibar etmək üçün müvafiq zəmin yaradırmı;
(b) Əlavə nəzarət testləri lazımdırmı; yaxud
(c) Əhəmiyyətli təhrif risklərinin mahiyyəti üzrə prosedurlarla aradan qaldırılması tələb olunurmu.

Mahiyyəti üzrə prosedurlar

7.3.12. Auditorun mahiyyəti üzrə prosedurları, əhəmiyyətli risklərə bağlı xüsusi cavab tədbiri görən mahiyyəti üzrə prosedurları da əhatə etməlidir. Əhəmiyyətli risklə bağlı cavab tədbiri yalnız mahiyyəti üzrə prosedurlardan ibarət olduqda, həmin prosedurlar təfərrüatlı testləri də əhatə etməlidir.

7.3.13. Auditorun mahiyyəti üzrə prosedurları, maliyyə hesabatının bağlanması prosesi ilə bağlı audit prosedurlarını da əhatə etməlidir, o cümlədən:

(a) Maliyyə hesabatlarındakı məlumatların əsas uçot sənədləri ilə, o cümlədən açıqlamalardakı məlumatların baş kitab və köməkçi mühasibat jurnalları daxilindən və ya xaricindən əldə edilməsindən asılı olmayaraq, razılaşdırılması və ya tutuşdurulması; habelə
(b) Maliyyə hesabatları hazırlanarkən aparılan əhəmiyyətli jurnal yazılışlarının və edilən digər düzəlişlərin yoxlanılması.

7.3.14. Qiymətləndirilmiş risklərdən asılı olmayaraq, əməliyyatların hər bir əhəmiyyətli əməliyyat kateqoriyası, hesab qalığı və açıqlamalar üçün mahiyyəti üzrə prosedurlar yerinə yetirilməlidir.

7.3.1-ci paraqrafın tələblərinə uyğun olaraq, auditor əlavə audit prosedurlarını təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə uyğun şəkildə, onların xüsusiyyəti, müddəti və həcmi nəzərə alınmaqla tərtib etməli və həyata keçirməlidir. Bu səbəbdən, əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və açıqlamalar üçün mahiyyəti üzrə prosedurlar artıq həyata keçirilmiş ola bilər.

Əhəmiyyətli əməliyyatlar kateqoriyası, hesab qalığı və ya açıqlamalar daxilindəki bütün təsdiqləmələrin test edilməsi tələb olunmur. Əksinə, həyata keçiriləcək mahiyyəti üzrə prosedurları tərtib edərkən, təhrif baş verərsə, onun əhəmiyyətli olma ehtimalı ağlabatan olduğu təsdiqləmənin (təsdiqləmələrin) auditor tərəfindən nəzərdən keçirməsi həyata keçiriləcək prosedurların müvafiq xüsusiyyətini, müddətini və həcmini müəyyən etməyə kömək edə bilər.

7.3.15. Əgər auditor mahiyyəti üzrə prosedurları aralıq tarixdə həyata keçirmişdirsə, auditor qalan dövrü əhatə etmək üçün aşağıdakıları yerinə yetirməlidir:

(a) Aralıq dövr üçün nəzarət testləri ilə birlikdə mahiyyəti üzrə prosedurlar; və ya
(b) Auditor bunun yetərli olduğunu müəyyən edərsə, audit nəticələrini aralıq tarixdən dövrün sonuna qədər uzatmaq üçün ağlabatan əsası təmin edən yalnız əlavə mahiyyəti üzrə prosedurlar.

Mahiyyəti üzrə analitik prosedurlar

7.3.16. Əgər auditor audit sübutlarını əldə etmək üçün mahiyyəti üzrə analitik prosedurlardan istifadə edirsə, auditor aşağıdakıları yerinə yetirməlidir:

(a) Testin məqsədi və müvafiq təsdiqləmə (təsdiqləmələr) üçün mahiyyəti üzrə analitik prosedurun uyğunluğunu müəyyən etmək;
(b) Mövcud məlumatların mənbəyini, müqayisəliliyini, xüsusiyyətini və uyğunluğunu və hazırlanmasına nəzarəti nəzərə alaraq, auditorun uçota alınmış məbləğlər və ya əmsallar üzrə gözləntilərinin formalaşdığı məlumatların etibarlılığını qiymətləndirmək;
(c) Uçota alınmış məbləğlər və ya əmsallar üzrə gözləntiləri hazırlamaq və həmin gözləntilərin əhəmiyyətli təhrifləri aşkar etmək üçün kifayət qədər dəqiq olub-olmamasını qiymətləndirmək;
(d) Gözlənilən dəyərlərlə faktiki məbləğlər arasında olan fərqlərin hansı həddə qədər əlavə araşdırmaya ehtiyac olmadan qəbul edilə biləcəyini müəyyən etmək; habelə
(e) Digər müvafiq məlumatlara uyğun olmayan və ya gözlənilən dəyərlərdən əhəmiyyətli məbləğdə fərqlənən dəyişmələri və ya əlaqələri araşdırmaq - bunun üçün rəhbərliklə sorğu aparmaq və rəhbərliyin cavablarına aid müvafiq audit sübutlarını əldə etmək və mövcud şəraitdə zərurət yarandıqda əlavə audit prosedurlarını həyata keçirmək.

Mahiyyəti üzrə analitik prosedurlar adətən zamanla proqnozlaşdırıla bilən böyük həcmli əməliyyatlara daha çox tətbiq edilir. Planlaşdırılmış analitik prosedurların tətbiqi məlumatlar arasında əlaqələrin mövcud olması və əksinə, məlum şərtlər olmadıqda bu əlaqələrin davam edəcəyi gözləntisinə əsaslanır. Bununla belə, konkret analitik prosedurun uyğunluğu auditorun onun ayrılıqda və ya digər təhriflərlə birlikdə maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola biləcək təhrifin aşkar edilməsində nə dərəcədə effektiv olacağı ilə bağlı qiymətləndirməsindən asılıdır.

Əlavə araşdırma aparılmadan auditorun gözləntidən nə qədər fərqin qəbul edə biləcəyinə dair qərarı əhəmiyyətliliyə əsaslanır, habelə təhrifin ayrılıqda və ya digər təhriflərlə birlikdə maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola bilməsi ehtimalı nəzərə alınır. Qiymətləndirilmiş risk artdıqca, sübutların istənilən dərəcədə inandırıcı olması üçün araşdırma aparılmadan

məqbul hesab edilən fərqin məbləği azalır.

Avtomatlaşdırılmış alətlər və üsullar

Analitik prosedurlar bir sıra alətlər və ya üsullardan istifadə etməklə həyata keçirilə bilər ki, onlar da avtomatlaşdırıla bilər. Texnologiyanın təkamülü, məlumat mənbələrinin sayının və müxtəlifliyinin artması auditor üçün mahiyyəti üzrə analitik prosedurları həyata keçirərkən daha çox AAÜ-dən istifadə imkanı yarada bilər.

Auditorun istifadə edə biləcəyi saysız-hesabsız məlumat mənbələri (məsələn, sosial media, sərbəst daxil olma imkanlı məlumat mənbələri) mövcuddur və bəziləri digərlərinə nisbətən daha etibarlıdır. Mahiyyəti üzrə analitik prosedurların həyata keçirilməsində AAÜ-dən istifadə auditora həm müəssisənin daxili, həm də xarici mənbələrindən məlumatları daxil etməyə və həmçinin təhlillərdə daha böyük həcmdə məlumatlardan istifadə etməyə imkan verir. Bununla belə, mahiyyəti üzrə analitik prosedurlarda istifadə olunan məlumatların etibarlılığına diqqət yetirmək üçün auditorun məsuliyyəti dəyişməz qalır.

Audit seçməsi

7.3.17. Əgər qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbiri görərkən auditor test ediləcək elementlərin seçilməsi üçün audit seçməsindən istifadə edirsə, auditor aşağıdakıları etməlidir:

(a) Audit prosedurlarının məqsədini və nümunənin götürüləcəyi əsas məcmunun xüsusiyyətlərini nəzərə almalıdır.
(b) Seçmə riskini məqbul dərəcədə aşağı səviyyəyə endirmək üçün yetərli seçmə həcmini müəyyən etməlidir.
(c) Elementləri elə seçməlidir ki, əsas məcmuda hər bir seçmə vahidinin seçilmək şansı olsun.
(d) Seçilmiş hər bir element üçün məqsədəuyğun audit prosedurlarını həyata keçirməlidir. Əgər prosedur seçilmiş elementə şamil olunmursa, auditor onu əvəz edən bir elementin üzərində proseduru həyata keçirməlidir. Auditor tərtib edilmiş audit prosedurlarını və ya uyğun alternativ prosedurları seçilmiş elementə tətbiq edə bilmədiyi halda, auditor həmin elementi müəyyən edilmiş nəzarətdən kənarlaşma (nəzarət testlərində) və ya təhrif (təfərrüatlı testlərdə) kimi nəzərə almalıdır.
(e) Aşkar edilmiş hər hansı kənarlaşma və ya təhriflərin xüsusiyyətini və səbəbini araşdırmalı və onların audit prosedurunun məqsədinə və auditin digər sahələrinə mümkün təsirini qiymətləndirməlidir.

Seçmənin planlaşdırılması

Audit seçməsini planlaşdırarkən auditor aşağıdakı məsələləri nəzərə ala bilər:

- *Testin məqsədini, həmin məqsədə nail olmaq üçün ehtimal olunan ən uyğun audit prosedurlarının birləşməsi, məqsədə nail olmaq üçün hansı elementlərin seçiləcəyi və baxılan təsdiqləmə.*
- *Axtarılan audit sübutunun xüsusiyyəti və mümkün kənarlaşma və ya təhrif şərtləri və ya həmin audit sübutu ilə bağlı digər xüsusiyyətlər auditora nəyin kənarlaşma və ya təhrifi təşkil etdiyini və seçmə üçün hansı əsas məcmudan istifadə ediləcəyini müəyyən*

etməkdə kömək edir.

Əsas məcmunun xüsusiyyətləri ilə bağlı auditorun mülahizələrinə aşağıdakılar daxil ola bilər:

- *Test ediləcək elementlərin əsas məcmusunun testin məqsədlərinə çatmaq üçün uyğun olub-olmaması. Seçmə yalnız əsas məcmuda olan elementləri müəyyən edə və ya test edə bilər. Məsələn, debitor borclarının mövcudluğunu yoxlamaq üçün borc qalıqlarının seçməsi istifadə oluna bilər, lakin belə əsas məcmu debitor borclarının tamlığını test etmək üçün uyğun olmaz.*
- *Əsas məcmunun ölçüsü. Bəzi hallarda, əgər test ediləcək əsas məcmu seçmə üçün çox kiçikdirsə, statistik nəticə çıxarmaq mümkün olmaya bilər.*

Audit seçməsi üçün həm qeyri-statistik, həm də statistik seçmə yanaşmalarından istifadə etməklə aparıla bilər. Statistik seçmələrdən statistik nəticələr çıxarıla bilər. Qeyri-statistik seçmələr isə eyni təsdiqləməni əhatə edən digər audit prosedurları ilə birlikdə istifadə edilə bilər.

Seçmənin həcmi

Auditorun qəbul etməyə hazır olduğu seçmə riskinin səviyyəsi tələb olunan seçmə həcminə təsir göstərir. Auditorun qəbul etməyə hazır olduğu risk nə qədər azdırsa, seçmənin həcmi bir o qədər böyük olmalıdır. Əlavə 6-da nəzarət testləri və təfərrüatlı testlər üçün seçmənin həcminə təsir göstərən amillərin nümunələri təqdim edilir.

Test üçün elementlərin seçilməsi

Statistik seçmədə seçmənin elementləri elə seçilir ki, hər bir seçmə elementinin seçilmə şansı olsun. Qeyri-statistik seçmədə elementlərini seçilməsi üçün mühakimə yürüdülür. Auditorun əsas məcmunun xüsusiyyətlərinə malik olan seçmə elementlərinin seçilməsində qeyri-obyektivlik imkanını aradan qaldırması vacibdir.

Elementləri seçməyin əsas üsulları təsadüfi prinsiplə seçmə, sistemli seçmə və təsadüfi seçmədir.

7.3.18. Çox nadir hallarda, auditor seçmədə aşkar edilmiş təhrifi və ya kənarlaşmanı anomaliya hesab etdikdə, auditor bu cür təhrif və ya kənarlaşmanın əsas məcmunu təmsil etmədiyinə dair yüksək səviyyədə əminlik əldə etməlidir. Auditor təhrif və ya kənarlaşmanın əsas məcmunun qalan hissəsinə təsir etmədiyinə dair yetərli müvafiq audit sübutu əldə etmək üçün əlavə audit prosedurlarını həyata keçirməklə bu əminlik dərəcəsini əldə etməlidir.

7.3.19. Təfərrüatlı testlərdə auditor seçmədə aşkar edilmiş təhrifləri əsas məcmuda nəzərdə tutulmalıdır.

Anomaliya olduğu müəyyən edilmiş təhrifi əsas məcmunun qalan hissəsində nəzərdə tutmağa ehtiyac yoxdur.

7.3.20. Auditor aşağıdakıları qiymətləndirməlidir:

(a) seçmənin nəticələrini; habelə
(b) audit seçməsindən istifadə test edilən əsas məcmu haqqında nəticə çıxarmaq üçün ağlabatan əsası təmin etmişdirmi.

Nəzarət testlərində ilkin qiymətləndirməni əsaslandıran əlavə audit sübutları əldə edilmədiyi təqdirdə, seçmədə olan kənarlaşmanın gözlənilməz yüksək norması qiymətləndirilmiş

əhəmiyyətli təhriflər risklərinin artmasına səbəb ola bilər. Təfərrüatlı testlərdə, əhəmiyyətli təhrifin olmadığına dair əlavə audit sübutu olmadığı təqdirdə, seçmədə olan təhrifin gözlənilməz yüksək məbləği auditorun əməliyyat kateqoriyası və ya hesab qalığının əhəmiyyətli dərəcədə təhrif edildiyinə inanmasına səbəb ola bilər. Həmçinin, təfərrüatlı testlərdə nəzərdə tutulan təhriflər, anomal təhriflərlə (əgər varsa) birlikdə, auditorun əsas məcmuda təhriflərin ən yaxşı uçot qiymətləndirməsidir.

Auditor, audit seçməsinin test edilmiş əsas məcmusunun nəticələrinə dair ağlabatan əsası təmin etməməsi qənaətinə gələrsə, auditor:

- *Rəhbərlikdən tələb edə bilər ki, aşkar edilmiş təhrifləri və əlavə təhriflərin mümkünlüyünü araşdırsın və zəruri düzəlişlər etsin; habelə*
- *Tələb olunan əminliyi ən yaxşı şəkildə əldə etmək üçün həmin əlavə audit prosedurlarının xüsusiyyətini, müddətini və həcmini uyğunlaşdıra bilər. Məsələn, nəzarət testləri keçirilərkən auditor seçmənin həcmini artıra, alternativ nəzarəti test keçirə və ya müvafiq mahiyyəti üzrə prosedurlarına dəyişikliklər edə bilər.*

Kənar mənbələrdən təsdiqləmələr

7.3.21. Auditor kənar mənbələrdən təsdiqləmə prosedurlarının mahiyyəti üzrə prosedurlar kimi həyata keçirilməsinin zəruriliyini nəzərdən keçirməlidir.

Kənar mənbələrdən təsdiqləmə prosedurları, çox vaxt, hesab qalıqları və onların elementləri ilə bağlı təsdiqləmələrə baxılan zaman məqsədəuyğun olur, lakin bu elementlərlə məhdudlaşdırılmamalıdır. Məsələn, auditor müəssisə ilə digər tərəflər arasında bağlanmış sazişlərin, müqavilələrin və ya aparılan əməliyyatların şərtlərinin kənar mənbədən təsdiqlənməsini tələb edə bilər. Müəyyən şərtlərin olmaması ilə bağlı audit sübutlarını əldə etmək üçün də kənar mənbələrdən təsdiqləmə prosedurları həyata keçirilə bilər.

7.3.22. Kənar mənbələrdən təsdiqləmə prosedurlarından istifadə edərkən auditor aşağıdakılara nəzarət etməlidir:

(a) Təsdiq ediləcək və ya sorğulanacaq məlumatların müəyyən edilməsi və müvafiq təsdiq edən tərəfin seçilməsi;
(b) Təsdiqləmə sorğularının tərtib edilməsi, o cümlədən sorğuların lazımi şəxslərə ünvanlanması və cavabların birbaşa auditora göndərilməsi üçün təsdiqedici barədə məlumatı əhatə etməsi; habelə
(c) Təsdiq edən tərəfə, müvafiq olduqda, təkrar sorğular da daxil olmaqla, sorğuların göndərilməsi.

7.3.23. Rəhbərlik auditora təsdiqləmə sorğusunu göndərməsinə icazə verməkdən imtina edərsə, auditor aşağıdakıları etməlidir:

(a) Rəhbərliyin imtinasının səbəblərini öyrənmək və onların düzgünlüyü və əsaslılığı ilə bağlı audit sübutları əldə etməyə çalışmalıdır;

(b) Rəhbərliyin imtinasının dələduzluq riski də daxil olmaqla, auditorun müvafiq əhəmiyyətli təhrif risklərinin qiymətləndirməsinə və digər audit prosedurlarının xüsusiyyəti, müddəti və həcminə təsirini qiymətləndirməlidir; habelə

(c) Müvafiq və etibarlı audit sübutları əldə etmək üçün nəzərdə tutulmuş alternativ audit prosedurlarını həyata keçirməlidir.

7.3.24. Əgər auditor rəhbərliyin auditorun təsdiqləmə sorğusu göndərməsinə icazə verməkdən imtina etməsinin əsassız olduğu qənaətinə gələrsə və ya auditor alternativ audit prosedurlarının köməyi ilə müvafiq və etibarlı audit sübutları əldə edə bilmirsə, auditor bu barədə idarəetməyə məsul şəxslərə

məlumat verməlidir. Auditor, həmçinin, bunu auditin nəticələrinə və auditor rəyinə təsirini müəyyən etməlidir.[14]

7.3.25. Əgər auditor təsdiqləmə sorğusuna verilən cavabın etibarlılığına dair şübhə yaradan amillər müəyyən edərsə, auditor bu şübhələri aradan qaldırmaq üçün əlavə audit sübutları əldə etməlidir. Əgər auditor təsdiqləmə sorğusuna verilən cavabın etibarlı olmadığını müəyyən edərsə, auditor dələduzluq riski də daxil olmaqla, müvafiq əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsinə və digər audit prosedurlarının müvafiq xüsusiyyəti, müddəti və həcminə təsiri qiymətləndirməlidir.

7.3.26. Hər bir cavabsız tələb üçün auditor müvafiq və etibarlı audit sübutlarını əldə etmək məqsədilə alternativ audit prosedurlarını həyata keçirməlidir.

7.3.27. Auditor istisnaların təhriflərə işarə olub-olmadığını müəyyən etmək üçün onları araşdırmalıdır.

7.3.28. Auditor kənar mənbələrdən təsdiqləmə prosedurlarının nəticələrinin, əgər varsa, müvafiq və etibarlı audit sübutunu təmin edib-etmədiyini və ya əlavə audit sübutunun zəruri olub-olmadığını müəyyən etməlidir.

7.4. Xüsusi diqqət tələb edən sahələr

Fəaliyyətin fasiləsizliyi

Auditorun məsuliyyətləri aşağıdakılarla bağlı yetərli müvafiq audit sübutları əldə etmək və nəticə çıxarmaqdan ibarətdir:

- *Rəhbərliyin maliyyə hesabatlarının hazırlanması zamanı mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadəsinin məqsədəuyğunluğu; habelə*
- *Əldə edilmiş audit sübutlarına əsasən, müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə dair əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması.*

Bu məsuliyyətlər, hətta maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən maliyyə hesabatları çərçivələrində rəhbərliyin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini qiymətləndirməsi ilə bağlı xüsusi tələb olmasa belə mövcuddur.

7.4.1. Auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə bağlı rəhbərliyin qiymətləndirməsini müəyyən etməlidir.[15]

Bu hissənin tələblərinə uyğun olaraq, auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinə dair rəhbərliyin qiymətləndirməsini dəyərləndirməlidir. Bir çox hallarda az mürəkkəb müəssisələrin rəhbərliyi müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin təfərrüatlı qiymətləndirməsini hazırlamaya bilər, bunun əvəzinə, biznes haqqında dərin biliklərə və gözlənilən gələcək perspektivlərə etibar edə bilər. Belə hallarda, rəhbərliyin planları yetərli sənədli sübutlarla əsaslandırıldığı və auditorun müəssisə barədə təsəvvürünə uyğun gəldiyi halda, müəssisənin orta və uzunmüddətli maliyyələşdirilməsini rəhbərliklə müzakirə etmək məqsədəuyğun ola bilər. Buna görə də, auditorun fəaliyyətinin fasiləsizliyini qiymətləndirməsi, məsələn, təsdiqedici sənədlərin müzakirəsi, sorğusu və yoxlaması ilə təmin edilə bilər.

[14] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9, 9.5.14-cü paraqraf

[15] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.17-ci paraqraf.

Sahibkar-rəhbərlər tərəfindən davamlı dəstək çox vaxt az mürəkkəb müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti üçün vacibdir. AMM əsasən sahibkar-rəhbərdən alınan kredit hesabına maliyyələşdirildikdə, bu vəsaitlərin geri götürülməməsi vacib ola bilər. Müəssisə sahibkar-rəhbərin əlavə dəstəyindən asılı olduqda, auditor sahibkar-rəhbərin dəstək haqqında razılaşma üzrə öhdəliyi yerinə yetirmək imkanını qiymətləndirə bilər. Bundan əlavə, auditor bu cür dəstəyə əlavə olunan şərtlərin və sahibkar-rəhbərin niyyətinin və ya təsəvvürünün yazılı təsdiqini tələb edə bilər.

7.4.2. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə bağlı rəhbərliyin qiymətləndirməsini müəyyən edərkən auditor aşağıdakıları etməlidir:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbinə uyğun olaraq, rəhbərliyin istifadə etdiyi dövrü əhatə etmək. Əgər həmin müddət maliyyə hesabatlarının təqdim edildiyi tarixdən sonra on iki aydan azdırsa, auditor rəhbərlikdən müddəti uzatmağı tələb etməlidir. Rəhbərlik qiymətləndirməni həyata keçirmədiyi və ya müddətini uzatmadığı halda, auditor bunun auditorun hesabatına təsirini nəzərdən keçirməlidir.[16]

(b) Rəhbərliyin qiymətləndirməsinin audit nəticəsində auditora məlum olan bütün müvafiq məlumatları əhatə edib-etmədiyini nəzərə almaq.

Auditor həmçinin rəhbərliyin istifadə etdiyi qiymətləndirmə dövründən sonra baş verəcək və maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadəsini şübhə altına ala bilən planlaşdırılmış və ya digər məlum hadisələrin və ya şərtlərin mövcud ola bilməsini daim xatırlamalıdır. Hadisələr və ya şərtlər nə qədər uzaq gələcəkdə baş verərsə, auditorun əlavə tədbir görməsi üçün fəaliyyətin fasiləsizliyi məsələsi bir o qədər əhəmiyyətli olmalıdır.

7.4.3. Auditor rəhbərliyin qiymətləndirmə dövründən sonra müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələr və ya şəraitlər barədə məlumatlı olub-olmamasını rəhbərlikdən soruşmalıdır.

7.4.4. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələr və ya şəraitlər müəyyən edilərsə, auditor əlavə prosedurlar həyata keçirməklə, o cümlədən yumşaldıcı amilləri nəzərə almaqla əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığını müəyyən etmək üçün yetərli müvafiq audit sübutu əldə etməlidir. Bu prosedurlara aşağıdakıları əhatə etməlidir:

(a) Rəhbərlik tərəfindən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsinin həyata keçirmədiyi hallarda, rəhbərlikdən bu qiymətləndirməni tələb etmək.

(b) Rəhbərlik tərəfindən müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi üzrə tədbirlər ilə bağlı gələcək planlarını qiymətləndirmək - bu planların vəziyyəti yaxşılaşdırma ehtimalını və mövcud şəraitdə həyata keçirilməsinin mümkün olub-olmamasını müəyyən etmək.

(c) Müəssisə pul vəsaitlərinin hərəkəti proqnozunu hazırladıqda və bu proqnozun təhlili rəhbərliyin gələcək tədbirlər planlarının qiymətləndirilməsində hadisələrin və ya şərtlərin gələcək nəticələrinin nəzərə alınmasında mühüm amildirsə:

(i) Proqnozu hazırlamaq üçün toplanan əsas verilənlərin etibarlılığının qiymətləndirilməsi; habelə

[16] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.20-ci paraqraf

(ii) Proqnozun əsaslandığı ehtimalların yetərli əsaslandırılıb-əsaslandırılmadığının müəyyən edilməsi.

(d) Rəhbərliyin qiymətləndirməsinin tarixindən sonra hər hansı əlavə fakt və ya məlumatların əldə edilib-edilmədiyini nəzərdən keçirmək.

Əhəmiyyətli qeyri-müəyyənlik o zaman mövcud hesab edilir ki, onun mümkün nəticəsinin miqyası və baş vermə ehtimalı auditorun peşəkar mühakiməsinə görə, ya ədalətli təqdimat çərçivəsi üçün maliyyə hesabatlarının ədalətli təqdim edilməsi üçün, ya da uyğunluq çərçivəsi üçün maliyyə hesabatlarının yanlış təqdim edilməməsi üçün bu qeyri-müəyyənliyin xüsusiyyəti və nəticələrinin müvafiq qaydada açıqlanması zəruri olsun.

7.4.5. Maliyyə hesabatlarının tarixindən sonra rəhbərlik və ya idarəetməyə məsul şəxslər tərəfindən maliyyə hesabatlarının təsdiq edilməsində əhəmiyyətli gecikmə olarsa, auditor gecikmənin səbəbini soruşmalıdır. Əgər auditor bu gecikmənin fəaliyyətin fasiləsizliyinin qiymətləndirilməsi ilə bağlı hadisələr və ya şərtlərlə əlaqəli ola biləcəyin düşünürsə, o, zəruri hallarda əlavə audit prosedurlarını həyata keçirməli və əhəmiyyətli qeyri-müəyyənliyin mövcudluğu ilə bağlı auditorun əldə etdiyi nəticəyə təsirini nəzərdən keçirməlidir.

Rəhbərlik tərəfindən nəzarət vasitələrinə əhəmiyyət verməmə

7.4.6. Auditor aşağıdakı məqsədlər üçün audit prosedurlarını hazırlamalı və həyata keçirməlidir:

(a) Baş kitabda uçota alınan əl ilə daxil edilən və avtomatlaşdırılmış jurnal yazılışlarının və maliyyə hesabatlarının hazırlanması zamanı edilən digər düzəlişlərin uyğunluğunu yoxlamaq, o cümlədən:

(i) Maliyyə hesabatlarının hazırlanmasında iştirak edən şəxslərə jurnal qeydləri və digər düzəlişlərin qeyri-qanuni və ya qeyri-adi işlənməsi ilə bağlı suallar vermək;
(ii) Hesabat dövrünün sonunda edilmiş jurnal yazılışları və digər düzəlişləri seçmək; və
(iii) Bütün dövr ərzində jurnal yazılışlarını və digər düzəlişləri yoxlamağın zəruriliyini nəzərdən keçirmək.

(b) Uçot qiymətləndirmələrinin qərəzli olub-olmamasını təhlil etmək və qərəzliliyə səbəb olan halların, əgər varsa, dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riskini təşkil edib-etmədiyini müəyyən etmək. Bunu müəyyən edərkən, auditor:

(i) Rəhbərliyin yürütdüyü mühakimələr və verdiyi qərarlar, hətta ayrı-ayrılıqda əsaslandırılmış olsa da, müəssisə rəhbərliyinin mümkün qərəzliliyinə və dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riskini təşkil edə biləcəyinə dəlalət etməsini dəyərləndirməlidir. Belə olarsa, auditor bütövlükdə götürülmüş uçot qiymətləndirmələrini təkrar dəyərləndirməlidir; habelə
(ii) Rəhbərliyin, əvvəlki ilin maliyyə hesabatlarında əks olunmuş əhəmiyyətli uçot qiymətləndirmələri ilə bağlı mühakimə və ehtimallarına retrospektiv baxış keçirməlidir.

(c) Müəssisənin işin normal gedişatından kənara çıxan və ya başqa səbəbdən qeyri-adi görünən əhəmiyyətli qeyri-adi əməliyyatlara gəlincə, bu əməliyyatların kommersiya baxımından əsaslandırılmasına (və ya belə əsaslandırmanın olmamasına) görə, bu əməliyyatlarda maliyyə hesabatlarının saxtalaşdırılması və ya aktivlərin qeyri-qanuni mənimsənilməsini gizlətmək üçün iştirak edə biləcəyini müəyyən etmək.

(d) Rəhbərliyin nəzarət vasitələrinə əhəmiyyət verməməsi ilə bağlı müəyyən edilmiş risklərə (a)-(c) paraqraflarında əhatə olunmayan hallarda cavab tədbirləri görmək.

Rəhbərliyin nəzarət vasitələrinə əhəmiyyət verməmə riskinin səviyyəsi hər müəssisə üçün fərqli olsa da, bu risk bütün müəssisələrdə mövcuddur. Bu cür əhəmiyyət verməmənin necə baş verə biləcəyinin proqnozlaşdırılan bilməməsinə görə, bu, dələduzluq nəticəsində baş verən əhəmiyyətli təhriflər riskidir və buna görə də əhəmiyyətli risk sayılır.

Dələduzluq nəticəsində baş vermiş maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri çox vaxt uyğunsuz və ya icazəsiz jurnal yazılışlarını uçota almaqla maliyyə hesabatlarının hazırlanması prosesinin təhrif edilməsini nəzərdə tutur. Bu, il ərzində və ya dövrün sonunda, yaxud hər iki halda baş verə bilər və ya rəhbərlik tərəfindən maliyyə hesabatlarında təqdim edilən, lakin jurnal yazılışlarında əks olunmayan məbləğlərə düzəlişlər etməklə, məsələn, yenidən təsnifləşdirmələr yolu ilə baş verə bilər.

Avtomatlaşdırılmış alətlər və üsullar

Baş kitab əl ilə işlənən sistemlərdə qeyri-adi jurnal yazılışlarını aşkar etmək üçün kitablar, jurnallar və əlavə sənədlər yoxlanılır. Baş kitabın aparılması və maliyyə hesabatlarının hazırlanması üçün avtomatlaşdırılmış prosedurlardan istifadə edildikdə, bu cür yazılışlar yalnız elektron formada mövcud ola bilər və buna görə də AAÜ-dən istifadə etməklə daha asan müəyyən edilə bilər.

Əlaqəli tərəflər

7.4.7. Auditor əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlarla bağlı qiymətləndirilmiş əhəmiyyətli təhriflər risklərinə dair yetərli müvafiq audit sübutları əldə etmək üçün əlavə audit prosedurları hazırlamalı və həyata keçirməlidir, o cümlədən:

(a) Auditor prosedurlarının həyata keçirilməsi zamanı əldə edilmiş bank və hüquqi təsdiqləmələr;
(b) Səhmdarların və idarəetməyə məsul şəxslərin iclas protokolları; habelə
(c) Müəssisənin şəraiti nəzərə alınmaqla auditorun zəruri hesab etdiyi digər materiallar və ya sənədlər.

7.4.8. Əgər auditor rəhbərliyin əvvəllər müəyyən etmədiyi və ya auditora açıqlamadığı əlaqəli tərəflərlə münasibətlərin mövcudluğunu və ya əməliyyatların aparıldığını sübut edən razılaşmalar və ya məlumatları aşkar edərsə, auditor əsas şəraitlərin həmin münasibətlərin və ya əməliyyatların mövcudluğunu təsdiq edib-etmədiyini müəyyən etməlidir.

7.4.9. Əgər auditor rəhbərliyin keçmişdə aşkar etmədiyi və ya auditora açıqlamadığı əlaqəli tərəflərlə və ya əhəmiyyətli əlaqəli tərəflə aparılan əməliyyatlar aşkar edərsə, auditor:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində əlaqəli tərəflərlə bağlı tələblər müəyyən edildikdə:

(i) Rəhbərlikdən yeni aşkar edilmiş əlaqəli tərəflərlə aparılan bütün əməliyyatları müəyyən etməsini və auditorun əlavə qiymətləndirməsi üçün təqdim etməsini tələb etməlidir;
(ii) Müəssisənin əlaqəli tərəflərlə münasibətlərə və aparılan əməliyyatlara nəzarət vasitələrinin bu əlaqəli tərəflərlə münasibətlərin və ya aparılan əməliyyatların müəyyən edilməsini və ya açıqlanmasını təmin etməməsinin səbəblərini soruşmalıdır;

(b) Bu cür yeni aşkar edilmiş əlaqəli tərəflərlə və ya əhəmiyyətli əlaqəli tərəflərlə aparılan əməliyyatlar üçün müvafiq mahiyyəti üzrə audit prosedurlarını həyata keçirməlidir;

(c) Rəhbərliyin keçmişdə aşkar etmədiyi və ya auditora açıqlamadığı digər əlaqəli tərəflərlə və ya əhəmiyyətli əlaqəli tərəflərlə aparılan əməliyyatların mövcud olma riskini yenidən nəzərdən keçirməli və zəruri hallarda əlavə audit prosedurlarını həyata keçirməlidir; habelə

(d) Rəhbərlik tərəfindən məlumatların qəsdən açıqlanmaması ehtimal edildikdə (və buna görə də dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riskini bildirir), bunun auditə təsirini qiymətləndirməlidir.

Tapşırıq qrupunda tapşırıq üzrə tərəfdaşdan başqa üzvlər olduğu hallar üçün mülahizələr

7.4.10. Auditor rəhbərliyin keçmişdə aşkar etmədiyi və ya auditora açıqlamadığı əlaqəli tərəflərlə və ya əhəmiyyətli əlaqəli tərəflə aparılan əməliyyatlar aşkar edərsə, auditor müvafiq məlumatları tapşırıq qrupunun digər üzvlərinə dərhal çatdırmalıdır.

7.4.11. Müəssisənin fəaliyyətinin normal gedişatından kənara çıxan əhəmiyyətli əlaqəli tərəflə aparılan əməliyyatlar aşkar etdiyi halda auditor:

(a) Əgər varsa, ilkin müqavilələri və ya razılaşmaları yoxlamalı və aşağıdakıları qiymətləndirməlidir:

(i) Əməliyyatların kommersiya baxımından əsaslandırılmasının (və ya belə əsaslandırmanın olmaması) bu müqavilə və razılaşmaların maliyyə hesabatlarını saxtalaşdırmaq və ya aktivlərin qeyri-qanuni mənimsənilməsini gizlətmək məqsədilə bağlana biləcəyini göstərib-göstərməməsi;

(ii) Əməliyyatların şərtlərinin rəhbərliyin izahatları ilə uyğunluğunu; habelə

(iii) Əməliyyatların tətbiq olunan maliyyə hesabatları çərçivələrinə uyğun olaraq nəzərə alınması, təqdim edilməsi və açıqlanmasının lazımi qaydada yerinə yetirilməsini.

(b) Əməliyyatlara müvafiq qaydada icazə verilməsinə və əməliyyatların təsdiqlənməsinə dair audit sübutlarını əldə etməlidir.

7.4.12. Əgər auditor müəssisənin fəaliyyətinin normal gedişatından kənara çıxan əhəmiyyətli əməliyyatlar aşkar edərsə, auditor rəhbərlidən bu əməliyyatların xüsusiyyəti və əlaqəli tərəflərin cəlb edilib-edilməməsi barədə soruşmalıdır.

7.4.13. Əgər rəhbərlik maliyyə hesabatlarında əlaqəli tərəflərlə aparılan əməliyyatların kommersiya baxımından müstəqil tərəflər arasında aparılan əməliyyatlara ekvivalent olan şərtlərə aparıldığına dair təsdiqləmə daxil edərsə, auditor bu təsdiqləməyə dair yetərli müvafiq audit sübutları əldə etməlidir.

Uçot qiymətləndirmələri

7.4.14. Auditor təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhriflər risklərinə, o cümlədən müvafiq açıqlamalara dair yetərli müvafiq audit sübutlarını əldə etmək üçün uçot qiymətləndirmələri ilə bağlı əlavə audit prosedurlarını hazırlamalı və həyata keçirməlidir.

7.4.15. Uçot qiymətləndirməsi ilə bağlı təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhriflər riskləri ilə bağlı cavab tədbiri görmək üçün auditorun əlavə audit prosedurları aşağıdakı yanaşmalardan birini və ya bir neçəsini əhatə etməlidir:

(a) Audit sübutlarının auditor hesabatının tarixinə qədər baş vermiş hadisələrdən əldə edilməsi (bax: 7.4.16-cı paraqraf).
(b) Rəhbərlik tərəfindən mühasibat uçotunun necə hazırlandığının yoxlanılması (bax: 7.4.17-7.4.18-ci paraqraflar).
(c) Auditorun müşahidə əsaslı qiymətləndirməsinin və ya diapazonunun hazırlanması (bax: 7.4.19-cu paraqraf).

AMM üçün bir çox uçot qiymətləndirmələrinin xüsusiyyətini nəzərə alaraq, uçot qiymətləndirməsinin yekun nəticəsi auditor hesabatının tarixindən əvvəl məlum ola bilər. Bu şəraitdə, auditor hesabatının tarixinə qədər baş vermiş hadisələrdən əldə edilmiş audit sübutları qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərini ilə bağlı tədbir görmək üçün yetərli müvafiq audit sübutu təqdim edə bilər. Bununla belə, bəzi uçot qiymətləndirmələri üçün, auditor hesabatının tarixinə qədər baş vermiş hadisələr uçot qiymətləndirmələrinin ağlabatan olub-olmamasına və ya təhrif edilib-edilməməsinə dair yetərli müvafiq audit sübutu təmin etməyə bilər (məs., hadisələr və ya şərtlər yalnız uzun müddət ərzində baş verdikdə). Bu şəraitdə auditorun əlavə audit prosedurları (b) və ya (c) bəndlərində qeyd olunan yanaşmaları əhatə edir.

Audit sübutlarının auditor hesabatının tarixinə qədər baş vermiş hadisələrdən əldə edilməsi.

7.4.16. Auditorun əlavə audit prosedurları audit sübutlarının auditor hesabatının tarixinə qədər baş vermiş hadisələrdən əldə edilməsini əhatə etdikdə, auditor aşağıdakıları nəzərə alaraq belə sübutların yetərli və müvafiq olub-olmadığını qiymətləndirməlidir: hadisə ilə ölçmə tarixi arasında baş verilmiş şərait dəyişikliyi, digər müvafiq şərtlərdə baş vermiş dəyişiklik, bu amillərin sübutların uyğunluğuna mümkün təsiri.

Uçot qiymətləndirməsinin rəhbərlik tərəfindən necə hazırlandığının yoxlanılması

7.4.17. Rəhbərliyin uçotu qiymətləndirməsini necə hazırladığını yoxlayarkən, auditorun əlavə audit prosedurları aşağıdakıları nəzərdən keçirməlidir:

(a) Seçilmiş metodun uyğunluğu;
(b) Əhəmiyyətli ehtimalların və məlumatların ardıcıl olub-olmaması və uyğunluğu, habelə metod tətbiq edilərkən onların bütövlüyünün qorunub-qorunmaması;
(c) Metodda əvvəlki dövrlərdən sonra edilmiş dəyişikliklər, əhəmiyyətli ehtimallar və məlumatların uyğunluğu;
(d) Rəhbərliyin konkret fəaliyyət planlarını həyata keçirmək niyyətinin olub-olmaması;
(e) Metod seçilərkən yürüdülmüş mühakimələr, əhəmiyyətli ehtimallar və verilənlər rəhbərliyin mümkün qərəzliliyinə dəlalət edir. Rəhbərliyin mümkün qərəzliliyinin əlamətləri müəyyən edildikdə, auditor bunun auditə təsirin qiymətləndirməlidir. Aldatmaq niyyəti olduqda, rəhbərliyin qərəzliliyi dələduzluq xarakteri daşıyır;
(f) Verilənlərin şəraitə uyğun və etibarlı olub-olmaması; habelə
(g) Hesablamaların riyazi cəhətdən dəqiq olub-olmaması və mühakimələrin ardıcıl şəkildə yürüdülüb-yürüdlməməsi.

Metod, əhəmiyyətli ehtimallar və verilənlər

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində metodun məqsədəuyğunluğu, əhəmiyyətli ehtimallar və verilənlərə, habelə, əgər varsa, əvvəlki dövrdən sonra edilən dəyişikliklərin məqsədəuyğunluğuna aid olan müvafiq mülahizələrə aşağıdakı daxil ola bilər:

- *Rəhbərlik tərəfindən metod, ehtimallar və verilənlər ilə bağlı seçimin əsaslandırılması;*
- *Uçot qiymətləndirmələrinin xüsusiyyəti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri və müəssisənin fəaliyyəti, fəaliyyət göstərdiyi sahə və mühit nəzərə alınmaqla, metod, ehtimal və verilənlər şəraitə uyğundurmu;*
- *Metodun, ehtimalların və ya verilənlərin seçimində əvvəlki dövrlərdən sonra edilən dəyişiklik yeni şəraitlərə və ya yeni məlumatlara əsaslanırmı. Əks halda, dəyişiklik nə ağlabatan, nə də maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun ola bilər. Uçot qiymətləndirmələrində ixtiyari dəyişikliklər maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola bilər və ya rəhbərliyin mümkün qərəzliliyinə dəlalət edə bilər.*
- *Rəhbərlik müxtəlif metodların nəticəsində bir sıra əhəmiyyətli dərəcədə fərqlənən uçot qiymətləndirmələrin əldə olunduğunu müəyyən etdikdə, rəhbərlik bu fərqlərin səbəblərini necə araşdırıb.*
- *Əhəmiyyətli ehtimallar bir-birinə ilə və digər uçot qiymətləndirmələrində istifadə olunanlara ziddirmi.*

7.4.18. Auditorun əlavə audit prosedurları, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində, rəhbərliyin uçot qiymətləndirməsində qeyri-müəyyənlik barədə təsəvvür əldə etmək və müvafiq müşahidə əsaslı qiymətləndirmələr seçməklə və müvafiq açıqlamalar hazırlamaqla bu qeyri-müəyyənliyi aradan qaldırmaq üçün müvafiq tədbirlər görüb-görmədiyini əhatə etməlidir. Rəhbərlik müvafiq tədbirlər görmədikdə, auditor:

(a) Rəhbərlikdən qiymətləndirmədə qeyri-müəyyənlik barədə təsəvvür əldə etmək və ya rəhbərliyin seçdiyi müşahidə əsaslı qiymətləndirməyə yenidən baxaraq və ya qiymətləndirmədə qeyri-müəyyənlik ilə bağlı əlavə açıqlamaların təqdim edilməsini nəzərdən keçirməklə onu aradan qaldırmaq üçün əlavə prosedurların həyata keçirilməsini tələb etməlidir; habelə

(b) Auditor müəyyən edərsə ki, auditorun tələbinə uyğun olaraq rəhbərliyin hazırladığı cavab tədbirləri qiymətləndirmədə qeyri-müəyyənliyin aradan qaldırılması üçün yetərli deyil, o zaman, mümkün olduğu dərəcədə, auditorun müşahidə əsaslı qiymətləndirməsini və ya diapazonunu hazırlamalıdır.

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri mümkün nəticələr arasından müşahidə əsaslı qiymətləndirmənin necə seçiləcəyini müəyyən etmədikdə və ya xüsusi açıqlamalar tələb etmədikdə, rəhbərlik tərəfindən yürüdülən mühakimə seçilmiş müşahidə əsaslı qiymətləndirmənin və əlaqəli açıqlamaların məqsədəuyğunluğu ilə bağlı auditor üçün mühüm mülahizədir.

Qiymətləndirmədə qeyri-müəyyənliyi ilə bağlı rəhbərliyin verdiyi açıqlamalar baxımından auditor üçün vacib ola biləcək məsələlərə maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri daxildir ki, bu da aşağıdakı məlumatların açıqlanmasını tələb edə bilər:

- *Məbləği uçot qiymətləndirməsi kimi təsvir edən və onun hazırlanması prosesinin xüsusiyyətini və məhdudiyyətlərini izah edən; habelə*
- *Uçot qiymətləndirmələri ilə bağlı əhəmiyyətli uçot siyasəti haqqında məlumatların açıqlanması, bu da rəhbərliyin əhəmiyyətli və ya çox vacib mühakimələrini, habelə əhəmiyyətli perspektivli ehtimalları və ya uçot qiymətləndirməsində başqa qeyri-müəyyənlik mənbələri ehtiva edə bilər.*

Auditorun müşahidə əsaslı qiymətləndirməsininin və ya diapazonun hazırlanması

7.4.19. Auditor, müşahidə əsaslı qiymətləndirmə və ya rəhbərliyin müşahidə əsaslı qiymətləndirməsini dəyərləndirmək üçün diapazon hazırladıqda, auditor əlavə audit prosedurları çərçivəsində aşağıdakıları yerinə yetirməlidir:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində istifadə edilən metodların, ehtimalların və ya verilənlərin uyğunluğunu qiymətləndirmək; habelə
(b) Diapazona yalnız yetərli müvafiq audit sübutları ilə əsaslandırılan məbləğlərin daxil olmasını müəyyən etmək.

Auditorun diapazon əvəzinə müşahidə əsaslı qiymətləndirmə hazırlamaq qərarı uçot qiymətləndirməsinin xüsusiyyətindən və mövcud şəraitdə auditorun peşəkar mühakiməsindən asılı ola bilər. Məsələn, uçot qiymətləndirmələrinin xüsusiyyəti elə ola bilər ki, mümkün nəticələrdə gözlənilən dəyişkənlik az olsun. Bu şəraitdə müşahidə əsaslı qiymətləndirmənin işlənib hazırlanması, xüsusən də daha yüksək dəqiqliklə hazırlana bildiyi halda, effektiv yanaşma ola bilər.

Auditordan, diapazona yalnız yetərli və müvafiq audit sübutları ilə əsaslandırılan məbləğlərin daxil edildiyini müəyyən etmək tələb olunursa, bu o demək deyil ki, auditorun diapazondakı hər bir mümkün nəticə üçün ayrıca audit sübutu əldə etməsi gözlənilir. Əksinə, auditor çox güman ki, diapazonun hər iki ucunda yerləşən nöqtələrin mövcud şəraitdə ağlabatan olduğunu müəyyən etmək üçün sübut əldə edəcək və bununla da bu iki nöqtə arasında yerləşən məbləğlərin də ağlabatan olduğunu təsdiq edəcək.

İnventarizasiya

7.4.20. Əgər mal-material ehtiyatları maliyyə hesabatları üçün əhəmiyyətli maddələrdisə, auditor aşağıdakıları etməklə, belə mal-material ehtiyatlarının mövcudluğuna və vəziyyətinə dair yetərli müvafiq audit sübutu əldə etməlidir:

(a) Aşağıda göstərilən hallar mümkün olarsa, mal-material ehtiyatlarının inventarizasiyasında iştirak etmək:

(i) Müəssisənin mal-material ehtiyatlarının inventarizasiyasının nəticələrini uçota almaq və onlara nəzarət etmək üçün rəhbərliyin göstərişlərinin və prosedurlarının qiymətləndirilməsi;
(ii) Rəhbərliyin sayım prosedurlarının yerinə yetirilməsininin müşahidə edilməsi;
(iii) Mal-material ehtiyatlarının yoxlanılması; habelə
(iv) Test hesablamalarının aparılması;

(b) Müəssisənin mal-material ehtiyatları üzrə yekun inventarizasiya sənədlərində faktiki sayım nəticələrinin düzgün əks etdirib-etdirmədiyini müəyyən etmək üçün həmin sənədlər üzrə audit prosedurlarını həyata keçirmək; habelə
(c) Mal-material ehtiyatlarının inventarizasiyası maliyyə hesabatlarının tarixindən başqa bir tarixə təsadüf edirsə, inventarizasiya tarixi ilə maliyyə hesabatlarının tarixi arasındakı müddətdə mal-material ehtiyatlarında baş verən dəyişikliklərin düzgün qeydə alınıb-alınmadığına dair audit sübutlarını əldə etmək üçün audit prosedurları həyata keçirilməlidir.

7.4.21. Əgər auditor gözlənilməz hallarla əlaqədar mal-material ehtiyatlarının inventarizasiyasında iştirak edə bilməmişdirsə, auditor başqa bir tarixdə qalıqları sayım etməli və ya sayıma müşahidə etməli, habelə aralıq əməliyyatları üzrə audit prosedurlarını həyata keçirməlidir. Mal-material ehtiyatlarının

inventarizasiyasında iştirak etmək mümkün olmadıqda, auditor belə mal-material ehtiyatlarının mövcudluğu və vəziyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə etmək üçün alternativ audit prosedurları həyata keçirməli və ya mümkün olmadıqda auditor hesabatına təsirini müəyyən etməlidir.[17]

Bəzi hallarda mal-material ehtiyatlarının inventarizasiyasında iştirak etmək mümkün olmaya bilər. Bu, inventarizasiyanın xüsusiyyəti və yeri kimi amillər (məsələn, inventarizasiyanın auditor üçün təhlükəli olan yerdə aparılması) ilə bağlı ola bilər. Ümumi narahatlıq, çətinlik, vaxt və ya xərc kimi məsələlər auditorun inventarizasiyada iştirak etməsinin mümkün olmaması barədə qərarını əsaslandırmaq üçün yetərli deyil. İştirak etmək mümkün olmadığı bəzi hallarda, alternativ audit prosedurları (məsələn, inventarizasiyadan əvvəl əldə edilmiş və ya satın alınmış xüsusi inventar vahidlərinin sonrakı satışına dair sənədlərin yoxlanılması) mal-material ehtiyatlarının mövcudluğu və vəziyyəti haqqında yetərli müvafiq audit sübutu təmin edə bilər. Digər hallarda isə, alternativ audit prosedurlarını həyata keçirməklə mal-material ehtiyatlarının mövcudluğu və vəziyyəti ilə bağlı yetərli müvafiq audit sübutları əldə etmək mümkün olmaya bilər. Belə hallarda auditordan auditor hesabatında fərqli rəy vermək tələb olunur (audit həcminin məhdudlaşdırılması nəticəsində).

7.4.22. Hər hansı üçüncü tərəfin məsul mühafizəsində və nəzarətində olan mal-material ehtiyatları maliyyə hesabatları üçün əhəmiyyətlidirsə, auditor kəmiyyətləri və vəziyyətini təsdiqlətməklə, yaxud şəraitə uyğun olaraq yoxlama və ya digər audit prosedurlarını həyata keçirməklə həmin mal-material ehtiyatlarının mövcudluğu və vəziyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə etməlidir.

Məhkəmə prosesləri və iddialar

7.4.23. Auditor müəssisənin iştirak etdiyi və əhəmiyyətli təhriflər riski yarada biləcək məhkəmə proseslərini və iddiaları müəyyən etmək məqsədilə əlavə audit prosedurlarını tərtib etməli və həyata keçirməlidir, o cümlədən:

(a) Rəhbərliyə və müvafiq olduqda müəssisənin digər əməkdaşlarına, o cümlədən onun ştatlı hüquq məsləhətçisinə sorğu göndərilməsi;
(b) İdarəetməyə məsul şəxslərin iclas protokollarını və müəssisə ilə kənar hüquq məsləhətçisi arasında yazışmaların nəzərdən keçirilməsi; habelə
(c) Hüquqi xərclərə dair hesabların təhlil edilməsi.

7.4.24. Əgər auditor müəyyən edilmiş məhkəmə prosesləri və ya iddialarla bağlı əhəmiyyətli təhriflər riskini qiymətləndirirsə, yaxud həyata keçirilmiş audit prosedurları digər əhəmiyyətli məhkəmə proseslərinin və ya iddiaların mövcud ola biləcəyini bildirərsə, auditor bu standartda tələb olunan prosedurlardan əlavə, müəssisənin kənar hüquq məsləhətçisi ilə birbaşa əlaqə saxlamağa çalışmalıdır. Auditor bunu rəhbərlik tərəfindən hazırlanmış və auditor tərəfindən göndərilmiş, belə məsləhətçidən birbaşa auditorla əlaqə saxlamağı tələb edən sorğu məktubu vasitəsilə etməlidir.[18]

7.4.25. Aşağıdakı hallar mövcud olduqda auditor fərqli auditor rəyi verməlidir:[19]

[17] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.15-ci paraqraf.

[18] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.14-cü paraqraf

[19] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.16-cı paraqraf

(a) Rəhbərlik müəssisənin kənar hüquq məsləhətçisi ilə əlaqə saxlamaq və ya görüşmək üçün auditora icazə verməkdən imtina edir, yaxud müəssisənin kənar hüquq məsləhətçisi sorğu məktubuna müvafiq qaydada cavab verməkdən imtina edir və ya cavab vermək belə şəxs üçün qadağandır; habelə

(b) Auditor alternativ audit prosedurlarını həyata keçirməklə yetərli müvafiq audit sübutu əldə edə bilmir.

Qanun və ya qaydaların tələblərinə aşkar edilmiş və ya ehtimal edilən riayət etməmə halları üçün audit prosedurları

7.4.26. Auditor maliyyə hesabatlarında əhəmiyyətli məbləğlərin və açıqlamaların müəyyən edilməsinə bilavasitə təsir göstərməsi hamılıqla qəbul edilən qanun və qaydaların müddəalarının yerinə yetirilməsi ilə bağlı yetərli müvafiq audit sübutları əldə etməlidir.[20]

7.4.27. Qanun və ya qaydaların tələblərinə faktiki və ya ehtimal edilən riayət etməmə halları auditora məlum olduqda, auditor:

(a) Riayət etməmənin xüsusiyyəti və şəraiti barədə təsəvvür əldə etmək, habelə maliyyə hesabatları üçün mümkün nəticəsini qiymətləndirmək üçün lazım olan əlavə məlumatları əldə etmək;

(b) Qanun və ya qaydalarla qadağan olunmadığı təqdirdə rəhbərlik və lazımi hallarda, idarəetməyə məsul şəxslərlə bu cür uyğunsuluğu müzakirə etmək;

(a) Ehtimal edilən riayət etməmə barədə yetərli məlumat əldə etmək mümkün olmadıqda, yetərli müvafiq audit sübutlarının mövcud olmamasının auditor rəyinə təsirini qiymətləndirməlidir; habelə

(b) Auditorun risk qiymətləndirməsi və yazılı təqdimatların etibarlılığı da daxil olmaqla, auditin digər aspektlərinə təsirləri qiymətləndirməli və müvafiq tədbir görməlidir.[21]

Xidmət göstərən təşkilatın xidmətindən istifadə

7.4.28. Əgər müəssisə xidmət təşkilatının xidmətlərindən istifadə edirsə, auditor:

(a) Müəssisədə maliyyə hesabatlarındakı müvafiq təsdiqləmələr ilə bağlı yetərli müvafiq audit sübutlarının olub-olmadığını müəyyən etməlidir; və belə təsdiqləmələr olmadığı halda,

(b) Yetərli müvafiq audit sübutları əldə etmək üçün əlavə audit prosedurlarını həyata keçirməlidir.

Yetərli müvafiq audit sübutları əldə etmək üçün auditor aşağıdakı prosedurları nəzərdən keçirə bilər:

- *İstifadəçi müəssisədə saxlanılan uçot qeydlərini və sənədləri yoxlamaq;*
- *Xidmət göstərən təşkilatda saxlanılan uçot qeydlərini və sənədləri yoxlamaq;*
- *İstifadəçi müəssisədə qalıqlar və əməliyyatların müstəqil uçotu aparıldığı hallarda xidmət təşkilatından qalıqlar və əməliyyatlar haqqında təsdiqləmələri əldə etmək.*

Rəhbərliyin təyin etdiyi ekspertin işindən istifadə

7.4.29. Əgər audit sübutu kimi istifadə olunacaq məlumatların hazırlanmasında rəhbərliyin təyin etdiyi ekspertin işindən istifadə edilmişdirsə, auditor həmin ekspertin işinin auditorun məqsədi üçün əhəmiyyətini nəzərə alaraq, müvafiq təsdiqləmə üçün audit sübutu kimi ekspertin işinin məqsədəuyğunluğunu qiymətləndirməlidir.

[20] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.10-cu paraqraf

[21] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.11., 9.5.12 və 9.5.13-cü paraqraf

Rəhbərliyin təyin etdiyi ekspertin işinin məqsədəuyğunluğunun qiymətləndirilməsi ilə bağlı mülahizələrə aşağıdakılar aid edilə bilər:

- *Həmin ekspertin işinin nəticələrin və ya gəldiyi qənaətlərin uyğunluğu və əsaslılığı, onların digər audit sübutları ilə uyğunluğu və onların maliyyə hesabatlarında lazımi qaydada əks olunub-olunmaması;*
- *Əgər həmin ekspertin işində əhəmiyyətli ehtimallar və metodlardan istifadə edilirsə, bu ehtimalların və metodların uyğunluğu və əsaslılığı;*
- *Əgər həmin ekspertin işində ilkin məlumatlardan əhəmiyyətli dərəcədə istifadə edilirsə, həmin məlumatının uyğunluğu, tamlığı və dəqiqliyi; habelə*
- *Əgər həmin ekspertin işində kənar məlumatlardan əldə edilən məlumatlar istifadə edilirsə, bu məlumatların uyğunluğu və etibarlılığı.*

Auditorun ekspertinin işindən istifadə

7.4.30. Auditor öz ekspertinin işindən istifadə etmək qərarını verdikdə, auditor ekspertin işinin yetərliliyini qiymətləndirməlidir, o cümlədən:

(a) Həmin ekspertin işinin nəticələrinin və ya gəldiyi qənaətlərin uyğunluğu və əsaslılığı, onları digər audit sübutları ilə uyğunluğu;

(b) Əgər həmin ekspertin işində əhəmiyyətli ehtimallardan və metodların istifadə edilirsə, həmin ehtimalların və metodların mövcud şəraitə uyğunluğu və əsaslılığı; habelə

(c) Əgər həmin ekspertin işində onun işi üçün əhəmiyyətli olan ilkin məlumatlarından istifadə olunursa, həmin məlumatların uyğunluğu, tamlığı və düzgünlüyü.

7.4.31. Auditor öz ekspertinin işinin onun məqsədlərinə uyğun olmadığı qənaətinə gəldiyi halda, auditor həmin ekspertlə onun görəcəyi əlavə işi razılaşdırmalıdır və ya həmin şəraitdə zəruri olan əlavə audit prosedurlarını həyata keçirməlidir.

7.5. Təhriflərin toplanması

7.5.1. Auditor açıq şəkildə əhəmiyyətsiz olanlar istisna olmaqla, audit zamanı aşkar edilmiş təhrifləri toplamalıdır.

Açıq şəkildə əhəmiyyətsiz olan təhriflər əhəmiyyətli olduğu müəyyən edilmiş təhriflərdən tamamilə fərqli (daha kiçik) miqyasa və tamamilə xüsusiyyət malikdir və istər ayrı-ayrılıqda, istərsə də toplu şəkildə götürülməsindən və istənilən xüsusiyyət, ölçü və ya şərait meyarları əsasında qiymətləndirilməsindən asılı olmayaraq, açıq şəkildə əhəmiyyətsiz təhriflər olacaqdır. Bir və ya bir neçə maddənin açıq şəkildə əhəmiyyətsiz olub-olmaması ilə bağlı hər hansı qeyri-müəyyənlik olduqda, təhrif açıq şəkildə əhəmiyyətsiz hesab edilmir.

7.5.2. Auditor audit zamanı toplanmış bütün təhrifləri düzəliş etməsini rəhbərlikdən tələb etməlidir.

7.5.3. Əgər auditorun tələbi ilə rəhbərlik əməliyyat kateqoriyasını, hesab qalığını və ya açıqlamanı araşdırarsa və aşkar edilmiş təhrifləri düzəliş edərsə, auditor təhriflərin qalıb-qalmadığını müəyyən etmək üçün əlavə audit prosedurlarını həyata keçirməlidir.

Belə bir tələb, məsələn, audit seçməsində müəyyən edilmiş təhriflərin seçmənin götürüldüyü bütün əsas məcmuya auditor tərəfindən aid edilməsinin nəticələrinə əsaslana bilər.

7.5.4. Əgər auditor audit zamanı təhrif aşkar edərsə, auditor bu cür təhrifin dələduzluğa yol verildiyinə dəlalət edib-etmədiyini müəyyən etməlidir. Bu cür dəlil mövcud olduqda, auditor bu təhrifin auditin digər aspektlərinə, o cümlədən aşkar edilmiş və qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə və rəhbərliyin təqdimatlarının etibarlılığına təsirini müəyyən etməlidir.

Dələduzluq stimul və ya təzyiqin, bunu etmək üçün fürsət və ya hərəkətin müəyyən dərəcədə əsaslandırılmasının mövcud olmamasını nəzərdə tutduğuna görə, dələduzluq halının ayrıca bir hadisə olması ehtimalı azdır. Müvafiq olaraq, təhriflər, məsələn, müəyyən bir bölmədə çoxsaylı təhriflər, hətta onların məcmu təsiri əhəmiyyətli olmasa da, dələduzluq nəticəsində əhəmiyyətli təhriflər riskinə dəlalət edə bilər.

7.5.5. Əgər auditor dələduzluq nəticəsində baş verə biləcək təhrif aşkar edərsə və rəhbərliyin iştirak etdiyindən şübhələnirsə, auditor:

(a) Dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərini və auditorun onlarla bağlı gördüyü cavab tədbirlərini təkrar qiymətləndirməlidir; yaxud
(b) Daha əvvəl əldə edilmiş sübutların etibarlılığını təkrar nəzərdən keçirərkən, şərait və ya şərtlərin işçilər, rəhbərlik və ya üçüncü şəxslərlə mümkün sövdələşmənin mövcud olmasına dəlalət edib-etmədiyini nəzərdən keçirməlidir.

Aşkar edilmiş və ya ehtimal edilən dələduzluğun nəticələri mövcud şəraitdən asılıdır. Məsələn, başqa halda əhəmiyyətsiz olan dələduzluq yüksək vəzifəli rəhbərlik iştirak etdikdə əhəmiyyətli ola bilər. Belə şəraitdə daha əvvəl əldə edilmiş sübutların etibarlılığı sual altında ola bilər, çünki edilmiş təqdimatların tamlığı və doğruluğu, mühasibat uçotu qeydlərinin və sənədlərin həqiqiliyinə dair şübhələr yarana bilər. Həmçinin işçilər, rəhbərlik və ya üçüncü tərəflərin iştirakı ilə sövdələşmə ehtimalı ola bilər.

7.5.6. Auditor aşağıdakı hallarda auditin həcminə, müddətinə və istiqamətinə yenidən baxılmalı olub-olmadığını müəyyən etməlidir:

(a) Aşkar edilmiş təhriflərin xüsusiyyəti və onların baş vermə şəraiti göstərir ki, audit zamanı toplanmış təhriflərlə birləşdirildikdə əhəmiyyətli ola biləcək digər təhriflər ola bilər; habelə
(b) Audit zamanı toplanmış təhriflərin məcmusu əhəmiyyətlilik həddinə yaxınlaşır.

7.6. Məlumatvermə ilə bağlı xüsusi tələblər

7.6.1. Auditor aşağıdakı qaydada vaxtında məlumat verməlidir:

(a) İdarəetməyə məsul şəxslərə - audit zamanı müəssisənin daxili nəzarət sistemində aşkar edilmiş əhəmiyyətli çatışmazlıqlar barədə yazılı şəkildə.

(b) Rəhbərliyə:

(i) idarəetməyə məsul şəxslərə bildirilmiş məsələlər barədə yazılı şəkildə (mövcud şəraitdə rəhbərliklə birbaşa əlaqə saxlamaq məqsədəuyğun olmadığı hallar istisna olmaqla); və

(ii) daxili nəzarətdə aşkar edilmiş, bildirilməmiş, lakin rəhbərliyin diqqətini cəlb etmək üçün kifayət qədər əhəmiyyət kəsb edən digər çatışmazlıqlar barədə.

7.6.2. Əhəmiyyətli çatışmazlıqlar barədə idarəetməyə məsul şəxslərə məlumat verərkən, auditor çatışmazlıqların mümkün nəticələrini təsvir etməli və izah etməli, eləcə də məlumatvermənin konteksti barədə təsəvvür əldə etmək üçün yetərli məlumatlar daxil etməlidir.

Auditor məumatvermənin kontekstini təsvir edərkən aşağıdakıları izah edə bilər:

- *Auditin məqsədi auditorun maliyyə hesabatları ilə bağlı rəy bildirməsi olmuşdur;*
- *Audit daxili nəzarətin effektivliyinə dair rəy bildirmək məqsədi ilə deyil, mövcud şəraitə uyğun olan audit prosedurlarını tərtib etmək üçün maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar daxili nəzarətin nəzərdən keçirilməsini əhatə etmişdir; habelə*
- *Bildirilən məsələlər yalnız audit zamanı auditor tərəfindən aşkar edilən və auditorun idarəetməyə məsul şəxslərə məlumat verilməsi üçün kifayət qədər əhəmiyyət kəsb etdiyi qənaətinə gəldiyi çatışmazlıqlarla məhdudlaşır.*

7.6.3. Rəhbərlik və zəruri hallarda, idarəetməyə məsul şəxslərə məlumat verərkən, auditor uçot qiymətləndirmələri ilə bağlı bildirilməli məsələlərin olub-olmadığını nəzərdən keçirməlidir. Bu zaman auditor əhəmiyyətli təhrif risklərinə dair göstərilən səbəblərin qiymətləndirmədə qeyri-müəyyənlik, yoxsa uçot qiymətləndirmələrinin və müvafiq açıqlamaların hazırlanmasında mürəkkəbliyin, subyektivliyin, dəyişikliyin və ya rəhbərliyin qərəzliliyinin nəticəsi ilə bağlı olub-olmadığını nəzərə almalıdır.

7.7. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən tətbiq edilən 2.4-cü hissədə qeyd olunan sənədləşdirilmə ilə bağlı ümumi tələblərlə yanaşı bu hissəyə aid olan sənədləşdirilmə ilə bağlı xüsusi məsələlər aşağıda təsvir olunur.

7.7.1. Auditor auditin sənədləşdirilməsinə aşağıdakıları daxil etməlidir:

(a) Maliyyə hesabatları səviyyəsində qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı ümumi cavab tədbirləri;
(b) Həyata keçirilmiş prosedurlar ilə təsdiqləmələr səviyyəsində qiymətləndirilmiş risklər arasında əlaqə;
(c) Audit prosedurlarının nəticələri, o cümlədən nəticələr aydın olmadığı hallarda qənaətlər;
(d) Rəhbərlik tərəfindən nəzarətə əhəmiyyət verməmə riskini aradan qaldırmaq üçün nəzərdə tutulmuş audit prosedurlarının nəticələri;
(e) Audit zamanı toplanmış bütün təhriflər və onların aradan qaldırılıb-qaldırılmaması; habelə
(f) Əgər auditor əvvəlki auditlərdə əldə edilmiş nəzarət vasitələrinin işləməsinin effektivliyinə dair audit sübutlarından istifadə etməyi planlaşdırırsa, əvvəlki auditdə test edilmiş həmin nəzarət vasitələrinin etibarlılığı ilə bağlı əldə edilmiş nəticələr.

7.7.2. Qiymətləndirilmiş əhəmiyyətli təhriflər riski dələduzluq nəticəsində baş verdiyi hallarda, auditor sənədləşdirilməsinə dələduzluqla bağlı xüsusi cavabı tədbirləri daxil etməlidir.

7.7.3. Auditor qanun və qaydaların tələblərinə riayət etməmə hallarını aşkar etdiyi və ya ehtimal etdiyi hallarda, auditor aşağıdakıları sənədləşdirməlidir:

(a) Rəhbərlik və müvafiq hallarda, idarəetməyə məsul şəxslər və başqaları ilə aparılan müzakirələrin nəticələrini; o cümlədən məsələ ilə bağlı görülən cavab tədbirlərini; habelə

(b) Həyata keçirilən audit prosedurları, yürüdülmüş əhəmiyyətli peşəkar mühakimələr və bununla bağlı əldə edilən nəticələri.

7.7.4. Uçot qiymətləndirmələri ilə bağlı auditor uçot qiymətləndirmələrinin və müvafiq açıqlamaların maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində ağlabatan olub-olmaması və ya təhrif edilib-edilməməsi ilə bağlı auditorun verdiyi qərara aid olan əhəmiyyətli mühakimələri sənədləşdirməlidir.

8. Nəticələrin hazırlanması

Bu hissənin məzmunu

8-ci hissədə aşağıdakılara dair tələblər müəyyən edilir:

- Audit zamanı aşkar edilmiş düzəliş edilmiş və düzəliş edilməmiş təhriflərin qiymətləndirilməsi.
- Sonrakı hadisələrin qiymətləndirilməsi.
- Nəticələrin hazırlanması, o cümlədən müvafiq qiymətləndirmələr.
- Fəaliyyətin fasiləsizliyi və əlaqəli açıqlamalar haqqında nəticələrin hazırlanması.
- Yazılı təqdimatların əldə edilməsi və yekun analitik prosedurların həyata keçirilməsi.

Bu hissənin əhatə dairəsi

Aparılan dəyərləndirmələr və əldə edilən qənaətlər 9-cu hissədə auditorun rəyinin əsasını təşkil edir.

8.1. Məqsədlər

8.1.1. Auditorun məqsədləri aşağıdakılardır:

(a) Aşkar edilmiş təhriflərin auditə təsirini və hər hansı düzəliş edilməmiş təhriflərin maliyyə hesabatlarına təsirini dəyərləndirmək;
(b) Əldə edilmiş audit sübutlarına əsaslanaraq, müəssisənin fəaliyyətinin fasiləsizlik ehtimalını əhəmiyyətli şübhə altına ala biləcək hadisələr və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə nəticə çıxarmaq; habelə
(c) Auditorun rəyini əsaslandırmaq üçün yetərli müvafiq audit sübutlarının əldə edilib-edilməməsi barədə nəticə çıxarmaq.

8.2. Audit zamanı aşkar edilən təhriflərin dəyərləndirilməsi

8.2.1. Əgər rəhbərlik auditor tərəfindən bildirilmiş təhriflərin bir qismini və ya hamısını düzəliş etməkdən imtina edərsə, auditor bu imtinanın səbəblərini aydınlaşdırmalı və bütövlükdə maliyyə hesabatlarının əhəmiyyətli təhriflərdən azad olmasını dəyərləndirərkən, bunu nəzərə almalıdır.

8.2.2. Düzəliş edilməmiş təhriflərin təsirini qiymətləndirməzdən əvvəl auditor onun müəssisənin faktiki maliyyə nəticələri kontekstində uyğun qalmasını təsdiqləmək üçün əhəmiyyətliliyi təkrar qiymətləndirməlidir.

8.2.3. Auditor aşağıdakıları nəzərə alaraq, düzəliş edilməmiş təhriflərin istər ayrılıqda, istərsə də toplu halında əhəmiyyətli olub-olmadığını müəyyən etməlidir:

(a) İstər əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar, istərsə də bütövlükdə maliyyə hesabatları ilə bağlı təhriflərin xüsusiyyəti və ölçüsü, habelə onların baş verdiyi konkret şəraitlər; habelə
(b) Əvvəlki dövrlərlə bağlı düzəliş edilməmiş təhriflərin əməliyyatların müvafiq kateqoriyalarına, hesab qalıqlarına və ya açıqlamalara və bütövlükdə maliyyə hesabatlarına təsiri.

8.3. Ümumi nəticənin formalaşdırılmasına kömək edən analitik prosedurlar

8.3.1. Auditor auditin sonuna yaxın maliyyə hesabatlarının auditorun müəssisə barədə təsəvvürünə uyğun olub-olmaması barədə ümumi nəticənin formalaşdırılmasına auditora kömək edən analitik prosedurları tərtib etməli və həyata keçirməlidir, habelə daha əvvəl aşkar edilməmiş dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər riskinin əlamətlərini müəyyən etməlidir.

8.3.2. Auditor, rəhbərliklə sorğu apararaq və mövcud şəraitdə lazım olduqda digər audit prosedurlarını həyata keçirməklə, audit aparılarkən əldə edilmiş digər müvafiq məlumatlarla uyğun olmayan dəyişikliklərin və ya münasibətləri araşdırmalıdır.

8.4. Sonrakı hadisələr

Maliyyə hesabatlarına hesabat tarixindən sonra baş verən müəyyən hadisələr təsir göstərə bilər. Bir çox maliyyə hesabatı çərçivələrin xüsusi olaraq belə hadisələrə istinad edir. Bir qayda olaraq, maliyyə hesabatları çərçivələrində iki növ hadisələr müəyyən edilir:

- *Maliyyə hesabatlarının tarixində mövcud olan vəziyyətləri sübut edən hadisələr; habelə*
- *Maliyyə hesabatlarının tarixindən sonra yaranmış vəziyyətləri sübut edən hadisələr.*

Bununla belə, auditor daha əvvəl tətbiq edilmiş audit prosedurlarının qənaətbəxş nəticələr verdiyi məsələlər üzrə əlavə audit prosedurlarını həyata keçirməli deyil.

Maliyyə hesabatlarının tarixi ilə auditor hesabatının tarixi arasında baş verən hadisələr

8.4.1. Auditor maliyyə hesabatlarının tarixi ilə auditor hesabatının tarixi arasında baş verən və maliyyə hesabatlarında düzəlişlərin edilməsini və ya məlumatların açıqlanmasını tələb edən bütün hadisələrin müəyyən edilməsinə dair yetərli müvafiq audit sübutları əldə etmək üçün nəzərdə tutulmuş audit prosedurlarını həyata keçirməlidir.

8.4.2. Auditor həmin prosedurları 8.4.1-ci paraqrafa uyğun olaraq maliyyə hesabatlarının tarixindən auditor hesabatının tarixinə qədər olan dövr və ya ona mümkün qədər yaxın olan dövr üçün həyata keçirməlidir. Həmin prosedurlar aşağıdakıları əhatə etməlidir:

(a) Sonrakı hadisələrin müəyyən edilməsini təmin etmək üçün rəhbərliyin müəyyən etdiyi prosedurlar barədə təsəvvürün əldə edilməsi.
(b) Maliyyə hesabatlarına təsir göstərə biləcək hər hansı sonrakı hadisələrin baş verib-verməməsi barədə rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslər ilə sorğunun aparılması.
(c) Mülkiyyətçilərin, rəhbərliyin və idarəetməyə məsul şəxslərin balans hesabatının tarixindən sonra keçirilən iclaslarının protokollar ilə tanış olması və protokolları hələ hazır olmayan bu cür iclaslarda müzakirə edilən məsələlərlə bağlı sorğuların aparılması.
(d) Əgər varsa, müəssisənin aylıq və ya rüblük maliyyə məlumatlar ilə tanış olma.

8.4.3. Auditor 8.4.1-ci və 8.4.2-ci paraqraflarda qeyd olunan prosedurları yerinə yetirərkən maliyyə hesabatlarında müəssisənin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq düzəlişlərin edilməsini və ya məlumatların açıqlanmasını tələb edən hadisələr müəyyən etdiyi halda, auditor bu cür hadisələrin hər birinin maliyyə hesabatlarında müvafiq qaydada əks etdirilib-etdirilmədiyini müəyyən etməlidir.

Auditor hesabatının tarixindən sonra, lakin maliyyə hesabatları təqdim edildiyi tarixdən əvvəl auditora məlum olan faktlar

8.4.4. Auditorun, auditor hesabatının tarixindən sonra maliyyə hesabatları ilə bağlı hər hansı audit prosedurunu yerinə yetirmək öhdəliyi yoxdur. Bununla belə, əgər auditor hesabatının tarixində, lakin maliyyə hesabatları təqdim edildiyi tarixə qədər auditora məlum olduğu təqdirdə auditorun auditor hesabatına düzəlişlər etməyə səbəb ola biləcək faktlar və ya hadisələr auditora məlum olarsa, bu zaman auditor rəhbərliklə və müvafiq olduqda, idarəetməyə məsul şəxslərlə müzakirə etməli və maliyyə

hesabatlarında düzəliş etməyə ehtiyacın olub-olmadığını, əgər ehtiyac olarsa, rəhbərliklə məsələnin necə həll ediləcəyini aydınlaşdırmalıdır.

8.4.5. Rəhbərlik maliyyə hesabatlarına düzəliş edərsə, auditor düzəlişlərlə bağlı mövcud şəraitdə zəruri olan audit prosedurlarını həyata keçirməlidir, o cümlədən həyata keçirilən audit prosedurlarının yeni auditor hesabatının tarixinə qədər uzatmalı və düzəliş edilmiş maliyyə hesabatları üzrə yeni auditor hesabatını təqdim etməlidir.

8.4.6. Qanun, qayda və ya maliyyə hesabatları çərçivələrinə uyğun olaraq, rəhbərlikdən düzəliş edilmiş maliyyə hesabatlarını təqdim etmək tələb olunmadığı yurisdiksiyalarda auditorun düzəliş edilmiş və ya yeni auditor hesabatını təqdim etməsinə ehtiyac yoxdur. Bununla belə, auditorun düzəliş edilməsini zəruri hesab etdiyi hallarda rəhbərlik maliyyə hesabatlarına düzəliş etməzsə, o zaman:

(a) Əgər auditor hesabatı hələ də müəssisəyə təqdim edilməyibsə, auditor rəyi dəyişdirməli və sonra auditor hesabatını müəssisəyə təqdim etməlidir;[22] yaxud
(b) Əgər auditor hesabatı artıq müəssisəyə təqdim edilibsə, auditor rəhbərliyi və idarəetməyə məsul şəxsləri xəbərdar etməlidir ki, lazımi düzəlişlər edilməyənə qədər maliyyə hesabatları üçüncü şəxslərə təqdim edilməməlidir. Əgər xəbərdarlılığa baxmayaraq, maliyyə hesabatları lazımi düzəlişlər edilmədən təqdim edilərsə, auditor müvafiq tədbirlər görməlidir ki, üçüncü şəxslər auditor hesabatına arxalanmasınlar.

Maliyyə hesabatlarının təqdim edilməsindən sonra auditora məlum olan faktlar

8.4.7. Maliyyə hesabatları təqdim edildikdən sonra auditorun həmin maliyyə hesabatları ilə bağlı heç bir audit prosedurunu həyata keçirmək öhdəliyi yoxdur. Bununla belə, əgər auditor hesabatının tarixində auditora məlum olduğu təqdirdə auditorun auditor hesabatında düzəliş etməsinə səbəb ola biləcək fakt maliyyə hesabatları dərc edildikdən sonra auditora məlum olarsa, bu zaman auditor:

(a) bu məsələni rəhbərlik və müvafiq hallarda, idarəetməyə məsul şəxslər ilə müzakirə etməlidir;
(b) maliyyə hesabatlarında düzəliş edilməsinə ehtiyac olub-olmadığını müəyyən etməlidir; və əgər ehtiyac olaraq,
(c) rəhbərliyin maliyyə hesabatlarında hansı düzəlişlər etməyi planlaşdırdığını aydınlaşdırmalıdır.

8.4.8. Rəhbərlik maliyyə hesabatlarına düzəlişlər edərsə, auditor:

(a) düzəlişlərlə bağlı mövcud şəraitdə zəruri olan audit prosedurlarını həyata keçirməlidir, o cümlədən:

(i) 8.4.1-ci və 8.4.2-ci paraqraflarda istinad edilən audit prosedurlarını yeni auditor hesabatının tarixinədək uzatmalıdır və yeni auditor hesabatının tarixi düzəliş edilmiş maliyyə hesabatlarının təsdiq edildiyi tarixdən gec ola bilməz; habelə
(ii) Düzəliş edilmiş maliyyə hesabatları üzrə yeni auditor hesabatını[23] təqdim etməlidir; habelə

(b) Əvvəllər təqdim edilmiş maliyyə hesabatlarını və auditor hesabatını qəbul edən bütün şəxslərin yaranmış vəziyyət barədə məlumatlandırılmasını təmin etmək üçün rəhbərlik tərəfindən görülən tədbirləri təhlil etməlidir.

8.4.9. Rəhbərlik əvvəllər verilmiş maliyyə hesabatlarını alan hər kəsin vəziyyət barədə məlumatlandırılmasını təmin etmək üçün lazımi tədbirlər görmürsə və auditorun onlara düzəlişlərin edilməsini zəruri hesab

[22] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.21-ci paraqraf.

[23] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.6.7-ci paraqraf

etdiyi hallarda maliyyə hesabatlarına düzəlişlər etmirsə, auditor öz hesabatına etibaretmənin qarşısını almaq üçün müvafiq tədbirlər görməlidir.

8.5. Auditorun dəyərləndirmələri və auditorun nəticəsini əsaslandırmaq üçün görülən digər tədbirlər

Zəruri dəyərləndirmələr

8.5.1. Həyata keçirilən audit prosedurlarına və əldə edilmiş audit sübutlarına əsaslanaraq, auditor maliyyə hesabatları və təsdiqləmələr səviyyələrində əhəmiyyətli təhrif risklərinin qiymətləndirilməsinin uyğun olaraq qalıb-qalmamasını müəyyən etməlidir.

Maliyyə hesabatlarının auditi kumulyativ və təkrarlanan prosesdir. Auditor planlaşdırılmış audit prosedurlarını həyata keçirərkən, əldə edilmiş audit sübutları auditorun digər planlaşdırılmış audit prosedurlarının xüsusiyyəti, müddəti və ya həcmini dəyişməsinə səbəb ola bilər. Auditorun diqqətini riski qiymətləndirmə prosesinin əsaslandığı məlumatdan əhəmiyyətli dərəcədə fərqlənən məlumat çəkə bilər. Belə şəraitdə, auditor, əməliyyatların bütün və ya bəzi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar və əlaqəli təsdiqləmələr üzrə qiymətləndirilmiş risklərin yenidən nəzərdən keçirilməsinə əsaslanaraq, planlaşdırılan audit prosedurlarını yenidən qiymətləndirməli ola bilər.

Auditor, həmçinin bu cür məlumatların "AMM üçün BAS"-dan auditdə istifadə edilməsinin müvafiqliyi ilə bağlı auditorun qərarına təsir göstərib-göstərmədiyini nəzərdən keçirə bilər ki, bu da tapşırığın şərtlərinə dəyişiklik edilməsini tələb edə bilər.

8.5.2. Uçot qiymətləndirmələri üçün auditor həyata keçirilən audit prosedurlarına və əldə edilmiş audit sübutlarına əsasən aşağıdakıları dəyərləndirməlidir:

(a) Təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhrif risklərinin qiymətləndirmələrinin, o cümlədən rəhbərliyin mümkün qərəzliliyinə dəlalət edən hallar aşkar edildikdə müvafiq olaraq qalıb-qalmaması; habelə
(b) Uçot qiymətləndirmələrinin maliyyə hesabatlarında tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması ilə bağlı rəhbərliyin qərarlarının maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində məntiqli olub-olmaması.

8.5.3. Auditor özü ilə idarəetməyə məsul şəxslər arasında ikitərəfli məlumatvermənin auditin məqsədinə uyğun olub-olmadığını dəyərləndirməlidir. Uyğun olmadığı təqdirdə, auditor həmin məlumatvermənin auditə təsirini (əgər varsa) qiymətləndirməli və müvafiq tədbirlər görməlidir.

Məsələn, ilkin risk qiymətləndirmələrinə yenidən baxılmalı, əhatə dairəsinin məhdudlaşdırılması əsasında auditorun rəyinin dəyişilməsi və ya müvafiq olaraq digər tədbirlərin görülməsi tələb oluna bilər.

8.5.4. Auditor maliyyə hesabatlarının ümumi təqdimatının maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olub-olmadığını dəyərləndirmək üçün audit prosedurlarını həyata keçirməlidir. Bu dəyərləndirməni yerinə yetirərkən auditor maliyyə hesabatlarının aşağıdakıları əks etdirən tərzdə təqdim edilib-edilmədiyini nəzərə almalıdır:

(a) Maliyyə məlumatlarının və əsas əməliyyatların, hadisələrin və şəraitlərin təsnifatı və təsviri; habelə
(b) Maliyyə hesabatlarının təqdimatı, strukturu və məzmunu.

Nəticələrin hazırlanması

8.5.5. Auditor yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyi barədə nəticə çıxarmalıdır. Rəy formalaşdırarkən auditor təsdiqedici və ya ziddiyyətli görünməsindən asılı olmayaraq, bütün müvafiq audit sübutlarını nəzərə almalıdır.

8.5.6. Əgər auditor müvafiq təsdiqləmə ilə bağlı yetərli müvafiq audit sübutu əldə etməmişdirsə, auditor əlavə audit sübutları əldə etməyə cəhd etməlidir. Əgər auditor yetərli müvafiq audit sübutu əldə edə bilmirsə, auditor maliyyə hesabatlarına dair şərti rəy bildirməli və ya rəy verməkdən imtina etməlidir.[24]

8.5.7. Auditor maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən mühasibat uçotunun fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə edilməsinin məqsədəuyğunluğu ilə bağlı yetərli müvafiq audit sübutlarının əldə edilib-edilmədiyini dəyərləndirməli və bu barədə nəticə çıxarmalıdır.[25]

8.5.8. Auditor, əldə edilmiş audit sübutlarına əsaslanaraq, auditorun peşəkar mühakiməsinə əsasən, ayrılıqda və ya məcmu halında müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələr və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxarmalıdır.[26]

8.5.9. Əgər auditor mövcud şəraitdə rəhbərliyin mühasibat uçotunda fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin məqsədəuyğun olması, lakin əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması qənaətinə gələrsə, bu zaman o, maliyyə hesabatlarının aşağıdakıları təmin edib-etməyəcəyini müəyyən etməlidir:

(a) Müəssisənin fəaliyyətinin fasiləsizliyi davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən əsas hadisələrin və ya şəraitlərin, habelə rəhbərliyin bu hadisələr və ya şəraitlər ilə bağlı planlaşdırdığı tədbirlərin uyğun şəkildə açıqlanması; habelə
(b) Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər ilə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmasının və buna görə də onun biznes fəaliyyətinin normal gedişində öz aktivlərini realizə edə və öhdəliklərini yerinə yetirə bilməyəcəyinin açıq şəkildə açıqlanması.

Belə hallarda auditor fərqli rəy bildirməli və auditor hesabatına “Fəaliyyətin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik” başlığı altında ayrıca bölmə daxil edilməlidir.

8.5.10. Əgər müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala bilən hadisələr və ya şəraitlər aşkar edilərsə, lakin əldə edilmiş audit sübutlarına əsasən, auditor heç bir əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olmaması qənaətinə gələrsə, bu zaman auditor maliyyə hesabatlarının tətbiq olunan çərçivələri baxımından maliyyə hesabatlarında həmin hadisələr və ya şəraitlər barədə uyğun açıqlamaların təqdim edilib-edilmədiyini dəyərləndirməlidir.

8.5.11. Əgər auditor maliyyə hesabatlarının saxtakarlıq nəticəsində əhəmiyyətli dərəcədə təhrif olunduğunu təsdiq edərsə və ya bu barədə nəticə çıxara bilmirsə, auditor qiymətləndirilmiş əhəmiyyətli təhriflər riskləri və auditorun hesabatı daxil olmaqla, auditə təsirini dəyərləndirməlidir.

[24] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.27-ci paraqraf.

[25] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.17-ci paraqraf.

[26] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.18-ci paraqraf.

8.6. Yazılı təqdimatlar

Yazılı təqdimatlar müəssisənin maliyyə hesabatlarının auditi ilə bağlı auditorun tələb etdiyi zəruri məlumatlardır. Müvafiq olaraq, sorğulara verilən cavablar kimi, yazılı təqdimatlar da audit sübutlarıdır. Bununla belə, yazılı təqdimatlar zəruri audit sübutlarını təqdim etsələr də, onlar özlüyündə əks etdirdikləri hər hansı məsələ haqqında yetərli müvafiq audit sübutu təmin etmirlər. Bundan əlavə, rəhbərliyin etibarlı yazılı təqdimatlar təqdim etməsi faktı rəhbərliyin öz öhdəliklərini yerinə yetirməsinə və ya konkret təsdiqləmələr haqqında auditorun əldə etdiyi digər audit sübutlarının xüsusiyyətinə və ya həcminə təsir göstərmir.

8.6.1. Auditor aidiyyəti məsələlər barəsində məlumatlı olan və maliyyə hesabatları üzrə məsuliyyət daşıyan rəhbərlikdən və müvafiq hallarda idarəetməyə məsul şəxslərdən aşağıdakı məsələlərlə bağlı yazılı təqdimatlar almalıdır:

(a) Rəhbərlik və məsul şəxslər maliyyə hesabatlarını, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun hazırlamışdır, o cümlədən müvafiq hallarda, onların ədalətli təqdimatı üzrə məsuliyyətlərini yerinə yetirmişdir. Həmin məsuliyyətlər tapşırığın şərtlərində və təqdim edilən məlumatda eyni şəkildə təsvir edilməlidir;
(b) Rəhbərlik və məsul şəxslər audit tapşırığının şərtlərində razılaşdırıldığı kimi, auditora bütün müvafiq məlumatları təqdim etmiş və çıxış imkanı ilə təmin etmişdir;
(c) Bütün əməliyyatlar uçota alınmışdır və maliyyə hesabatlarında əks olunmuşdur;
(d) Rəhbərlik və məsul şəxslər dələduzluğun qarşısını almaq və onu aşkar etmək üçün nəzarət vasitələrinin tərtib edilməsi, həyata keçirilməsi və saxlanılması üzrə öz məsuliyyətlərini qəbul etmişdir;
(e) Rəhbərlik və məsul şəxslər maliyyə hesabatlarının dələduzluq nəticəsində əhəmiyyətli dərəcədə təhrif oluna bilməsi riskinin qiymətləndirilməsinin nəticəsini auditora açıqlamışdır;
(f) Rəhbərlik və məsul şəxslər faktiki və ya ehtimal edilən dələduzluq, yaxud faktiki və ya ehtimal edilən dələduzluq barədə məlumatları auditora açıqlamışdır;
(g) Rəhbərlik və məsul şəxslər müəssisənin əlaqəli tərəflərinin siyahısını və onlara məlum olan əlaqəli tərəflərin bütün münasibətləri və əməliyyatları barədə məlumatları auditora açıqlamışdır;
(h) Rəhbərlik və məsul şəxslər maliyyə hesabatları çərçivələrinin tələblərinə uyğun olaraq əlaqəli tərəflərlə münasibətləri və əməliyyatları müvafiq qaydada uçota almışdır və açıqlamışdır;
(i) Maliyyə hesabatlarının hazırlanmasında təsiri nəzərə alınmalı bütün məlum olan faktiki və ya ehtimal edilən qanun və qaydalara riayət etməmə halları barədə məlumat auditora açıqlanmışdır;
(j) Maliyyə hesabatlarının hazırlanmasında təsiri nəzərə alınmalı bütün məlum olan faktiki və ya ehtimal edilən məhkəmə çəkişmələri və iddialar barədə məlumat auditora açıqlanmışdır, habelə maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq uçota alınmış və açıqlanmışdır;
(k) Uçot qiymətləndirmələrinə gəldikdə, uçot qiymətləndirmələrinin və açıqlamaların hazırlanmasında istifadə olunan metodlar, əhəmiyyətli ehtimallar və verilənlərin maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq qəbul edilməsi, ölçülməsi və ya açıqlanmasını təmin etmək üçün uyğundur;
(l) Maliyyə hesabatlarının tarixindən sonra baş vermiş və maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə əsasən düzəliş və ya açıqlama tələb edən bütün hadisələrə düzəliş edilmişdir və ya açıqlanmışdır;
(m) Fəaliyyətin fasiləsizliyinə gəldikdə, əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduğu halda, onların gələcək fəaliyyət planları və bu planların praktiki baxımdan mümkünlüyü barədə məlumat;
(n) Əvvəlki dövrlərin maliyyə hesabatlarında müqayisəli məlumatlara təsir göstərən əhəmiyyətli təhriflərə düzəliş etmək üçün yenidən hesablamalar barədə məlumat; habelə

(o) Auditorun maliyyə hesabatlarına aid olan digər audit sübutlarını və ya maliyyə hesabatlarındakı bir və ya bir neçə xüsusi təsdiqləmələri, o cümlədən şifahi təqdimatları əsaslandırmaq üçün zəruri hesab etdiyi digər təqdimatlar.

8.6.2. Auditor xüsusi uçot qiymətləndirmələri ilə bağlı məlumatların əldə edilməsi zərurətini nəzərdən keçirməlidir.

8.6.3. Yazılı təqdimat auditora ünvanlanmış təqdimat məktubu şəklində olmalıdır.

Əlavə 7-də təqdimat məktubunun nümunəsi verilir.

Əgər qanun və ya qaydalar rəhbərliyin öz öhdəlikləri barədə yazılı açıqlama verməsini tələb edirsə və auditor belə açıqlamanın bu standartın tələb etdiyi təqdimatların bir qismini və ya hamısını təmin etdiyinə dair qərar verərsə, bu cür açıqlamalarda əks etdirilən müvafiq məsələlərin təqdimat məktubuna daxil edilməsinə ehtiyac yoxdur.

8.6.4. Auditor, düzəliş edilməmiş təhriflərin təsirinin istər ayrı-ayrılıqda, istərsə də toplu halında, bütövlükdə maliyyə hesabatlarına təsirinin əhəmiyyətli olmamasını hesab edib-etmədikləri barədə rəhbərlikdən və müvafiq hallarda, idarəetməyə məsul şəxslərdən yazılı təqdimat tələb etməlidir. Bu cür düzəliş edilməmiş təhriflərin siyahısı yazılı təqdimata daxil edilməli və ya ona qoşulmalıdır.

8.6.5. Əgər auditorun rəhbərliyin səriştəsi, tamlığı, etik dəyərləri və ya ehtiyatlılığı, yaxud onun bunlara sadiqliyi və ya icrasını təmin etməsi ilə bağlı narahatlığı varsa və ya əldə edilən təqdimatlar digər audit sübutları ilə uyğun gəlmirsə, auditor bu halın audit sübutlarına təsirini daha ümumi şəkildə müəyyən etməli və müvafiq tədbirlər görməlidir, o cümlədən 8.6.7-ci paraqrafın tələblərini nəzərə alaraq, auditor hesabatında[27] rəyə mümkün təsirin nəzərdən keçirilməsi daxildir.

Bir və ya bir neçə yazılı təqdimat və başqa mənbələrdən əldə edilmiş audit sübutları arasında müəyyən uyğunsuzluqlar aşkar edildikdə, auditor risk qiymətləndirməsinin aktual qalıb-qalmadığını nəzərdən keçirə bilər və əgər qalmırsa, belə qiymətləndirməni yenidən keçirə və qiymətləndirilmiş risklərlə bağlı cavab tədbirləri görmək üçün əlavə audit prosedurlarının xüsusiyyətini, müddətini və həcmini müəyyən edə bilər.

Rəhbərliyin səriştəsi, tamlığı, etik dəyərləri və ya ehtiyatlılığı, yaxud qeyd olunan keyfiyyətlərə sadiqliyi və ya onların icrasının təmin edilməsi ilə bağlı narahatlıqlar nəticəsində auditor belə qənaətə gələ bilər ki, maliyyə hesabatlarında rəhbərlik tərəfindən yanlış təqdimatın edilməsi riski elə səviyyədədir ki, audit aparıla bilməz. Bu halda, idarəetməyə məsul şəxslər müvafiq düzəldici tədbirlər görmədiyi təqdirdə, qüvvədə olan qanun və ya qaydalara əsasən audit tapşırığından imtina etmək mümkün olduqda, auditor tapşırıqdan imtina etməyi nəzərdən keçirə bilər. Bununla belə, bu cür tədbirlər auditora şərtsiz müsbət auditor rəyi vermək üçün yetərli olmaya bilər.

8.6.6. Əgər rəhbərlik tələb edilən yazılı təqdimatlardan birini və ya bir neçəsini təqdim etməzsə, bu zaman auditor:

(a) bu məsələni rəhbərliklə müzakirə etməlidir;
(b) rəhbərliyin dürüstlüyünü təkrar dəyərləndirməli, habelə bu cür təkrar dəyərləndirmənin şifahi və yazılı təqdimatların və ümumilikdə audit sübutlarının etibarlılığına təsirini dəyərləndirməlidir; habelə

[27] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.22-ci paraqraf.

(c) müvafiq tədbirlər görməlidir, o cümlədən 8.6.7-ci paraqrafın tələbini nəzərə alaraq, belə təqdim etməmənin auditor hesabatındakı[28] rəyə mümkün təsirini müəyyən etməlidir.

8.6.7. Əgər auditor rəhbərliyin dürüstlüyü ilə bağlı yetərli şübhənin olması və bunun 8.6.1.(a)–(c) paraqraflarda tələb edilən yazılı təqdimatların etibarlı olmamasına səbəb olması qənaətinə gələrsə[29], yaxud rəhbərlik 8.6.1.(a)–(c) paraqraflarında tələb edilən yazılı təqdimatları təqdim etməzsə[30], auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etməlidir.

8.6.8. Yazılı təqdimatların tarixi mümkün qədər yaxın olmalı, lakin maliyyə hesabatları üzrə auditorun hesabatının tarixindən sonra olmamalıdır. Yazılı təqdimatlar auditor hesabatında göstərilən bütün maliyyə hesabatları və dövr(lər) üçün olmalıdır.

8.7. Keyfiyyətin idarə edilməsi və təmin olunması üzrə ümumi məsuliyyət

8.7.1. Auditor hesabatına tarix təyin edilməzdən əvvəl tapşırıq üzrə tərəfdaş müəyyən etməlidir ki, tapşırığ üzrə tərəfdaş audit tapşırığının idarə edilməsi və keyfiyyətin təmin olunması üzrə ümumi məsuliyyəti öz üzərinə götürüb. Bunu edərkən tapşırıq üzrə tərəfdaş aşağıdakıları müəyyən etməlidir:

(a) Tapşırıq üzrə tərəfdaşın iştirakı audit tapşırığının bütün mərhələlərində yetərli və müvafiq olmuşdur.
(b) Bu da tapşırıq üzrə tərəfdaşa tapşırığın xüsusiyyəti və şəraiti nəzərə alınmaqla, yürüdülmüş əhəmiyyətli mühakimələrin və əldə edilmiş nəticələrin müvafiq olduğunu müəyyən etmək üçün əsas verir; habelə
(c) Audit tapşırığının xüsusiyyəti və şəraiti, tapşırığa edilən hər hansı dəyişikliklər və şirkətin əlaqəli siyasət və ya prosedurları nəzərə alınmışdır.

8.7.2. Auditor hesabatının tarixindən əvvəl və ya həmin tarixdə, tapşırıq üzrə tərəfdaş, müəyyən etməlidir ki, əldə edilmiş nəticələri əsaslandırmaq və auditor hesabatını təqdim etmək üçün yetərli müvafiq audit sübutları əldə edilmişdir.

8.7.3. Auditor hesabatının tarixi təyin edilməzdən əvvəl tapşırıq üzrə tərəfdaş maliyyə hesabatlarını və auditorun hesabatını nəzərdən keçirməlidir ki, təqdim ediləcək hesabatın mövcud şəraitə uyğun olduğunu müəyyən etsin.

8.8. Məlumatvermə ilə bağlı xüsusi tələblər

8.8.1. Auditor, qanun və ya qaydalarla qadağan edilmədiyi təqdirdə, audit zamanı toplanmış bütün təhriflər barədə müvafiq rəhbərlik səviyyəsinə vaxtında məlumat verməlidir.

8.8.2. Auditor idarəetməyə məsul şəxslərə aşağıdakı məsələlər barədə məlumat verməlidir:

(a) Qanun və ya qaydalarla qadağan edilmədiyi təqdirdə, düzəliş edilmiş təhriflər və onların istər ayrılıqda, istərsə də məcmu halında auditorun rəyinə göstərə biləcəyi təsir. Auditorun məlumatverməsində düzəliş edilməmiş əhəmiyyətli təhriflərin hər biri ayrıca olaraq göstərilməlidir.
(b) Əvvəlki dövrlərdəki düzəliş edilməmiş təhriflərin cari ilin maliyyə hesabatlarına təsiri.

---

[28] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.23-cü paraqraf.

[29] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.24-cü paraqraf.

[30] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.25-ci paraqraf.

(c) Müəssisənin mühasibat uçotu praktikasının əhəmiyyətli keyfiyyət aspektləri, o cümlədən mühasibat uçotu siyasəti, uçot qiymətləndirmələri və maliyyə hesabatlarındakı açıqlamalar barədə auditorun fikirləri.
(d) Audit zamanı ortaya çıxan qarşılaşılan əhəmiyyətli çətinliklər, əgər varsa.
(e) Audit zamanı ortaya çıxan, o cümlədən müəssisənin əlaqəli tərəfləri ilə bağlı rəhbərliklə müzakirə edilmiş və ya yazışmaların mövzusu olmuş mühüm məsələlər.
(f) Auditdən əldə edilən əhəmiyyətli nəticələr. Əgər auditorun peşəkar mühakiməsinə görə, şifahi məlumatvermə yetərli olmazsa, məlumatvermə yazılı şəkildə olmalıdır.
(g) Qanun və ya qaydalarla qadağan edilmədiyi halda, idarəetməyə məsul şəxslərin məsuliyyətlərinə aid ola bilən dələduzluqla bağlı hələ bildirilməyən digər məsələlər.
(h) Auditor hesabatının forma və məzmununa təsir edən şəraitlər, əgər varsa.
(i) Auditorun tələb etdiyi yazılı təqdimatlar.
(j) Auditorun peşəkar mühakiməsinə görə, maliyyə hesabatlılığı prosesinə nəzarətlə əlaqəli olan, auditdən irəli gələn digər əhəmiyyətli məsələlər, əgər varsa.
(k) Auditor hesabatına “İzahedici paraqraf” və ya “Digər məsələlər paraqrafı”nı daxil etməyi planlaşdırdığı hallarda, onların məzmunu və mətni.

8.8.3. İdarəetməyə məsul şəxslərin hamısı müəssisənin idarə edilməsində iştirak etmədikdə, auditor müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələrin və ya şəraitlərin, o cümlədən aşağıdakıların aşkar edilməsi barədə idarəetməyə məsul şəxslərə məlumat verməlidir:

(a) Hadisələrin və ya şərtlərin əhəmiyyətli qeyri-müəyyənlik təşkil edib-etməməsi;
(b) Rəhbərliyin mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadəsinin maliyyə hesabatlarının hazırlanması zamanı məqsədəuyğunluğu;
(c) Maliyyə hesabatlarında müvafiq açıqlamaların məqsədəuyğunluğu; habelə
(d) Müvafiq hallarda, auditor hesabatına təsiri.

8.9. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığı yerinə yetirilərkən sənədləşdirilməyə tətbiq olunan 2.4-cü hissənin ümumi tələbləri ilə yanaşı sənədləşdirilməli olan bu hissəyə aid xüsusi məsələlər aşağıda təsvir edilmişdir.

8.9.1. Auditor audit sənədləşdirilməsinə aşağıdakıları daxil etməlidir:

(a) Audit zamanı toplanmış bütün təhriflər və onların düzəliş edilib-edilməməsi, düzəliş edilməmiş təhriflərin istər ayrılıqda, istərsə də məcmu halında əhəmiyyətli olub-olmaması ilə bağlı auditorun nəticəsi və bu nəticənin əsaslandırılması; habelə
(b) Audit zamanı aparılmış məsləhətləşmələrin xüsusiyyəti, həcmi və nəticələri, o cümlədən belə nəticələrin necə tətbiq edildiyi.

8.9.2. Auditorun sənədləşdirməsi göstərməlidir ki, maliyyə hesabatlarında təqdim edilən məlumatlar baş kitabdan və köməkçi mühasibat jurnallarından və ya onlardan kənar əldə edilməsindən asılı olmayaraq əsas mühasibat uçotu sənədləri ilə uyğunlaşdırılmış və ya üzləşdirilmişdir. Bura açıqlamaların uyğunlaşdırılması və üzləşdirilməsi də daxildir.

8.9.3. Auditor audit sənədlərini audit faylında toplamalı və auditor hesabatının tarixindən sonra yekun audit faylının yığılması üzrə inzibati prosesi vaxtında başa çatdırmalıdır..

1 saylı BKİS-in tələblərinə (və ya ən azı onu qədər sərt olan milli tələblərə) uyğun olaraq, şirkətlərin keyfiyyəti idarəetmə sistemləri tapşırığa dair hesabatların tarixindən sonra tapşırığın sənədlərinin vaxtında toplanmasını təmin edən keyfiyyət məqsədini müəyyən etməlidir.[31] Yekun audit faylının yığılmasını tamamlamaq üçün müvafiq müddət, bir qayda olaraq, auditor hesabatının tarixindən sonra 60 gündən çox olmamalıdır.[32]

8.9.4. Yekun audit faylın toplanması başa çatdıqdan sonra auditor xüsusiyyətindən asılı olmayaraq, heç bir audit sənədini saxlama müddəti bitmədən silməməli və ya atmamalıdır.

1 saylı BKİS-in tələblərinə (və ya ən azı onu qədər sərt olan milli tələblərə) uyğun olaraq, şirkətlərin keyfiyyəti idarəetmə sistemləri şirkətin ehtiyaclarını ödəmək və qanuna, qaydalara, müvafiq etik normalara və ya peşə standartlarına riayət etmək üçün tapşırığın sənədləşdirilməsinin müvafiq qaydada saxlanması və qorunması ilə bağlı keyfiyyət məqsədi müəyyən etməlidir.[33] Audit tapşırıqları üçün sənədləşdirilmənin saxlanma müddəti, bir qayda olaraq, auditor hesabatının tarixindən və ya daha gec olarsa, müvafiq hallarda, qrup maliyyə hesabatları üzrə auditor hesabatının tarixindən sonra 5 ildən az olmamalıdır.[34]

8.9.5. Müvafiq olduqda, auditor “AMM üçün BAS”-ın hər hansı hissəsinin məqsədinə çatmamasını və nəticədə baş verənləri (məsələn, auditorun rəyinə təsir və ya auditorun ümumi məqsədinə çatmaq mümkün olmadıqda tapşırığın yerinə yetirilməsindən imtina) sənədləşdirməlidir.

8.9.6. Əgər auditor yekun audit faylının toplanması başa çatdıqdan sonra mövcud audit sənədləşdirilməsində dəyişiklik etməyi və ya yeni audit sənədlərini əlavə etməyi zəruri hesab edərsə, dəyişikliklərin və ya əlavələrin xüsusiyyətindən asılı olmayaraq, auditor aşağıdakıları sənədləşdirməlidir:

(a) bu cür dəyişiklik və əlavələrin konkret səbəbləri; habelə
(b) onların nə vaxt və kim tərəfindən edilməsi və nəzərdən keçirilməsi.

[31] 1 saylı BKİS, 31(f) paraqrafı
[32] 1 saylı BKİS, A83 paraqrafı
[33] 1 saylı BKİS, 31(f) paraqrafı
[34] 1 saylı BKİS, A85 paraqrafı

9. Rəyin formalaşdırılması və hesabatvermə

Bu bəndin məzmunu

9-cu bənddə aşağıdakı tələblər müəyyən edilir:

- Rəyin formalaşdırılması;
- Auditor rəylərinin növləri; habelə
- Auditor hesabatının məzmunu.
- Digər məlumatlar və əlaqəli məlumatlar.

Bu bəndin əhatə dairəsi

Bu bənddə auditor hesabatının məzmunu izah edilir və rəyə dəyişikliklərin edilməsi barədə, eləcə də auditor hesabatına digər düzəlişlərə ehtiyacın olub-olmaması barədə auditorun qərarvermə yanaşması müəyyən edilir. Bu hissədə, həmçinin müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları, eləcə də digər məlumatlar (əgər varsa) ilə bağlı auditordan tələb edilən prosedurlar müəyyən edilir.

Fərqli rəy, fəaliyyətin fasiləsizlik ehtimalı ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik, "İzahedici paraqraf" və "Digər məsələlər" paraqrafına dair nümunələr və auditor hesabatlarına dair müvafiq təlimatlar "Auditor üçün hesabatvermə üzrə əlavə təlimat"da verilir.

9.1. Məqsədlər

9.1.1. Auditorun məqsədləri aşağıdakılardır:

(a) Əldə edilmiş audit sübutlarından çıxarılan nəticələrin dəyərləndirilməsi əsasında maliyyə hesabatları üzrə rəy formalaşdırmaq və həmin rəyi yazılı hesabat vasitəsilə aydın şəkildə ifadə etmək; habelə
(b) Digər məlumatlar (əgər varsa) ilə aşağıdakılar arasında əhəmiyyətli uyğunsuzluğun olub-olmadığını nəzərdən keçirmək:

(i) maliyyə hesabatları; habelə
(ii) auditorun audit zamanı əldə etdiyi biliklər.

9.2. Maliyyə hesabatları üzrə rəyin formalaşdırılması

9.2.1. Auditor maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun tərtib edilib-edilməməsi barədə rəy formalaşdırmalıdır.

9.2.2. Həmin rəyi formalaşdırmaq üçün auditor maliyyə hesabatlarının bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olub-olmamasına dair auditorun ağlabatan əminliyin əldə edib-etməməsinə dair nəticə əldə etməlidir. Həmin nəticədə aşağıdakılar nəzərə alınmalıdır:

(a) yetərli müvafiq audit sübutlarının əldə edilib-edilməməsi;
(b) düzəliş edilməmiş təhriflərin istər ayrılıqda, istərsə də məcmu halında əhəmiyyətli olub-olmaması; habelə
(c) 9.2.3-9.2.6-cı paraqraflarda tələb olunan qiymətləndirmələr.

9.2.3. Auditor maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələblərinə uyğun olaraq tərtib edilib-edilmədiyini dəyərləndirməlidir. Bu

dəyərləndirmə müəssisənin mühasibat uçotu təcrübəsinin keyfiyyət aspektlərinin, o cümlədən rəhbərliyin mühakimələrində qərəzliliyin ola bilməsinə dəlalət edən halların nəzərə alınmasını əhatə etməlidir.

9.2.4. 9.2.3-cü paraqrafda göstərilən dəyərləndirməni həyata keçirərkən auditor maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələblərini nəzərə alaraq, aşağıdakıları qiymətləndirməlidir:

(a) Maliyyə hesabatlarında müəssisənin uçot siyasətinin əhəmiyyətli məsələləri və onların başa düşülən şəkildə təqdim edilib-edilmədiyi müvafiq qaydada açıqlanmışdırmı;
(b) Müəssisənin seçilmiş və tətbiq edilmiş uçot siyasətinin məqsədəuyğunluğu və maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğunluğu;
(c) Rəhbərlik tərəfindən yerinə yetirilmiş uçot qiymətləndirmələrinin əsaslılığı;
(d) Müəyyən edilmiş əlaqəli tərəflərlə münasibətlərin və əməliyyatların maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq müvafiq qaydada uçota alınması, təqdim edilməsi və açıqlanması;
(e) Maliyyə hesabatlarında təqdim edilən məlumatların uyğunluğu, etibarlılığı, müqayisə oluna bilməsi və anlaşıqlı olub-olmaması, o cümlədən:

(i) daxil edilməli olan məlumatlar daxil edilmişdirmi;
(ii) bu cür məlumatlar müvafiq qaydada təsnif edilib, aqreqasiya edilməsi və ya bölünməsi və səciyyələndirilməsi; habelə
(iii) qeyri-münasib və ya açıqlanan məsələlərin düzgün başa düşülməsinə mane olan məlumatların daxil edilməsinin maliyyə hesabatlarının ümumi təqdimatına mənfi təsir göstərib-göstərməməsi;

(f) Maliyyə hesabatlarında, nəzərdə tutulmuş istifadəçilər tərəfindən əhəmiyyətli əməliyyatların və hadisələrin maliyyə hesabatlarında təqdim edilən məlumatlara təsiri barədə düzgün təsəvvürün əldə edilməsi üçün yetərli açıqlamalar təmin edilirmi; habelə
(g) Maliyyə hesabatlarında istifadə olunan terminologiya, o cümlədən hər bir maliyyə hesabatının adı uyğundurmu.

9.2.5. Maliyyə hesabatları ədalətli təqdimat çərçivəsinə uyğun hazırlandıqda, auditor maliyyə hesabatlarının ədalətli təqdimatı təmin edib-etməməsini də dəyərləndirməlidir. Bu dəyərləndirmədə aşağıdakılar nəzərə alınmalıdır:

(a) maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmunu; habelə
(b) maliyyə hesabatlarının əsas əməliyyatlar və hadisələrin ədalətli təqdimatını təmin edirmi.

Maliyyə hesabatlarının həm təqdimat, həm də buna nail olmaq üçün zəruri olan məlumatların açıqlanması baxımından ədalətli təqdim edilib-edilməməsini dəyərləndirmək üçün auditor peşəkar mühakimə yürüdür.

9.2.6. Auditor maliyyə hesabatlarında maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə istinad edilib-edilmədiyini dəyərləndirməlidir.

9.3. Auditor rəyinin forması

9.3.1. Auditor maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun hazırlandığı qənaətinə gəldikdə, müsbət rəy təqdim etməlidir.

Əgər maliyyə hesabatları çərçivələri ədalətli təqdimat çərçivələridirsə, bir qayda olaraq, ümumi təyinatlı maliyyə hesabatları üçün olduğu kimi, rəy, maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından ədalətli əks etdirilib-etdirilməməsi və ya düzgün və ədalətli təsəvvür yaradıb-yaratmaması ilə bağlı olmalıdır. Əgər maliyyə hesabatları çərçivələri uyğunluq çərçivələridirsə, rəy, maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından bu çərçivələrə uyğun tərtib edilib-edilməməsi ilə bağlı olmalıdır.

9.3.2. Ədalətli təqdimat çərçivələrinin tələblərinə uyğun olaraq hazırlanmış maliyyə hesabatları maliyyə məlumatlarının ədalətli təqdimatını təmin etmədikdə, auditor bu məsələni rəhbərliklə müzakirə etməli və maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələblərindən və məsələnin necə həll olunduğundan asılı olaraq, fərqli rəy verilməsinin zəruri olub-olmadığını müəyyən etməlidir.[35]

9.3.3. Maliyyə hesabatları uyğunluq çərçivələrinə uyğun olaraq hazırlanmadıqda, auditordan maliyyə hesabatlarının ədalətli təqdimatı təmin edib-etmədiyini dəyərləndirmək tələb edilmir. Bununla belə, əgər son dərəcə nadir hallarda auditor əldə edilmiş audit sübutlarına əsasən belə maliyyə hesabatlarının aldadıcı olduğu qənaətinə gələrsə, o, məsələni rəhbərliklə müzakirə etməli və onun necə həll olunduğundan asılı olaraq, auditor hesabatında bu məsələnin əks etdirilməsi zərurətini və necə əks etdiriləcəyini müəyyən etməlidir.[36]

9.4. Auditor hesabatı

9.4.1. Auditor aşağıdakı hallar istisna olmaqla, müəyyən edilmiş formaya və məzmuna uyğun hesabat təqdim etməlidir:

(a) Yurisdiksiyada tətbiq olunan qanun və ya qaydalar ilə tələb olunan auditor hesabatının xüsusi tərtibatına və ya mətninə uyğunluq üçün auditor hesabatına düzəliş edilməsi tələb olunur. Auditor hesabatının tərtibatı və ya mətni qanun və ya qaydalarla müəyyən edildikdə, auditor hesabatında yalnız aşağıda göstərilən formanın və məzmunun elementləri daxil edildiyi halda hazırki “AMM üçün BAS”-a istinad edilməlidir;

(b) Auditordan auditi az mürəkkəb müəssisələr üçün xüsusi yurisdiksiyanın audit standartına ("AMM üçün milli audit standartı") uyğun olaraq aparması tələb olunur ki, sözügedən standart auditor hesabatının “AMM üçün BAS”-da tələb olunandan fərqli tərtibatını və ya mətnini müəyyən edir və əlavə olaraq auditin aparılması zamanı “AMM üçün BAS”-ın tələblərinə riayət edir. Belə olduqda, auditor hesabatı yalnız o halda “AMM üçün milli audit standartı” ilə yanaşı “AMM üçün BAS”-a istinad edə bilər ki, auditor hesabatı aşağıda əks etdirilən müəyyən forma və məzmunun elementlərini ehtiva etsin; yaxud

(c) Auditor hesabatına fərqli rəy, izahedici paraqraf, digər məsələlər paraqrafı, fəaliyyətin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik, digər hesabatvermə məsuliyyətləri və ya “Digər məlumatlar” ilə bağlı ayrıca bölmə daxildir, bu halda auditor fərqli rəy verməli (9.5-ci hissəyə uyğun olaraq) və ya auditor hesabatına düzəliş etməlidir (9.8-ci hissəyə uyğun olaraq).

[35] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.28-ci paraqraf

[36] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.29-cu paraqraf

MÜSTƏQİL AUDİTORUN HESABATI

[ABC şirkətinin səhmdarlarına və ya digər müvafiq ünvan sahibinə][37]

Rəy

Biz [ABC Şirkətinin (Müəssisə) 31 dekabr 20X1-ci il tarixinə üçün maliyyə vəziyyəti haqqında hesabat və həmin tarixdə başa çatan il üçün məcmu gəlirlər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat, habelə maliyyə hesabatlarına dair qeydlər, o cümlədən mühasibat uçotunun əsas prinsiplərinin xülasəsindən (hesabatların adlarını müvafiq başlıqlarla əvəz edin)][38] ibarət olan maliyyə hesabatlarının auditini[39] apardıq.

Bizim fikrimizcə, əlavə edilmiş maliyyə hesabatları [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə][40] əsasən, [31 dekabr 20X1-ci] il tarixinə [Müəssisənin] maliyyə vəziyyətini, habelə onun maliyyə nəticələrini və həmin vaxt başa çatan il üçün pul vəsaitlərinin hərəkətini ["bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir" və ya "düzgün və ədalətli təsəvvür yaradır"][41].

Rəy üçün əsaslar

Biz auditi "Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı"na ("AMM üçün BAS") uyğun apardıq. "AMM üçün BAS" üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.[42] Biz [*yurisdiksiyadakı*] maliyyə hesabatlarının auditinə aid olan etik normalara uyğun olaraq, [Müəssisədən] asılı deyilik və biz bu etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.[43]

Maliyyə hesabatları üzrə [rəhbərliyin] məsuliyyətləri[44]

---

[37] Auditor hesabatında müəyyən edilmiş formatda və məzmunda [ ] mötərizədə əks olunan məsələlər müvafiq olaraq uyğunlaşdırılmalıdır.

[38] Maliyyə hesabatlarının auditi aparılmış müəssisəni müəyyən edin; hər bir maliyyə hesabatını, onun tarixini və dövrünü müəyyən edin, qeydlərə və əhəmiyyətli uçot siyasətlərinə istinad edin və ya maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq başqa münasib təsvirdən istifadə edin.

[39] Rəydən imtina edilərkən, maliyyə hesabatlarının auditinin aparıldığını bildirən bəyanata düzəliş edilərək auditorun maliyyə hesabatlarının auditində iştirak etdiyi bildirilmişdir.

[40] Beynəlxalq Maliyyə Hesabatı Standartları və ya İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən buraxılmış "İctimai sektor üçün mühasibat uçotunun beynəlxalq standartları" deyilsə, maliyyə hesabatları çərçivələrinin mənşə yurisdiksiyasını müəyyən edin.

[41] Həmçinin aşağıda bax: 9.4.2-ci paraqraf. Maliyyə hesabatları uyğunluq çərçivələrinə uyğun tərtib edildikdə, auditor rəyi və onun məsuliyyətlərinin təsviri isə maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivəsinə uyğun tərtib edilib-edilməməsinə istinad edir.

[42] Auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə bu bəyanat auditor hesabatına daxil edilmir.

[43] Auditor şərti müsbət və ya mənfi rəy bildirdikdə, əldə edilmiş audit sübutlarının auditor rəyini əsaslandırmaq üçün yetərli və müvafiq olub-olmaması barədə bəyanata düzəliş edilib, müvafiq olaraq "şərti müsbət" və ya "mənfi" sözü daxil edilir. Auditor maliyyə hesabatları üzrə rəy verməkdən imtina etdikdə, bu bəyanat auditor hesabatına daxil edilmir.

[44] Və ya konkret yurisdiksiyanın hüquqi çərçivələri baxımından müvafiq olan digər terminlər.

[Rəhbərlik] maliyyə hesabatlarının [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə][45] uyğun hazırlanmasına [və ədalətli təqdimatına] və elə bir daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır ki, [*rəhbərliyin*] fikrincə, bu sistem dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanması üçün zəruridir.

[Rəhbərlik] [Müəssisəni] ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etmək üçün real alternativləri olmadığı halda, maliyyə hesabatlarını hazırlayarkən, [rəhbərlik] [Müəssisənin] fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə əlaqəli məsələlərin açıqlanması və mühasibat uçotunun fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır ləğv etmək və fəaliyyətini dayandırmaq niyyətində olmadığı və ya bunu etmək üçün real alternativi olmadığı hallar istisna olmaqla, mühasibat uçotunun fasiləsizliyi əsasından istifadə etmək qabiliyyətini qiymətləndirməyə cavabdehdir.

Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri[46] [47]

Bizim məqsədlərimiz maliyyə hesabatlarının bütövlükdə istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərdən azad olub-olmamasına dair ağlabatan əminlik əldə etmək, habelə rəyimiz daxil edilən auditor hesabatını təqdim etməkdən ibarətdir. Ağlabatan əminlik əminliyin yüksək səviyyəsidir, lakin "AMM üçün BAS"-a uyğun aparılmış audit nəticəsində mövcud olan əhəmiyyətli təhriflərin aşkar edilməsinə həmişə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində baş verə bilər və istər ayrılıqda, istərsə də məcmu halında istifadəçilərin həmin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etməsi əsaslı olaraq ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

"AMM üçün BAS"-a uyğun olaraq auditin tərkib hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə yürüdürük və peşəkar inamsızlıq tətbiq edirik. Biz həmçinin:

- Dələduzluq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, həmin risklərə cavab verən audit prosedurlarını hazırlayıb həyata keçiririk, habelə rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiq audit sübutları əldə edirik. Dələduzluq nəticəsində baş verən əhəmiyyətli təhrifi aşkar etməmə riski səhv nəticəsində baş verən əhəmiyyətli təhrifi aşkar etməmə riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sövdələşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, yanlış təqdimatlar və ya daxili nəzarətə əhəmiyyət verməməni ehtiva edə bilər.
- [Müəssisənin] daxili nəzarətinin səmərəliliyinə dair rəy bildirmək məqsədilə deyil, konkret

[45] Rəhbərliyin məsuliyyəti "düzgün və ədalətli təsəvvür yaradan" maliyyə hesabatlarının hazırlanmasından ibarət olduqda, bu aşağıdakı kimi ifadə oluna bilər: "Rəhbərlik maliyyə hesabatlarının [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun olaraq hazırlanmasına və düzgün və ədalətli təsəvvürün yaradılmasına və elə…. görə məsuliyyət daşıyır".

[46] Auditorun məsuliyyətlərinin təsviri əlavəyə və ya qanun, qayda və ya milli audit standartları auditora bunu etməyə açıq şəkildə icazə verdiyi hallarda, müvafiq səlahiyyətli orqanın internet səhifəsində təsvir kimi daxil edilə bilər; bu o zaman mümkündür ki, təsvirdə bu "AMM üçün BAS"-a istinad edilsin və təsvir sözügedən standartın tələblərinə zidd olmasın. Belə hallarda, əlavənin və ya təsvirin yerinə auditor hesabatında istinad edilir. Auditor maliyyə hesabatları üzrə rəy verməkdən imtina etdikdə, auditorun məsuliyyətlərinin təsvirinə yalnız 9.5.33-cü paraqrafda tələb olunan məsələlər daxil edilir.

[47] 10-cu hissə tətbiq olunduqda, aşağıdakıları qeyd edərək, qrup auditi tapşırığında auditorun məsuliyyətlərini əlavə olaraq təsvir edin:

(i) Auditorun məsuliyyətləri qrup maliyyə hesabatlarına dair rəyin formalaşdırılmasını əsaslandırmaq üçün qrup daxilindəki müəssisələrin və ya struktur vahidinin maliyyə məlumatları ilə bağlı yetərli müvafiq audit sübutlarının əldə edilməsi məqsədilə qrup auditini planlaşdırmaq və həyata keçirməkdən ibarətdir;

(ii) Auditor qrup auditin məqsədləri üçün yerinə yetirilən audit işinin idarə edilməsi, nəzarət edilməsi və təhlili üçün məsuliyyət daşıyır; habelə

(iii) Auditor rəyinə görə yalnız auditor məsuliyyət daşıyır.

tapşırığın şərtlərinə uyğun olan audit prosedurlarını hazırlamaq üçün auditlə əlaqədar daxili nəzarət barədə təsəvvür əldə etmək.

- İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu, rəhbərliyin yerinə yetirdiyi uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndirmək.
- Mühasibat uçotunun fəaliyyətin fasiləsizliyi ehtimalı əsasının rəhbərlik tərəfindən istifadə edilməsinin məqsədəuyğunluğuna və əldə edilmiş audit sübutlarına əsasən, [Müəssisənin] fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələrlə və ya şərtlərlə əlaqəli əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarmaq. Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması haqqında qənaətə gəliriksə, maliyyə hesabatlarında açıqlanmış əlaqəli məlumatlara auditor hesabatımızda diqqəti cəlb etməliyik və ya, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişməliyik. Bizim nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Bununla yanaşı sonrakı hadisələr və ya şərtlər [Müəssisənin] fəaliyyətinin fasiləsizliyini davam etdirməməsinin səbəbi ola bilər.
- [Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları, habelə maliyyə hesabatlarında ədalətli təqdimata nail olmaq üçün əsas əməliyyatların və hadisələrin ədalətli təqdimatı təmin edəcək şəkildə əks etdirib-etdirməməsini qiymətləndirmək][48]

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında [rəhbərlik və müvafiq hallarda, idarəetməyə məsul şəxslərə] məlumat veririk.

[*Konkret yurisdiksiyanın tələblərindən asılı olaraq, auditor təşkilatının adından, auditorun öz adından və ya hər ikisinin adından imza*]

[*Auditorun ünvanı: auditorun fəaliyyət göstərdiyi yurisdiksiyadakı yerin adını qeyd edin]*

[*Tarix: Auditorun maliyyə hesabatlarına dair rəyini əsaslandırmaq üçün aşağıdakılar dair sübutlar da daxil olmaqla, yetərli müvafiq audit sübutlarını əldə etdiyi tarixdən tez olmamalıdır: (i) Maliyyə hesabatlarını təşkil edən bütün hesabatlar və açıqlamalar hazırlanmışdır; habelə (ii) Təsdiq edilmiş səlahiyyətli şəxslər həmin maliyyə hesabatları üçün məsuliyyət daşıdıqlarını təsdiq etmişdirlər.*]

9.4.2. Maliyyə hesabatları ədalətli təqdimat çərçivəsinə uyğun hazırlandıqda, auditor mövcud şəraitdən asılı olaraq, öz hesabatında maliyyə hesabatları üzrə məsuliyyətlərinin təsvirində “bu maliyyə hesabatlarının hazırlanması və ədalətli təqdimatı” və ya “doğru və ədalətli təsəvvür yaradan maliyyə hesabatlarının hazırlanması” ifadələrinə istinad etməlidir.

9.4.3. Qanun və ya qaydalarla tələb olunmadıqda, auditor, fərqli rəy ehtiva edən auditor hesabatında auditorun ekspertinin işinə istinad etməməlidir. Əgər belə bir istinad qanun və ya qayda ilə tələb olunarsa, auditor öz hesabatında qeyd etməlidir ki, bu istinad auditorun rəyinə görə auditorun məsuliyyətini azaltmır.

9.5. Fərqli rəyin təqdim edilməsi

Aşağıdakı A-C cədvəlləri müxtəlif vəziyyətlərdə istifadə edilməli olan fərqli rəyə dair tələblər, eləcə də fərqli rəyin forma və məzmununu müəyyən edir.

9.5.1. Auditor aşağıdakı hallarda A-C Cədvəllərinə uyğun olaraq auditor hesabatındakı rəyində dəyişiklik etməlidir:

[48] Maliyyə hesabatları ədalətli təqdimat çərçivələrinə uyğun hazırlandıqda məqsədəuyğundur.

(a) Auditor belə nəticəyə gəlir ki, əldə edilmiş audit sübutlarına əsasən, maliyyə hesabatları bütövlükdə əhəmiyyətli təhriflərdən azad deyildir; yaxud

(b) Auditor maliyyə hesabatlarının bütövlükdə əhəmiyyətli təhriflərdən azad olmasına dair qənaətə gəlmək üçün yetərli müvafiq audit sübutları əldə edə bilmir.

9.5.2. Auditor öz rəyinə dəyişiklik etdikdə, aşağıdakıları etməlidir:

(a) Cədvəl A-C-də göstərildiyi kimi "Rəy üçün əsaslar" başlığını "Şərti müsbət rəy üçün əsaslar", "Mənfi rəy üçün əsaslar" və ya "Rəydən imtina üçün əsaslar" kimi dəyişməlidir; habelə

(b) "Rəy üçün əsaslar" bölməsində dəyişikliyə səbəb olan məsələni əks etdirməlidir.

Aşağıda təqdim edilən Cədvəl A-da auditorun dəyişikliyə səbəb olan məsələnin xüsusiyyəti, habelə onun təsirinin nüfuzediciliyi və ya maliyyə hesabatlarına təsirinə dair peşəkar mühakiməsinin ifadə ediləcək rəyin növünə necə təsir etdiyi əks etdirilir.

CƏDVƏL A **Dəyişikliyə səbəb olan məsələnin xüsusiyyəti**	**Maliyyə hesabatları üçün faktiki və mümkün nəticənin nüfuzediciliyinə dair auditorun peşəkar mühakiməsi**	
	Əhəmiyyətlidir, lakin nüfuzedici deyil	*Həm əhəmiyyətli, həm də nüfuzedicidir*
Maliyyə hesabatları əhəmiyyətli dərəcədə təhrif edilmişdir	Şərti müsbət rəy	Mənfi rəy
Yetərli müvafiq audit sübutu əldə etmək mümkün olmamışdır	Şərti müsbət rəy	Rəy verməkdən imtina

Aşağıda təqdim edilən Cədvəl B-də, Cədvəl A-da qeyd edilən hər bir rəy növü üçün rəydə ediləcək dəyişikliklər müəyyən edilir.

CƏDVƏL B **Rəyin forması**	**Ədalətli təqdimat çərçivəsi**	**Uyğunluq çərçivəsi**
9.5.3. Şərti müsbət rəy Auditor hesabatı - rəyi əks etdirən bölmənin başlığı: "Şərti müsbət rəy" Auditor hesabatı - rəy üçün əsasları əks etdirən bölmənin başlığı: "Şərti müsbət rəy üçün əsaslar"	"Bizim fikrimizcə, "Şərti müsbət rəy üçün əsaslar" bölməsində təsvir olunmuş məsələnin (məsələlərin) [faktiki və mümkün nəticələri][49] istisna olmaqla, müşayiət edən maliyyə hesabatları [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] əsasən […] [bütün əhəmiyyətli aspektlər baxımından ədalətli şəkildə əks etdirir / [düzgün və ədalətli təsəvvür yaradır]"	"Şərti müsbət rəy üçün əsaslar" bölməsində təsvir olunmuş məsələnin (məsələlərin) [faktiki və mümkün nəticələri] istisna olmaqla, müşayiət edən maliyyə hesabatları bütün aspektlər baxımından [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun olaraq hazırlanmışdır."
9.5.4. Mənfi rəy Auditor hesabatı – rəyi əks etdirən bölmənin başlığı: "Mənfi rəy" Auditor hesabatı - Rəy üçün əsasları əks etdirən bölmənin başlığı:	"...müşayiət edən maliyyə hesabatları [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] əsasən [ədalətli şəkildə	"...müşayiət edən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun olaraq

[49] Kvadrat mötərizədə (məs., [ ]) əks olunan məsələlər müvafiq olaraq uyğunlaşdırılmalıdır

“Mənfi rəy üçün əsaslar”	əks etdirmir/düzgün və ədalətli təsəvvür yaratmır]”	hazırlanmamışdır.”
9.5.5. Rəy verməkdən imtina Auditor hesabatı – rəyi əks etdirən bölmənin başlığı: “Rəy verməkdən imtina” Auditor hesabatı - Rəy üçün əsasları əks etdirən bölmənin başlığı: “Rəy verməkdən imtina üçün əsaslar”	“Biz ... maliyyə hesabatlarının auditinə cəlb edilmişik…” “Biz müşayiət edən maliyyə hesabatlarına dair rəy bildirmirik. “Rəydən imtina üçün əsaslar” bölməsində təsvir edilmiş məsələnin (məsələlərin) əhəmiyyətliliyi səbəbindən maliyyə hesabatlarına dair auditor rəyini əsaslandırmaq üçün yetərli müvafiq audit sübutları əldə edə bilmədik.”	

Aşağıda təqdim edilən Cədvəl C-də auditor rəyində dəyişiklik tələb olduğu xüsusi hallar və həmin dəyişikliyə səbəb olan məsələnin xüsusiyyətindən asılı olaraq yaranmış şəraitdə ifadə edilən rəylərin növləri əks etdirilir (bax: Cədvəl A). Cədvəl C auditor rəyində dəyişiklik edilməli olan bütün halların tam siyahısı deyil.

CƏDVƏL C **Auditor rəyində dəyişiklik edilməli olan xüsusi hallar**	**İst. paraq.**	**Şərti müsbət**	**Mənfi**	**İmtina**
İlkin qalıqlar				
9.5.6. Auditor ilkin qalıqlarla bağlı yetərli müvafiq audit sübutları əldə edə bilmir.	4.5.4.	✓		✓
9.5.7. Auditor əldə edilmiş audit sübutlarına əsaslanaraq belə qənaətə gəlir ki, ilkin qalıqlar cari dövrün maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edən təhrifi ehtiva edir və həmin təhrifin təsiri müvafiq qaydada nəzərə alınmayıb və müvafiq qaydada təqdim edilməyib və ya açıqlanmayıb.	4.5.5.	✓	✓	
9.5.8. Auditor, əldə edilmiş audit sübutlarına əsaslanaraq belə qənaətə gəlir ki, cari dövrün uçot siyasəti ilkin qalıqlar ilə bağlı maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq ardıcıl şəkildə tətbiq edilmir və ya uçot siyasətindəki dəyişiklik maliyyə hesabatları çərçivələrinə uyğun olaraq müvafiq qaydada nəzərə alınmayıb, nə də müvafiq qaydada təqdim edilməyib və ya açıqlanmayıb.	4.5.6.	✓	✓	
9.5.9. Əvvəlki auditor tərəfindən əvvəlki dövrün maliyyə hesabatlarına dair verilən rəyindəki dəyişiklik cari dövrün maliyyə hesabatları üçün hələ də uyğun	4.5.3.	✓	✓	✓

və əhəmiyyətlidir.				
Qanun və ya qaydaların tələblərinə riayətetməmə				
9.5.10. Ehtimal edilən riayətetməmə barədə yetərli məlumat əldə etmək mümkün deyil .	7.4.26.	✓		✓
9.5.11. Auditor belə qənaətə gəlir ki, aşkar edilmiş və ya ehtimal edilən riayət etməmə halı maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərir və maliyyə hesabatlarında müvafiq qaydada əks etdirilməyib.	7.4.27	✓	✓	
9.5.12. Rəhbərlik və ya idarəetməyə məsul şəxslər auditorun maliyyə hesabatları üçün əhəmiyyətli ola biləcək faktiki və ya ehtimal edilən riayətetməmə halının baş verib-verмədiyini dəyərləndirmək üçün yetərli müvafiq audit sübutları əldə etməsinə mane olur.	7.4.27.	✓		✓
9.5.13. Auditor riayətetməmə halının rəhbərlik və ya idarəetməyə məsul şəxslər tərəfindən deyil, şəraitin yaratdığı məhdudiyyətlərə görə baş verib-verməməsini müəyyən edə bilmir.	7.4.27.	✓		✓
Kənar mənbələrdən təsdiqləmələr				
9.5.14. Auditor belə qənaətə gəlir ki, rəhbərliyin auditora təsdiq tələbi göndərməsinə icazə verməkdən imtina etməsi əsassızdır, ya da auditor alternativ audit prosedurlarından müvafiq və etibarlı audit sübutları əldə edə bilmir.	7.3.24.	✓		✓
Mal-material ehtiyatları				
9.5.15. Auditor mal-material ehtiyatlarının mövcudluğu və vəziyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə etmək üçün alternativ audit prosedurlarını həyata keçirə bilmir.	7.4.21.	✓		✓
Məhkəmə prosesləri və iddialar				
9.5.16. Rəhbərlik müəssisənin kənar hüquq məsləhətçisi ilə əlaqə saxlamaq və ya görüşmək üçün auditora icazə verməkdən imtina edir, yaxud müəssisənin kənar hüquq məsləhətçisi sorğu məktubuna müvafiq qaydada cavab verməkdən imtina edir və ya cavab vermək belə şəxs üçün qadağandır; habelə auditor alternativ audit prosedurlarını həyata keçirməklə yetərli uyğun audit sübutu əldə edə bilmir.	7.4.25	✓		✓
Fəaliyyətin fasiləsizliyi				
9.5.17. Maliyyə hesabatları mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadə etməklə hazırlanmışdır, lakin auditorun peşəkar mühakiməsinə görə, maliyyə hesabatlarının hazırlanmasında rəhbərliyin mühasibat uçotunun fasiləsizliyi prinsipindən istifadə etməsi məqsədəuyğun deyildir.	7.4.1. 8.5.7.		✓	
9.5.18. Maliyyə hesabatlarındakı əhəmiyyətli qeyri-müəyyənlik ilə bağlı müvafiq açıqlamalar verilmir.	7.4.4 8.5.8	✓	✓	

9.5.19. Bu şəraitdə, "Şərti müsbət (və ya mənfi) rəy üçün əsaslar" bölməsində qeyd edilməlidir ki, "müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək əhəmiyyətli qeyri-müəyyənlik mövcuddur və bu məsələ maliyyə hesabatlarında müvafiq qaydada açıqlanmır."				
9.5.20. Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyəti ilə bağlı rəhbərliyin qiymətləndirməsini dəyərləndirərkən, əhatə edilən dövr maliyyə hesabatları təqdim edildiyi tarixdən sonra on iki aydan azdırsa və rəhbərlik öz qiymətləndirməsini həyata keçirmir və ya müddəti uzatmırsa, bu da auditorun yetərli müvafiq audit sübutu əldə edə bilməməsinə gətirib çıxarır.	7.4.2.	✓		✓
Sonrakı hadisələr				
9.5.21. Auditor hesabatının tarixindən sonra, lakin maliyyə hesabatlarının təqdim edildiyi tarixdən əvvəl auditora faktlar məlum olur və auditorun düzəlişlərin edilməsini zəruri hesab etdiyi şəraitdə rəhbərlik maliyyə hesabatlarına düzəliş etmir.	8.4.6.	✓	✓	✓
Yazılı təqdimatlar				
9.5.22. Auditor qənaətə gəlir ki, bu standart üzrə tələb edilən yazılı təqdimatlar etibarlı deyil.	8.6.5.	✓		✓
9.5.23. Rəhbərlik tələb edilən yazılı təqdimatlardan birini və ya bir neçəsini təqdim etmir.	8.6.6.	✓		✓
9.5.24. Auditor belə qənaətə gəlir ki, rəhbərliyin dürüstlüyü ilə bağlı kifayət qədər şübhə mövcuddur və bu səbəbdən 8.6.1.(a)–(c) paraqraflarında tələb olunan yazılı təqdimatlar etibarlı deyil.	8.6.7.			✓
9.5.25. Rəhbərlik 8.6.1.(a)-(c) paraqraflarında tələb edilən yazılı təqdimatları təqdim etmədikdə.	8.6.7.			✓
Müqayisəli göstəricilər				
9.5.26. Müqayisəli göstəricilər təqdim edilmişdir, əvvəlki dövr üzrə daha əvvəl təqdim edilmiş auditor hesabatına şərti müsbət rəy, rəydən imtina və ya mənfi rəy daxil edilmişdir, habelə dəyişikliyə əsas verən məsələ həll olunmamışdır. "Dəyişiklik üçün əsaslar" paraqrafında: (a) məsələnin cari dövrün rəqəmlərinə faktiki və ya mümkün təsiri əhəmiyyətli olduqda, dəyişikliyə əsas verən məsələnin təsvirində həm cari dövrün rəqəmlərinə, həm də müqayisəli göstəricilərə istinad edilməlidir; yaxud (b) digər hallarda, izah olunmalıdır ki, həll edilməmiş məsələnin cari dövrün rəqəmləri ilə müqayisəli göstəricilərin müqayisə edilə biləcəyinə faktiki və ya mümkün təsiri səbəbindən audit rəyində	9.7.6	✓	✓	✓

dəyişiklik edilmişdir.				
Digər komponentlər				
9.5.27. Auditor yetərli müvafiq audit sübutu əldə edə bilmir .	8.5.6.	✓		✓
9.5.28. Ədalətli təqdimat çərçivələrinin tələblərinə uyğun hazırlanmış maliyyə hesabatları ədalətli təqdimatı təmin etmir.	9.3.2.		✓	
9.5.29. Maliyyə hesabatları uyğunluq çərçivələrinə uyğun olaraq hazırlanmışdır və çox nadir hallarda auditor qənaətinə gəlir ki, əldə edilmiş audit sübutlarına əsasən belə maliyyə hesabatları yanlış fikir yaradır.	9.3.3	✓	✓	✓

Dəyişikliklərlə bağlı digər məsələlər

9.5.30. Əgər auditor öz hesabatında auditorun ekspertinin işinə istinad edirsə və bu istinad auditor rəyində edilmiş dəyişikliklərin başa düşülməsi üçün vacibdirsə, auditor öz hesabatında qeyd etməlidir ki, belə istinad auditorun həmin rəyə görə məsuliyyətini azaltmır.

9.5.31. Maliyyə hesabatlarında aşağıdakılara aid əhəmiyyətli təhriflər olduqda:

(a) Maliyyə hesabatlarındakı konkret məbləğlər (o cümlədən miqdar açıqlamaları) - auditor, “Rəy üçün əsaslar” bölməsinə təhriflərin maliyyə təsirinin təsvirini və praktik cəhətdən mümkün olduqda, bu təsirin məbləğlə təhlilini daxil etməlidir. Əgər maliyyə təsirini məbləğlə ifadə etmək mümkün deyilsə, bu zaman auditor bunu həmin bölmədə bildirməlidir.
(b) Keyfiyyətlə bağlı açıqlamalar - auditor “Rəy üçün əsaslar” bölməsinə açıqlamaların necə təhrif edildiyinə dair izahat daxil etməlidir.
(c) Açıqlanması tələb olunan, lakin maliyyə hesabatlarında açıqlanmayn məlumatlar - auditor:

(i) məlumatların açıqlanmamasını idarəetməyə məsul şəxslərlə müzakirə etməlidir;
(ii) “Rəy üçün əsaslar” bölməsində buraxılmış məlumatların xüsusiyyətini təsvir etməlidir; habelə
(iii) qanun və ya qaydalarla qadağan edilmədiyi halda, buraxılmış açıqlamaları daxil etməlidir, bir şərtlə ki, bunu etmək praktiki baxımdan mümkün olsun və auditor buraxılmış məlumatla bağlı yetərli müvafiq audit sübutları əldə etsin.

9.5.32. Əgər dəyişiklik yetərli müvafiq audit sübutlarının əldə edilməsinin mümkün olmaması nəticəsində baş vermişdirsə, auditor “Rəy üçün əsaslar” bölməsinə həmin mümkünsüzlüyün səbəblərini daxil etməlidir.

9.5.33. Auditor yetərli müvafiq audit sübutları əldə edə bilməməsi səbəbindən maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə, auditor 9.4.1-ci paraqrafa uyğun olaraq, “Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyətləri” bölməsinə düzəliş etməli və yalnız aşağıdakıları daxil etməlidir:

(a) Auditorun məsuliyyətinin “AMM üçün BAS”-a uyğun olaraq müəssisənin maliyyə hesabatlarının auditini aparmaq və auditor hesabatını təqdim etməkdən ibarət olması;
(b) “Rəydən imtina üçün əsaslar” bölməsində təsvir edilmiş məsələyə (məsələlərə) görə auditorun maliyyə hesabatları üzrə auditor rəyini əsaslandıran yetərli müvafiq audit sübutları əldə edə bilməməsi; habelə
(c) Auditorun auditlə bağlı müvafiq etik normalara uyğun olaraq müəssisədən asılı olmaması və bu tələblərə uyğun olaraq auditorun etika ilə bağlı digər məsuliyyətlərini yerinə yetirməsi.

9.5.34. Əgər auditor maliyyə hesabatlarına dair mənfi rəy bildirmişdirsə və ya rəy verməkdən imtina etmişdirsə, bu zaman auditor, ona məlum olan və rəyə dəyişiklik edilməsini zəruri edən digər məsələlərin səbəblərini və onların nəticələrini “Rəy üçün əsaslar” bölməsində təsvir etməlidir.

9.6. Auditor hesabatında digər paraqraflar

Auditor hesabatında "İzahedici paraqraf" və "Digər məsələlər" paraqrafları auditor aşağıdakıları zəruri hesab etdikdə istifadə olunur:

- *İstifadəçilərin diqqətini maliyyə hesabatlarında təqdim edilmiş və ya açıqlanmış və istifadəçilərin maliyyə hesabatlarını başa düşmələri üçün böyük əhəmiyyət kəsb edən hər hansı məsələyə və ya məsələlərə cəlb etmək ("İzahedici paraqraf"); yaxud*

- *İstifadəçilərin diqqətini maliyyə hesabatlarında təqdim edilməmiş və ya açıqlanmamış, lakin istifadəçilərin auditi, auditorun məsuliyyətlərini və ya auditor hesabatını başa düşmələrinə aid olan başqa bir məsələyə və ya məsələlərə cəlb etmək ("Digər məsələlər").*

"İzahedici paraqraflar"

9.6.1. Auditor, istifadəçilərin diqqətini maliyyə hesabatlarında təqdim edilmiş və ya açıqlanmış və auditorun peşəkar mühakiməsinə görə istifadəçilərin maliyyə hesabatlarını başa düşmələri üçün əhəmiyyət kəsb edən məsələyə cəlb etməyi zəruri hesab etdiyi və auditordan bu məsələnin nəticəsində fərqli rəy vermək tələb olunmadığı halda, auditor hesabatına "İzahedici paraqraf" əlavə edib qeyd etməlidir ki, izah edilən məsələ ilə bağlı auditor rəyində dəyişiklik edilməmişdir.

"İzahedici paraqraflar"ın tələb oluna biləcəyi halların nümunələri aşağıdakılardır:

- *Qanun və ya qayda ilə müəyyən edilmiş maliyyə hesabatlarının çərçivələri, qanun və ya qayda ilə müəyyən edilmədiyi təqdirdə qəbuledilməz olduqda.*

- *Auditor hesabatının tarixindən sonra auditora faktlar məlum olduqda və auditor yeni və ya düzəliş edilmiş auditor hesabatını təqdim etdikdə (yəni, sonrakı hadisələr).*

Auditor hesabatına "İzahedici paraqraf"ın daxil edilməsi auditor rəyinə təsir göstərmir. "İzahedici paraqraf"ın aşağıdakıları əvəz etmir:

- *Konkret audit tapşırığının şəraitləri tələb etdikdə, fərqli rəyi;*

- *Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq rəhbərlikdən tələb edilən və ya ədalətli təqdimatın təmin edilməsi üçün zəruri olan məlumatların maliyyə hesabatlarında açıqlanmasını; yaxud*

- *Müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək hadisələr və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənlik mövcud olduğu zaman hesabatverməni.*

"Digər məsələlər" paraqrafları

"Digər məsələlər" paraqrafında aydın şəkildə göstərilir ki, bu cür digər məsələlərin maliyyə hesabatlarında təqdim edilməsi və açıqlanması tələb olunmur. Auditora qanun, qayda və ya digər peşə standartları (məsələn, məlumatların məxfiliyinə dair etika standartları) ilə təqdim edilməsi qadağan olunduğu məlumatlar "Digər məsələlər" paraqrafına daxil edilmir. "Digər məsələlər" paraqrafına rəhbərlik tərəfindən təqdim edilməsi tələb olunan məlumatlar da daxil edilmir.

9.6.2. Auditor, maliyyə hesabatlarında təqdim edilməyən və ya açıqlanmayan, lakin auditorun peşəkar mühakiməsinə görə auditin, auditorun məsuliyyətlərinin və ya auditor hesabatının istifadəçilər tərəfindən başa düşülməsi üçün əhəmiyyət kəsb edən məsələ barədə məlumat verməyi zəruri hesab edərsə, qanun və ya qaydalarla qadağan edilmədiyi təqdirdə, auditor hesabatına "Digər məsələlər" paraqrafını daxil etməlidir.

Auditor hesabatındakı digər paraqrafların məzmunu

9.6.3. Auditor "İzahedici paraqraf", "Digər məsələlər" paraqrafını və ya fəaliyyətinin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənliyi auditor hesabatına daxil etdikdə, auditor həmin paraqraf və ya bölməni aşağıdakı Cədvəl D-yə uyğun olaraq daxil etməlidir:

CƏDVƏL D Paraqraf və ya bölmə	**Yer**	**Başlığa daxil ediləcək ifadələr**	**Məzmuna daxil ediləcək mətn**
9.6.4. İzahedici paraqraf	Auditor hesabatının ayrıca bölməsi	"İzahedici paraqraf" ifadəsini daxil edən müvafiq başlıq	Maliyyə hesabatlarında izah edilən məsələyə və məsələni tam təsvir edən müvafiq açıqlamalara aydın istinad ola bilər. Yalnız maliyyə hesabatlarında təqdim olunan və ya açıqlanan məlumatlara istinad. İzah edilən məsələ ilə bağlı auditor rəyində dəyişikliyin edilməməsinə dəlalət edən hal.
9.6.5. "Digər məsələlər" paraqrafı	Auditor hesabatının ayrıca bölməsi	"Digər məsələlər" ifadəsini daxil edən müvafiq başlıq	Mövcud şəraitlərə uyğun olaraq.
9.6.6. "Fəaliyyətin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik" paraqrafı	Auditor hesabatının ayrıca bölməsi	"Fəaliyyətin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik"	Maliyyə hesabatlarında əhəmiyyətli qeyri-müəyyənliklə bağlı məsələləri açıqlayan qeydə diqqət yetirin. Bu hadisələrin və ya şəraitlərin müəssisənin fəaliyyətinin fasiləsizliyini davam etdirmək qabiliyyətini ciddi şübhə altına ala biləcək əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğunu və bu məsələ ilə bağlı auditor rəyində dəyişikliyin edilməməsini bildirin.

9.6.7. Maliyyə hesabatları təqdim edildikdən sonra auditora faktlar məlum olduqda və rəhbərlik maliyyə hesabatlarına düzəlişlər etdiyi halda, auditor yeni və ya düzəliş edilmiş auditor hesabatına istifadəçilərin diqqətini bu düzəlişin səbəbinə cəlb edən və auditor tərəfindən təqdim edilmiş əvvəlki hesabata istinad edən "İzahedici paraqraf" paraqrafını və ya "Digər məsələlər" paraqrafını daxil etməlidir.

9.7. Müqayisəli məlumatlar – müqayisəli göstəricilər və müqayisəli maliyyə hesabatları

9.7.1. Auditor maliyyə hesabatlarına maliyyə hesabatların tətbiq olunan çərçivələri üzrə tələb edilən müqayisəli məlumatların daxil edilib-edilmədiyinin və bu məlumatların düzgün təsnifləşdirildiyini müəyyən etməlidir. Bu məqsədlə auditor aşağıdakıları qiymətləndirməlidir:

(a) Müqayisəli məlumatların əvvəlki dövrdə təqdim edilmiş məbləğlərlə və digər açıqlamalarla uzlaşıb-uzlaşmadığını və ya zərurət olduğu halda təkrar sayılıb-sayılmadığını; habelə

(b) Müqayisəli məlumatlarda əks olunmuş uçot siyasəti prinsiplərinin cari dövrdə tətbiq edilən siyasətə uyğun olub-olmadığını, yaxud uçot siyasətində dəyişikliklər edildiyi halda, həmin dəyişikliklərin lazımi qaydada nəzərə alındığını, təqdim edildiyini və ya açıqlandığını.

9.7.2. Auditor cari dövrün auditini apararkən müqayisəli məlumatlarda mümkün əhəmiyyətli təhrifdən xəbərdar olarsa, belə əhəmiyyətli təhriflərin mövcud olub-olmaması haqqında yetərli müvafiq audit sübutları əldə etmək üçün mövcud şəraitdə zəruri olan bu cür əlavə audit prosedurlarını həyata keçirməlidir. Əvvəlki dövrün maliyyə hesabatlarına düzəlişlər edildikdə, auditor müqayisəli məlumatların düzəliş edilmiş maliyyə hesabatları ilə uzlalşıb-uzlaşmadığını müəyyən etməlidir.

9.7.3. Əgər əvvəlki dövrün maliyyə hesabatlarının auditi əvvəlki auditor tərəfindən aparılmışdırsa və auditorun əvvəlki auditorun müqayisəli göstəricilərə dair hesabatına istinad etməsi qanun və ya qaydalarla qadağan edilmədikdə və o, bunu etmək qərarına gəlsə, auditor öz hesabatının "Digər məsələlər" paraqrafında aşağıdakıları qeyd etməlidir:

(a) Əvvəlki dövrün maliyyə hesabatlarının auditinin əvvəlki auditor tərəfindən aparıldığını;
(b) Əvvəlki auditorun verdiyi rəyin növünü, həmin rəy fərqli rəy olduğu halda isə bunun səbəblərini; habelə
(c) Həmin hesabatın tarixini.

9.7.4. Əgər əvvəlki dövrün maliyyə hesabatlarının auditi əvvəlki auditor tərəfindən aparılmışdırsa və müqayisəli maliyyə hesabatları kimi təqdim edilmişdirsə, cari dövrün maliyyə hesabatlarına dair rəy bildirməklə yanaşı, auditor "Digər məsələlər" paraqrafında aşağıdakıları qeyd etməlidir:

(a) Əvvəlki dövrün maliyyə hesabatlarının auditinin əvvəlki auditor tərəfindən aparıldığını;
(b) Əvvəlki auditorun verdiyi rəyin növünü, həmin rəy fərqli rəy olduğu halda isə bunun səbəblərini; habelə
(c) Əvvəlki dövrün maliyyə hesabatları ilə bağlı əvvəlki auditorun hesabatı maliyyə hesabatları ilə birlikdə təqdim edilmədiyi halda, həmin hesabatın təqdim edildiyi tarixi.

9.7.5. Əvvəlki dövrün maliyyə hesabatlarının auditi aparılmadığı halda, auditor öz hesabatının "Digər məsələlər" paraqrafında müqayisəli göstəricilərin və ya müqayisəli maliyyə hesabatlarının auditinin aparılmadığı faktını qeyd etməlidir. Bununla belə, belə bir bəyanat auditoru ilkin qalıqlarda cari dövrün maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edən təhriflərin olmamasına dair yetərli müvafiq audit sübutları əldə etmək tələbindən azad etmir.

Müqayisəli göstəricilər

9.7.6. Müqayisəli göstəricilər təqdim edildikdə, auditorun rəyində 9.7.5-ci paraqrafa uyğun olaraq və ya aşağıdakı hallar istisna olmaqla, müqayisəli göstəricilərə istinad edilməməlidir:

(a) Əvvəlki dövr üzrə daha əvvəl təqdim edilmiş auditor hesabatında şərti müsbət rəy, rəy verməkdən imtina və ya mənfi rəyi bildirilmişdirsə və fərqli rəy bildirməyə əsas verən məsələ həll olunmamışdırsa, auditor cari dövrün maliyyə hesabatlarına dair fərqli rəy bildirməlidir.[50]
(b) Əgər auditor əvvəlki dövr üzrə fərqli rəy verilmiş maliyyə hesabatlarında əhəmiyyətli təhrifin mövcudluğuna dair audit sübutları əldə edərsə və müqayisəli göstəricilər lazımi qaydada yenidən tərtib edilməmişdirsə və ya müvafiq qaydada açıqlanmamışdırsa, auditor cari dövrün maliyyə hesabatlarına

[50] Auditor hesabatına təsir üçün bax: 9-cu hissə, 9.5.26-cı paraqraf

dair auditor hesabatında müqayisəli göstəricilərlə bağlı dəyişikllik edib, şərti müsbət rəy və ya mənfi rəy bildirməlidir.

Müqayisəli maliyyə hesabatları

9.7.7. Müqayisəli maliyyə hesabatları təqdim edildikdə, auditor rəyində, maliyyə hesabatlarının təqdim edilən və barəsində auditor rəyi verilən hər bir dövrə istinad edilməlidir.

9.7.8. Cari dövrün auditi ilə əlaqədar auditor əvvəlki dövrün maliyyə hesabatlarına dair hesabat verərkən, həmin əvvəlki dövrün maliyyə hesabatlarına dair auditor rəyi auditorun daha əvvəl bildirdiyi rəydən fərqlənərsə, bu zaman auditor "Digər məsələlər" paraqrafında fərqli rəyin əsas səbəblərini açıqlamalıdır.

9.8. Digər məlumatlar

"Digər məlumatlar" - müəssisənin illik hesabatına daxil edilmiş maliyyə və ya qeyri-maliyyə məlumatıdır (maliyyə hesabatları və onlara dair auditor hesabatı istisna olmaqla).

9.8.1. Auditor rəhbərliklə müzakirələr aparmaqla illik hesabatın hansı sənəddən (sənədlərdən) ibarət olduğunu və həmin sənədin (sənədlərin) müəssisə tərəfindən və vaxt və necə təqdim ediləcəyini müəyyən etməlidir.

9.8.2. Auditor digər məlumatlarla tanış olmalı və aşağıdakıları təmin etməlidir:

(a) Digər məlumatlar ilə maliyyə hesabatları arasında əhəmiyyətli uyğunsuzluğun olub-olmamasını nəzərdən keçirməlidir; habelə
(b) Digər məlumatlar ilə auditorun audit zamanı əldə etdiyi məlumatlar arasında əhəmiyyətli uyğunsuzluğun olub-olmamasını nəzərdən keçirməlidir.

9.8.3. 9.8.2.(a) bəndində əks etdirilən mülahizələrə əsas olaraq, auditor, digər məlumatlarda əks etdirilən seçilmiş məbləğlərin və ya digər maddələrin (maliyyə hesabatlarındakı məbləğlər və ya digər maddələrlə eyni olması, bu cür məbləğləri və ya digər maddələri ümumiləşdirməsi, yaxud onlara dair daha çox təfərrüat verməsi nəzərdə tutulur) uyğunluğunu dəyərləndirmək üçün maliyyə hesabatlarında əks etdirilmiş bu cür məbləğlər və ya digər maddələrlə müqayisə etməlidir.

Seçilmiş məbləğlərin və ya digər maddələrin uyğunluğunu qiymətləndirərkən, auditordan maliyyə hesabatlarında əks etdirilən məbləğlər və ya digər maddələr ilə eyni olması və ya onları ümumiləşdirməsi, yaxud onlar barədə daha çox təfərrüat verməsi nəzərdə tutulan digər məlumatlarda əks etdirilən bütün məbləğləri və ya digər maddələri maliyyə hesabatlarında əks etdirilən həmin məbləğlər və ya digər maddələr ilə müqayisə etməsi tələb olunmur.

9.8.4. Digər məlumatlar ilə tanış olarkən auditor, həmçinin maliyyə hesabatları və ya auditorun audit zamanı əldə etdiyi məlumatlar ilə əlaqəsi olmayan digər məlumatların qalan hissəsinin əhəmiyyətli dərəcədə təhrif edildiyinə dəlalət edən halların olub-olmadığına da diqqət yetirməlidir.

9.8.5. Əgər auditor əhəmiyyətli uyğunsuzluğun mövcud olduğunu müəyyən edərsə (və ya digər məlumatların əhəmiyyətli dərəcədə təhrif olunduğu auditora məlum olarsa), auditor bu məsələni rəhbərliklə müzakirə etməli və lazım gələrsə, aşağıdakılar barədə nəticə çıxarmaq üçün digər prosedurları həyata keçirməlidir:

(a) digər məlumatlarda əhəmiyyətli təhriflər mövcuddur;
(b) maliyyə hesabatlarında əhəmiyyətli təhriflər mövcuddur; yaxud
(c) auditorun müəssisə və onun mühiti barədə təsəvvürü yenilənməlidir.

9.8.6. Əgər auditor əldə etdiyi audit sübutlarına əsasən, digər məlumatlarda əhəmiyyətli təhriflərin mövcud olduğu qənaətinə gələrsə, auditor rəhbərlikdən digər məlumatları düzəltməsini tələb etməlidir. Əgər rəhbərlik:

(a) düzəliş etməyə razılaşarsa, auditor düzəlişin edildiyini müəyyən etməlidir; yaxud
(b) düzəliş etməkdən imtina edərsə, auditor bu məsələ barədə idarəetməyə məsul şəxslərə məlumat verməli və düzəlişin edilməsini tələb etməlidir. Əgər düzəliş yenə də edilməzsə, auditor aşağıdakı Cədvəl E-yə uyğun olaraq bu məsələnin auditor hesabatına təsirini nəzərdən keçirməli və ya mümkün olduqda, tapşırıqdan imtina etməlidir.

9.8.7. Əgər auditor digər məlumatların bir qismini və ya hamısını auditor hesabatı tarixində əldə etmişdirsə, auditor Cədvəl E-yə uyğun olaraq auditor hesabatına “Digər məlumatlar” bölməsini daxil etməlidir.

CƏDVƏL E Paraqraf və ya bölmə	**Yer**	**Başlığa daxil ediləcək ifadələr**	**Məzmuna daxil ediləcək mətn**
9.8.8. “Digər məsələlər” paraqrafı	Auditor hesabatının ayrıca bölməsi	“Digər məlumatlar” və ya digər müvafiq başlıq	(a) Rəhbərliyin digər məlumatlara görə məsuliyyət daşıması barədə ifadə; (b) Auditor hesabatının tarixindən əvvəl auditor tərəfindən əldə edilmiş digər məlumatlar (əgər varsa); (c) Auditor rəyində digər məlumatların əhatə edilməməsi və müvafiq olaraq, auditorun onlara dair auditor rəyi və ya hər hansı formada əminlik qənaəti ifadə etməməsi barədə ifadə; (d) Bu “AMM üçün BAS”-ın tələblərinə uyğun olaraq digər məlumatlarla tanış olma, onları nəzərdən keçirmə və onlar barədə məlumatvermə üzrə auditorun məsuliyyətlərinin təsviri; habelə (e) Digər məlumatlar auditor hesabatının tarixindən əvvəl əldə edildikdə, aşağıdakılardan biri: (i) auditorun məruzə edəcəyi heç bir məlumatın olmadığı barədə ifadə; yaxud (ii) əgər auditor digər məlumatlarda düzəliş edilməmiş əhəmiyyətli təhrifin mövcud olması qənaətinə gələrsə, digər məlumatlardakı düzəliş edilməyən əhəmiyyətli təhrifi təsvir edən ifadə.

9.8.9. Qanun və ya qaydalarla tələb olunmadığı təqdirdə, auditor maliyyə hesabatlarına dair rəy verməkdən imtina etdikdə, auditor hesabatına “Digər məlumatlar” bölməsi daxil edilməməlidir.

9.9. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığının bütün mərhələlərində tətbiq edilən 2.4-cü hissədə əks etdirilən sənədləşdirilmə ilə bağlı ümumi tələblərlə yanaşı, bu hissəyə uyğun olaraq sənədləşdirilməli olan xüsusi məsələlər aşağıda təsvir edilmişdir.

9.9.1. Auditor digər məlumatlarla bağlı həyata keçirilmiş prosedurları və digər məlumatların yekun variantını sənədləşdirməlidir.

10. Qrup maliyyə hesabatlarının auditi

Bu hissənin məzmunu

10-cu hissədə qrup auditinə aid olan xüsusi mülahizələr müəyyən edilir. Bu hissədə "auditor" dedikdə "qrup auditoru" nəzərdə tutulur.

Bu hissənin əhatə dairəsi

"AMM üçün BAS"-ın bütün hissələri qrup auditinə şamil olunur. Bu hissədə əks etdirilən tələblər və təlimatlarda "AMM üçün BAS"-ın digər hissələrinin qrup auditinə tətbiq edilməsinə istinad edilir və ya tətbiq edilməsi ətraflı izah edilir.

10.1. Məqsəd

10.1.1. Auditorun məqsədi istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərini aşkar etmək və qiymətləndirmək, habelə qiymətləndirilmiş risklər ilə bağlı müvafiq cavab tədbirləri görmək üçün əlavə audit prosedurlarını planlaşdırmaq və həyata keçirməkdir.

10.2. Planlaşdırma tədbirləri

10.2.1. 5-ci hissəni tətbiq edərkən auditor qrup auditinin həcmini, müddətini və istiqamətini müəyyən etməli və zəruri hallarda, yeniləməlidir. Bu zaman auditor aşağıdakıları müəyyən etməlidir:

(a) Audit işinin aparılacağı bölmələr; habelə
(b) Qrup audit tapşırığını yerinə yetirmək üçün lazım olan resurslar.

Bölmələr

Audit işinin hansı bölmədə yetiriləcəyinə dair qərar verərkən peşəkar mühakimə yürüdülməlidir. Auditorun qərarına təsir edə biləcək məsələlərin nümunələri aşağıdakılardır:

- *Qrup maliyyə hesabatlarının təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhrif risklərinə səbəb ola biləcək hadisələrin və ya şəraitlərin (məsələn, yeni yaradılmış və ya satın alınmış müəssisələr, yaxud əhəmiyyətli dəyişikliklərin baş verdiyi müəssisələr və ya struktur vahidləri ilə əlaqəli olanların) xüsusiyyəti.*
- *Qrup maliyyə hesabatlarına nisbətən məkanda və ya struktur vahidində aktivlərin, öhdəliklərin və əməliyyatların həcmi və xüsusiyyəti nəzərə alınmaqla, qrup maliyyə hesabatlarındakı əhəmiyyətli əməliyyat kateqoriyalarının, hesab qalıqlarının və açıqlamaların bölmələr üzrə bölünməsi.*
- *Müəyyən edilmiş bölmələrin maliyyə məlumatlarına dair planlaşdırılmış audit işi nəticəsində qrup maliyyə hesabatlarındakı bütün əhəmiyyətli əməliyyat kateqoriyaları, hesab qalıqları və açıqlamalar üçün yetərli müvafiq audit sübutlarının əldə ediləcəyinin ehtimal edilib-edilməməsi.*
- *Əvvəlki dövrlərin auditində bölmədə aşkar edilmiş təhriflərin və ya nəzarətdə çatışmazlıqlarının xüsusiyyəti və həcmi.*
- *Qrupdakı nəzarət vasitələrinin ümumiləşdirilməsinin xüsusiyyəti və həcmi, habelə qrupun maliyyə hesabatları ilə əlaqəli fəaliyyətin mərkəzləşdirilmiş qaydada aparılıb-aparılmaması, aparıldığı halda isə necə aparılması.*

Qrupun təşkilati strukturunu və informasiya sistemi barədə təsəvvür əsasında auditor qərar verə bilər ki, müəyyən müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatları audit prosedurlarının planlaşdırılması və həyata keçirilməsi məqsədilə birlikdə nəzərdən keçirilə bilər. Məsələn, bir qrup eyni coğrafi ərazidə fəaliyyət göstərən, rəhbərliyi eyni olan və informasiya sistemi də daxil olmaqla, daxili nəzarət üçün ortaq sistemdən istifadə edən, oxşar biznes xüsusiyyətlərinə malik üç hüquqi şəxsə malik ola bilər. Bu şəraitdə auditor bu üç hüquqi şəxsi bir bölmə kimi nəzərə almağa qərar verə bilər.

Resurslar

3-cü hissədə tapşırıq üzrə tərəfdaşdan tapşırığı yerinə yetirmək üçün yetərli və müvafiq resursların vaxtında ayrılması və ya tapşırıq qrupuna təqdim edilməsinə dair qərar vermək tələb edilir. Qrup auditinin aparılması üçün tələb olunan resurslara dair qərar ilə bağlı peşəkar mühakimə yürüdülməlidir və bu qərar aşağıdakılar barədə təsəvvürü əhatə edə bilər :

- *qrup;*
- *audit işinin yerinə yetiriləcəyi qrup daxilindəki bölmələr, həmin bölmələrin yeri və dil, mədəniyyət və normativ aktlar kimi yurisdiksiyada əlaqəli amillər; habelə*
- *işin mərkəzi qaydada, bölmələrdə yerinə yetirilməsi və ya qarışıq modelin tətbiq edilməsi.*

10.2.2. Qrup audit tapşırığının qəbul edilməsindən və ya davam etdirilməsindən sonra tapşırıq üzrə tərəfdaş yetərli müvafiq audit sübutlarının əldə edilə bilməyəcəyi qənaətinə gələrsə, tapşırıq üzrə tərəfdaş qrup auditinə mümkün təsirləri nəzərdən keçirməlidir.

10.3. Əhəmiyyətlilik

10.3.1. 5-ci hissəni tətbiq edərkən, qrup maliyyə hesabatlarındakı əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar bölmələr üzrə bölündükdə, audit prosedurlarının planlaşdırılması və yerinə yetirilməsi məqsədilə auditor bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyini müəyyən etməlidir. Aqreqasiya riskini aradan qaldırmaq üçün bu məbləğ qrupun fəaliyyət göstəricilərinin əhəmiyyətliliyindən aşağı olmalıdır.

Bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətlilik məbləği hər bir bölmə üçün fərqli ola bilər. Həmçinin, fərdi bölmə üçün bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətlilik məbləği qrupun fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinin sadə arifmetik bölgüsü olmamalıdır və nəticə etibarilə, bölmənin fəaliyyətinin əhəmiyyətlilik məbləğlərinin cəmi qrupun fəaliyyətinin əhəmiyyətliliyindən artıq ola bilər.

"AMM üçün BAS"-a uyğun olaraq, audit prosedurlarının həyata keçirildiyi bölmələrdə hər bir əməliyyat kateqoriyası, hesab qalığı və ya açıqlamalar üçün bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinin müəyyən edilməsi tələb edilmir. Bununla belə, əgər qrupun konkret şəraitində, bir və ya daha çox əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar mövcud olarsa və onlar üçün bütövlükdə qrup maliyyə hesabatları üçün əhəmiyyətlilikdən daha az məbləğdə təhriflərin istifadəçilərin qrup maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlarına təsir göstərəcəyi ehtimalı əsaslıdırsa, 5-ci hissədə həmin əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalara tətbiq ediləcək əhəmiyyətlilik səviyyəsini və ya səviyyələrini müəyyən etmək tələb edilir. Bu şəraitdə auditorun bu əməliyyatların xüsusi kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üçün həmin məbləğdən az olan bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətlilik məbləğinin olub-olmadığını nəzərdən keçirməsi lazım ola bilər.

Bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinin müəyyən edilməsi sadə mexaniki hesablama deyil və peşəkar mühakimənin yürüdülməsini nəzərdə tutur. Bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyini müəyyən edərkən auditor aşağıdakı amilləri nəzərə ala bilər:

- *Bölmələr üzrə maliyyə məlumatlarının bölünmə həcmi (məs., bölmələr üzrə bölünmə həcmi artdıqca, aqreqasiya riskini aradan qaldırmaq üçün adətən bölmənin fəaliyyət göstəricilərinin daha aşağı əhəmiyyətliliyi məqsədəuyğun olar). Bölmənin qrupdakı nisbi əhəmiyyəti bölünmə həcminə təsir göstərə bilər (məs., bir bölmə qrupun böyük bir hissəsini təşkil edirsə, bölmələr arasında bölünmə ehtimalı daha az ola bilər).*
- *Bölmənin maliyyə məlumatlarındakı təhriflərin xüsusiyyəti, tezliyi və həcmi ilə bağlı gözləntilər, məsələn, əvvəlki auditlərdə bölmədə aşkar edilmiş təhriflərin xüsusiyyəti və miqyası.*

Aqreqasiya riskini aradan qaldırmaq üçün 10.3.1-ci paraqrafın tələblərinə uyğun olaraq, bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi qrupun fəaliyyət göstəricilərinin əhəmiyyətliliyindən aşağı olmalıdır. Bununla belə, bəzi şəraitlərdə, aqreqasiya riski daha az olduğu üçün (məs., bir bölmənin maliyyə məlumatları qrup maliyyə hesabatlarının əhəmiyyətli hissəsini təşkil etdikdə) bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinin məbləği qrupun fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinə daha yaxın müəyyən edilə bilər.

10.4. Qrup və onun mühiti, maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və qrupun daxili nəzarət sistemi barədə təsəvvürün əldə edilməsi

10.4.1. 6-cı hissəni tətbiq edərkən auditor aşağıdakılar barədə təsəvvür əldə etməlidir:

(a) Qrupun təşkilati strukturu və biznes modeli, o cümlədən:

(i) Qrupun fəaliyyət göstərdiyi və ya əməliyyat apardığı məkanlar;
(ii) Qrupun fəaliyyət və əməliyyatlarının xüsusiyyəti və onların qrup daxilində oxşarlıq dərəcəsi; habelə
(iii) İT istifadəsinin qrupun biznes modelinə inteqrasiya dərəcəsi.

(b) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri və qrupda uçot siyasəti və təcrübələrinin uyğunluğu.

(c) Qrupun daxili nəzarət sistemi, o cümlədən:

(i) Qrupun istifadə etdiyi konsolidasiya prosesi və konsolidasiya düzəlişləri;
(ii) Nəzarət vasitələrinin birgə istifadəsinin xüsusiyyəti və həcmi;
(iii) Qrup maliyyə hesabatlarına aid fəaliyyətlərin mərkəzləşdirilmə üsulu; habelə
(iv) Qrupun rəhbərliyi qrup maliyyə hesabatlarının hazırlanmasını təmin edən mühüm məsələləri müəssisə və ya struktur vahidlərinin rəhbərliyinə necə çatdırır?

10.5. Əhəmiyyətli təhrif risklərinin müəyyən edilməsi və qiymətləndirilməsi

10.5.1. 6-cı hissəni tətbiq edərkən 10.4.1-ci paraqrafda əldə edilmiş təsəvvürə əsaslanaraq auditor qrup maliyyə hesabatlarının, o cümlədən konsolidasiya prosesi ilə bağlı əhəmiyyətli təhrif risklərini aşkar etməli və qiymətləndirməlidir.

6-cı hissəni tətbiq edərkən auditor dələduzluq nəticəsində baş vermiş maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərini aşkar etməli və qiymətləndirməli, həmçinin xüsusiyyəti, müddəti və həcmi təsdiqləmələr səviyyəsində dələduzluq nəticəsində baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə uyğun olan əlavə audit prosedurlarını tərtib etməli və həyata keçirməlidir. Dələduzluq nəticəsində baş vermiş qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif risklərini aşkar etmək üçün istifadə olunan məlumatlara aşağıdakılar daxil ola bilər:

- *Dələduzuq nəticəsində baş vermiş əhəmiyyətli təhrif risklərinin daha çox təsir edə*

biləcəyi müəyyən bölmələrin olub-olmaması.

- *Konsolidasiya prosesində dələduzluq riski amillərinin və ya rəhbərliyin qərəzliliyinə dəlalət edən halların mövcud olub-olmaması.*

- *Qrupun idarəetməyə məsul şəxsləri qrupdakı dələduzluq risklərinin aşkar edilməsi və onlarla bağlı cavab tədbirlərinin görülməsi üçün qrup rəhbərliyinin tətbiq etdiyi proseslərə və bu riskləri azaltmaq üçün rəhbərliyin müəyyən etdiyi nəzarət vasitələrinə necə nəzarət edir.*

- *Bölməyə və ya qrupa təsir edən faktiki, ehtimal edilən və ya ittiham edilən dələduzluq haqqında bilib-bilməmələri barədə auditorun sorğusuna qrupun idarəetməyə məsul şəxslərinin və qrupun rəhbərliyinin cavabları.*

10.6. Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirlərinin görülməsi

10.6.1. 7-ci hissəni tətbiq edərkən auditor əlavə audit prosedurlarının yerinə yetiriləcəyi bölmələri, habelə həmin bölmələrdə görüləcək işin xüsusiyyəti, müddəti və həcmini müəyyən etməlidir.

Bir və ya bir neçə əhəmiyyəti əməliyyat kateqoriyası, hesab qalığı və ya açıqlamalar üzrə əlavə audit prosedurlarının yerinə yetirilməsi nəticəsində əldə ediləcək audit sübutları məcmu halında qiymətləndirilmiş əhəmiyyətli təhrif risklərinə cavab verərsə, məsələn, bütün qrupun gəlir əməliyyatları üzrə mühasibat uçotu mərkəzləşdirilmiş qaydada aparılırsa, əlavə audit prosedurları tərtib oluna və mərkəzləşdirilmiş qaydada həyata keçirilə bilər.

Auditor bölmələrin maliyyə məlumatlarını əlavə audit prosedurlarını yerinə yetirmək məqsədilə vahid əsas məcmu kimi qəbul edə bilər, məsələn, əməliyyatlar eyni xüsusiyyətlərə malik olduqlarına görə həmcins hesab edildikdə, əlaqəli əhəmiyyətli təhrif riskləri eyni olur və nəzarət vasitələri ardıcıl şəkildə tərtib edilib fəaliyyət göstərir. Belə hallarda, bu prosedurların həyata keçirilməsi məqsədləri üçün çox vaxt qrupun fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi istifadə edilir.

Digər hallarda, bölmənin maliyyə məlumatları ilə əlaqəli olan qrup maliyyə hesabatlarının əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbiri görmək üçün nəzərdə tutulan prosedurların bölmə səviyyəsində həyata keçirilməsi daha effektiv ola bilər. Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbiri görərkən, auditor aşağıdakı iş həcmini bölmə üçün uyğun hesab edə bilər:

- *Bölmənin bütün maliyyə məlumatları üzrə əlavə audit prosedurlarını tərtib etmək və həyata keçirmək;*
- *Bir və ya daha çox əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üzrə əlavə audit prosedurlarını tərtib etmək və həyata keçirmək; yaxud*
- *Müəyyən əlavə audit prosedurlarını həyata keçirmək.*

Konsolidasiya prosesi

10.6.2. Auditor, konsolidasiya prosesindən irəli gələn qrup maliyyə hesabatlarında baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək üçün əlavə audit prosedurlarını tərtib etməli və həyata keçirməlidir. Bu prosedurlara aşağıdakılar daxildir:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq, qrup maliyyə hesabatlarına bütün müəssisələrin və struktur vahidlərin daxil edilib-edilmədiyini müəyyən etmək;

(b) Konsolidasiya ilə bağlı düzəlişlərin və təkrar təsnifləşdirmələrin məqsədəuyğunluğunu, tamlığını və düzgünlüyünü qiymətləndirmək;

(c) Rəhbərliyin konsolidasiya prosesində yürütdüyü mühakimələrin rəhbərliyin mümkün qərəzliliyinin dəlillərinə əsas verib-vermədiyini müəyyən etmək; habelə

(d) Konsolidasiya prosesindən irəli gələn dələduzluq nəticəsində baş vermiş qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbirləri görmək.

Konsolidasiya prosesi adi İT tətbiqlərindən keçməyən və digər maliyyə məlumatları ilə eyni nəzarət vasitələrinin tətbiq edilmədiyi qrup maliyyə hesabatlarında təqdim edilən məbləğlərə düzəlişlərin və yenidən təsnifləşdirmələrin edilməsini tələb edə bilər. Düzəlişlərin və yenidən təsnifləşdirmələrin məqsədəuyğunluğu, tamlığı və düzgünlüyünün auditor tərəfindən qiymətləndirilməsi aşağıdakıları əhatə edə bilər:

- *Əhəmiyyətli düzəlişlərdə onları əsaslandıran hadisələrin və əməliyyatların müvafiq qaydada əks etdirilib-etdirilmədiyini dəyərləndirmək;*
- *Maliyyə məlumatları qrup maliyyə hesabatlarına daxil edilmiş müəssisə və ya struktur vahidlərinin müvafiq qaydada daxil edilib-edilmədiyini müəyyən etmək;*
- *Əhəmiyyətli düzəlişlərin qrup rəhbərliyi və müvafiq hallarda, bölmə rəhbərliyi tərəfindən düzgün hesablanıb, emal edilib və icazə verilib-verilmədiyini müəyyən etmək;*
- *Əhəmiyyətli düzəlişlərin lazımi qaydada əsaslandırılıb-əsaslandırılmadığını və kifayət qədər sənədləşdirilib-sənədləşdirilmədiyini müəyyən etmək; habelə*
- *Qrupdaxili əməliyyatların, reallaşmamış mənfəətin və qrupdaxili hesab qalıqlarının üzləşdirilməsini və uyğunsuzluqların aradan qaldırılmasını dəyərləndirmək.*

10.7. Məlumatvermə ilə bağlı xüsusi tələblər

10.7.1. Auditor idarəetməyə məsul şəxslərə aşağıdakı məsələlər barədə məlumat verməlidir:

(a) Qrupun bölmələrində görüləcək işlərin icmalı.

(b) Dələduzluq nəticəsində qrup maliyyə hesabatlarında əhəmiyyətli təhriflər baş verdikdə qrupun rəhbərliyi, bölmənin rəhbərliyi, qrupun daxili nəzarət sistemində mühüm rolu olan işçilərin və ya digər şəxslərin iştirakı ilə faktiki və ya ehtimal edilən dələduzluq.

10.8. Sənədləşdirilmə ilə bağlı xüsusi tələblər

Audit tapşırığının bütün mərhələlərində tətbiq olunan, 2.4-cü hissədə verilən sənədləşdirilmə ilə bağlı ümumi tələblərdən əlavə, bu hissəyə uyğun olaraq sənədləşdirilməli olan xüsusi məsələlər aşağıda təsvir edilmişdir.

10.8.1. Auditin sənədləşdirilməsinə auditor aşağıdakıları daxil etməlidir:

(a) Qrup auditinin planlaşdırılması və aparılması məqsədləri üçün auditorun bölmələri müəyyən etməsinin əsaslandırılması;

(b) Bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyinin müəyyən edilməsi üçün əsas; və

(c) Qrup daxili nəzarət sistemi barədə əldə edilən təsəvvürün əsas elementləri.

ƏLAVƏ 1

Terminlər lüğəti

Bu terminlər lüğətində "AMM üçün BAS"-ın məqsədləri üçün müəyyən edilmiş terminlərin siyahısı təqdim edilir. Anlayışlar bu standartın ardıcıl tətbiq və şərh edilməsini asanlaşdırır və istər qanun və ya qaydalar ilə, istərsə də başqa cür müəyyən edilmiş anlayışları əvəz etmək məqsədi daşımır. Başqa cür qeyd olunmadığı təqdirdə, anlayışlar bu standart boyunca eyni mənaları daşıyır. Bundan əlavə, bu lüğətdə ümumi və ardıcıl şərh və tərcüməni təmin etmək məqsədilə "AMM üçün BAS"-da olan digər terminlərin izahları da verilir (bu cür digər terminlər "*" (ulduz) işarəsi ilə qeyd olunmuşdur).

Uçot qiymətləndirmələri (Accounting estimate) — Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq, dəqiq ölçmə üsulları olmadıqda, hər hansı pul məbləğinin təqribi olaraq göstərilməsi.

Mühasibat uçotu sənədləri (Accounting records) — Ümumiyyətlə, ilkin uçot yazılışlarından və əsaslandırıcı sənədlərdən ibarət olur, məsələn, elektron pul köçürülmələrinin qəbzləri və qeydləri; hesab-fakturalar; müqavilələr; baş kitab və köməkçi mühasibat jurnalları; jurnal yazılışları və maliyyə hesabatlarına edilmiş, lakin rəsmi jurnal yazılışlarında əks olunmamış düzəlişlər; habelə xərclərin bölüşdürülməsi, hesablamalar, üzləşdirmələr və məlumatların açıqlanmasını əsaslandırmaq üçün nəzərdə tutulmuş işçi vərəqələri və iri formalı cədvəllər.

Aqreqasiya riski (Aggregation risk) — Düzəliş edilməmiş və aşkar edilməmiş təhriflər məcmusunun bütövlükdə maliyyə hesabatı üçün əhəmiyyətlilikdən artıq olması ehtimalı.

Analitik prosedurlar (Analytical procedures) — Həm maliyyə, həm də qeyri-maliyyə xarakterli verilənlər arasında həqiqətə uyğun əlaqələrin təhlili yolu ilə maliyyə məlumatlarının qiymətləndirilməsi. Analitik prosedurlar, həmçinin, müəyyən edilmiş dəyişikliklərin, habelə digər mühüm məlumatlarla ziddiyyət təşkil edən və ya ehtimal olunan nəticələrlə əhəmiyyətli dərəcədə ziddiyyət təşkil edən və ehtimal olunan nəticələrdən əhəmiyyətli dərəcədə kənarlaşan əlaqələrin tədqiqatını həyata keçirir.

İllik hesabat (Annual report) — Qanun, qayda və ya bir qayda olaraq, rəhbərlik və ya idarəetməyə məsul şəxslər tərəfindən hər il hazırlanan, məqsədi mülkiyyətçilərə (və ya bu kimi maraqlı tərəflərə) maliyyə hesabatlarında qeyd olunduğu müəssisənin əməliyyatları və müəssisənin fəaliyyətinin maliyyə nəticələri və maliyyə vəziyyəti haqqında məlumat verməkdən ibarət olan bir və ya bir neçə sənəddir. İllik hesabata maliyyə hesabatları və onlara dair auditor rəyi daxildir və ya illik hesabat qeyd edilən sənədləri müşayiət edir və adətən müəssisədəki yenilikləri, gələcək perspektivləri, riskləri və qeyri-müəyyənlikləri, müəssisənin idarəetmə orqanının hesabatını və idarəetmə məsələlərini əhatə edən hesabatları özündə ehtiva edir.

Qeyri-adi təhrif (Anomaly) — Yoxlanılan əsas məcmuda təhrif və ya kənarlaşmalar üçün açıq-aşkar səciyyəvi olmayan təhrif və ya kənarlaşma.

Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri (Applicable financial reporting framework) — Rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslər tərəfindən maliyyə hesabatlarının hazırlanmasında tətbiq olunan, müəssisənin xüsusiyyətləri və maliyyə hesabatlarının məqsədləri baxımından qəbul edilən və yaxud qanun və ya qaydalarda nəzərdə tutulan maliyyə hesabatları çərçivələri.

"Ədalətli təqdimat çərçivələri" termini maliyyə hesabatları çərçivələrini ifadə etmək üçün işlədilir və bu cür çərçivələrə riayət olunmasını tələb edir, habelə:

(a) Açıq şəkildə və ya dolayısı ilə etiraf edir ki, maliyyə hesabatlarının ədalətli təqdim edilməsinə nail olmaq üçün rəhbərlikdən çərçivədə konkret olaraq tələb olunanlardan savayı, əlavə məlumatların açıqlanması tələb edilə bilər; yaxud

(b) Açıq şəkildə etiraf edir ki, maliyyə hesabatlarının ədalətli təqdim edilməsinə nail olmaq üçün rəhbərliyə çərçivələrin tələblərindən kənara çıxmaq zəruri ola bilər. Bu cür kənarlaşmaların çox nadir hallarda zəruri olacağı ehtimal edilir.

“Uyğunluq çərçivələri” termini çərçivənin tələblərinə uyğunluğu tələb edən maliyyə hesabatları çərçivələrinə istinad üçün istifadə olunur, lakin yuxarıdakı (a) və (b) bəndlərində qeyd edilən etirafları ehtiva etmir.

Müvafiqlik (audit sübutunun) (Appropriateness (of audit evidence)) — Audit sübutunun keyfiyyət ölçüsü; yəni auditor rəyinin əsaslandığı nəticələri təmin etməkdə bu sübutun uyğunluğu və etibarlılığı.

Müstəqil tərəflər arasında sövdələşmə (Arm’s length transaction) — Bir-biri ilə əlaqəsi olmayan, bir-birindən asılı olmadan fəaliyyət göstərən və öz maraqlarını güdən müvafiq alıcı ilə satıcı arasında olduğu kimi şərtlər əsasında aparılan əməliyyat.

Qiymətləndirmək (Assess) — Müəyyən edilmiş əhəmiyyətli təhrif risklərinin əhəmiyyətliliyi barədə nəticə çıxarmaq üçün onları təhlil etmək. “Qiymətləndirmək” terminindən yalnız risklə əlaqədar mövzularda istifadə edilir. (Bax: “Dəyərləndirmək”)

Təsdiqləmələr (Assertions) — Rəhbərlik tərəfindən maliyyə hesabatlarının tətbiq olunan maliyyə hesabatları çərçivələrinə uyğun hazırlanmasının təsdiq edilməsi ilə bağlı maliyyə hesabatlarında məlumatların açıq və ya dolayısı ilə tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanmasına dair ifadələr. Bu təsdiqləmələr əhəmiyyətli təhrif riskləri aşkar edilən, qiymətləndirilən və onlarla bağlı cavab tədbirləri görülən zamanı baş verə biləcək müxtəlif növ potensial təhrifləri nəzərə almaq üçün auditor tərəfindən istifadə olunur.

Təsdiqləmə, əminlik (Assurance) — (bax: “Ağlabatan əminlik”)

Auditin sənədləşdirilməsi (Audit documentation) — Yerinə yetirilmiş audit prosedurlarının, əldə edilmiş münasib audit sübutlarının və auditorun əldə etdiyi nəticələrin qeydə alınması (bəzən “işçi sənədlər” və ya “iş sənədləri” kimi terminlərdən də istifadə edilir).

Audit sübutu (Audit evidence) — Auditor rəyini əsaslandıran nəticələrə nail olmaq üçün auditor tərəfindən istifadə edilən məlumatlar. Audit sübutları maliyyə hesabatlarının əsasını təşkil edən mühasibat sənədlərindəki məlumatlardan və digər məlumatlardan ibarətdir. (bax: “Audit sübutlarının yetərliliyi” və “Audit sübutlarının müvafiqliyi”).

Audit faylı (Audit file) — Konkret tapşırıq üzrə auditin sənədləşdirilməsini təşkil edən sənədləri ehtiva edən fiziki və ya elektron formalı bir və ya daha çox qovluq və ya digər informasiya daşıyıcısıdır.

Auditor təşkilatı (Audit firm) — (bax: “Şirkət”)

Auditor rəyi (Audit opinion) — (bax: “Fərqli rəy” və “Şərtsiz müsbət rəy”)

Audit riski (Audit risk) — Maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi hallarında auditorun müvafiq olmayan rəy bildirməsi ilə əlaqədar risk. Audit riski əhəmiyyətli təhriflər riskindən və aşkar etməmə riskindən asılıdır.

Audit seçməsi (seçmə) (Audit sampling (sampling)) — Auditoru bütün əsas məcmu haqqında nəticə çıxarmaq üçün ağlabatan əsasla təmin etmək məqsədilə audit prosedurlarının auditə aidiyyəti olan əsas məcmu daxilindəki elementlərin 100%-nə yox, yalnız müəyyən hissəsinə audit prosedurlarını tətbiq edib, bütün seçmə vahidlərinə seçilmə şansını verməkdir.

Auditor (Auditor) — “Auditor” terminindən auditi aparan şəxs və ya şəxsləri, adətən, audit qrupunun rəhbərini və ya digər üzvlərini, yaxud auditor təşkilatını ifadə etmək üçün istifadə olunur. Tələb və ya məsuliyyətlərin tapşırıq üzrə tərəfdaş tərəfindən yerinə yetirilməsi “AMM üçün BAS”-da aydın şəkildə nəzərdə tutulduğu hallarda, “auditor” termininin əvəzinə “tapşırıq üzrə tərəfdaş” terminindən istifadə olunur. “Tapşırıq üzrə tərəfdaş” və “şirkət” terminləri, müvafiq hallarda, ictimai sektorda tətbiq olunan terminlərin ekvivalenti kimi oxunmalıdır.

Auditorun eksperti (Auditor’s expert) — Mühasibat uçotu və ya auditdən başqa bir sahədə təcrübəyə malik şəxs və ya təşkilat olub, auditor bu sahədə yetərli müvafiq audit sübutları əldə etmək üçün onun işindən yardımçı vasitə kimi istifadə edir. Auditorun eksperti ya auditorun daxili eksperti (auditor

təşkilatının və ya şəbəkə şirkətinin tərəfdaşı[51] və ya işçisi, o cümlədən müvəqqəti işçisi), yaxud auditorun xarici eksperti ola bilər.

Müşahidə əsaslı auditor qiymətləndirməsi və ya auditor qiymətləndirmələrinin diapazonu (Auditor's point estimate or auditor's range) — Müvafiq olaraq, rəhbərliyin müşahidə əsaslı hesablamalarını dəyərləndirmək üçün audit sübutlarından götürülmüş yekun kəmiyyətlər və ya kəmiyyətlər diapazonu.

Auditor qiymətləndirmələrinin diapazonu (Auditor's range) — (bax: "Müşahidə əsaslı auditor qiymətləndirməsi")

Kommersiya riski (Business risk) — Əhəmiyyətli şərtlərin, hadisələrin, şəraitlərin, fəaliyyət və ya fəaliyyətsizliklərin nəticəsində yaranan və müəssisənin öz məqsədlərinə nail olmasına və strategiyalarını yerinə yetirməsinə mənfi təsir göstərə bilən, yaxud qeyri-münasib məqsəd və strategiyaların təyin edilməsi nəticəsində yaranan risk.

Müqayisəli maliyyə hesabatları (Comparative financial statements) — Müqayisəli məlumatlar əvvəlki dövrün məbləğlərinin və açıqlanan digər məlumatlarının cari dövrün maliyyə hesabatları ilə müqayisə olunmaqdan ötrü daxil edildiyi, lakin audit edilərsə, auditor rəyinə aid edilən məlumatlardır. Həmin müqayisəli maliyyə hesabatlarına daxil olan məlumatların səviyyəsi cari dövrün maliyyə hesabatlarının səviyyəsi ilə müqayisə edilməlidir.

Müqayisəli məlumatlar (Comparative information) — Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq bir və ya bir neçə əvvəlki dövrə aid maliyyə hesabatlarına daxil edilmiş məbləğlər və açıqlanan digər məlumatlar.

Uyğunluq çərçivələri (Compliance framework) — (bax: "Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri" və "Ümumi təyinatlı çərçivələr")

Bölmə (Component) — Qrup auditində audit prosedurlarının planlaşdırılması və həyata keçirilməsi məqsədilə auditor tərəfindən müəyyən edilən müəssisə, struktur vahidi, funksiya və ya biznes fəaliyyəti və ya onların kombinasiyası.

Bölmə auditoru (Component auditor) — Qrup auditinin məqsədləri üçün bölmə ilə bağlı audit işini yerinə yetirən auditor. Bölmə auditoru qrup auditi üçün tapşırıq qrupunun bir hissəsidir.

Bölmə rəhbərliyi (Component management) — Bölməyə görə cavabdeh olan rəhbərlik.

Bölmənin fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi (Component performance materiality) — Bölmə ilə bağlı audit prosedurlarının planlaşdırılması və həyata keçirilməsi məqsədləri üçün aqreqasiya riskini müvafiq dərəcədə aşağı səviyyəyə endirmək üçün auditor tərəfindən müəyyən edilmiş məbləğ.

Nəzarət fəaliyyəti (Control activities) — Rəhbərlik tərəfindən verilən göstərişlərin yerinə yetirilməsinə nəzarət etməyə imkan verən metod və prosedurlar. Nəzarət fəaliyyəti daxili nəzarətin bir elementidir.

Nəzarət mühiti (Control environment) — Bura idarəetmə və rəhbərlik funksiyaları, müəssisədə həyata keçirilən daxili nəzarət və onun əhəmiyyəti ilə bağlı idarəetməyə məsul şəxslərin və rəhbərliyin mövqeyi, məlumatlılığı və hərəkətləri daxildir. Nəzarət mühiti daxili nəzarətin bir elementidir.

Nəzarət riski (Control risk) — (bax: "Əhəmiyyətli təhriflər riski")

Xidmət göstərən təşkilatın nəzarət vasitələri (Controls at the service organization) — Xidmət göstərən təşkilatın auditorunun əminlik hesabatında əhatə edilən nəzarətin məqsədinə nail olunmasına nəzarət vasitələri.

Korporativ idarəetmə (Corporate governance) — (bax: "İdarəetmə")

[51] "Tərəfdaş" və "şirkət" terminləri müvafiq hallarda ictimai sektor ekvivalentləri kimi istifadə olunmalıdır.

Müqayisəli göstəricilər (Corresponding figures) — Əvvəlki dövr üzrə məbləğlərin və digər açıqlanası məlumatların cari dövrün maliyyə hesabatlarının ayrılmaz bir hissəsi kimi daxil edildiyi, habelə cari dövrlə əlaqəli məbləğlər və digər açıqlanası məlumatlarla əlaqədar oxunması nəzərdə tutulan ("cari dövr göstəriciləri" adlandırılan) müqayisəli məlumatlar. Müqayisəli məbləğ və açıqlanası məlumatlarda təqdim olunan təfsilatın səviyyəsi birbaşa olaraq onun cari dövr göstəricilərinə uyğunluğuna görə müəyyən olunur.

Nəzarət vasitələri (Controls) — Nəzarət məqsədlərinə nail olmaq üçün müəssisənin rəhbərliyi və ya idarəetməyə məsul şəxsləri tərəfindən müəyyən etdiyi siyasət və ya prosedurlar. Bu kontekstdə:

(a) Siyasət nəzarəti həyata keçirmək üçün müəssisə daxilində nələrin edilməli və ya edilməməli olduğunun ifadə edilməsidir. Bu cür ifadələr sənədləşdirilə, açıq şəkildə məlumatvermələrdə ifadə oluna və ya hərəkətlər və qərarlar vasitəsilə dolayısı ilə nəzərdə tutula bilər.

(b) Prosedurlar siyasətləri həyata keçirmək üçün nəzərdə tutulan tədbirlərdir.

Maliyyə hesabatlarının təsdiq edilməsi tarixi (Date of approval of the financial statements) — Əlaqəli qeydlər də daxil olmaqla maliyyə hesabatlarını təşkil edən bütün hesabatların hazırlandığı və tanınmış səlahiyyətli orqanlar həmin maliyyə hesabatları üçün məsuliyyəti öz üzərinə götürdüklərini təsdiqlədikləri tarix.

Auditor hesabatının tarixi (Date of the auditor's report) — Auditorun maliyyə hesabatları üzrə hesabatın tarixi kimi qeyd etdiyi tarix.

Maliyyə hesabatlarının tarixi (Date of the financial statements) — Maliyyə hesabatlarının əhatə etdiyi sonuncu dövrün sonunu göstərən tarix.

Maliyyə hesabatlarının təqdim edildiyi tarix (Date the financial statements are issued) — Auditor hesabatının və auditi aparılmış maliyyə hesabatlarının üçüncü tərəfin istifadəsinə verildiyi tarix.

Daxili nəzarətdə çatışmazlıq (Deficiency in internal control) — Aşağıdakı hallarda mövcud olur:

(a) Nəzarət vasitəsi elə tərtib olunmuş, tətbiq edilmiş və ya idarə edilir ki, maliyyə hesabatlarındakı təhriflərin vaxtında qarşısını almaq, yaxud onları aşkar etmək və aradan qaldırmaq mümkün olmur; yaxud

(b) Maliyyə hesabatlarındakı təhriflərin vaxtında qarşısını almaq, yaxud aşkar etmək və aradan qaldırmaq üçün zəruri nəzarət vasitəsi mövcud deyildir.

Aşkar etməmə riski (Detection risk) — Auditor tərəfindən audit riskini məqbul sayılacaq qədər aşağı səviyyəyə salmaq üçün yerinə yetirilmiş prosedurların mövcud təhrifləri aşkar etməyəcəyi və bu təhriflərin istər ayrılıqda, istərsə də digər təhriflərlə birlikdə əhəmiyyətli ola biləcəyi ilə bağlı riskdir.

İzahedici paraqraf (Emphasis of Matter paragraph) — Auditor hesabatına daxil edilən və auditorun mühakiməsinə görə istifadəçilərin maliyyə hesabatları barədə təsəvvür əldə etmələri üçün vacib olan, maliyyə hesabatlarında müvafiq şəkildə təqdim edilmiş və ya açıqlanmış məsələyə aid paraqraf.

Məktub-saziş (Engagement letter) — Audit tapşırığının məktub şəklində ifadə edilmiş şərtləri.

Tapşırıq üzrə tərəfdaş (Engagement partner)[52] — Auditor təşkilatının təyin etdiyi, audit tapşırığına və onun yerinə yetirilməsinə, şirkətin adından təqdim edilən auditor hesabatına görə məsuliyyət daşıyan və zəruri hallarda peşəkar, hüquqi və ya tənzimləyici orqan tərəfindən verilən müvafiq səlahiyyətə malik olan tərəfdaş və ya digər şəxs.

Audit tapşırığının keyfiyyətinin təhlili (Engagement quality review) — Tapşırıq qrupu tərəfindən yürüdülmüş əhəmiyyətli mühakimələrin və onların əsasında əldə edilmiş nəticələrin tapşırıq üzrə müşahidəçi-ekspert tərəfindən yerinə yetirilən və tapşırıq üzrə hesabatın tarixindən gec olmayaraq tamamlanan obyektiv qiymətləndirilməsi.

[52] "Tapşırıq üzrə tərəfdaş", "tərəfdaş" və "şirkət" terminləri müvafiq hallarda ictimai sektor ekvivalentlərinə istinadən oxunmalıdır

Audit tapşırığının keyfiyyətinin təhlili üzrə müşahidəçi-ekspert (Engagement quality reviewer) — Audit tapşırığının keyfiyyətinin təhlilini həyata keçirmək üçün auditor təşkilatı tərəfindən təyin edilmiş tərəfdaş, auditor təşkilatındakı digər şəxs və ya kənar şəxs.

Tapşırıq qrupu (Engagement team) — Auditorun kənar eksperti və tapşırığa birbaşa kömək edən daxili auditorlar istisna olmaqla, audit tapşırığını yerinə yetirən bütün tərəfdaşlar və şəxsi heyət, eləcə də tapşırığa aid audit prosedurlarını həyata keçirən digər şəxslər.

Səhv (Error) — Maliyyə hesabatlarında bilməyərəkdən yol verilən təhrif, o cümlədən məbləğin göstərilməməsi və ya məlumatın açıqlanmaması.

Qiymətləndirmədə qeyri-müəyyənlik (Estimation uncertainty) — Ölçmələrin yetərincə dəqiq olmaması.

Dəyərləndirmək (Evaluate) — Hər hansı bir məsələ üzrə konkret qənaətə gəlmək üçün aidiyyəti məsələləri müəyyən etmək və təhlil etmək, o cümlədən zəruri hallarda əlavə prosedurları yerinə yetirmək. "Dəyərləndirmək" terminindən yalnız sübutlar, prosedurların nəticələri və risk ilə bağlı rəhbərliyin gördüyü tədbirlərin səmərəliliyi daxil olmaqla bir sıra məsələlərlə bağlı istifadə olunur. (bax: "Qiymətləndirmək")

İstisna (Exception) — Təsdiqlənməsi, yaxud müəssisənin sənədlərində əks etdirilməsi tələb olunan məlumatlarla təsdiq edən tərəfin təmin etdiyi məlumatlar arasında fərqi göstərən cavab.

Təcrübəli auditor (Experienced auditor) — Praktiki audit təcrübəsinə və aşağıdakı məsələlərlə bağlı kifayət qədər biliklərə malik (auditor təşkilatında işləyən və ya kənardan cəlb edilən) şəxs:

(a) Audit aparılması prosesləri;

(b) "AMM üçün BAS" və müvafiq qanun və qaydaların tələbləri;

(c) Müəssisənin fəaliyyət göstərdiyi biznes mühiti; habelə

(d) Müəssisənin fəaliyyət göstərdiyi sahəyə aid olan auditin aparılması və maliyyə hesabatlılığı ilə bağlı məsələlər.

Ekspert (Expert) — (bax: "Auditorun eksperti" və "Rəhbərliyin təyin etdiyi ekspert")

Sərişdə (Expertise) — Xüsusi bir sahədə bacarıqlar, bilik və iş təcrübəsi.

Kənar mənbələrdə təsdiqləmə (External confirmation) — Kağız, elektron və ya digər daşıyıcıda üçüncü tərəfdən (təsdiqedici tərəfdən) auditorun birbaşa yazılı cavab formasında aldığı audit sübutu.

Kənar məlumat mənbəyi (External information source) — Müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanmasında istifadə edilmiş və ya auditor tərəfindən audit sübutu kimi əldə edilmiş məlumatı təqdim edən kənar şəxs və ya təşkilat - əgər bu cür məlumat geniş istifadəçi dairəsi üçün uyğundursa. Məlumat rəhbərliyin təyin etdiyi ekspert, xidmət göstərən təşkilatın və ya auditorun eksperti kimi fəaliyyət göstərən şəxs və ya təşkilat tərəfindən təqdim edildikdə, həmin şəxs və ya təşkilat həmin məlumatla bağlı kənar məlumat mənbəyi hesab edilmir.

Ədalətli təqdimat çərçivələri (Fair presentation framework) — (bax: "Maliyyə hesabatlarının tətbiq olunan çərçivələri" və "Ümumi təyinatlı çərçivələr").

Maliyyə hesabatları (Financial statements) — Maliyyə hesabatlarının əsas çərçivələrinə uyğun olaraq, müəyyən bir zaman kəsiyində müəssisənin iqtisadi ehtiyatları və ya öhdəlikləri barədə məlumatları və ya müəyyən bir dövr üçün əlaqədar dəyişikliklər barədə məlumat vermək üçün nəzərdə tutulmuş keçmiş dövrlər üzrə maliyyə məlumatlarının, o cümlədən açıqlamaların strukturlaşdırılmış təqdim edilməsi. "Maliyyə hesabatları" termini, adətən, maliyyə hesabatlarının tətbiq olunan çərçivələrin tələblərinə görə müəyyən edildiyi qaydada maliyyə hesabatlarının tam dəstinə şamil olunur, lakin o, həmçinin, ayrıca maliyyə hesabatına da şamil oluna bilər. Açıqlamalar zəruri hallarda müvafiq maliyyə hesabatlarının çərçivələrində açıq şəkildə və ya başqa cür icazə verildiyi kimi maliyyə hesabatının üzündə və ya

qeydlərdə açıqlanan yaxud çarpaz istinad vasitəsilə daxil edilən izahlı və ya təsviri məlumatlardan ibarətdir.

Şirkət (Firm) — Peşəkar mühasiblərin tərəfdaşlığı və ya korporasiyası, yaxud digər müəssisə, habelə təkbaşına fəaliyyət göstərən mütəxəssis-praktik. "Şirkət" terminini müvafiq hallarda ictimai sektora aid ekvivalent kimi başa düşmək lazımdır.

Dələduzluq (Fraud) — Fırıldaq və aldatma yolu ilə haqsız və ya qeyri-qanuni mənfəət əldə etmək üçün müəssisənin rəhbərliyi, idarəetməyə məsul şəxsləri və işçiləri arasından bir və ya bir neçə nəfərin və ya üçüncü tərəfin qabaqcadan düşünülmüş hərəkəti.

Dələduzluq riski amilləri (Fraud risk factors) — Fırıldaq işlətməyə stimul və ya təzyiqin olmasını göstərən və fırıldaq işlətməyə imkan yaradan hadisə və ya şərait.

Saxtalaşdırılmış maliyyə hesabatları (Fraudulent financial reporting) — Maliyyə hesabatlarının istifadəçilərini aldatmaq məqsədilə qabaqcadan düşünülmüş təhriflərdən, o cümlədən maliyyə hesabatlarında məbləğlərin əks etdirilməməsindən və ya məlumatların açıqlanmasından ibarətdir.

Əlavə prosedurlar (Further procedures) — Qiymətləndirilmiş əhəmiyyətli təhrif riskləri ilə bağlı cavab tədbiri kimi həyata keçirilmiş prosedurlar, o cümlədən nəzarət testləri (əgər varsa), təfərrüatlı testlər və analitik prosedurların testləri.

Ümumi təyinatlı maliyyə hesabatları (General purpose financial statements) — Ümumi təyinatlı çərçivələrə uyğun olaraq hazırlanmış maliyyə hesabatları.

İnformasiya texnologiyalarının ümumi nəzarət vasitələri (General information technology (IT) controls) — Müəssisənin informasiya sistemində informasiyanın işlənməsinə nəzarət edən vasitələrin davamlı effektiv işləməsini və informasiyanın bütövlüyü (yəni məlumatın tamlığı, dəqiqliyi və etibarlılığı) daxil olmaqla, İT mühitinin davamlı yaxşı işləməsini təmin edən müəssisənin İT proseslərinə nəzarət edən vasitələr. Bax: *"İT mühiti"* anlayışı.

Ümumi təyinatlı çərçivələr (General purpose framework) — Geniş istifadəçi kütləsinin maliyyə məlumatlarına olan ümumi ehtiyaclarını ödəmək üçün hazırlanmış maliyyə hesabatlarının çərçivələri. Maliyyə hesabatlarının çərçivələri ədalətli təqdimat çərçivələri ya da uyğunluq çərçivələri ola bilər.

"Ədalətli təqdimat çərçivələri" termini çərçivələrin tələblərinə uyğunluğu tələb edən maliyyə hesabatları çərçivələrini ifadə etmək üçün istifadə edilir və:

(a) Açıq şəkildə və ya dolayısı ilə etiraf edir ki, maliyyə hesabatlarının ədalətli təqdimatını təmin etmək üçün çərçivələrdə xüsusi olaraq tələb olunanlardan başqa açıqlamaların rəhbərlik tərəfindən təqdim etmək zərurəti yarana bilər; yaxud

(b) Açıq şəkildə etiraf edir ki, maliyyə hesabatlarının ədalətli təqdimatını təmin etmək üçün rəhbərliyin çərçivələrin tələbindən kənara çıxması zəruri ola bilər. Bu cür kənara çıxmaların yalnız son nadir hallarda zəruri olacağı ehtimal edilir.

"Uyğunluq çərçivələri" termini çərçivələrin tələblərinə uyğunluğu tələb edən maliyyə hesabatlarının çərçivələrinə istinad üçün istifadə olunur və yuxarıdakı (a) və (b) bəndlərində qeyd edilən etirafları əks etdirmir.

Qrup maliyyə hesabatları (Group financial statements) — Konsolidasiya prosesi vasitəsilə birdən çox müəssisə və ya struktur vahidinin maliyyə məlumatlarını özündə əks etdirən maliyyə hesabatları. "AMM üçün BAS"-ın məqsədləri üçün konsolidasiya prosesi aşağıdakıları əhatə edir:

(a) Konsolidasiya, mütənasib konsolidasiya və ya iştirak payı əsaslı uçot metodu;

(b) Ana şirkəti olmasa da, lakin birlikdə nəzarət olunan və ya idarə edilən müəssisələrin və ya struktur vahidlərinin maliyyə məlumatlarının birləşdirilmiş maliyyə hesabatlarında təqdim edilməsi; or

(c) Müəssisələrin və ya filiallar və ya bölmələr kimi struktur vahidlərinin maliyyə məlumatlarının aqreqasiyası.

Sorğu (Inquiry) — Maliyyə və qeyri-maliyyə xarakterli məlumatlar əldə etmək məqsədilə müəssisə daxilində və ya xaricində məlumatlı şəxslərə müraciət etməkdən ibarətdir.

Daxili audit funksiyası (Internal audit function) — Müəssisənin idarəetmə, risklərin idarə edilməsi və daxili nəzarət proseslərinin səmərəliliyini qiymətləndirmək və təkmilləşdirmək üçün nəzərdə tutulmuş təsdiqləmə və məsləhətvermə fəaliyyətlərini yerinə yetirən funksiyası.

Daxili auditorlar (Internal auditors) — Daxili auditi həyata keçirən şəxslər. Daxili auditorlar daxili audit departamentinə və ya oxşar bölmənin tərkibinə daxil ola bilərlər.

Daxili nəzarət (Internal control) — Maliyyə hesabatlarının etibarlılığı, əməliyyatların effektivliyi və səmərəliliyi, qüvvədə olan qanun və qaydaların tələblərinə riayətetmə ilə bağlı müəssisənin məqsədlərinə çatmasına dair ağlabatan əminliyi təmin etmək üçün idarəetməyə məsul şəxslər, rəhbərlik və digər əməkdaşlar tərəfindən işlənib hazırlanmış, tətbiq edilən və təmin edilən sistem. “Nəzarət vasitələri” termini daxili nəzarətin bir və ya bir neçə komponentinin istənilən aspektlərinə aiddir.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (International Financial Reporting Standards) — Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası tərəfindən hazırlanmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarıdır.

Riayətetməmə (qanun və qaydaların kontekstində) (Non-compliance (in the context of laws and regulations)) — Müəssisənin qəsdən və ya bilməyərəkdən müvafiq qanun və qaydaların pozulmasına yönəlmiş fəaliyyəti və ya fəaliyyətsizliyi. Bu cür hərəkətlərə müəssisənin özü tərəfindən və ya idarəetməyə məsul şəxslər, rəhbərlik və ya işçilər tərəfindən onun adından iştirak etdikləri gizli sövdələşmələr aiddir. Müəssisənin idarəetməyə məsul şəxsləri, rəhbərliyi və ya əməkdaşlarının şəxsi (müəssisənin biznes fəaliyyəti ilə əlaqəli olmayan) qanunsuz hərəkətləri riayət etməmə kateqoriyasına daxil deyildir.

Cavabsız tələb (Non-response) — Təsdiq edən tərəfin müsbət təsdiqləmə tələbinə cavab verməməsi və ya tam cavab verməməsi, yaxud təsdiqləmə tələbinin ünvana çatmadan geri qayıtması.

Müşahidə (Observation) — Başqaları tərəfindən yerinə yetirilən prosesə və ya prosedurlara baxmaq; məsələn, müəssisənin işçiləri tərəfindən aparılan inventarizasiyanın və ya nəzarət vasitələrinin işəməsinin müşahidə edilməsi.

İlkin qalıqlar (Opening balances) — Hesabat dövrünün əvvəlinə olan hesablar üzrə qalıqlar. İlkin qalıqlar əvvəlki dövrün yekun qalıqlarına əsaslanır və əvvəlki dövrlərin əməliyyatlarının nəticələrini və əvvəlki dövrdə tətbiq edilmiş uçot siyasətini əks etdirir. İlkin qalıqlar, həmçinin, dövrün əvvəlində mövcud olan və açıqlama tələb edən məsələləri, məsələn, gözlənilməz və gözlənilən vəziyyətləri də əhatə edir.

Digər məlumatlar (Other information) — Müəssisənin illik hesabatına daxil edilmiş maliyyə və ya qeyri-maliyyə məlumatları (maliyyə hesabatları və onlara dair auditor hesabatı istisna olmaqla).

Digər məsələlər paraqrafı (Other Matter paragraph) — Auditorun hesabatına daxil edilmiş, maliyyə hesabatlarında təqdim edilən və ya açıqlanan mövzulardan fərqli mövzuya aid olan və auditorun mühakiməsinə əsasən, istifadəçilərin audit, auditorun məsuliyyətləri və ya auditor hesabatı barədə təsəvvür əldə etməsi üçün mühüm olan paraqraf.

Uçot qiymətləndirmələrinin nəticəsi (Outcome of an accounting estimate) — Uçot qiymətləndirmələrinin əhatə etdiyi bir və ya bir neçə ilkin əməliyyatın, hadisənin və ya şəraitin həll edilməsindən irəli gələn faktiki məbləğ.

Tərəfdaş (Partner) — Peşəkar xidmətlər göstərilməsi üzrə tapşırığın həyata keçirilməsi üçün şirkətin adından öhdəliklər götürmək səlahiyyətinə malik istənilən şəxs.

Fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi (Performance materiality) — Düzəliş və aşkar edilməmiş təhriflər məcmusunun bütövlükdə maliyyə hesabatları üzrə əhəmiyyətlilikdən artıq olması ehtimalını

müvafiq olaraq aşağı səviyyəyə endirmək üçün auditor tərəfindən bütövlükdə maliyyə hesabatları üzrə əhəmiyyətlilikdən daha az müəyyən olunmuş məbləğ və ya məbləğlər. Müvafiq hallarda fəaliyyət göstəricilərinin əhəmiyyətliliyi, həmçinin, auditor tərəfindən müəyyən edilmiş xüsusi əməliyyat kateqoriyaları, hesab qalıqları və ya açıqlamalar üzrə əhəmiyyətlilik səviyyəsindən və ya səviyyələrindən aşağı olan məbləğ və ya məbləğlərə aid edilir.

Heyət (Personnel) — Şirkətin tərəfdaşları və işçi heyəti.

Nüfuzedici (Pervasive) — Təhriflər kontekstində təhriflərin maliyyə hesabatlarına təsirini və ya yetərli müvafiq audit sübutlarının əldə edilməməsi səbəbindən aşkar edilməmiş təhriflərin (əgər varsa) maliyyə hesabatlarına mümkün təsirini təsvir etmək üçün istifadə edilən termin. Maliyyə hesabatlarına nüfuzedici təsir auditorun mühakiməsinə görə, aşağıdakı kimi olur:

(a) Maliyyə hesabatlarının xüsusi elementləri, hesabları və ya maddələri ilə məhdudlaşmır;

(b) Əgər məhdudlaşarsa, maliyyə hesabatlarının xeyli hissəsini təmsil edir və ya edə bilər; habelə

(c) Açıqlamalarla əlaqədar olaraq, istifadəçilərdə maliyyə hesabatları barədə formalaşmış təsəvvürlər üçün bir zəmindir.

Əsas məcmu (Population) — İçərisindən nümunə seçilən və haqqında auditorun qərar vermək niyyətində olduğu tam məlumatlar toplusu.

Müsbət təsdiqləmə tələbi (Positive confirmation request) — Təsdiq edən tərəfin birbaşa auditora cavab verərək, ya tələbdə əks etdirilən məlumatla razı olub-olmadığını bildirməsi, yaxud tələb olunan məlumatı təqdim etməsi tələbidir.

Mütəxəssis-praktik (Practitioner) — İctimai sektorda çalışan peşəkar mühasib.

Audit üzrə ilkin şərtlər (Preconditions for an audit) — Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik tərəfindən məqbul maliyyə hesabatı çərçivələrindən istifadə olunması və auditin aparılması üçün əsas götürülmüş ilkin şərtlərlə rəhbərliyin və müvafiq hallarda idarəetməyə məsul şəxslərin razılığı.

Əvvəlki auditor (Predecessor auditor) — Müəssisənin əvvəlki dövrə aid maliyyə hesabatlarının auditini aparmış və cari auditorla əvəz olunmuş başqa auditor təşkilatının auditoru.

Rəhbərliyin və müvafiq hallarda idarəetməyə məsul şəxslərin məsuliyyətlərinə aid olan və auditin aparılması üçün əsas götürülmüş ilkin şərt (Premise, relating to the responsibilities of management and, where appropriate, those charged with governance, on which an audit is conducted) — Rəhbərlik və müvafiq hallarda, idarəetməyə məsul şəxslər auditin “AMM üçün BAS”-a uyğun aparılması üçün zəmin rolunu oynayan aşağıdakılar barədə məsuliyyəti daşıdıqlarını etiraf edir və anlayırlar:

(a) Maliyyə hesabatlarının maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun hazırlanması, o cümlədən müvafiq hallarda onların ədalətli təqdimatı;

(b) Dələduzluq və ya səhv üzündən baş vermiş əhəmiyyətli təhriflərdən azad maliyyə hesabatlarının hazırlanmasına şərait yaratmaq üçün rəhbərlik və müvafiq hallarda, idarəetməyə məsul şəxslərin zəruri hesab etdikləri daxili nəzarət sisteminin təşkili; habelə

(c) Auditorun aşağıdakılarla təmin olunması:

(i) Maliyyə hesabatlarının hazırlanmasına aidiyyəti olmasından rəhbərliyin və müvafiq hallarda, idarəetməyə məsul şəxslərin xəbərdar olduğu bütün məlumatlar, məsələn, uçot sənədləri, sənədlər və digər materiallara çıxış;

(ii) Auditorun audit məqsədi ilə rəhbərlikdən və lazım gəldikdə idarəetməyə məsul şəxslərdən tələb edə biləcəyi əlavə məlumat; və

(iii) Müəssisə daxilində, audit sübutları əldə etmək üçün auditorun zəruri hesab etdiyi şəxslərlə qeyri-məhdud əlaqə imkanı.

Ədalətli təqdimat çərçivələrinin məqsədləri üçün yuxarıdakı (a) "maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun, o cümlədən zəruri hallarda, onların *ədalətli* təqdimatı üzrə hazırlanması" və ya "maliyyə hesabatlarının çərçivələri əsasında, müəssisədə işlərin vəziyyəti barədə *dürüst və ədalətli təsəvvür yaradan* maliyyə hesabatlarının hazırlanması" şəklində ifadə edilə bilər.

"Rəhbərliyin və müvafiq hallarda idarəetməyə məsul şəxslərin məsuliyyətlərinə aid olan və auditin aparılması üçün əsas götürülmüş ilkin şərt" cümləsi "ilkin şərt" kimi də ifadə oluna bilər.

Peşəkar mühasib (Professional accountant)[53] — IFAC üzv orqanının üzvü olan fiziki şəxs.

İctimai sektorda çalışan peşəkar mühasib (Professional accountant in public practice)[54] — İxtisaslaşmasından (məsələn, audit, vergi və ya məsləhətvermə) asılı olmayaraq, peşəkar xidmətlər göstərən şirkətdə çalışan peşəkar mühasib. Bu termin həm də peşəkar mühasiblər təşkilatına şamil olunur.

Peşəkar mühakimə (Professional judgment) — Audit tapşırığının yerinə yetirilməsi şəraitinə uyğun fəaliyyət qaydaları haqqında əsaslandırılmış qərarlar verərkən audit, mühasibat uçotu və etika standartları çərçivəsində müvafiq təlim, bilik və təcrübənin tətbiq olunması.

Peşəkar inamsızlıq (Professional skepticism) — Şübhəli düşüncə tərzindən, dələduzluq və ya səhv üzündən mümkün təhriflər faktını aşkar edə biləcək hallara qarşı diqqətli olmaqdan və sübutların tənqidi qiymətləndirilməsindən ibarət yanaşma.

Peşə standartları (Professional standards) — "Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı" ("AMM üçün BAS") və müvafiq etik normalar.

İctimai sektor (Public sector) — Milli hökumətlər, regional (məsələn, ştat, əyalət, ərazi) hökumətlər, yerli (məsələn, iri və ya kiçik şəhər) hökumətlər və müvafiq hökumət subyektləri (məsələn, agentliklər, şuralar, komissiyalar və müəssisələr).

Ağlabatan əminlik (audit tapşırıqları kontekstində) (Reasonable assurance (in the context of audit engagements)) — *Əminliyin yüksək, lakin mütləq olmayan səviyyəsi.*

Yenidən hesablama (Recalculation) — Sənədlərdə və ya uçot sənədlərində hesablamaların riyazi dəqiqliyinin yoxlanılması

Əlaqəli tərəf (Related party) — Aşağıdakılardan biri:

(a) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində müəyyən olunmuş əlaqəli tərəfdir; yaxud

(b) Maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində əlaqəli tərəfə qarşı minimum tələblər müəyyən edildiyi və ya heç bir tələbin müəyyən edilmədiyi təqdirdə:

(i) hesabat verən müəssisəni bir və ya daha çox vasitəçinin köməyi ilə birbaşa və ya dolayısı ilə öz nəzarəti və ya mühüm təsiri altında saxlayan fiziki şəxs və ya müəssisə;

(ii) bir və ya daha çox vasitəçinin köməyi ilə birbaşa və ya dolayısı ilə hesabat verən müəssisənin nəzarəti və ya mühüm təsiri altında olan digər müəssisə; yaxud

(iii) aşağıdakılara malik olmaqla, hesabat verən müəssisə ilə birlikdə ümumi nəzarət altında olan digər müəssisə:

a. səhmlərin nəzarət zərfinə malik ümumi sahibkarlıq;

---

[53] Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (IESBA Məcəlləsi) uyğun

[54] Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (IESBA Məcəlləsi) uyğun

b. yaxın ailə üzvləri olan sahibkarlar; yaxud

c. ümumi baş rəhbərlik.

Bununla belə, dövlət (yəni milli, regional və ya yerli hökumət) tərəfindən ümumi nəzarət altında olan müəssisələr mühüm əməliyyatlarla məşğul olmayınca və ya ehtiyatları bir-biri ilə mühüm dərəcədə paylaşmayınca, əlaqəli hesab edilmirlər.

Müvafiq təsdiqləmələr (Relevant assertions) — Əməliyyatların kateqoriyası, hesab qalığı və ya açıqlama ilə bağlı təsdiqləmə o zaman müvafiq sayılır ki, aşkar edilmiş əhəmiyyətli təhriflər riskini əks etdirir. Təsdiqləmənin müvafiq olub-olmaması barədə qərar, onunla bağlı hər hansı nəzarət vasitələri (yəni, tərkib risk) nəzərdən keçirilməzdən əvvəl verilir.

Müvafiq etik normalar (Relevant ethical requirements) — Audit tapşırığını yerinə yetirərkən peşəkar mühasiblərə şamil olunan peşə etikasının prinsipləri və etik normalar. Müvafiq etik normalar, bir qayda olaraq, Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının maliyyə hesabatlarının auditi ilə bağlı "*Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)"* (IESBA Məcəlləsi) müddəalarını və daha sərt olan milli tələbləri əhatə edir.

Yenidən icraetmə (Reperformance) — Auditorun ilkin olaraq müəssisənin daxili nəzarətinin bir hissəsi kimi həyata keçirilən prosedurları və ya nəzarət vasitələrini müstəqil qaydada icra etməsi.

İT istifadəsindən irəli gələn risklər (Risks arising from the use of IT) — Məlumatların emalına nəzarət vasitələrinə qeyri-effektiv şəkildə tərtib edilməsi və ya işləməsinin, yaxud müəssisənin İT proseslərində (bax: İT mühiti) qeyri-effektiv şəkildə tərtib edilməsi və ya işləməsi səbəbindən müəssisənin informasiya sistemində məlumatların tamlığı (yəni, əməliyyatların və digər məlumatların tamlığı, dəqiqliyi və etibarlılığı) ilə bağlı risklərin təsiri.

Əhəmiyyətli təhriflər riski (Risk of material misstatement) — Maliyyə hesabatlarında auditə qədər yol verilmiş əhəmiyyətli təhriflər riskidir. Bu, iki komponentdən ibarət olub, təsdiqləmələr əsasında aşağıdakı şəkildə təsvir olunur:

(a) Tərkib riski (Inherent risk) — Əməliyyatların kateqoriyası, hesab qalıqları və ya açıqlamalar haqqında təsdiqləmələrin istənilən müvafiq daxili nəzarət vasitələrindən əvvəl istər öz-özlüyündə, istərsə də digər təhriflərlə birlikdə əhəmiyyətli ola biləcək təhriflərə meyilliliyidir.

(b) Nəzarət riski (Control risk) —Əməliyyatların kateqoriyası, hesab qalıqları və ya açıqlamalar haqqında təsdiqləmələrdə baş verə biləcək və istər öz-özlüyündə, istərsə də digər təhriflərlə birlikdə əhəmiyyətli ola biləcək təhrifin müəssisənin daxili nəzarət vasitələri tərəfindən vaxtında qarşısının alınmaması, aşkar və düzəliş edilməməsi riskidir.

Seçmə (Sampling) — (bax: "Audit seçməsi")

Seçmə riski (Sampling risk) — Auditorun seçmə (nümunə) əsasında gəldiyi qənaətin eyni audit prosedurunun qalan bütün əsaslar məcmusuna tətbiq olunması zamanı gələ biləcəyi qənaətdən fərqli ola bilməsi riski. Seçmə riski iki növ yanlış qənaətə aparıb çıxara bilər:

(a) Nəzarət testlərində bu nəzarət vasitələrinin onların əslində olduqlarından da effektiv olması, yaxud təfərrüatlı testlərdə əhəmiyyətli təhrifin əslində mövcud olduğu halda, mövcud olmaması ilə bağlı qənaət. Auditor birbaşa olaraq məhz bu növ yanlış qənaətə görə narahatlıq keçirir, çünki bu, auditin keyfiyyətinə mənfi təsir göstərir və mütləq qeyri-müvafiq auditor rəyinə aparıb çıxara bilər; habelə.

(b) Nəzarət testlərində bu nəzarət vasitələrinin onların əslində olduqlarından az effektiv olması, yaxud təfərrüatlı testlərdən keçirilməsi halında, əhəmiyyətli təhrifin əslində mövcud olmadığı vaxtda onun mövcud olması ilə bağlı qənaət. Yanlış qənaətin bu növü auditin keyfiyyətinə mənfi təsir göstərir, belə ki bu, adətən, ilkin qənaətlərin qeyri-düzgün olmasını müəyyən etmək üçün əlavə işin görülməsinə aparıb çıxara bilər.

Seçmə elementi (Sampling unit) — Əsas məcmunu təşkil edən ayrı-ayrı elementlər.

Xidmət göstərən təşkilatın auditoru (Service auditor) — Xidmət göstərən təşkilatın tələbi əsasında xidmət göstərən təşkilatın nəzarət sisteminə dair təsdiqləmə haqqında rəy verən auditor.

Xidmət göstərən təşkilat (Service organization) — İstifadəçi müəssisəsinin maliyyə hesabatlarının hazırlanmasına aid olan xidmətlər göstərən kənar müəssisə (və ya kənar müəssisənin seqmenti) .

Əhəmiyyətlilik (Significance) — Kontekstdən götürülmüş məsələnin nisbi vacibliyi. Mütəxəssis-praktik tərəfindən məsələnin əhəmiyyəti nəzərdən keçirilən kontekstdə müəyyən edilir. Buraya, məsələn, həmin məsələnin dəyişməsi və ya mütəxəssis-praktikin hesabatından istifadə edənlərin qərarlarına təsir etməsi perspektivi; yaxud başqa bir misal olaraq, bu kontekstin məsələ ilə bağlı müəssisənin rəhbərliyinə məlumatın bildirilib-bildirilməməsinə dair, onların həmin məsələni öz vəzifələrinə münasibətdə mühüm hesab edib-etməməsinə dair mülahizənin olması halları daxil edilə bilər. Əhəmiyyət nisbi kəmiyyət, yoxlama predmetinə təsiretmə, nəzərdə tutulmuş istifadəçilərin və ya ünvan sahiblərinin ifadə edilmiş maraqları kimi kəmiyyət və keyfiyyət amilləri kontekstində nəzərdən keçirilə bilər.

Əhəmiyyətli əməliyyat kateqoriyası, hesab qalığı və ya açıqlama (Significant class of transactions, account balance or disclosure) — Bir və ya bir neçə təsdiqləmələr ilə əlaqəli olan əməliyyatların kateqoriyası, hesab qalığı və ya açıqlama.

Daxili nəzarətdə əhəmiyyətli çatışmazlıq (Significant deficiency in internal control) — Auditorun peşəkar mühakiməsinə görə idarəetməyə məsul şəxslərin diqqətini cəlb etmək üçün kifayət qədər əhəmiyyət kəsb edən daxili nəzarətdə çatışmazlıq və ya çatışmazlıqların birləşməsi.

Əhəmiyyətli risk (Significant risk) — Aşağıdakı şərtlərə cavab verən aşkar edilmiş əhəmiyyətli təhriflər riski:

(a) Onunla əlaqəli tərkib riski, təhrifin baş vermə ehtimalı ilə təhrif baş verərsə mümkün təhrifin miqyasının birləşməsinin əhəmiyyətliliyi səbəbindən tərkib riski üçün risk şkalasının yuxarı səviyyəsinə yaxındır; və ya

(b) Bu, “AMM üçün BAS”-ın tələblərinə uyğun olaraq əhəmiyyətli risk kimi qəbul edilməlidir.

Xüsusi təyinatlı maliyyə hesabatları (Special purpose financial statements) — Xüsusi təyinatlı çərçivələr əsasında hazırlanmış maliyyə hesabatları.

Xüsusi təyinatlı çərçivələr (Special purpose framework) — Xüsusi istifadəçilərin maliyyə ilə bağlı informasiya ehtiyaclarını ödəmək üçün hazırlanmış maliyyə hesabatları çərçivələri. Maliyyə hesabatları çərçivələri ədalətli təqdimat çərçivələrinə və uyğunluq çərçivələrinə bölünür.

Statisik seçmə (Statistical sampling) — Aşağıdakı xüsusiyyətlərə malik seçməyə yanaşma:

(a) Seçmə elementlərinin təsadüfi prinsiplə seçilməsi; habelə

(b) Seçmə nəticələrini qiymətləndirmək üçün ehtimal nəzəriyyəsindən, o cümlədən seçmə riskinin ölçülməsindən istifadə edilməsi.

(a) və (b) xüsusiyyətlərinə malik olmayan seçməyə yanaşma qeyri-statistik seçmə hesab olunur.

Qruplara bölmə (Stratification) — Əsas məcmunun alt-məcmulara bölünməsi prosesi; alt-məcmuların hər biri isə eyni xüsusiyyətlərə (çox vaxt maliyyə dəyərinə) malik seçmə elementlərindən ibarət bir qrup şəklindədir.

Sonrakı hadisələr (Subsequent events) — Maliyyə hesabatlarının tarixi ilə auditor hesabatının tarixi arasında baş verən hadisələr və auditora yalnız auditor hesabatının təqdim edilməsi tarixindən sonra məlum olmuş faktlar.

Subprosedur (Mahiyyəti üzrə prosedur) (Substantive procedure) — Təsdiqləmələr səviyyəsində mövcud olan əhəmiyyətli təhrifləri aşkar edən audit proseduru. Subprosedurlara aşağıdakılar daxildir:

(a) əməliyyat kateqoriyalarının, hesab qalıqlarının və açıqlamaların təfərrüatlı testləri; habelə

(b) mahiyyəti üzrə analitik prosedurlar.

Yetərlilik (audit sübutunun) (Sufficiency (of audit evidence)) — Audit sübutlarının kəmiyyət ölçüsüdür. Yetərli audit sübutlarının miqdarına əhəmiyyətli təhriflər riskinin auditor tərəfindən qiymətləndirilməsi və bu cür audit sübutlarının keyfiyyəti təsir göstərir.

Daxili nəzarət sistemi (System of internal control) — Maliyyə hesabatlarının etibarlılığı, əməliyyatların effektivliyi və səmərəliliyi, qüvvədə olan qanun və qaydaların tələblərinə riayət etmə ilə bağlı müəssisənin məqsədlərinə nail olunması ilə bağlı ağlabatan əminlik təmin etmək üçün idarəetməyə məsul şəxslər, rəhbərlik və digər əməkdaşlar tərəfindən hazırlanmış, tətbiq edilən və saxlanılan sistem.

Test (Test) — Əsas məcmuya daxil olan elementlərin bir hissəsinə və ya hamısına prosedurların tətbiq edilməsi.

Nəzarət testləri (Tests of controls) — Təsdiqləmələr səviyyəsində əhəmiyyətli təhriflərin qarşısının alınmasında, aşkar edilməsində və düzəldilməsində nəzarət vasitələrinin istifadəsinin səmərəliliyini dəyərləndirmək üçün nəzərdə tutulmuş audit proseduru.

İdarəetməyə məsul şəxslər (Those charged with governance) — Müəssisənin strateji baxımdan idarə edilməsinə nəzarətə görə məsuliyyət daşıyan və onun hesabatlılığı ilə bağlı öhdəlikləri olan şəxs(lər) və ya təşkilat(lar) (məsələn, korporativ qəyyum). Bura maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarət də daxildir. Bir sıra yurisdiksiyalarda bəzi müəssisələr üçün idarəetməyə məsul şəxslərə rəhbər vəzifələrdə çalışan işçilər, məsələn, özəl və ya ictimai sektora aid müəssisənin İdarə Heyətinin icra komitəsinin üzvləri, yaxud sahibkar-menecer daxildir.

Yol verilən təhrif (Tolerable misstatement) — Auditor tərəfindən müəyyən edilən və auditorun əsas məcmudakı faktiki təhriflərin həmin məbləği aşmaması ilə bağlı müvafiq səviyyədə əminlik əldə etməyə çalışdığı pul məbləğidir.

Yol verilən kənarlaşma dərəcəsi (Tolerable rate of deviation) — Auditorun, əsas məcmuda faktiki kənarlaşma dərəcəsinin, auditor tərəfindən müəyyən edilmiş kənarlaşma dərəcəsindən çox olmadığına dair müvafiq ağlabatan əminlik səviyyəsini əldə etməyə çalışdığı müəyyən edilmiş daxili nəzarət prosedurlarından kənarlaşma dərəcəsidir.

Düzəliş edilməmiş təhriflər (Uncorrected misstatements) — Auditorun audit zamanı topladığı və düzəliş olunmamış təhriflər.

Müsbət rəy (Unmodified opinion) — Maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun hazırlanması barədə auditorun nəticə çıxardığı zaman bildirdiyi rəy.

İstifadəçi müəssisə (User entity) — Xidmət göstərən təşkilatının xidmətlərindən istifadə edən və maliyyə hesabatlarının auditi aparılan müəssisə.

Hərtərəfli yoxlama (Walk-through test) — Bir neçə əməliyyatın maliyyə hesabatlarının tərtib edilməsi sistemindən keçməsinin izlənməsi.

Yazılı təqdimat (Written representation) — Rəhbərliyin müəyyən məsələləri təsdiq etmək və ya digər audit sübutlarını əsaslandırmaq üçün auditora təqdim etdiyi yazılı hesabat. Bu kontekstdə olan yazılı təqdimatlara maliyyə hesabatları, onların təsdiqləmələri və ya köməkçi mühasibat jurnalları və uçot sənədləri daxil deyil.

ƏLAVƏ 2

Məktub-saziş nümunəsi

Aşağıda göstərilən məktub [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun olaraq hazırlanmış ümumi təyinatlı maliyyə hesabatlarının auditi üzrə məktub-sazişin nümunəsidir. Bu məktub-sazişin forması məcburi deyil və yalnız "AMM üçün BAS"-da əks etdirilən mülahizələrlə birlikdə nümunə qismində istifadə edilmək üçün verilir. Fərdi tələblərə və şəraitlərə uyğun olaraq onu dəyişdirmək mümkündür. O, ayrıca bir hesabat dövrü üzrə maliyyə hesabatlarının auditinə istinad etmək üçün hazırlanmışdır və təkrar auditlərdə istifadə olunacağı nəzərdə tutulduqda və ya ehtimal edildikdə uyğunlaşdırılması lazım olacaq (bax: 4.4.2-ci paraqraf).

***

ABC şirkəti rəhbərliyinin səlahiyyətli nümayəndəsinə və ya idarəetməyə məsul şəxslərinə:[55]

[*Auditin məqsədi və əhatə dairəsi*]

Siz[56] ABC şirkətinin 31 dekabr 20X1-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatı, məcmu gəlirlər haqqında hesabatı, kapitalda dəyişikliklər haqqında hesabatı və il ərzində pul vəsaitlərinin hərəkəti haqqında hesabatı, habelə maliyyə hesabatlarına qeydləri, o cümlədən uçot siyasətinin əhəmiyyətli məsələlərinin qısa təsvirini əhatə edən maliyyə hesabatının auditini aparmaq xahişi ilə müraciət etmisiniz. Biz, bu məktub vasitəsilə audit tapşırığını qəbul etməyimizi və onunla bağlı əldə etdiyimiz təsəvvürü təsdiq etməkdən məmnunuq.

Auditimizin məqsədləri maliyyə hesabatlarında istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflərin olub-olmamasına dair ağlabatan əminlik əldə etmək və bizim rəyi özündə ehtiva edən auditor rəyi ifadə etməkdir. Ağlabatan əminlik əminliyin yüksək səviyyəsidir, lakin əhəmiyyətli təhriflər mövcud olduğu halda "Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartlarına ("AMM üçün BAS"-lara) uyğun aparılmış audit onu həmişə aşkar etməsinə zəmanət vermir.
Təhriflər dələduzluq və ya səhv nəticəsində baş verə bilər və onlar ayrılıqda və ya məcmu şəklində bu cür maliyyə hesabatlarının əsasında qəbul edilmiş istifadəçilərin iqtisadi qərarlarına təsir edə biləcəyi halda əhəmiyyətli hesab edilir.

[*Auditorun məsuliyyətləri*]

Audit beynəlxalq audit standartlarına "AMM üçün BAS"-lara uyğun aparılacaq. "AMM üçün BAS"-a uyğun olaraq, biz etik normalara riayət etməliyik. Audit aparan zaman biz audit çərçivəsində "AMM üçün BAS"-a uyğun olaraq peşəkar mühakimə yürütməliyik və peşəkar inamsızlıq nümayiş etdirməliyik. Biz həmçinin:

- Maliyyə hesabatlarında istər dələduzluq, istərsə də səhv nəticəsində baş vermiş əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu cür risklərə cavab verən audit prosedurlarını planlaşdırırıq və yerinə yetiririk, habelə rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində yol verilmiş əhəmiyyətli təhriflərin aşkarlamama riski səhv nəticəsində yol verilmiş əhəmiyyətli təhriflərin aşkarlamama riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sövdələşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, yanlış məlumatların təqdim edilməsi və ya daxili nəzarətə əhəmiyyət verilməməni əhatə edə bilər.
- Müəssisənin daxili nəzarət sisteminin səmərəliliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarını hazırlamaq məqsədilə auditə aid olan daxili nəzarət sistemi barədə təsəvvür əldə edirik. Bununla belə, biz audit zamanı daxili nəzarət sistemində maliyyə

[55] Məktubdakı ünvan və istinadlar müvafiq yurisdiksiya daxil olmaqla, konkret tapşırığın şəraitlərinə uyğun olmalıdır.

[56] Bu məktubda "siz," "biz," "bizə/bizi," "rəhbərlik," "idarəetməyə məsul şəxslər" və "auditor" sözlərinə edilən istinadlar şəraitə uyğun olaraq istifadə edilməli və ya düzəliş edilməlidir

hesabatlarının auditinə dair aşkar edilmiş əhəmiyyətli çatışmazlıqları yazılı şəkildə nəzərinizə çatdıracağıq.

- İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və açıqlanmış əlaqəli məlumatların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilmiş audit sübutları əsasında şirkətin fəaliyyətinin fasiləsizliyini davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına ala bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması barədə nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda isə fərqli rəy verməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şəraitlər Şirkəti fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.
- Açıqlamalar da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli təqdimat təmin edəcək şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

Həm auditə və həm də daxili nəzarət sistemlərinə xas olan tərkib məhdudiyyətləri səbəbindən, hətta audit düzgün planlaşdırılaraq "AMM üçün BAS"-a uyğun aparılsa da, bəzi əhəmiyyətli təhriflərin aşkar edilə bilməməsi ilə bağlı qaçılmaz risk mövcuddur.

[*Rəhbərliyin məsuliyyətləri və maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin müəyyən edilməsi*][57]

Biz auditi [rəhbərlik və müvafiq hallarda idarəetməyə məsul şəxslərin][58] aşağıdakı məsuliyyətləri qəbul və dərk etməsinə əsaslanaraq aparacağıq:

(a) Maliyyə hesabatlarının [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun hazırlanmasına [və ədalətli təqdimatına] görə;[59]

(b) [Rəhbərliyin] istər dələduzluq, istərsə də səhv nəticəsində yol verilmiş əhəmiyyətli təhriflərdən azad olan maliyyə hesabatlarının hazırlanmasına imkan yaratmaq üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə; habelə

(c) Özümüzün aşağıdakılarla təmin edilməsinə görə:

(i) Uçot sənədləri, sənədləşdirilmə və digər məsələlər kimi maliyyə hesabatlarının hazırlanmasına aid olan [rəhbərliyin] bildiyi bütün məlumatlara çıxış imkanı;

(ii) Bizim auditi aparmaq məqsədilə [rəhbərlikdən] tələb edə biləcəyimiz əlavə məlumatlar; habelə

(iii) Müəssisə daxilində audit sübutları əldə etmək üçün zəruri hesab etdiyimiz şəxslərə məhdudiyyətsiz çıxış imkanı.

Audit gedişində biz [rəhbərlikdən və müvafiq hallarda idarəetməyə məsul şəxslərdən] auditlə bağlı bizim ünvanımıza səsləndirilmiş mülahizələrə dair yazılı təsdiqləmə tələb edəcəyik.

Audit tapşırığının yerinə yetirilməsi gedişində sizin işçi heyətlə tam həcmdə əməkdaşlıq edəcəyimizi səbirsizliklə gözləyirik.

---

[57] Bu məktub-saziş nümunəsinin məqsədləri üçün ehtimal edilir ki, auditor qanun və ya qaydalarda müvafiq şərtlərlə həmin məsuliyyətlərin nəzərdə tutulduğunu müəyyən etməyib; buna görə də bu standartın 4.2.1(b) paraqrafındaki təsvirlərdən istifadə olunur)

[58] Terminlərdən mövcud şəraitə uyğun istifadə edilməlidir.

[59] Yaxud müvafiq hallarda, "[maliyyə hesabatlarının tətbiq olunan çərçivəlinə] uyğun olaraq dürüst və ədalətli təsəvvür yaradan maliyyə hesabatlarının hazırlanmasına görə"

[*Digər münasib məlumatlar*]

[*Digər məlumatları, məsələn, müvafiq hallarda, xidmət haqlarına dair sazişlər, hesabların təqdim edilməsi və digər xüsusi şərtləri daxil edin*.]

[Hesabatvermə]

[*Auditor hesabatının, o cümlədən, əgər varsa, digər məlumatlar üzrə hesabatın nəzərdə tutulan forma və məzmununa müvafiq istinad daxil edin*]

Hesabatımızın forma və məzmununa auditin nəticələrinə uyğun düzəlişlər edilməsi tələb oluna bilər.

Müvafiq məsuliyyətlərimiz də daxil olmaqla, maliyyə hesabatlarının auditinin aparılması ilə bağlı şərtlərimizi qəbul etdiyinizi və onlarla razılaşdığınızı əks etdirən bu məktubun əlavə edilmiş nüsxəsini imzalayın və geri qaytarın.

XYZ & Co.

ABC şirkəti adından tanış oldu və razılaşdı:

(imza)

.....
Soyadı və vəzifəsi
Tarix

ƏLAVƏ 3

Əhəmiyyətli təhrif risklərinin aşkar edilməsi və qiymətləndirilməsi (6-cı hissə)



ƏLAVƏ 4

Dələduzluq riski amilləri

Aşağıda az mürəkkəb müəssisələrin auditi zamanı auditorların qarşılaşa biləcəyi dələduzluq riski amillərinə dair nümunələr verilir. Nümunələr dələduzluğun iki növü - saxtalaşdırılmış maliyyə hesabatları və aktivlərin qeyri-qanuni mənimsənilməsi üçün ayrıca təqdim olunur.

Risk amilləri, dələduzluq nəticəsində baş vermiş əhəmiyyətli təhriflər mövcud olduğu hallarda adətən üç şərt əsasında daha da təsnifləşdirilir: (a) stimullar/təzyiqlər, (b) imkanlar və (c) münasibətlər/ məntiqi əsaslandırmalar. Risk amillərinin müxtəlif vəziyyətləri əhatə etməsinə baxmayaraq, bunlar yalnız nümunədir və müvafiq olaraq, auditor əlavə və ya fərqli risk amillərini müəyyən edə bilər. Bu nümunələrin heç də hamısı bütün şəraitlərə uyğun deyil və bəziləri müxtəlif ölçülü və ya fərqli mülkiyyət xüsusiyyətlərinə və ya şəraitlərinə malik müəssisələrdə daha çox və ya daha az əhəmiyyət kəsb edə bilər. Həmçinin, nümunələrdə təqdim olunan risk amillərinin ardıcıllığı onların nisbi əhəmiyyətini və ya başvermə tezliyini əks etdirmək məqsədi daşımır.

Maliyyə hesabatlarının saxtalaşdırılması nəticəsində baş verən təhriflərlə bağlı risk amilləri

Aşağıda maliyyə hesabatlarının saxtalaşdırılması nəticəsində baş vermiş təhriflərə aid olan risk amillərinə dair nümunələr verilmişdir.

Stimullar/təzyiqlər

Müəssisənin maliyyə sabitliyinə və ya gəlirliliyinə iqtisadi, sahə və ya müəssisənin iş şəraitləri (və ya onların mövcudluğunun əlamətləri) təsir göstərir, məsələn:

- Sahədə və ya ümumiyyətlə iqtisadiyyatda alıcı tələbatının əhəmiyyətli dərəcədə azalması və ya müəssisələrin müflisolma hallarının artması.
- Gəlir marjalarının azalması ilə müşayiət olunan yüksək rəqabət və ya bazarın doyma dərəcəsi.
- Əməliyyat itkiləri nəticəsində iflas və ya girov təhlükəsinin yaranması.
- Əməliyyatlardan pul axınlarının müntəzəm azalması, yaxud əməliyyatlardan pul axınlarının əmələ gəlməməsi.

Üçüncü tərəflərin tələblərini və ya gözləntilərini qarşılamaq üçün rəhbərlik aşağıdakı kimi təzyiqlərə məruz qalır:

- Mövcud maliyyələşmənin yenilənməsi və ya əlavə maliyyə vəsaitlərinin cəlb olunması, borcun qaytarılması və ya borc üzrə öhdəliklərin yerinə yetirilməsi tələblərinin təmin edilməsi və buna görə də gəlirliliyi və uzunmüddətli istismar qabiliyyətini nümayiş etdirmək üçün fəaliyyət göstəricilərini və ya maddi vəziyyəti şişirtmək üçün təzyiq.
- Vergi öhdəliklərini azaltmaq məqsədilə gəlirləri azaltmaq üçün təzyiq.

İmkanlar

Maliyyə hesabatlarının saxtalaşdırılmasına şərait yaradan imkanlar aşağıdakılardan irəli gələ bilər:

- Adi iş prosesindən kənar əlaqəli tərəflə, yaxud audit olunmayan və ya başqa şirkət tərəfindən audit olunmuş əlaqəli müəssisələrlə əməliyyatların aparılması.

- Rəhbərliyin (sahibkarın rəhbər olmadığı müəssisədə) bir şəxs və ya kiçik bir qrup tərəfindən tam şəkildə nəzarətdə saxlanılması və nəzarət risklərini azaldan mexanizmlərin olmaması.

- Daxili nəzarət sistemi aşağıdakı səbəblərdən zəif ola bilər:
  - Vəzifə bölgüsünün məhdudluğu və ya dələduzluğa qarşı nəzarət vasitələrinin (məsələn, dələduzluqla bağlı qaynar xətlər) olmaması
  - Rəhbərliyin mühasibat uçotu məlumatlarında təhriflərin qarşısını almağa və ya aşkar etməyə, yaxud nəzərdə tutulduğu kimi fəaliyyət göstərməyən nəzarət vasitələrini müəyyən etməyə kömək edə biləcək əməliyyatlarda və ya digər fəaliyyət növlərində rəhbərliyin yetərincə iştirak etməməsi.
  - Mühasibat uçotu və informasiya sistemlərinin səmərəli olmaması, o cümlədən daxili nəzarət sistemində əhəmiyyətli çatışmazlıqların mövcud olduğu hallar.

Münasibətlər/məntiqi əsaslandırmalar

- Müəssisənin dəyərlərinin və ya etik normalarının rəhbərlik tərəfindən işçilərə səmərəsiz şəkildə çatdırılması, tətbiqi, dəstəklənməsi və riayət olunmasına məcbur edilməsi; yaxud müvafiq olmayan dəyərlərin və ya səmərəsiz etik normaların işçilərə çatdırılması.
- Sahibkar-rəhbər tərəfindən şəxsi və biznes əməliyyatları arasında fərq qoyulmaması.
- Qapalı müəssisədə səhmdarlar arasında mübahisə.
- Rəhbərliyin və ya sahibkarların əhəmiyyətlilik əsasında marjinal və ya uyğun olmayan mühasibat uçotunu əsaslandırmaq və ya şirkətin fəaliyyətini davam etdirməsinə kömək etmək üçün təkrar cəhdləri.
- Rəhbərlik ilə cari və ya əvvəlki auditor arasındakı münasibətlərin aşağıdakı səbəblərə görə gərgin olması: mübahisələr, auditorun qarşısına qoyulan əsassız tələblər, şəxslərə və ya məlumatlara çıxışın məhdudlaşdırılması, yaxud rəhbərliyin hökmranlığı.

Aktivlərin qeyri-qanuni mənimsənilməsi nəticəsində baş verən təhriflərlə bağlı risk amilləri

Maliyyə hesabatlarının saxtalaşdırılması nəticəsində baş verən təhriflərlə bağlı bəzi risk amilləri aktivlərin qeyri-qanuni mənimsənilməsi nəticəsində təhriflər baş verdikdə də mövcud ola bilər ki, bu da az mürəkkəb müəssisələrdə geniş yayılmış dələduzluqdur. Məsələn, istər maliyyə hesabatlarının saxtalaşdırılması, istərsə də aktivlərin qeyri-qanuni mənimsənilməsi ilə bağlı təhriflər mövcud olduqda daxili nəzarətdə çatışmazlıqlar mövcud ola bilər. Aşağıda aktivlərin qeyr-qanuni mənimsənilməsi nəticəsində baş verən təhriflərlə bağlı risk amillərinin nümunələri verilir.

Stimullar/təzyiqlər

- Şəxsi maliyyə öhdəlikləri qanunsuz yolla mənimsəmək məqsədilə pul vəsaitlərinə və oğurlana bilən digər aktivlərə çıxışı olan rəhbərlik və ya işçilər üçün təzyiq yarada bilər.

- Müəssisə ilə pul vəsaitlərinə və ya oğurlana bilən digər aktivlərə çıxışı olan işçilər arasında xoşagəlməz münasibətlər həmin işçiləri bu aktivləri qeyri-qanuni mənimsəməyə sövq edə bilər. Məsələn:

- İşçilərin elan edilmiş və ya gələcəkdə gözlənilən ixtisarları.

- İşçilərin təzminat və ya mükafatlandırma planlarında təzəlikcə edilən və ya gözlənilən dəyişikliklər.

- Gözləntilərə uyğun olmayan vəzifədə irəli çəkilmələr, əməkhaqqı və ya digər mükafatlandırma növləri.

İmkanlar

Müəyyən xüsusiyyətlər və ya şəraitlər aktivlərin qeyri-qanuni mənimsənilməyə meylliyini artıra bilər:

- Kassada və ya hesablaşmalarda iri məbləğdə pul vəsaiti.
- Ölçüdə kiçik, qiymətcə bahalı, yaxud yüksək tələbatlı mal-material dəyərliləri.
- Ölçüdə kiçik, satıla bilən, yaxud mülkiyyət hüququnun gözlə görünən əlamətləri olmayan əsas vəsaitlər.

Aktivlər üzərində yetərli daxili nəzarətin olmaması həmin aktivlərin qeyri-qanuni mənimsənilməsi təhlükəsini artıra bilər. Məsələn, aktivlərin qeyri-qanuni mənimsənilməsi aşağıdakı hallarda baş verə bilər:

- Vəzifələrin qeyri-rasional bölgüsü və ya səmərəsiz müstəqil yoxlamalar.
- Əməliyyatlar (məsələn, satınalmada) üçün icazə verilmə və təsdiqləmə sistemi qənaətbəxş deyil.
- Pul vəsaitlərinin, mal-material ehtiyatlarının və ya əsas vəsaitlərin uçotu qənaətbəxş aparılmır və ya fiziki mühafizə tədbirləri mövcud deyil.
- Həlledici nəzarət funksiyalarını yerinə yetirən işçilər üçün məcburi məzuniyyətlər yoxdur.
- İnformasiya texnologiyaları barədə rəhbərliyin yetərli təsəvvürü yoxdur.

Münasibətlər/məntiqi əsaslandırma

- Aktivlərin qeyri-qanuni mənimsənilməsi ilə bağlı risklərin monitorinqinə və ya azaldılmasına olan ehtiyaca əhəmiyyətin verilməməsi.
- Mövcud nəzarət vasitələrinə əhəmiyyət verməməklə və ya aşkar edilmiş qeyri-qanuni mənimsəmə halları, o cümlədən kiçik oğurluq faktları ilə bağlı uyğun tədbirlər görməməklə daxili nəzarətə laqeyd yanaşma.
- Müəssisədən və ya əməkdaşlara olan rəftardan narazılığı və qeyri-məmnunluğu nümayiş etdirən davranış.

ƏLAVƏ 5

Təsdiqləmələr

Əhəmiyyətli təhrif risklərini müəyyən edən və qiymətləndirən zaman az mürəkkəb müəssisələrin (AMM) auditoru aşağıda təsvir edilən təsdiqləmə kateqoriyalarından istifadə edə bilər və ya aşağıda qeyd olunan bütün aspektlər əhatə olunduğu təqdirdə onları fərqli şəkildə ifadə edə bilər. Auditor əməliyyatlar və hadisələrin kateqoriyaları barədə təsdiqləmələr və əlaqəli açıqlamalar ilə hesab qalıqları barədə təsdiqləmələri və əlaqəli açıqlamaları birlikdə istifadə etməyi seçə bilər.

AMM-in auditoru baş verə biləcək mümkün təhriflərin müxtəlif növlərini nəzərdən keçirərkən aşağıdakı təsdiqləmələrdən istifadə edə bilər. Bu təsdiqləmələr aşağıdakı kateqoriyalara aid edilə bilər:

Audit dövrü üçün əməliyyatlar və hadisələrin kateqoriyaları barədə təsdiqləmələr və əlaqəli açıqlamalar

- Başvermə - uçota alınmış və ya açıqlanmış əməliyyatlar və hadisələr faktiki olaraq baş vermişdir və bu cür əməliyyatlar və hadisələr müəssisəyə aiddir.
- Tamlıq - uçota alınmalı bütün əməliyyatlar və hadisələr faktiki olaraq uçota alınmış və maliyyə hesabatlarına daxil edilməli bütün əlaqəli açıqlamalar daxil edilmişdir.
- Dürüstlük - uçota alınmalı əməliyyat və hadisələrə aidiyyəti olan məbləğlər və digər məlumatlar lazımi şəkildə uçota alınmış, əlaqəli açıqlamalar isə lazımi şəkildə ölçülmüş və təsvir olunmuşdur.
- Dövrün bitməsi - əməliyyat və hadisələr müvafiq hesabat dövründə uçota alınmışdır.
- Təsnifat - əməliyyat və hadisələr lazımi hesablarda uçota alınmışdır.
- Təqdimat – əməliyyatlar və hadisələr müvafiq qaydada aqreqasiya edilmiş və ya bölünmüş və aydın şəkildə təsvir olunmuş, əlaqəli açıqlamalar isə maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri baxımından münasib və başa düşüləndir.

Dövrün sonuna hesab qalıqları barədə təsdiqləmələr və əlaqəli açıqlamalar

- Mövcudluq – aktivlər, öhdəliklər və paylar faktiki olaraq mövcuddur.
- Hüquq və öhdəliklər – müəssisə aktivlərə görə hüquqlara malikdir və ya bu hüquqlara nəzarət edir, öhdəliklər isə müəssisənin qanuni öhdəlikləridir.
- Tamlıq - uçota alınmalı bütün aktivlər, öhdəliklər və paylar faktiki olaraq uçota alınmış və maliyyə hesabatlarına daxil edilməli bütün əlaqəli açıqlamalar daxil edilmişdir.
- Dürüstlük, dəyərləndirmə və bölüşdürmə - aktivlər, öhdəliklər və paylar maliyyə hesabatlarında müvafiq məbləğlərdə əks etdirilmiş və dəyərləndirmə və ya bölüşdürmə üzrə bütün düzəlişlər müvafiq qaydada uçota alınmış, əlaqəli açıqlamalar isə müvafiq qaydada ölçülmüş və təsvir olunmuşdur.
- Təsnifat – aktivlər, öhdəliklər və paylar müvafiq hesablarda uçota alınmışdır.
- Təqdimat – aktivlər, öhdəliklər və paylar müvafiq qaydada birləşdirilmiş və ya ayrılmış və aydın şəkildə təsvir olunmuş, əlaqəli açıqlamalar isə maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin tələbləri baxımından münasib və başa düşüləndir.

Auditor uçota alınmış əməliyyatların kateqoriyalarına, hadisələrə və ya hesab qalıqlarına birbaşa aid olmayan açıqlamalarda baş verə bilən təhrif ehtimallarının müxtəlif növlərini təhlil etdikdə, yuxarıda təsvir edilən, münasib olduğu qəbul edilmiş təsdiqləmələrdən də istifadə edə bilər.

ƏLAVƏ 6

Nəzarət testləri və təfərrüatlı testlər üçün seçmənin həcminə təsir göstərən amillərin nümunələri

Aşağıda nəzarət testləri üçün seçmənin həcmini müəyyən edərkən auditorun nəzərə ala biləcəyi amillər təsvir edilmişdir. Birlikdə nəzərə alınmalı olan bu amillər, auditorun nəzarət testlərinin xüsusiyyətini və ya müddətini dəyişməsini və ya qiymətləndirilmiş risklərə cavab olaraq mahiyyəti üzrə prosedurlara yanaşmanın başqa cür dəyişdirilməsini nəzərdə tutmur.

Nəzarət testləri üçün seçmənin həcminə təsir göstərən amil	**Seçmənin həcminə təsir**
Auditorun risk qiymətləndirməsinin nəzarət vasitələrinin səmərəliliyini yoxlamaq planlarını nəzərə alma dərəcəsinin artması	Artma
Yol verilən kənarlaşma normasının artması	Azalma
Test ediləcək əsas məcmuda ehtimal edilən kənarlaşma normasının artması	Artma
Əsas məcmuda kənarlaşmanın faktiki normasının yol verilən normadan artıq olmamasına dair auditorun əldə etmək istədiyi əminlik səviyyəsinin artması	Artma
Əsas məcmuda seçmə elementlərinin sayının artması	Əhəmiyyətsiz dərəcədə cüzi təsir

Aşağıda təfərrüatlı testləri üçün seçmənin həcmini müəyyən edərkən auditorun nəzərə ala biləcəyi amillər təsvir edilmişdir. Birlikdə nəzərə alınmalı olan bu amillər, auditorun nəzarət testlərinə yanaşmanı dəyişməsini və ya qiymətləndirilmiş risklərə cavab olaraq mahiyyəti üzrə prosedurların xüsusiyyətini və ya müddətinin başqa cür dəyişdirilməsini nəzərdə tutmur.

Təfərrüatlı testlər üçün seçmənin həcminə təsir göstərən amil	**Seçmənin həcminə təsir**
Auditor tərəfindən qiymətləndirilmiş əhəmiyyətli təhriflər riskinin artması	Artma
Eyni təsdiqləmə ilə bağlı mahiyyəti üzrə digər yoxlama prosedurlarının həcminin artması	Azalma
Auditorun əsas məcmuda faktiki təhriflərin yol verilən təhriflərdən çox olmamasına dair auditorun əldə etmək istədiyi əminlik səviyyəsinin artması	Artma
Yol verilən təhrifin artması	Azalma
Auditorun əsas məcmuda ehtimal etdiyi təhriflərin cəminin artması	Artma
Müvafiq hallarda əsas məcmuda qruplara bölünmə	Azalma
Əsas məcmuda seçmə elementlərinin sayı	Əhəmiyyətsiz dərəcədə cüzi təsir

ƏLAVƏ 7

Təqdimat məktubunun nümunəsi

Aşağıdakı məktub nümunəsində “AMM üçün BAS”-ın 8.6-cı hissəsində tələb edilən yazılı təqdimatlar verilir. Bu nümunədə ehtimal edilir ki, müəssisənin fasiləsizliyi ilə bağlı yazılı təqdimat əldə etmək tələbi müvafiq deyil. Tələb olunan yazılı təqdimatlara dair istisnalar yoxdur. İstisnalar olduğu halda, istisnaları əks etdirmək üçün təqdimatlarda müvafiq dəyişikliklər edilməlidir.

(Müəssisənin firma blankı)

(Auditora)

(Tarix)

Bu təqdimat məktubu ABC Şirkətinin 31 dekabr 20XX-ci il tarixində başa çatan il üzrə maliyyə hesabatlarının auditi ilə əlaqədar maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun ədalətli təqdim edilməsinə (və ya *düzgün və ədalətli təsəvvür yaratmasına*) dair rəy bildirmək məqsədilə sizə göndərilir.

Bununla biz aşağıdakıları təsdiq edirik:

Maliyyə hesabatları

- Biz [tarixi daxil edin] tarixli audit tapşırığının şərtlərində qeyd olunduğu kimi, maliyyə hesabatlarının [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə] uyğun hazırlanması üzrə öhdəliklərimizi yerinə yetirdik; xüsusən maliyyə hesabatları göstərilən çərçivələrə uyğun olaraq ədalətli təqdim edilmişdir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

- Uçot qiymətəndirmələrinin hazırlanmasında istifadə olunan metodlar, verilənlər və əhəmiyyətli ehtimallar və onlarla əlaqəli açıqlamalar maliyyə hesabatlarının tətbiq olunan çərçivələri kontekstində ağlabatan tanınma, ölçmə və ya açıqlamanı təmin etmək üçün məqsədəuyğundur.

- Əlaqəli tərəflərlə münasibətlər və əməliyyatlar [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinin] tələblərinə uyğun olaraq müvafiq qaydada uçota alınmış və açıqlanmışdır.

- Maliyyə hesabatlarının tarixindən sonrakı tarixdə baş vermiş və [maliyyə hesabatlarının tətbiq olunan çərçivələrində] düzəliş və ya açıqlama tələb edən bütün hadisələr açıqlanmış və müvafiq düzəlişlər edilmişdir.

- Düzəliş edilməmiş təhriflərin təsiri həm ayrılıqda, həm də məcmu şəklində bütövlükdə maliyyə hesabatları üçün əhəmiyyətsizdir. Düzəliş edilməyən təhriflərin siyahısı hazırki təqdimat məktubuna əlavə olunur.

- Maliyyə hesabatlarının hazırlanmasında təsiri nəzərə alınmalı olan hər hansı faktiki və ya mümkün məhkəmə çəkişmələri və iddialar maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq uçota alınmış və açıqlanmışdır.

[Auditorun məqsədəuyğun hesab etdiyi istənilən digər məsələlər]

Təqdim edilən məlumatlar

- Biz sizə aşağıdakıları təqdim etmişik:

- Uçot sənədləri, sənədləşdirilmə və digər məsələlər kimi maliyyə hesabatlarının hazırlanması ilə bağlı bizə məlum olan bütün məlumatlara çıxış imkanı;
- Audit məqsədilə bizdən tələb etdiyiniz əlavə məlumatlar; habelə
- Müəssisə daxilində audit sübutları əldə etmək üçün zəruri hesab etdiyiniz şəxslərə məhdudiyyətsiz çıxış imkanı.

- Bütün əməliyyatlar mühasibat uçotu sənədlərində qeydə alınmış və maliyyə hesabatlarında əks etdirilmişdir.

- Biz sizə dələduzluq nəticəsində maliyyə hesabatlarında baş verə biləcək əhəmiyyətli təhriflər riskinin qiymətləndirməsinin nəticələrini açıqladıq.

- Biz sizə aşağıdakıların iştirak etdiyi faktiki və ya ehtimal edilən dələduzluq ilə bağlı bizə məlum olan və müəssisəyə təsir göstərən bütün məlumatları açıqladıq:
  - rəhbərlik;
  - daxili nəzarətdə vacib vəzifə tutan işçilər; yaxud
  - dələduzluğun maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə biləcəyi digər şəxslər.

- Biz sizə indiki və keçmiş işçilər, analitiklər, tənzimləyici orqanlar və ya başqa şəxslər tərəfindən bildirilmiş, müəssisənin maliyyə hesabatlarına təsir göstərən faktiki və ya ehtimal edilən dələduzluq halları ilə bağlı bütün iddialar barədə məlumatları açıqladıq.

- Biz sizə maliyyə hesabatlarını hazırlayarkən təsiri nəzərə alınmalı olan qanuna və ya qaydalara faktiki və ya ehtimal edilən riayətetməmə halları barədə bizə məlum olan bütün məlumatları açıqladıq.

- Biz sizə maliyyə hesabatlarını hazırlayarkən təsiri nəzərə alınmalı olan bizə məlum olan bütün faktiki və ya mümkün məhkəmə çəkişmələri və iddiaları barədə məlumatları açıqladıq.

- Biz sizə müəssisənin əlaqəli tərəflərinin şəxsiyyətini və bizə məlum olan əlaqəli tərəflərlə bütün münasibətlər və əməliyyatlar haqqında məlumatları açıqladıq.

[Auditorun zəruri hesab etdiyi istənilən digər məsələlər]

Rəhbərlik Rəhbərlik

“AMM ÜÇÜN BAS”-dan İRƏLİ GƏLƏN MÜVAFİQ DÜZƏLİŞLƏR

Qeyd: Aşağıda “AMM üçün BAS”-ın təsdiqlənməsi nəticəsində digər Beynəlxalq Standartlara ediləcək müvafiq düzəlişlərdir verilir. Bu düzəlişlər “AMM üçün BAS” ilə eyni vaxtda qüvvəyə minir və düzəliş edilmiş Beynəlxalq Standartların ən son təsdiq edilmiş versiyalarında dəyişikliklər qeyd olunmaqla göstərilmişdir. Bu düzəlişlərdə istifadə edilən qeyd nömrələri düzəliş edilmiş Beynəlxalq Standartlara uyğun gəlmir və bu səbəbdən həmin Beynəlxalq Standartlara istinad edilməlidir.

KEYFİYYƏTƏ NƏZARƏT, AUDİT, TƏHLİL, DİGƏR TƏSDİQLƏMƏ VƏ ƏLAQƏLİ XİDMƏTLƏR ÜZRƏ BEYNƏLXALQ STANDARTLAR TOPLUSUNA ÖN SÖZ

…

Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının hazırladığı beynəlxalq standartların əhatə dairəsi

5. Tarixi maliyyə məlumatlarının auditində tətbiq olunacaq beynəlxalq standartlar bunlardır:

(a)5. Beynəlxalq Audit Standartları (BAS-lar); yaxud

(b) “Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı” (“AMM üçün BAS”), yalnız “AMM üçün BAS”-da müəyyən edilmiş ön sözə və əhatə dairəsinə uyğun olaraq tətbiq edilə bilər.

…

9. BAS-lar, “AMM üçün BAS”, ISRE, ISAE və ISRS-lər birlikdə IAASB-nin Tapşırıq standartları adlanır.

…

Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı

11A. “AMM üçün BAS” müstəqil auditor tərəfindən aparılan az mürəkkəb müəssisənin maliyyə hesabatlarının auditi kontekstində yazılmışdır. “AMM üçün BAS”-ın əhatə dairəsi standartın Ön sözündə və A hissəsində əks etdirilmişdir.

…

Qeyri-rəsmi material

…

Beynəlxalq Audit Praktikası Qeydləri

21. Beynəlxalq Audit Praktikası Qeydləri (IAPN) nə auditorların qarşısına Beynəlxalq Audit Standartlarına (ISA) və ya “AMM üçün BAS”-a daxil edilənlərdən başqa əlavə tələblər qoyur, nə də auditə müvafiq olan bütün Beynəlxalq Audit Standartlarına (ISA) və ya “AMM üçün BAS”-a riayət etməklə bağlı auditorun öhdəliyini dəyişir. IAPN auditorlara təcrübə sahəsində yardım edir. Onları milli standartlara cavabdeh olanların vasitəsilə yaymaq və ya dövlət səviyyəsində müvafiq materialın hazırlanmasında istifadə etmək nəzərdə tutulur. Onlar, həmçinin, şirkətlərin öz təlim proqramlarını və daxili təlimatlarını hazırlamaq üçün istifadə edə biləcəkləri materialla təmin edirlər.

…

1 saylı BKİS, MALİYYƏ HESABATLARININ AUDİTİNİ VƏ YA TƏHLİLİNİ, YAXUD DİGƏR TƏSDİQLƏMƏ VƏ YA ƏLAQƏLİ XİDMƏTLƏR ÜZRƏ TAPŞIRIQLARI YERİNƏ YETİRƏN ŞİRKƏTLƏRDƏ KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ

…

Praktik tətbiq və digər izahedici materiallar

Bu BKİS-in əhatə dairəsi (İst: Paraq. 3–4)

A1. “Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı” (“AMM üçün BAS”), 2400 saylı (düzəliş edilmiş) Təhlil tapşırıqları üzrə beynəlxalq standart (ISRE)[60] və 3000 saylı (düzəliş edilmiş) Təsdiqləmə tapşırıqları üzrə beynəlxalq standart (ISAE)[61] daxil olmaqla, IAASB-nin digər standartları tapşırıq səviyyəsində keyfiyyətin idarə edilməsi məqsədilə tapşırıq üzrə tərəfdaş üçün tələbləri müəyyən edir.

…

Bu BKİS-in tətbiqetmə sahəsi (İst: Paraq. 12)

…

A8. Müvafiq hallarda praktik tətbiq və digər izahedici materiallarda tələblərin əlavə izahı və onların yerinə yetirilməsi üçün tövsiyələr verilir. Xüsusən, onlar:

- Tələbin mənasını və ya əhatə dairəsini daha dəqiq izah edə bilər; habelə
- Tələblərin necə tətbiq oluna biləcəyini əks etdirən nümunələr ehtiva edə bilər.

Bu cür tövsiyələr özlüyündə tələb təşkil etməsə da, tələblərin düzgün tətbiqinə aiddir. Praktik tətbiq və digər izahedici materiallarda həmçinin bu BKİS-də əks etdirilən məsələlərə dair ilkin məlumatlar təqdim edilə bilər. Müəyyən hallarda, ayrı-ayrı BAS-lara istinadlar daxil edilmişdir. Audit tapşırığı “AMM üçün BAS”-a uyğun olaraq yerinə yetirildikdə, “AMM üçün BAS”-da az mürəkkəb müəssisənin maliyyə hesabatlarının auditi kontekstində əlaqəli məsələlər də əks etdirilə bilər, lakin bu BKİS-də bunlara istinad edilmir. Müvafiq hallarda, praktik tətbiq və digər izahedici materiallara ictimai sektordakı auditor təşkilatlarına xas olan əlavə mülahizələr daxil edilir. Bu əlavə mülahizələr hazırki BKİS-də əks etdirilən tələblərin tətbiq edilməsinə kömək edir. Bununla belə, onlar şirkətin bu BKİS-də əks etdirilən tələbləri tətbiq etmək və onlara riayət etmək məsuliyyətini məhdudlaşdırmır və ya azaltmır.

…

Tapşırığın yerinə yetirilməsi

…

Tapşırığın sənədləşdirilməsi (İst: Paraq. 31(f))

A83. Qanun, qaydalar və ya peşə standartları müəyyən tapşırıq növləri üçün yekun tapşırıq fayllarının yığılmasının tamamlanacağı vaxt həddini müəyyən edə bilər. Qanun və ya normativ sənədlərdə belə vaxt hədləri nəzərdə tutulmadıqda, vaxt hədləri şirkət tərəfindən müəyyən edilə bilər. Tapşırıqlar BAS-lara, “AMM üçün BAS”-a və ya Təsdiqləmə tapşırıqları üzrə beynəlxalq standartlara

[60] 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqları üzrə beynəlxalq standart (ISRE)

[61] 3000 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə məlumatlarının auditi və təhlilindən başqa təsdiqləmə tapşırıqları” Təsdiqləmə tapşırıqları üzrə beynəlxalq standart (ISAE)

(TTBS) uyğun həyata keçirildiyi halda, yekun tapşırıq faylının yığılmasını başa çatdırmaq üçün müvafiq vaxt həddi bir qayda olaraq tapşırığa dair hesabatın tarixindən sonra 60 gündən çox olmamalıdır.

…

A85. Qanun, qaydalar və ya peşə standartlarında tapşırığın sənədləri üçün saxlama müddətləri müəyyən edilə bilər. Saxlama müddətləri müəyyən edilmədikdə, şirkət yerinə yetirdiyi tapşırıqların xüsusiyyətini və şirkətin şəraitlərini, o cümlədən gələcək tapşırıqlar üçün mütəmadi əhəmiyyət kəsb edən məsələlərin uçotunu təmin etmək üçün tapşırığın sənədlərinə ehtiyac olub-olmamasını nəzərdən keçirə bilər. BAS-lara, “AMM üçün BAS”-a və ya TTBS-lərə uyğun yerinə yetirilən tapşırıqlar üçün saxlama müddəti bir qayda olaraq tapşırığa dair hesabatın tarixindən və ya müvafiq halda daha gec olduqda, qrup maliyyə hesabatları üzrə auditor hesabatının tarixindən etibarən beş ildən az olmamalıdır.

…

2 saylı BKİS, TAPŞIRIĞIN KEYFİYYƏTİNİN TƏHLİLİ

Giriş

…

Bu BKİS-in əhatə dairəsi

10. Bu BKİS şirkətin bu BKİS-ə riayət etmək məqsədini, şirkətə və tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertə həmin məqsədə çatmasına imkan yaratmaq üçün nəzərdə tutulmuş tələbləri ehtiva edir. Bundan əlavə, bu BKİS onun düzgün başa düşülməsi üçün müvafiq konteksti və anlayışları təmin edən praktik tətbiq və digər izahedici materiallar və giriş materialları şəklində əlaqəli tövsiyələri ehtiva edir. 1 saylı BKİS-də məqsəd, tələblər, praktik tətbiq və digər izahedici materiallar, giriş materialları, terminləri və tərifləri izah edilir. (İst: Paraq. A0A)

…

Praktik tətbiq və digər izahedici materiallar

Bu BKİS-in əhatə dairəsi (İst: Paraq. 10)

A0A. Praktik tətbiq və digər izahedici materiallarda bu BKİS-də əks etdirilən məsələlərə dair ilkin məlumatları təqdim edilə bilər. Müəyyən hallarda, fərdi Beynəlxalq Audit Standartlarına (BAS) istinadlar daxil edilir. Audit tapşırığı “Az mürəkkəb müəssisələrin maliyyə hesabatları üzrə Beynəlxalq Audit Standartı”-na (“AMM üçün BAS”) uyğun olaraq yerinə yetirildiyi halda, “AMM üçün BAS”-da həmçinin az mürəkkəb müəssisənin maliyyə hesabatlarının auditi kontekstində əlaqəli məsələlər də əks etdirilə bilər, lakin bu BKİS-də bunlara istinad edilmir.

…

Tapşırığın keyfiyyətinin təhlilinin yerinə yetirilməsi (İst: Paraq. 24–27)

Tapşırığın keyfiyyətinin təhlili ilə əlaqədar tapşırıq üzrə tərəfdaşın məsuliyyətləri (İst: Paraq. 24 (b))

A25. 220 saylı (düzəliş edilmiş) BAS-da[62] tapşırığın keyfiyyətinin təhlili tələb olunduğu audit tapşırıqlarında tapşırıq üzrə tərəfdaş üçün tələblər müəyyən edilir, o cümlədən:

- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertin təyin olunduğunun müəyyən edilməsi;

[62] 220 saylı (düzəliş edilmiş) “Maliyyə hesabatlarının auditi üçün keyfiyyətin idarə edilməsi” ~~Beynəlxalq Audit Standartı (~~BAS~~)~~, 36-cı paraqraf

- Tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə əməkdaşlıq və tapşırıq qrupunun digər üzvlərinə bunu etmək məsuliyyətləri barədə məlumatın verilməsi;
- Audit tapşırığı zamanı ortaya çıxan, o cümlədən tapşırığın keyfiyyətinin təhlili zamanı aşkar edilən əhəmiyyətli məsələlərin və əhəmiyyətli mühakimələrin tapşırığın keyfiyyəti üzrə müşahidəçi-ekspertlə müzakirə edilməsi; habelə
- Tapşırığın keyfiyyətinin təhlili başa çatmayana qədər auditor hesabatına tarix qoyulmaması.

…

3000 saylı (DÜZƏLİŞ EDİLMİŞ) TƏSDİQLƏMƏ TAPŞIRIQLARI ÜZRƏ BEYNƏLXALQ STANDART, TARİXİ MALİYYƏ MƏLUMATLARININ AUDITİ VƏ YA TƏHLİLİNDƏN BAŞQA TƏSDİQLƏMƏ TAPŞIRIQLARI

Giriş

1. Bu Təsdiqləmə Tapşırıqları üzrə Beynəlxalq Standart (TBS) tarixi maliyyə məlumatlarının auditləri və ya təhlillərindən başqa təsdiqləmə tapşırıqlarından bəhs edir. ~~müvafiq olaraq~~ Beynəlxalq Audit Standartları (ISA) və “Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarlarının auditi üzrə Beynəlxalq Audit Standartı” (“AMM üçün BAS”) tarixi maliyyə məlumatlarının auditindən, ~~və~~ Təhlil Tapşırıqları üzrə Beynəlxalq Standartları (TTBS) isə tarixi maliyyə məlumatlarının təhlilindən bəhs edir. (İst.: Paraq. A21-A22)

…

2400 saylı TƏHLİL TAPŞIRIQLARI ÜZRƏ BEYNƏLXALQ STANDART (DÜZƏLİŞ EDİLMİŞ), TARİXİ MALİYYƏ HESABATLARININ TƏHLİLİ ÜZRƏ TAPŞIRIQLAR

…

Tələblər

…

Mütəxəssis-praktikin hesabatı

86. Təhlil tapşırığı üzrə mütəxəssis-praktikin hesabatı yazılı şəkildə olmalı və aşağıdakı elementləri daxil etməlidir: (İst: Paraq. A124–A127, A148, A150)

…

(g) Maliyyə hesabatlarının təhlili və onun məhdudiyyətlərinin təsviri, habelə aşağıdakı bəyanatlar: (İst.: Paraq. A134)

(i) Bu ISRE üzrə təhlil tapşırığı məhdud əminlik tapşırığıdır;

(ii) Mütəxəssis-praktik əsasən rəhbərliyə və müvafiq hallarda idarəetməyə məsul şəxslərə sorğu göndərməkdən və analitik prosedurların tətbiq edilməsindən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir; habelə

(iii) Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş audit standartlarına ~~Beynəlxalq Audit Standartlarına (ISA)~~ uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır və müvafiq olaraq mütəxəssis-praktik maliyyə hesabatlarına dair auditor rəyi ifadə etmir;

…

Əlavə 2

…

Nümunə 1

…

Mütəxəssis-praktikin məsuliyyəti

Bizim məsuliyyətimiz əlavə edilmiş maliyyə hesabatlarına dair nəticə ifadə etməkdən ibarətdir.
Biz təhlilimizi 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqlarına dair beynəlxalq standarta (TTBS) uyğun olaraq yerinə yetirdik. 2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq, biz bütövlükdə maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hazırlanmamasını ehtimal etməyimizə səbəb olan hər hansı bir məsələnin diqqətimizi cəlb edib-etmədiyinə dair nəticə çıxarmalıyıq. Bu standarta uyğun olaraq münasib etik normalara da riayət etməliyik.

2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq maliyyə hesabatlarının təhlili məhdud əminlik tapşırığıdır. Mütəxəssis-praktik, əsasən rəhbərliyə və müvafiq hallarda müəssisədəki digər şəxslərə sorğu göndərməkdən, analitik prosedurları tətbiq etməkdən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir.

Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş audit standartlarına~~Beynəlxalq Audit Standartlarına~~ uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır. Müvafiq olaraq biz bu maliyyə hesabatlarına dair auditor rəyi ifadə etmirik.

…

Nümunə 2

…

Mütəxəssis-praktikin məsuliyyəti
Bizim məsuliyyətimiz əlavə edilmiş maliyyə hesabatlarına dair nəticə ifadə etməkdən ibarətdir.
Biz təhlilimizi 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqlarına dair beynəlxalq standarta (TTBS) uyğun olaraq yerinə yetirdik. 2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq, biz bütövlükdə maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hazırlanmamasını ehtimal etməyimizə səbəb olan hər hansı bir məsələnin diqqətimizi cəlb edib-etmədiyinə dair nəticə çıxarmalıyıq. Bu standarta uyğun olaraq münasib etik normalara da riayət etməliyik.

2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq maliyyə hesabatlarının təhlili məhdud əminlik tapşırığıdır. Mütəxəssis-praktik, əsasən rəhbərliyə və müvafiq hallarda müəssisədəki digər şəxslərə sorğu göndərməkdən, analitik prosedurları tətbiq etməkdən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir.

Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır. Müvafiq olaraq biz bu maliyyə hesabatlarına dair auditor rəyi ifadə etmirik.

…

Nümunə 3

…

Mütəxəssis-praktikin məsuliyyəti

Bizim məsuliyyətimiz əlavə edilmiş maliyyə hesabatlarına dair nəticə ifadə etməkdən ibarətdir.
Biz təhlilimizi 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqlarına dair beynəlxalq standarta (TTBS) uyğun olaraq yerinə yetirdik. 2400 saylı (düzəliş edilmiş)

TTBS-ə uyğun olaraq, biz bütövlükdə maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hazırlanmamasını ehtimal etməyimizə səbəb olan hər hansı bir məsələnin diqqətimizi cəlb edib-etmədiyinə dair nəticə çıxarmalıyıq. Bu standarta uyğun olaraq münasib etik normalara da riayət etməliyik.

2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq maliyyə hesabatlarının təhlili məhdud əminlik tapşırığıdır. Mütəxəssis-praktik, əsasən rəhbərliyə və müvafiq hallarda müəssisədəki digər şəxslərə sorğu göndərməkdən, analitik prosedurları tətbiq etməkdən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir.

Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır. Müvafiq olaraq biz bu maliyyə hesabatlarına dair auditor rəyi ifadə etmirik.

…

Nümunə 4

…

Mütəxəssis-praktikin məsuliyyəti

Bizim məsuliyyətimiz əlavə edilən konsolidə edilmiş maliyyə hesabatlarına dair nəticə ifadə etməkdən ibarətdir. Biz təhlilimizi 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqlarına dair beynəlxalq standarta (TTBS) uyğun olaraq yerinə yetirdik. 2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq, biz bütövlükdə maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından konsolidə edilmiş maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hazırlanmamasını ehtimal etməyimizə səbəb olan hər hansı bir məsələnin diqqətimizi cəlb edib-etmədiyinə dair nəticə çıxarmalıyıq. Bu standarta uyğun olaraq münasib etik normalara da riayət etməliyik.

2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq konsolidə edilmiş maliyyə hesabatlarının təhlili məhdud əminlik tapşırığıdır. Mütəxəssis-praktik, əsasən rəhbərliyə və müvafiq hallarda müəssisədəki digər şəxslərə sorğu göndərməkdən, analitik prosedurları tətbiq etməkdən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir.

Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır. Müvafiq olaraq biz bu konsolidə edilmiş maliyyə hesabatlarına dair auditor rəyi ifadə etmirik.

…

Nümunə 6

…

Mütəxəssis-praktikin məsuliyyəti

Bizim məsuliyyətimiz əlavə edilən maliyyə hesabatlarına dair nəticə ifadə etməkdən ibarətdir.
Biz təhlilimizi 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqlarına dair beynəlxalq standarta (TTBS) uyğun olaraq yerinə yetirdik. 2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq, biz bütövlükdə maliyyə hesabatlarının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hazırlanmamasını ehtimal etməyimizə səbəb olan hər hansı bir məsələnin diqqətimizi cəlb edib-etmədiyinə dair nəticə çıxarmalıyıq. Bu standarta uyğun olaraq münasib etik normalara da riayət etməliyik.

2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq maliyyə hesabatlarının təhlili məhdud əminlik tapşırığıdır. Mütəxəssis-praktik, əsasən rəhbərliyə və müvafiq hallarda müəssisədəki digər şəxslərə sorğu göndərməkdən, analitik prosedurları tətbiq etməkdən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir.

Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır. Müvafiq olaraq biz bu maliyyə hesabatlarına dair auditor rəyi ifadə etmirik.

…

Nümunə 7

…

Mütəxəssis-praktikin məsuliyyəti

Bizim məsuliyyətimiz əlavə edilən maliyyə hesabatına dair nəticə ifadə etməkdən ibarətdir.
Biz təhlilimizi 2400 saylı (düzəliş edilmiş) “Tarixi maliyyə hesabatlarının təhlili üzrə tapşırıqlar” Təhlil tapşırıqlarına dair beynəlxalq standarta (TTBS) uyğun olaraq yerinə yetirdik. 2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq, biz maliyyə hesabatının bütün əhəmiyyətli aspektlər baxımından maliyyə hesabatlarının tətbiq olunan çərçivələrinə uyğun olaraq hazırlanmamasını ehtimal etməyimizə səbəb olan hər hansı bir məsələnin diqqətimizi cəlb edib-etmədiyinə dair nəticə çıxarmalıyıq. Bu standarta uyğun olaraq münasib etik normalara da riayət etməliyik.

2400 saylı (düzəliş edilmiş) TTBS-ə uyğun olaraq maliyyə hesabatlarının təhlili məhdud əminlik tapşırığıdır. Mütəxəssis-praktik, əsasən rəhbərliyə və müvafiq hallarda müəssisədəki digər şəxslərə sorğu göndərməkdən, analitik prosedurları tətbiq etməkdən ibarət olan prosedurları yerinə yetirir və əldə edilən sübutları qiymətləndirir.

Təhlil zamanı yerinə yetirilmiş prosedurlar Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit zamanı yerinə yetirilənlərdən xeyli azdır. Müvafiq olaraq biz bu maliyyə hesabatına dair auditor rəyi ifadə etmirik.

…

TƏSDİQLƏMƏ TAPŞIRIQLARI ÜÇÜN BEYNƏLXALQ ÇƏRÇİVƏLƏR

Giriş

1. Bu Çərçivələr yalnız təsdiqləmə tapşırığının, habelə Beynəlxalq Audit Standartları (BAS), Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı (“AMM üçün BAS”), Təhlil Tapşırıqları üzrə dair Beynəlxalq Standartlar (TTBS) və Təsdiqləmə Tapşırıqları üzrə Beynəlxalq Standartların (TBS) (bundan sonra təsdiqləmə standartları adlandırılacaq) şamil olunduğu tapşırıqların elementləri və məqsədləri barədə təsəvvürün əldə edilməsini asanlaşdırmaq məqsədilə təqdim edilmişdir.

…

Əlavə 1

IAASB tərəfindən dərc edilmiş standartlar, onların bir-biri və IESBA Məcəlləsi ilə əlaqəsi

Bu Əlavədə IAASB tərəfindən dərc edilmiş standartların əhatə dairəsi, onların bir-biri ilə və İESBA-nın Peşəkar Mühasiblər üçün Etika Məcəlləsi ilə əlaqəsi təsvir edilir.



…

1000 saylı BEYNƏLXALQ AUDİT PRAKTİKASI QEYDLƏRİ, MALİYYƏ ALƏTLƏRİNİN AUDİTİ ÜZRƏ XÜSUSİ MÜLAHİZƏLƏR

1000 saylı beynəlxalq audit praktikası qeydləri (BAPQ) “Maliyyə alətlərinin auditi üzrə xüsusi mülahizələr” Beynəlxalq keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə standartlara ön söz” ilə birlikdə oxunmalıdır. BAPQ-lər auditorların üzərinə Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Audit Standartlarına (BAS) kənara çıxan heç bir əlavə tələb qoymur, eynilə həmin auditor yoxlamasına
aidiyyəti olan bütün Beynəlxalq Audit Standartlarına (BAS-lara) və ya Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə Beynəlxalq Audit Standartı (“AMM üçün BAS”-a) əməl etmək üzrə auditorun məsuliyyətini dəyişmir. BAPQ-lər auditorlara praktik yardım təqdim edir. Onların milli standartlar üçün məsuliyyət daşıyan şəxslər tərəfindən yayılması və ya müvafiq milli sənədlərin hazırlanmasında istifadə edilməsi nəzərdə tutulur. BAPQ-lər, həmçinin, şirkətləri öz tədris proqramlarının və daxili normativ sənədlərin yaradılmasında istifadə edə biləcəyi materiallarla təmin edir.

Giriş

7. BAS-lara və ya “AMM üçün BAS”-a uyğun audit rəhbərliyin və müvafiq olarsa, idarəetməyə məsul şəxslərin müəyyən vəzifələri, o cümlədən ədalətli dəyər üzrə qiymətləndirmələr vəzifəsini öz üzərinə götürməsi mülahizəsinə əsaslanaraq aparılır. Bu BAPQ rəhbərlik və idarəetməyə məsul şəxslərin üzərinə nə bir məsuliyyət qoyur, nə də onların məsuliyyətini tənzimləyən qanun və qaydaları ləğv edir.

Beynəlxalq Etika və Audit Fondu (IFEA™), Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası (IAASB®) və Beynəlxalq Mühasiblər Federasiyası® (IFAC®) diqqətsizlik və ya başqa səbəbdən baş verməsindən asılı olmayaraq, bu nəşrdəki material əsasında hərəkəti və ya hərəkətsizliyi nəticəsində istənilən şəxsə dəymiş zərərə görə məsuliyyət daşımır.

Beynəlxalq Audit Standartları, Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə beynəlxalq standartlar, Təsdiqləmə Tapşırıqları üzrə Beynəlxalq Standartlar, Təhlil Tapşırıqları üzrə Beynəlxalq Standartlar, Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standartlar, Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartları, Beynəlxalq Audit Praktikası Qeydləri, İlkin Sənədlər, Məsləhətvermə Sənədləri və s.. və digər IAASB nəşrləri Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) tərəfindən dərc edilir və onun müəlliflik hüququna daxildir.

Dekabr 2023-cü il © Müəlliflik hüququ Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) məxsusdur. Bütün hüquqlar qorunur. Bu nəşri şəxsi və qeyri-kommersiya məqsədləri (yəni, peşəkar istinad və ya tədqiqat) üçün www.iaasb.org saytından yükləmək və ya almaq olar. Bu sənədi tərcümə etmək, yenidən hazırlamaq, saxlamaq və ya ötürmək, yaxud digər oxşar şəkildə istifadə etmək üçün yazılı icazə tələb olunur.

“Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası”, “Beynəlxalq Audit Standartları”, “Az mürəkkəb müəssisələrin maliyyə hesabatlarının auditi üzrə beynəlxalq standart”, “Təsdiqləmə Tapşırıqlarına dair Beynəlxalq Standartlar”, “Təhlil Tapşırıqları üzrə Beynəlxalq Standartlar”, “Əlaqəli Xidmətlər üzrə Beynəlxalq Standartlar”, “Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartları”, “Beynəlxalq Audit Praktikası Qeydləri”, “IAASB”, “ISA”,“ISAE”, “ISRE”, “ISRS”, “ISQC”, “IAPN” və IAASB loqosu IFAC-ın əmtəə nişanlarıdır, yaxud IFAC-ın ABŞ-da və digər ölkələrdə qeydiyyata alınmış əmtəə və xidmət nişanlarıdır.

Müəlliflik hüququ, əmtəə nişanı və icazələr ilə bağlı məlumat üçün permissions bölməsinə keçid edin və ya permissions@ifac.org elektron poçt vasitəsilə əlaqə saxlayın